2012

İmdat AVŞAR (Türkiyə)

Anamın saatları

Türkiyənin Azərbaycansoylu tanınmış yazarının ana dilimizə uyğunlaşdırılmış hekayələrdən ibarət yeni kitabı...

www.kitabxana.net
Milli Virtual Kitabxananın e-nəşri N 24
05.05.2012

www.kitabxana.net

Milli Virtual Kitabxananın təqdimatında

İmdat AVŞAR

Anamın saatları

Hekayələr

Türkiyənin Azərbaycansoylu tanınmış yazarının ana dilimizə uyğunlaşdırılmış hekayələrdən ibarət yeni kitabı...

YYSQ - Milli Virtual Kitabxananın e-nəşri N 7 - 24 (2012)

Virtual redaktoru və e-nəşrə hazırlayanı:

Aydın Xan (Əbilov) - yazar-kulturoloq

YYSQ - Milli Virtual Kitabxana

Bakı - 2012


Hekayə
anamın saatları
imdat avşar

İmdat Avşar çağdaş Türkiyə ədəbiyyatının ünlü simalarından və istedadlı yazıçılarından biridir. Onun «Anamın saatları», «Ağac atlar», «Qarabağ qaçqınları», «Ürəyində söyən cocuq» kimi hekayələri zərif və kövrək hisslər üstündə qurulub.

İmdatın təhkiyəsi axıcı, dili şirindir. Bəzi hekayələrinin adından da göründüyü kimi Azərbaycana bağlı adamdır. Təsadüfi deyil ki, o, Azərbaycan ədəbiyyatının bacarıqlı tərcüməçilərindən hesab olunur. Klassika ilə yanaşı, müasir Azərbaycan yazıçılarını da Türkiyə türkcəsinə uğurla çevirir. O, mənim «Kərəm kimi» kitabımın da tərcüməçisidir.

İnanıram ki, İmdat Avşarın Azərbaycan oxucusuna təqdim olunan hekayələr toplusu maraqla qarşılanacaq və ədəbiyyatımızı zənginləşdirəcək.

Anar
Xalq yazıçısı

ADİLOĞLU
www.adiloglu.az
ISBN: 978-605-5988-38-8
978-605-5988-38-8

anamın saatları

İmdat Avşar

Möhtərəm

Əmir Qalxana

Orta məktəbimiz ikimərtəbəli, uzun bir binadan ibarətdi. Upuzun koridoru vardı. Koridorun iki tərəfində yerləşən sinif otaqlarının qapıları bu uzun koridora açılırdı... Ön tərəfindəki iri lövhədə yazılmışdı: Kaman* Orta məktəbi. Kəndli, qəsəbəli, imkanlı, imkansız… hamımız burada oxuyurduq. Biz, kəndlərdən gələn uşaqlar bir ev kirayələyərdik. Birotaqlı, uçuq-sökük kərpic bir ev. Yemək-içməyimizi özümüz bişirər, qab-qacağı özümüz yuyar və dərslərimizi özümüz hazırlayardıq.

Kənddən ayrıldığımız ilk vaxtlarda içimizə bir qəriblik çökərdi. Hərdən gecələr səssizcə ağlayar, analarımızın gəlməsini gözləyərdik.

Analarımız həftədə bir dəfə, çərşənbə günləri gələrdilər. Ürəklərində bir həftəlik həsrət, dillərində qurban olum, qadan alım…

Bir-birinə çox bənzəyərdi analarımız. Başlarında muncuqlu baş örtüyü, bəzəkli çarşab, əyinlərində qolsuz jilet, don... Ayaqlarında qəribliyi, məhzunluğu bir möhür kimi dabanlarına vuran qara rezin ayaqqabılar olardı. Rezin ayaqqabılar qışda suya gedərkən dondurar, yayda arpa biçərkən yandırıb yaxardı. Hamısının üzündə eyni qələmdən çıxmış bir ifadə vardı: yoxluq, yoxsulluq, səfalət… Alınlarında əsrlər boyu yığılan qırış-qırış kədər, qat-qat hüzn vardı. Hamısı da balalarına yemək daşıyan sərçə kimi qorxaq, hürkək, narahatdı. Günəş doğmamış tozlu yollara çıxar, traktorun qoşqusunda əzilmiş bədənləri, yuxulu, yorğun gözləri ilə dan yeri ağararkən Xanın Önünə* çatardılar.

Kənddən satmaq üçün gətirdiklərini tələsik traktordan endirər, yan-yana düzərdilər. Bir batman süd, iki vedrə qatıq, iki kündə kərə yağı, beş-on yumurta…

Bizim üçün gətirdiklərini onlardan ayırardılar. İki çuval təzək, beş qatım yarma, bir vedrə qatıq, bir neçə büküm yuxa…

Gətirdiklərini neçə dəfəyə qatıq bazarına daşıyardılar. Bazarda sağa-sola baxmağı ayıb sayar, başlarını düz tutub gedərdilər. Səhv salsalar, yolu soruşmağa cəsarət etməzdilər. Vaxtı, saatı günəşə görə təyin edər, satdıqlarının hesab-kitabını bilməzdilər.

Hər çərşənbə öncəkinin təkrarıydı. Səhər kənddən gətirdiklərinin hamısını bir neçə saatda satardılar. Bacılarımıza toxumaq üçün ip, çit, qanovuz, bizə qələm, dəftər, kitab alardılar...

Pencək, köynək, ayaqqabı... bunlar bahalıydı. İldə bir dəfə, o da imkan olsa, xırman zamanı alınardı…

Rayon mərkəzində, orta məktəbdə oxuyan bütün kənd uşaqları analarımızın gələcəyini bilər, çərşənbə günü sübh tezdən Xanın Önünə düzülərdik. Əmmə vaxtı anasını tapa bilməyən quzular kimi sağa-sola vurnuxardıq.

“Xala, anam gəldimi?” “Bibi, anamı gördünmü?” deyə soruşa-soruşa anamızı tapardıq. Kimi qoynuna qoyduğu və orada isti saxladığı dürməyi, kimi “çömələn dəymişlər yumurtlamır”, deyib toyuqlara hirslənərək kənddəki qardaşlarımızın boğazından kəsdiyi qaynadılmış yumurtanı balasına uzadardı. Ağzımızdakı dad o dəqiqə dəyişərdi. Canımıza bir ana istiliyi yayılar, çərşənbə sabahının ayazı bizi üşütməzdi...

Əvvəl kənddən gələn bir həftəlik ərzağı qaldığımız köhnə kərpic evlərə daşıyardıq. Təzək, lavaş, qatıq, yarma... Sonra qatıq bazarına gedib analarımızın qulluğunda dayanardıq. İstəklərimizi atalarımıza deməyə çətinlik çəkər, analarımızın başına çıxardıq. Bazarın o izdihamında, səs-küyündə dərdlərimizi analarımıza anladardıq. Kənddə çəkdikləri bəs deyilmiş kimi dərdlərinin üstünə dərd artırardıq. Məktəbdə oxuyan biz idik, amma məktəbin bütün yükü oxumağı, yazmağı belə bilməyən bu yazıqların çiyinlərindəydi.

Hər çərşənbə qatıq bazarında qatıqların satılmağını gözləyərdik. Hər oğulun başqa bir dərdi, hər ananın min dərdi vardı...

- Ana, idman müəllimi idman paltarı istəyir. Olmasa, dərsə buraxmayacağam, - deyir.

- İdman paltarımı?
- Hə, ana, idman dərsində geyəcəyik.
- Payızda şalvar, pencək aldıq də, guzum.
- İdman paltarı, ana, idman paltarı...
- Lazımlı bir şeymi? Neçəyədi?..
- Beş…
- Alarıq, bala. Atan bu həftə dananı satacaq…
- Ana, mənim riyaziyyat kitabım da yoxdu. Keçən həftə tapşırığımı yerinə yetirə bilmədim, müəllim…
- Bildirki kitabından istifadə elə bu il, oğlum...
- Olmaz, ana! Mən ikinciyə keçdim.
- Alarıq, quzum, neçəyədi?
- İki lirə yarım.
- İki lirə yarımmı? Hələ qoy bu qatığı sataq…
- Ana, əmək dəsinə də müqəvva və yapışqan lazımdı.
- Hüqəvva nə, yapışı nə, qadasını aldığım?
- Biri karton, biri də yapışdırıcı, ana.
- Bu həftə iki toyuq gətirərəm satmağa, alarıq, bala…
- Ana?..
- Anan qurban, daha nə?
- Musiqi müəllimimiz də fleyta istəyir. Hamısından vacibi də fleytadı. Bir də beş xətli musiqi dəftəri... Təzə musiqi müəllimi gəlib, fleyta gətirməyəni döyür, ana…
- Mən hansı dərddən ölüm, oğlum, hüqəvva, idman paltarı, filit… Böyük bacına parça-purça da alacağam. Müəllimləriniz də adamı başa düşsələr nə var? Varmı, yoxmu, bilən yoxdu...

***

O çərşənbə analarımızın yaddaşında bir fleyta sualı qaldı. "Hülüt nədi, gadasını aldığım?"

Qatıq pullarının bir qismini böyük bacılarımızın cehizlyindən kəsib könülsüz ovcumuza qoydular. O həftə hamısı eyni şəkildə gileyləndilər. "Biz uşağı oxusun, adam olsun deyə məktəbə göndəririk, müəllimlər də düdük çaldırırlar, anam, mən belə dərdə rast gəlmədim..."

O həftə hamımız analarımızın düdük dediyi fleytalardan aldıq. Sarı, qırmızı, mavi, ağ fleytaları çala-çala məktəbin bağçasına girdik.

Nüsrət müəllimdən əvvəl orta məktəbdə musiqi müəllimi yox idi. Adətən musiqi və xarici dil müəllimləri heç olmazdı. Biz də fleyta nədi bilməzdik. Nüsrət müəllim elə ilk dərsdəcə fleytanın nə olduğunu bizə bağıra-bağıra öyrətdi. Biz də qaçıb analarımıza öyrətdik…

Çoxumuz səfil, pərişan kənd uşağıydıq. Dəyişməyə köynəyimiz, jaketimiz yoxdu. Bəzən yollar bağlanar, analarımız gələ bilməzdi. Həftələrlə məktəbə eyni köynəkdə gedərdik. Yaxalarımız kirdən parıldayardı. Böyük qardaşlarımızdan, əmi uşaqlarından qalma pencəklərin qolu əllərimizi örtərdi, cibləri dizimizə qədər yenərdi. Şalvarların beli düşər, əlimizin biri həmişə belimizdə olardı. Əlimizin biriylə şalvarımızın belini tutduğumuza görə yarışlarda uduzardıq. Taxtaya çıxana kənardan baxıb gülərdik. Həmişə nəsə çatmazdı: yazı yazanda xətli kağız, başlıq yazmaq üçün qırmızı qələm, evdə yağ, tənəkə sobada təzək, çayımızda qənd…

Yalnız Nüsrət müəllimin qorxusundan musiqi dərsinə nöqsansız girərdik: fleyta, beşxətli musiqi dəftəri və heç cür əzbərləyə bilmədiyimiz melodiyası, sözləri bizim olmayan yad, soyuq, yorucu mahnılar…

Rayon uşaqları bizdən bir az fərqliydilər. Biz kənd uşaqları, sürünün içindəki yad qoyun kimi onlardan seçilərdik. Kilimçinin Murtazı, Nalbəndlərin Bayramı, Nurukalerin Arifi, Kötüköylü Ərcan, Karakütüklü Şaban…

Hansı külək, necə qovub gətirmişdi, bilinmirdi. Bir də sinfimizdə Abdallardan* Möhtərəm vardı. İçimizdə ən fağırı oydu. Abdallar məhəlləsindən gəlirdi. Zurnaçı Bağrıyanığın oğuluydu. Atası məşhur zurnaçı idi. Mahalda hamı onu tanıyırdı. Möhtərəmi də tanıyırdılar. Yay tətillərində atasıynan kəndlərə toylara gedərdi. Atası kimi o da zurna çalardı. Toy çalan, məclislərdə otu-

ran bu iri yarıabdal oğlu ibtidai məktəbi harada oxumuşdu, orta məktəbə necə, niyə gəlmişdi, kimsə bilmirdi.

Möhtərəm qarayanız, qıvraq bədənli, bizə görə uzun, boylu-buxunlu bir oğlan idi. Yanaqları toppuş, gözləri qara üzüm giləsi kimiydi… Zurna çalan barmaqları ətli, iriydi. Eyni partada oturardıq. Mən onun tapşırıqlarını yazardım, o da toy-düyündən gələndə mənə ləbləbi və keçibuynuzu* alardı. Onda hələ bığyerimiz tərləməmişdi. Amma Möhtərəm bir neçə gün üzünü qırxmasa, bığları bilinərdi. Bazar ertəsi günləri İstiqlal Marşından sonra müəllimlərin hücumuna məruz qalardı. Bığlarına görə bəzi müəllimlər əsmər yanaqlarını şilləyər, sorğu-suala çəkərdilər onu. Möhtərəm həmişə eyni cavabları verərdi. Qəti və qısa.

- Niyə üzünü qırxmamısan, oğlan?
- Ülgücüm yoxdu, müəllim.
- Boğazlı jaket geymək olmaz demədikmi?
- Köynəyim yoxdu, müəllim.
- Pencəyin niyə cırıqdı?
- Anam yoxdu, müəllim.
- Toylarda içirsənmi?
- Tövbə, vallah, yox, müəllim…

Möhtərəmin heç bir bəhanəsi keçməzdi. Hər bazarertəsi "part, part", toppuş yanaqlarına iki yumruq dəyərdi. Heç tərpənməz, qımzanmazdı. Əlini belə üzünə sipər etməzdi. Sifətini yönəldər, hazır vəziyyətdə gözləyər, yumruqları yeyəndən sonra sakitcə yerinə keçərdi.

Təkcə ülgücü deyil, dəftəri, qələmi, kitabı, idman paltarı, fleytası da olmazdı. Döyülər, söyülər, alçaldılar, amma dərsdən qalmazdı, inadla məktəbə gələrdi. Atasını tanıyan, bir abdal oğlu olduğunu bilən müəllimlər səslərini çıxarmazdılar. Hətta öz yumardılar. Yazı zamanı o tərəf-bu tərəfə baxaraq köçürməsinə imkan yaradardılar. Sinifdən sinfə keçməsi üçün bir az da yüksək qiymət verərdilər. Amma rayon xaricindən gələn, onu tanımayan müəllimlər Möhtərəmin üzərinə bir zülm buludu kimi çökərdilər.

- Möhtərəm, cavab verməyə qalx.
- Hörmətli müəllimim…
- Anzavur ayaqlamasını anlat görək.
- Anzavur, eee, Anzavur…
- Otur, bir!
- Lövhəyə çıx, Möhtərəm.
- Buyur, müəllim.
- Kunut* duasını oxu görüm.
- Allahümme inna… Allahüme inna…
- Möhtərəm, cavab verməyə qalx.
- Hörmətli müəllimim…
- Gəlmək felini indiki zamanda ikinci şəxsin təkində söylə görüm…

Yaşar müəllim Möhtərəmin nəyə qadir olduğunu bilər, onu çox incitməzdi, ipucu verər, cavabı özü dedirtdirərdi.

Möhtərəm heç bir suala tam cavab verməzdi.

Üzündə yetkin bir adamın izləri vardı. Qaşlarını çatanda alnında dərin qırışlar əmələ gələrdi. Oturuşu, duruşu, hərəkətləri digər uşaqlara heç bənzəməz, fərqlənərdi. Tənəffüslərdə tək gəzərdi. Gözləri bizdən yuxarı sinifdə oxuyan bir qızı arayardı. Ayaqları Möhtərəmi o qızın olduğu tərəfə aparardı. Yaxınlaşmaz, uzaqdan baxar, uzaqdan sevərdi. Bunu bilirdik. Ağzını açanda sanki ixtiyar qoca danışırdı. Müəllimlərin heç bir dərsi onu cəlb etməzdi. Möhtərəmi sinifin divarları sıxa bilməzdi. Dərslərlə çox maraqlanmazdı. Çuxur ayna, girdə ayna… Finikiyalılar, Urartular… Çevrə, dairə, üçbucaq… Bir qulağından alıb o biri qulağından verərdi.

Nüsrət müəllimdən qabaq musiqi dərsimizə Türk dili müəllimi gələrdi. Yaşar bəy dilindən bal daman bir adamdı. Musiqi dərsində hərəmiz bir türkü söyləyərdik. Qırx dəqiqə bir su kimi axar, sevinc içində bitərdi. Nə solfecyo, nə not, nə də diyez, bemol… "Sol açarı"ndan heç xəbərimiz yoxdu. Yaşar müəllimə bir türkü söyləyən kimi bütün qapılar özbaşına açılardı. Bir böl

birlik, bir böl dördlük, səkkizlik, on altılıq… Nə notlar, nə vuruşlar… Heç birini bilməzdik, amma xoşbəxt idik. Musiqi deyəndə ağlımıza yanıqlı bir türkü gəlirdi. Zaman türkülər kimi idi, bəzən şən-şaqraq, nəşəli, bəzən dərdli…

Nüsrət müəllim gəlməmişdən əvvəl musiqi dərsində ən müvəffəqiyyətli şagird Möhtərəm idi. Bizə, digər dərslərdəki müvəffəqiyyətlərimizə görə qiymət verən Yaşar müəllim Möhtərəmlə comərd davranardı. Möhtərəm yanıqlı səsiylə "ay dooost…" deyərək bir bozaz vurar, "on" alıb oturardı.

Möhtərəmdən başqa hər kəsin yalnız bir türküsü vardı. Kilimçinin Murtazı, "Qızım, sənə, paltar aldım, varındımı, varındı", Nalbəndlərin Bayramı, "Bağçada bibər əkdim, qız, Məryəm, Məyrəm…", Nurukalərin Arifi, "Bağa gəl, bostana gəl" deyə başlardı. Yaşar müəllim çoxumuzun türkülərini yarıda kəsərdi. Möhtərəm hər həftə fərqli bir türkü söyləyərdi. Onun türkülərini heç kəsməz, axıra qədər dinləyərdi. Başqa sayaq olurdu onun türküləri. "Qaradı bu bəxtim, qara, ağ əllərin sallaya-sallaya gələn yar…" Yaşar müəllim qulaq asıb bəzən kədərlənərdi... Möhtərəm bir türkü də söyləyərdi. Yaralı, qəmgin, dərin türkü idi. Musiqisi bir atəş kimiydi. Möhtərəmin sinəsindən qalxan alov Yaşar müəllimi də, bütün sinfi də yaxardı. Hamımız səssizcə dinlərdik.

İp atdım, ucu qaldı,
Daraqda kücü qaldı,
Mən sevdim, ellər aldı,
Ürəkdə acı qaldı.

***

Nüsrət müəllimin elə ilk dərsdəcə əsdirdiyi qorxu küləyi kəndlərdəki analarımızı belə silkələmişdi. Könülsüz də olsa fleytapulunu çıxarıb vermişdilər…

Nüsrət müəllim İstanbullu idi. Havası, suyu, insanları, türküləri fərqli şəhərdən. Çətin tələffüz etdiyimiz "konservatoriya" məzunuydu. Bu kəlməni eşidəndə gözlərimiz böyümüşdü.

"Konservatoriya!"

Nüsrət müəllimin gözləri maviydi. Donuq, ifadəsiz, soyuq. Hiddətlənəndə isə gözlərində qorxunc, anlaşılmaz ifadələr oynaşardı. Baxışlarımızı yerə dikərdik. Gözlərinə baxa bilməzdik.

Həmin gün musiqi dərsimiz vardı. Fleytalarımızı və beşxətli dəftərlərimizi götürüb gəldik. Müəllim tabaşir tozuna batırdığı bir iplə taxtaya beş xətt çəkdi, xətlərin əvvəlinə bir "açar" qoydu. Sinif bir həbsxanaya, o beş xətt də dəmir barmaqlıqlara döndü birdən. O açar, "sol açarı"ydı. Onunla heç birimiz heç bir qapını aça bilmədik. Ritm, solfecyo, tam vuruş, yarım vuruş, incə re, qalın do, si bemol, fa diyez… Mənasız qışqırıqlar və fleyta. Bir vedrə qatıq puluna alınan o kabus, yuxularımızı qarışdıran bir alət. O gündən sonra musiqilərimiz yarımçıq, türkülərimiz dilsiz qaldı…

İngilis dilindən, riyaziyyatdan qorxmazdıq. Musiqi dərsi olan günlərimiz isə narahatlıqla keçərdi. Nüsrət müəllim bizi qaldırmasın deyə bildiyimiz bütün duaları oxuyardıq. Bir türkü söyləyib yeddi, səkkiz, on aldığımız günləri yada salardıq… O günləri ki, sis-duman içində itən uzaq xatirələr kimiydi. Əl çatmaz, ün yetməz xatirələr…

Nüsrət müəllim fleytanı çalıb soruşardı:

- Bu, hansı səsdi?

- Fa.

- Aç əlini!

"Part, part, part, part."

- Keç yerinə, sənin yerində eşşək olsa, öyrənərdi.

"Do, re, fa, bir vuruşluq, dörd vuruşluq" heç cür aldıra bilməzdik. Çubuq əlimizə dəyib qalxardı. Əlimizi yalayıb yerimizə keçərdik.

Bir bahar günü, çərşənbəydi. Analarımızla görüşüb gəlmişdik. Riyaziyyat dərsindən təzə çıxmışdıq. Fa, sol, la sol, mi mi, re mi… əzbərləməyə çalışırdıq. Möhtərəmin vecinə deyildi. Bizə baxıb gülürdü.

Nüsrət müəllim dərsə girən kimi sinfə ölü sükutu, dərin bir səssizlik çökdü. Hamımız gözlərimizi qaçırdırdıq. Möhtərəmlə mən orta sırada başımızı aşağı əymişdik, bir cüt kəklik kimi pusurduq. Müəllim fleyta ilə bir parça çaldı. Sonra musiqisi ilə söylədi.

- Oooooo, mavi top kimi dünyaaaaaaa!
Bütün dünyanın uşaqlarııııııı!
Gəlin oynayalıııııııım.
Mavi toplarlaaaaa…
Dostluq, qardaşlıqlaaaaaaa…

Bu sözlər hamımıza mənasız görünürdü. Yaddaşımızdakı heç bir ağrıya, atəşə, türküyə uyğun gəlmirdi. Gülmək istəyir, qorxudan gülə bilmirdik. Yaşar müəllim olsa, qəhqəhələrimiz ucalardı. O da bizimlə gülərdi.

Nüsrət müəllim mahnısını bitirdi və mənasını heç cür anlamadığımız, bəlkə bundan sonra da anlamayacağımız əcaib bir səslərlə bağırmağa başladı.

- Siiiiiii, la sol fa re do re siiiiiiiiii….

Möhtərəm astadan pıçıldadı:

- Köçdən ayrı düşmüş dəvə balası kimi bu niyə bağırır, qurban olduğum?..

Dodaqlarımı dişlədim. Balaca vaxtı ağlayanda anam söylərdi bu sözü. Möhtərəm də az qalırdı gülsün. Özümüzü zorla saxlamışdıq. Möhtərəmin gözləri parıldayırdı. Sifətimiz gərilmişdi. Qorxmasaq pıqqıldaşar, qəhqəhələrimiz aşıb-daşardı. Müəllim fısıldadığımızı gördü. Qorxdum, taxtaya baxa bilmirdim. Möhtərəm də qaşlarını çatıb ciddiləşdi, üzündəki ifadə dəyişdi. Nüsrət müəllim gözlərini ağartdı. Gözlərindəki çil mavini iki kürəyə bölməyə başladı. Baxışları zəhmli, soyuq idi. Sinfə göz gəzdirdi. Bizə doğru irəlilədi. Biz kiçilib yumağa döndük. Müəllim Möhtərəmin peysərindən tutub:

- Taxtaya çıx, - dedi.

Möhtərəm ölüm fərmanı oxunan məhkum kimiydi. Taxtanın qabağına çıxdı. Pencəyinin altında köynəyi yox idi. Bir jaket geyinmişdi və qalstuku yalın boynuna bağlamışdı. Nüsrət müəllim sağ əlindəki fleytanı dəyənək kimi sallayıb sol əlinə vururdu. Möhtərəmin önündə sağa-sola gedib gəldi, birdən geriyə döndü və guruldadı.

- Fleytan hanı?
- Fleytam yoxdu, müəllim.
- Onda de görüm: Ooooooo mavi kürəcik kimi dünyaaaaaaaaa…

Möhtərəm boğazından asılan kimi səsləndi:

- Ooooo…
- Sus! Sus! İyrənc! Bu sənincün kəndli türküsümü! Kəs! Buna bir fleyta verin, tut görüm bu fleytanı. Çal! Siiiiiii, la sol fa re do re siiiiiiiiii…

Zurnanı əlinə alan kimi yanıqlı-yanıqlı dilləndirən, barmaqları dəliklərində ahənglə gəzən Möhtərəmin barmaqları indi fleytanın üzərində mənasız-mənasız gəzişdi. Ətli, tombul barmaqları titrəyirdi. Ovurdlarını şişirdib daha bir-iki dəfə sınadı. Alınmadı. Nüsrət müəllim artıq yerində dayana bilmirdi. Zurnanı, qaradır bu bəxtim, qara, sözüm kar etmir yara, deyə acı-acı inlədən, zurnaya "əfsus, əfsus" dedirdən Möhtərəm, bu kiçik alətə heç bir şey dedirdə bilmirdi.

Möhtərəm "dürt, dürt"lə daha bir-iki səs çıxartdı. Amma bunlar Nüsrət müəllimin istədiyi səslər deyildi. Müəllimin gözləri döndü, hiddətləndi:

- Çal, oğlan. Siiiiiii, la sol fa re do re siiiiiiiiii….
- Düdüdüüt, düt, düdüdüt.
- Yox, yoox! Eşşək belə…
- Bunu çala bilmirəm, müəllim.
- Çalacaqsan, çal!..
- Müəllim, zurna! Zurna olsa…

Möhtərəm sözünü tamamlaya bilmədi. Nüsrət müəllim zurna sözünü eşidəndə gözlərindəki mavilik itdi. Dəli oldu. Ağzı köpükləndi.

- Zurnamı? Zurnamı? Zurna!..

Əlindəki fleyta ilə Möhtərəmin başına-gözünə, harası gəldi çırpmağa başladı. Qorxudan yerimizdə öldük. Başımızı qaldırıb baxa bilmirdik. Fleyta Möhtərəmin başında ikiyə bölündü. Fleytanın başı qırılıb atıldı. Sifətinə yumruqlar çırpılan Möhtərəm bir heykəl kimi hərəkətsiz dayanmışdı. Bircə yumruqlar dəyərkən gözlərini qırpırdı. Hamımızın əsəbimiz gərilmişdi. Ağlamaq is-

təyirdik, ağlaya bilmirdik. Möhtərəmə dəyən yumruqlar sanki bizim də üzümüzə dəyirdi. Müəllim əməlli-başlı azğınlamışdı. Qızlardan biri fəryadla ağlamağa başladı. Nüsrət müəllim birdən özünə gəldi. Dayandı. Karıxmışdı. Nə etdiyini bilmirdi. Hərəkətsiz mavi gözlərini sinfə dikdi. Ağır nəfəs alırdı. Heç birimiz onun gözünə baxa bilmirdik.

Möhtərəm müəllimin gözlərinin içinə baxdı, baxdı, göz-gözə gəldilər. Möhtərəmin səsi boğulsa da ağlamadı. Boynundakı qalstuku açdı. Yavaşca səsləndi.

- Hirsin keçdimi, müəllim, - dedi.

Yavaş-yavaş yerinə qayıtdı. Yanımda oturacağını sandım. Kənara çəkildim. Oturacağın gözündə bir dənə dəftəri vardı. Əyilib dəftərini götürdü. Qoltuğuna vurub sinfin qapısına doğru getdi. Qapını yavaşca açdı və çıxdı…

Sabahısı, o biri gün… Möhtərəm bir daha məktəbə gəlmədi. Köynəyi olmadığı üçün qalstuku yalın boynuna taxan, toy çalıb gələndə bizə keçibuynuzu, ləbləbi alan, yuxarı sinifdəki ağ biləkli qıza uzaqdan baxan, qarayanız igid oğlan daha yox idi… Sinif gözümüzdən düşmüş, onun oturduğu yer qərib, hüzünlü görünürdü.

Bir neçə həftə ötdü. Çərşənbə günü idi. Bir neçə yoldaş qatıq bazarında analarımızın yanındaydıq. Qatıqlar satılacaq, biz də cibxərcliyimizi alıb məktəbə gedəcəkdik. Qış idi. Soyuq, şaxta… Möhtərəmi gördüm. Kürəyində bir çuval gedirdi. Qaçıb arxadan çağırdım.

- Möhtərəm, Möhtərəm!

Kürəyindəki çuvalı yerə qoymadan geriyə döndü. Üzümə baxdı. Çuvalın sahibi də dayandı. Cavabını bildiyim halda soruşdum.

- Möhtərəm, məktəbə niyə gəlmirsən?..

Gurlaşmış bığının altında güldü. Ağzından bir cümlə çıxdı:

- Səhərin ayazında üzünə çiləyim musiqi müəlliminizin!..

Donub qaldım. Yükün sahibi Möhtərəmə səsləndi:

- Haydı, durma, oğlum, tərpən...

Laqeyd bir halda döndü və ikiqat əyilərək yükünü daşıdığı adamın arxasınca getdi...

***

Atatürkün mahala gəlişinin ildönümü idi. Hər il rəmzi bir qarşılama keçirilərdi. Barabanlar gümbür-gümbür döyülər, zurnalar zildən ötər, xalq həmin gün meydana tökülərdi. Orta məktəb şagirdləri Atatürkün heykəlinin qarşısında sıraya düzülərək gözləyirdik. Məktəb müdiri ortalıqda tələşlə vurnuxurdu. Sıraları pozduğumuzu görüb yanımıza gələrək bizə təpindi.

- Pendir qurdu kimi qaynaşmayın, uşaqlar. Keçin sıranıza, sakit durun!

Məktəb müdiri sıxıntılı idi. Yanındakı Yaşar müəllimə şikayətlənirdi.

- Belə olmaz axı, Yaşar bəy, vallahi, Bağrıyanığı yalvar-yaxar zorla gətirdim. Küsdüyüm dağın odunu yandırmaram, deyib dirəndi. Gəlmirdi. Baş məmur Bəyin yanında xar olacaqdıq, vallahi. Başqası Bağrıyanıq kimi çala bilmir ki, qardaşım. İllərdi mərasimlərdə o çalır. Ah, Nüsrət müəllim! Nə istəyirdin fağırdan? Yaşar bəy xatırlayırsanmı? Zavallı Bağrıyanıq oğlunu məktəbə necə də həvəslə gətirmişdi oxusun deyə. Hansı birini söyləyim, Yaşar bəy, Allahın Istanbullusu anadollunun qədrini nə bilir! Buranı Bəyoğlu sanır, canım. Yenə qırmadı bizi, gəldi adam… Bağrıyanığın yerində mən olsam, gəlməzdim, vallahi… Yazıq bir abdal oğlu, notu, fleytanı hardan bilsin…

Bir azdan Nüsrət müəllim yanımıza gəldi. Beş-beş sıraya düzülmüşdük. Bir neçəmizin əlində kağız bayraqlar vardı. Nüsrət müəllim pencəyinin düymələrini düymələmiş, bizimlə bir sırada, önümüzdəydi. Onun qorxusundan sıranı pozmur, büt kimi gözləyirdik. Bir az irəlidə zurnaçı Bağrıyanıq və Möhtərəm də mərasimin başlamasını gözləyirdi. Hərdən Möhtərəmlə göz-gözə gəlirdik. O, artıq sərbəstdi, əlini-qolunu yelləyib gülürdü. Hərdən başıyla Nüsrət müəllimə işarə edir, ardınca əlindəki zurnanı göstərirdi. Bir qədər sonra:

- Vurun ustalar! Vurun! - deyə bir səs eşidildi.

Atlılar alqışlar altında mərasim keçirilən meydana doğru irəlilədilər. Barabançılar barabanı vurmağa başladılar. Bağrıyanıq və Möhtərəm ovurdlarını doldurdular. Zurnalardan ətrafa coşqun musiqi sədaları yayıldı. Möhtərəm zurnasını bizə tərəf tutub var gücüylə üfləyir, tombul barmaqları zurnanın dəliklərində gəzirdi. Zurnaların inləyən səsindəki qarşılama havası meydandakıların

qəlbini coşdururdu. Ata oğulun zurnaları elə bir ahənglə ötürdü ki, Nüsrət müəllim bəlkə də ilk dəfə eşitdiyi bu səsə qulaqlarını şəklədi. Lap önündə, Bağrıyanığın yanında zurna çalan qara oğlanı diqqətlə süzdü. Sağına, soluna baxdı və Yaşar müəllimin yanına gəlib heyrətlə soruşdu:

- Yaşar bəy, bu uşaq, bu, bu zurnaçalanı deyirəm. Bizim şagird deyildimi?..

- Bəli, - dedi Yaşar müəllim.

- Bu uşaq… bu…

- Fleyta çalmayan oğlan, - deyib güldü Yaşar müəllim.

Nüsrət müəllimin gözləri böyüdü.

Möhtərəm gözlərini yummuş, ovurdlarını şişirdib boşaldaraq özünü zurnanın səsinə, musiqiyə təslim etmişdi…

Nüsrət müəllim heyrət içindəydi. Əlini çənəsinə dirəyib gözlərini Möhtərəmə dikmişdi.

Atasına qoşulan Möhtərəm zurnasını xüsusi bir şövqlə çalırdı…

* **Kaman – yer adı**
* **Xanın Önü – yer adı, keçmiş karvansara kimi**
* **abdal – bir qrup, çalmaq, oxumaqla məşğul olurlar**
* **keçibuynuzu – şirniquş**
* **kunut duası – dini dua**

Türkcədən çevirən: Eyvaz ZEYNALOV

Həmdi kirvə

Çöldə sinfin şüşələrini sarsıdan bir külək əsirdi... Qar yağırdı...

Bir əlimdə quru taxta heç cür yanmayan tənəkə soba ilə əlləşirdim. Sobadakı meşə odunları heç cür od almır, içəri tüstü dolurdu. Nədənsə sonra odunlar birdən qorlanıb alovlandı. Qapını, pəncərəni açıb sinfin havasını dəyişdim.

Şagirdlər göstərdiyim cümlələri pıçıltı ilə oxuyur, sonra yaddaşlarına həkk etmək üçün gözlərini yumub təkrarlayırdılar...

Birdən sinfin qapısı gurultu ilə açıldı. İçəri soyuq hava doldu. Oxuduğum cümlələri bərkdən təkrarlayan şagirdlər içəri girən adamı görən kimi qəhqəhə ilə gülüşməyə başladılar.

Gələn adamın bir əlində uzun bir dəyənək, o biri əlində iki yumurta vardı. Başına köhnə, əzik-üzük, çirkli şapka qoymuş, əyninə yaxası cırılmış, cibləri yamaqlı palto geyinmişdi. Şalvarının balaqlarını corablarına salmışdı, ayağındakı qaloşlar, üstü-başı qardı... Tikanlı kol kimi ağzına doğru uzanmış bığlarının ucu buz bağlamışdı. Adam əlindəki uzun dəyənəyi və pərişan görkəmi ilə orta əsrlərdəki dərvişlərə oxşayırdı. Sanki indicə kəşkülünü irəli uzadacaqdı. Anlaşılmaz və çaşqın bir gülüşlə gülür, kiçik, qara gözləri yerində oynayırdı.

Bu uzaq dağ kəndində bir aydı işləyirdim. Kəndlilərdən bir qismini artıq tanıyırdım, amma bu adamı ilk dəfəydi görürdüm. Şagirdlərin bu adamı tanıdıqları bir-birinin arxasında daldalanaraq davamlı şəkildə gülmələrindən bəlliydi. Uşaqlara, "sakit olun görək", - dedim, sobanın yanındakı bu qəribə adama tərəf döndüm:

- Buyurun, xoş gəlmisiniz...

Adam gülüb əlini mənə sarı uzatdı.

- Götür, sənə yumurta gətirmişəm, atam, - dedi.

Şagirdlərin qəhqəhəsi yenidən yüksəldi. Qabaq sıradakı şagirdlər adamın paltosundan tutub dartışdırır, gülüşürdülər. Şagirdlər güldükcə adam da gülürdü.

Qaşlarımı çataraq şagirdləri susdurdum. Adamın qoluna girib "gəl", - dedim. Sinifdən çıxıb müdirin otağına keçdik. Yumurtaları masanın üstünə qoyub üzümə baxdı. Gözlərində anlaşılmaz bir ifadə vardı. Birdən boynuma sarıldı, üz-gözümdən öpdü. Karıxdım, bir söz belə söyləyə bilmədim. Adam içəri girərkən divara söykədiyi dəyənəyini qapıb:

- Qurban, - dedi, - çörəyin qurtarsa mənə çatdır, sən burda qəribsən, atam, yollar da bağlı... Di sağ ol, görüşənədək.

- Dayan, dayan, - dedim, - sən kimsən, adın nədi? Hələ bir otur.

- Adım Həmdidi, qurban!

- Bunları niyə gətirmisən?

- Vayy! Müəllim, mən Bağdat var ha, onun atasıyam. Sən ona qələm, dəftər…

- Həə, aydındı, amma bunlara ehtiyac yoxdu. Mən şəhərdən alıram, bu yumurtaları apar, uşaqların yesin.

- Tövbə! Vallah, götürmərəm, vayy! Heç elə şey olar, atam? Bunları sən yeyəcəksən, şəhər yumurtası yaxşı deyil, qurban. Vayy! Gəl səni bir də öpüm.

- Bəsdi, bəsdi, vallah, zəhmət çəkmisən, ehtiyac yoxdu, bir də gətirmə, qoy uşaqların yesin, yaxşımı?

- Uşaqlar yeyir, atam, sən xatircəm ol. Biz səndən çox razıyıq, qurban, haydı, işin avand olsun!

- Dayan, dayan, sənə… - sözlərimi tamamlaya bilmədim.

- Ya Allah, ya şıx, ya mədət, - deyib Həmdi oturduğu kürsüdən qalxdı.

Pilləkənə qədər yola saldım. Dəyənəyini yelləyə yelləyə, qara bata-bata getdi. Arxasınca baxa-baxa qaldım. Birdən arxaya dönüb necə bağırdısa səsi küləyə qarışıb kəndə dağıldı:

- Görüşənə qədər, müəllim! Bundan belə biz sənnən qardaşıq, atam!

Sinifə daxil oldum. Bir neçə şagird eyni sözləri birdən təkrarladı:

- Müəllim, Bağdat ağlayır!

- Müəllim, Bağdat ağlayır!

- Müəllim…

Gözlərim Bağdadı axtardı. Arxa sırada, pəncərənin yanında, başını aşağı əyərək hıçqıra-hıçqıra ağlayırdı…

Məktəb açılanda şagirdlərin hamısının dərs ləvazimatı var idi. Bağdat bir-iki həftə məktəbə dəftər-qələmsiz gəldi. Önlüyü də yox idi. Soruşanda "atam alacaq, müəllim", - deyirdi. Maaş almağa gedəndə bir kiçik qız önlüyü, bir çanta, bir neçə dəftər, qələm, boya da aldım. Bir gün qələmləri, dəftərləri, boyaları, önlüyü çantaya yığıb Bağdada verdim. Neçə gündü Bağdadın gözləri gülürdü. Amma indi Həmdi bunun qarşılığında iki yumurta ilə sinifə girəndə Bağdat özünü saxlaya bilməmiş, ağlamağa başlamışdı. Bəlkə də atasını görməyimi istəmirdi. Ona atasının bu vəziyyətindən hali olmağım toxunmuşdu.

Yoxluq hansı dildə danışırsa danışsın, anlayardım. Ancaq hamının "dəli" dediyi saf, təmiz, qəribə bir çobanın uşağı olmağın ağrı-acısını ilk dəfəydi dadırdım…

Bağdadın halı mənə otuz il əvvəli xatırlatdı.

Dördüncü sinifdə oxuyurdum. Mənim də önlüyüm yox idi. Bir gün müəllim qulağımı çəkib, "bir də önlüksüz gəlmə!" - dedi. Anam qonşunun çörəyini bişirirdi. Məktəbdən çıxan bir də qonşunun təndirxanasında nəfəsimi dərdim. "Önlüyüm yoxdu", - deyə ayaqlarımı yerə döyüb ağlamağa başladım. Una-urvaya batmış qadın çarəsizdi. Üst-başını çırpıb çölə çıxdı. "Önlüyüm yoxdu", - deyib ağlayanda o da ağladı. "Alacağam, quzum, deyirdi, haydı, evə get…" Sonra Ümmüxan xala gəlib anama nəsə pıçıldadı. Anam: "Get evə, axşam sənə önlük alıb gətirəcəyəm", - dedi. Anam o axşam çox uzun, rəngi solmuş bir önlüklə evə qayıtdı. Önlüyün ətəyi dizimə qədər sallanırdı. Həm də önlük qız önlüyü idi… Anam ətəyini kəssə də önlüyün düymələri arxada idi. Yoldaşlarım bunun bir qız önlüyü olduğunu bilirdi. Həmin gün məktəbə qız önlüyü ilə getdim… O gün mənə gülən yoldaşlarımın qəlbimə vurduğu yara indi təzələnmişdi.

Uşaqları çölə çıxartdım. Otuz il əvvəl qəlbimdə açılan yara, illər ötəndən sonra bu qızın ürəyində qövr eləmişdi. Bağdat başını partadan qaldırmadan hıçqıraraq ağlayırdı. Bağdadın gözlərindən tökülən yaşlar mənim yanaqlarımdan süzülməyə başladı.

Toparlanıb gözlərimi sildim:

- Ağlama qızım, niyə ağlayırsan? - dedim. Saçlarını oxşadım, gur, qara saçları əlimi yandırdı. Hıçqırdı, zorla danışırdı:

- Müəllim, mə… mənim atama dəli, deyirlər.

- Elə şey olmaz. Sənin atan dəli deyil, üstəlik çox yaxşı bir insandı. Bax, mənə yumurta gətirib, bunda pis nə var? Yaxşı fikirləşib, evdə heç yumurta yox idi. Atan çox xoşuma gəldi…

Başını qaldırıb yaşlı gözləriylə gözümə baxdı.

- Amma hamı də… dəli deyir, at… at… atama gülürlər, müəllim.

- Olmaz, mən onlara təpinərəm. Həmdi qardaş mənim çox xoşuma gəldi. Mənim atam da onun kimidi.

- Mənim atam də… dəli deyil.

- Əlbəttə, dəli deyil, sənin atan çox yaxşı bir insandı.

- Dəli deyil, müəllim.

Saçlarını oxşadım. Razı qaldı, gözləri güldü, gözyaşlarını sildi:

- Sabah sizə ceviz gətirimmi, müəllim? Çoxlu cevizimiz var, - dedi.

- Gətir, - dedim.

Öz-özümə düşündüm: "Gətir, Bağdad, müəlliminə ceviz gətirmək az da olsa ağrılarına məlhəm olacaqsa, gətir."

- Müəllim, olarmı atam bir də məktəbə gəlməsin?

- Olar, gəlməsin. Mən deyərəm, bir də gəlməz, amma gəlsə, sən buna görə üzülmə…

Hər dəfə şəhərə gedəndə Bağdada qələm, dəftər, boya, telbasan, bant alırdım. O da mənə ceviz, kömbə, qatıq, süd gətirirdi, əvəz-əvəz olurduq.

Həmdi bir gün yenə məktəbə gəldi. Gözləri gülürdü. Birbaşa sözə başladı, danışmır qışqırırdı:

- Müəllim, - dedi, - bir oğulum olub, qurban! Onun adını sən qoyacaqsan, atam. Biz sənnən qardaşıq, gəl səni bir öpüm.

- Bəsdi, Həmdi, - dedim. Gözucu Bağdada baxdım. Ağlamırdı. Qardaşı olmuşdu. Başqa uşaqlar kimi o da gülümsəyirdi.

Həmdinin səbri çatmadı:

- Di haydı, qardaş, bunlar oxusun, biz gedək, atam!

- Dərsdən sonra gedək, Həmdi. Mən Bağdat ilə gələrəm.

- Vayy! Səni gözləyirlər, atam, di haydı, qardaş, sənə qurban.

Uşaqlara tapşırıq verdim. Həmdi ilə məktəbdən çıxıb kəndin arasına girdik.

Həmdinin əlində uzun bir dəyənək, mən irəlidə, o arxada, günahkar kimi düşmüşdüm qabağına. Baqqal Ömər bizi görüb güldü:

- Müəllim xeyir ola? - dedi. - Həmdi səni hara aparır belə?

Məndən əvvəl "qardaşım" cavab verdi:

- Sənə nə var, atam? Biz müəllimnən qardaşıq! Get, qardaş.

Qara bata-çıxa Həmdinin evinə çatdıq. Arvadı bizi görəndə dizinə vurdu, yaşmağı ilə ağzını bağlayıb içəri qaçdı. Qırıq-sökük pilləkənləri çıxıb evə girdik. Qarşı tərəfdə divardibi döşəklər, yorğanlar düzülmüşdü. Döşəmədə eyni dəzgahdan çıxmış iki xalı, xalının üstündə döşəklər və yastıqlar vardı. Həmdi məni baş tərəfdə oturtdu, iki yanıma yastıq qoydu. Bir azdan Həmdinin qonşuları da gəldi. Müəllimin gəlib Həmdinin uşağına ad qoyacağına inanmayan Həmdinin atası çaşıb qalmışdı:

- Vayy! Müəllim, qışın günü bu qarda-qiyamatda sən niyə zəhmət çəkir, bu dəliyə uyurdun, atam? - dedi.

- Gəlməsəm olmazdı, - dedim, - Həmdi ilə biz qardaşıq.

Həmdi otaqdakılara ucadan səsləndi:

- Bu camaat, bu da siz, ata! Biz müəllimnən qardaş olduq!

- Kəs səsini! - Həmdinin atası dedi, - Müəllimnən qardaş olub! Sözə bax! Qalx süfrəni gətir!

Həmdi ortaya bir bez süfrə sərdi. Sonra içində pendir, yağ, qatıq, qoz olan bir nimçəni gətirib qabağımıza qoydu. Bir az kəndlilərlə danışıb söhbətləşdik. Az sonra Həmdi qucağında bir körpə qayıtdı, uşağı mənə verdi. Gözləri qara, zəif, cılız bir körpə idi. Dünyadan, dünyanın dərdlərindən, qəmlərindən xəbərsiz gözlərimə baxırdı...

- Adı Alpər olsun, adını mən verdim, ömürünü Allah versin, - dedim.

Həmdi otaqdakılara qürurla baxır və qışqıraraq danışırdı.

- Biz artıq müəllimnən kirvə də olduq, ata! Həm qardaşıq, həm də kirvəyik! Bax, Alpəri müəllimin qucağına qoydum. Kirvəyik, ata! Gəl səni bir öpüm, kirvə!

Artıq Həmdi ilə kirvə də olmuşduq. Kirvəlik qardaşlıqdan irəlidi. Kəndlilər artıq məni Həmdi vasitəsiylə tanıyırdılar:

- Müəllimi çağırın gəlsin.

- Hansı müəllimi?

- Həmdinin kirvəsi müəllimi...

Həmdi ilə kirvə olandan sonra daha artıq mehribanlaşdıq. Həmdi hər gün kirvəsini ziyarətə gəlirdi. Bəzən də qolumdan tutub məni çay içməyə aparırdı.

- Ya sən, ya mən, atam, fərqi yoxdu. Biz sənnən qardaşıq, mənim evim sənin evindi… - kirvəm deyirdi.

Rüb tətili idi. Rüblükləri uşaqlara paylayıb məmləkətə getdim. Evdə istifadə edilməyən ağqara bir televizor və kiçik maqnitofon vardı. Tətildən qayıdanda televizoru və maqnitofonu götürüb kəndə gətirdim, kirvəmə verdim. Şəhərdən bir antena, bir neçə də "qəmli kaset" almışdım. Kirvəm artıq kənddəki tək-tük televizor sahiblərindən biriydi. Axşamlar televizora baxır, gündüzlər qəmli kasetləri dinləyirdi. Kəndlilər:

- Allah üzünə baxdı Həmdi atanın, müəllimnən kirvə oldu, - deyirdilər.

Şəhərə maaş almağa gedəndə kirvəmə bir şapka da aldım. Səhərisi gün Həmdi başında şapka, əlində bıçaq bir xoruzu tutub gətirərək mənzilimin ağzında bitdi.

- Bu nədi, kirvə? - dedim.
- Xoruzdu, kirvə, kəsəcəyəm, - dedi. - Sən yeyəcəksən, atam, sənə qurban.
- Eləmə, Həmdi, kəsmə, kirvə!
- Qardaşımın yemədiyi xoruzu neynirəm, atam, kökü kəsilsin.
- Eləmə, kirvə, dayan…

Həmdi məni eşitmədi, pilləkənləri enənə qədər xoruzun başını bədənindən ayırdı.

Kirvəmin qəlbi dəniz kimi genişdi. Mən nə etsəm Həmdi o tərtəmiz ürəyini ortaya qoyurdu. Neynəsəm də onu üstələyə bilmirdim.

İş inada düşdü, kirvəmlə bir yarışa girdik...

Mən qəmli bir kaset, kirvəm bir qazan qatıq, mən dəftər, qələm, kirvəm bir torba qoz, mən bir qutu ülgüc, o beş litr süd, mən portağal, naringi, kirvəm kömbə, yarma, mən köynək, pencək, kirvəm böyük bir qoç... verirdi.

Beləcə Həmdi kirvə ilə baharı gətirdik.

Havalar istiləşmiş, Həmdi kirvə kəndin qoyunlarını otarmağa başlamışdı. Kirvəm səhər namazından sonra kəndin qoyunlarını toplayar, kəndin kənarındakı mənzilimin qarşısından keçərkən mütləq ayaq saxlayar, mənə baş çəkmədən dağa getməzdi. Mən artıq kirvəmin otardığı sürünün sağını-sağmalını, kökünü-arığını, quzusunu, qoçunu tanıyırdım.

Kirvəm hər gün dan yeri ağararkən gəlir, mənzilimin dəmir qapısını var gücüylə vurur, dəmir qapım güm-güm gumbuldayırdı. Hər gün kirvəm məni beləcə oyadırdı.

- Kirvə, etmə, eləmə, - desəm də Həmdi söz anlamırdı.
- Biz sənnən qardaşıq, atam. Gəl bir öpüm, - deyir, məni öpməmiş getmirdi.

Kəndin sürüsünü artıq birlikdə güdürdük. Həmdi hər səhər sürünü yığıb mənzilimin qarşısından keçərkən dəmir qapımı gurultu ilə vurur, məni də oyadırdı.

- Gümmm, gümmm, gümmm...
- Kimdi?..
- Mənəm, kirvə, aç.
- Nə var, Həmdi?
- Qardaşıma iki yumurta gətirmişəm.
- Qapının ağzına qoy, götürərəm, Həmdi.
- Olmaz, kirvə, qapını aç, səni bir öpüm gedim, biz sənnən qardaşıq, atam.

***

- Gümm, gümmm…
- Kimdi?..
- Kirvə, mənəm, aç.
- Nə var, kirvə?..
- Qatıq gətirmişəm, atam…

***

- Kimdi?..
- Mənəm, kirvə…
- Yenə nə var, Həmdi?
- Qardaş, sovxa televizor pozuldu, heç nə göstərmir, atam, qarlayır. Güzgü kimiydi, sovxaya nə oldu, atam. Şahin müəllimə bir söylə, kirvə, sənə qurban.
- Yaxşı, kirvə, axşam Şahin müəllimlə gəlib baxarıq.

***

- Kimdiiii?..
- Mənəm, kirvəəə…
- Yenə nə oldu, kirvə?..
- Atam, maqnitofon lentanı dolaşdırdı, qəmli kasetim xarab oldu, kirvə.
- Kirvə, ver mən düzəldərəm, axşam gəlib götürərsən.

***

- Gümmm, gümm…

Artıq “kimdi?” - deyib soruşmurdum. “Nə var, kirəəə?..” - deyib içəridən kirvəmə səslənən kimi quzusundan yenicə ayrılmış mənzilimin bağçasındakı qoyunlar Həmdidən əvvəl cavab verirdi:

- Nə var, kirvəəəə?..
- Məəəəəə, məəəəəə…

O səslərin arasından Həmdi məqsədini bildirirdi:

- Qardaşıma tütün gətirdim, al bunu çək, kirvə.
- Mən tütün çəkə bilmirəm, öskürdür, kirvə, sağ ol.
- Zəifin gətirmişəm, kirvə, al çək, öksürtməz, qurban.

***

- Nə var, kirvəəəəə?..
- Dünən bir qoyunum öldü, kirvə.
- Canın sağ olsun, kirvə.

***

- Gümmm, gümmmm…
- Nə var, kirvəəə?
- Bizim it altı bala doğdu, birini sənə gətirdim, qapında hürsün, kirvə…
- Yenə nə oldu, Həmdi?
- Dünən səhər tütün gətirdiyimə görə hirsləndinmi, kirvə?
- Hirslənmədim, Həmdi.
- Onda al bu tütünü də çək, kirvə, zəifin gətirmişəm.

***

Həmdi bir səhər yenə erkəndən gəldi. Qapını vurmamış açdım.

- Vayy! Erkən qalxmısan, kirvə, - dedi.
- Öyrəndim, kirvə, ver, - dedim.

Əlində təzə bişmiş bir neçə çörək vardı, mənə verdi.

- Axşam gəl, kirvə, sənlə danışacağam, - dedim.
- Yaxşı, atam, - dedi, məni öpdü, qoyunları haylayıb getdi.

Axşam kirvə gəldi. Uzun-uzadı izah etdim:

- Kirvə, qurban, daha mənə heç nə gətirmə, bir şeyə ehtiyacım olsa, mən özüm sənə söyləyərəm. Ya da Bağdada deyərəm, o, məktəbə gələndə gətirər. Yaxşımı?
- Yaxşı, kirvə, - dedi. Həmdi ilə razılaşdıq, məni qucaqlayıb öpdü...

Çay içirdik. Kirvəmin gözü küncdəki cütkasetli maqnitofona sataşdı.

- Vayy! Kirvə, qurban, bu nədi? - dedi.
- Maqnitofondu, kirvə, kaseti qoyursan, oxuyur, - dedim.
- Vayyy! Necə oxuyur, kirvə, mənim maqnitofonum kimi?
- Bəli.
- Kirvə, bir oxut, qurban.
- Yaxşı.

Kaseti qoyub maqnitofonu işə saldım. Kasetdən uzun, qəmli bir hava başladı.

- Oğlan, atam, - kirvə dedi, - bu kaset çox qəmliymiş, qardaş, bu kaseti mənə ver.

Kaseti təzə almışdım. Hələ bir-iki dəfə dinləmişdim, çox dinləmiş olsaydım, o saat verərdim.

“Bir neçə gündən sonra gəl, bir az dinləyim, sonra sənə verərəm,” desəm, Həmdi hər səhər, “kaseti dinlədinmi, kirvə” deyə gələcəkdi. Onsuz da bu kaseti Həmdiyə verəcəkdim, amma o an verməyə ürəyim gəlmədi. Həmdini qırmaq istəməsəm də vermədim.

Maqnitofonu bağladım, digər gözündəki kaseti çıxardıb Həmdiyə verdim.

Gec idi, kirvə kaseti alıb evinə yollandı. Gecə yarısıydı, yuxuya təzə getmişdim ki, mənzilimin qapısı gürultu ilə döyüldü.

“Bahoo!”, dedim. Qapını çox vurmasın deyə yataqdan atılıb qaçdım.

- Kirvəəə! Aç qapını, qurban!

Gələn Həmdi idi, içəridən səsləndim.

- Nə var, kirvəəəə?

- Kirvə, bu kaset mənim evimdə qəmli oxumur, atam.

- Niyə qəmli oxumur, Həmdi? Oxuyar…

- Nə bilim, atam, "hoppa, hoppa, şinanay, şinanay" oxuyur, səs də o səs deyil, atam, bunu bir qız oxuyur.

Güldüm, özümü zorla saxlayırdım.

- Gəl, kirvə, keç içəri, - dedim, kaseti əlindən aldım. O tərəf-bu tərəfinə baxdım. Maqnitofona saldım. Həmdinin qəmli dediyi kaset digər gözdəydi. Həmin kasetin olduğu yeri basdım. Uzun, yanıqlı bir hava başladı.

- Vayyy! - kirvəm dedi, gözləri güldü, - çox şükür, atam, pozulmayıb.

- Bax, qəmli oxuyur, qorxma, pozulmaz, - dedim.

- Oğlan, kirvə, burada qəmli oxuyur, bizim evə gedəndə başqa bir şey oxuyur, qardaş. Sovxa yerinimi bəyənmir? Bu necə işdi, atam!

- Götür apar, daha qəmli oxuyacaq, kirvə.

- Sağ ol, qardaş.

Maqnitofonu bağladım. Həmdinin bir az əvvəl gətirdiyi kaseti çıxardıb təkrar ona verdim, yola saldım.

Dan yeri sökülənda dəmir qapım döyüldü. Öyrəncəliydim. Heç nə soruşmadım. İçəridən qışqırdım:

- Nə var, kirvəəə?

- Kirvə, kaset yenə qəmli oxumur. Neyniyək, kirvə?

Gülməkdən danışa bilmədim. Az sonra içəridən yüksək səslə qışqırdım:

- Mən evdə deyiləm, kirvəəə!

- Vayyy! Qardaş, bəs hardasan?

- Şahin müəllimgildəyəm.

Həmdi çaşdı:

- Allah, Allaaah! Kirvənin səsi gəlir, amma özü evdə yoxdu. Bu necə işdi, atam? Dayan bir gedim Şahin müəllimgilə baxım, - deyə deyinərək getdi.

Şahin Türk dili müəllimi idi. Elektrik işlərindən də başı çıxırdı. Kəndlilərin bütün elektrik işlərini o görürdü. Radio, televizor, kaset, maqnitofon - hamısını təmir edirdi. Ürəyi yumşaqdı, kimsənin xətrinə dəyməzdi. Amma vaxtsız narahatlığı da heç xoşlamazdı. Kəndlilər həftə sonunda təmir üçün səhər tezdən gəlib Şahin müəllimi oyadardısa çox qızardı. Kəndlilər çəkindiklərinə görə bəzən məni də özlərinə qoşar, Şahin müəllimgilə birlikdə gedərdik. Mən xahiş edərdim, sözümü çevirməzdi, kəndlilərin hər işini yerinə yetirərdi. Şahin müəllim mənzilimin yaxınlığında kərpic bir evdə qalırdı...

Həmdi pilləkənləri enib yola düzəldi. Pəncərədən arxasınca baxırdım. Kirvə döngəni dönüb gözdən itdi.

Bir azdan Şahin müəllimin fəryadı səhər küləyinə qarışıb kəndin üzərinə yayıldı. Şapkası düşmüş Həmdi kirvə pərişan halda qaçırdı. Arxasınca gecə köynəyində yataqdan qalxan Şahin müəllim əlində odun parçası gəlirdi. Oduna hədəf olmamaq üçün mənzilimə yan alan kirvə karıxıb yaxınlıqdakı gölməçəyə düşdü. Qalxıb üstünü-başını təmizlədi.

Az sonra qapım yenidən vuruldu. Kirvəm qapının ağzında qaranəfəs olmuşdu. Qapını açdım, heç nədən xəbərim yoxmuş kimi soruşdum:

- Nə oldu, kirvə?..

- Oğlan, kirvə, - dedi, - Şahin müəllimgildə yoxsan, atam, hardasan, düzünü de?..

Türkcədən çevirən: Eyvaz Zeynalov

Soyuq yuxu

(Hekayə Türkiyədə 2011-ci il Yunis Əmrə hekayə yarışmasında birinci yeri qazanıb)

Qaranlıqdı. Gecəni ürpərdən, qara boşluğun qatran pərdələrini cıraraq əks-səda verən bir zəng səsi eşidilir. Axşamdan başlayan külək bir müddət sanki zəng səsini dinləyir, ani olaraq qanadlarını salıb dayanır, süzür...

Pansionatın binasının beton divarlarını aşan o səs yaxınlıqdakı Cincavat çayının uğultusunu da batırır və bu dəli çayın boz-bulanıq sularına qarışaraq qara bir ilan kimi axıb gedir.

Zəng səsinin ardınca koridorlarda bir qaçışma başlayır. Aşağı mərtəbədən beton döşəməni aramsız döyən taxta ayaqqabı, yalın ayaq səsləri və artaraq uşaq pıçıltılarını udan şkafların qapılarının cırıltıları gəlir.

Gündüzlər zamanı dilim-dilim bölən bu səs on dəqiqəlik bir tənəffüs, ya da qırx dəqiqəlik bir dərs, gecələr isə səssizliyə dəvət, "kameralara!" çağırışıdı. Uşaqların hamısı bu çağırışa boyun əyir. Zəng səsi onlara yaxşı tanışdı, nə məna verdiyini əzbərdən bilirlər. Bir azdan çarpayıların soyuq, dəmir tutacaqlarından yapışıb yataqlarına qalxacaqlar. Sükut içində üzən kameralar qəbiristanlığa dönəcək. Yüzlərlə uşaq ədyallara bürünüb ana nəvazişindən uzaq, qəmli bir yuxuya gedəcək.

Sonra bir quş leysanı başlayacaq. Narahat quşlar uçuşacaq havada. Qaya göyərçinləri, göy qumrular, yaşılbaş sonalar, telli durnalar, qızlarquşular…

Uzaq dağ kəndlərindən qadınlar quş donunda qanad çalaraq gələcəklər. Əvvəl pansionat binasının damına qonacaqlar, sonra pəncərələrin taxtalarına... Qaranlıqda quşlar pəncərələrə çırpılacaq. Kimi tapdığı balaca bir boşluqdan səssizcə bir uşağın yuxusuna girəcək, kimi də ürkək baxışlarıyla səhərə qədər donub qalacaq havada.

Dan yeri ağaranda bir zəng səsiylə uşaqlar təzədən yataqlarından sıçrayıb qalxacaq və quşlar bu səsdən hürkəcəklər. Qarlı dağlara doğru uçub gedəcəklər...

Su kranları bir-bir açılır. Alaqaranlıq koridorlar su səslərini udur. Otaqlardan koridora sızan zəif işıqlar da ayazlı gecənin qolları arasında donub ölür.

Pansionatın binası qaranlıq, kimsəsiz, koridorlar boş, səssiz, dilsiz, divarlar çılpaq, soyuqdu... Müəllim otağında təkəm. Külək ağacları yolmaşdıyaraq pəncərələrdən qəzəblə keçir...

***

Növbətçi qalan günü insanı məngənə kimi sıxan bu soyuq, quru, ölü bənizli solğun divarlar arasında son zənglə birlikdə işıqlar sönən kimi qoca bir qadın tutur əllərimdən. Anamdı, nənəmdi, seçə bilmirəm. Külək o qadının ətəyini oynadır, ətəyi üzümə toxunur. Bir əlim onun əlindədi, əlimi buraxmır. Arxasınca qaçıram. Gedirik, qaranlığı yara-yara gedirik. O qadın məni illər öncəki divarları əhəng suvaqlı, beş uşaqlı kərpic bir evə aparır. O kərpic evin ən böyük oğlu mənə şeirlər oxuyur, nağıllar danışır. Gözlərimi yumub dinləyirəm və otuz il əvvəlki səsləri eşidirəm. Əvvəl qulaqlarıma qırıq-qırıq sətirlər gəlir: kişnəyən qara atlar, şappıldayan qırmanc, qıvrılan, açılan, uzanan yollar, o yolların çatdığı viranə bir karvansara və o karvansaranın divarları, küləyin qarşısında quru yarpaqlar kimi əsən bir adam...

…Sonra illərin o üzündən, zülmət qaranlıqlar içindən gözlərimin önünə nağıl qəhrəmanları sıyrılıb gəlir, hamısını görürəm. Əl uzatsam, toxunacağam. Suyun qabağını kəsən, iriaddımlayan, dağyelləyən**, y**erdinləyən**,** yerin yeddinci qatındakı divlər, ağlayan pəri, bəxtsiz şahzadə, qan-irin axan Çatalçeşme, ulu ağaclar, dəli sular, kor quyular, nəhəng saraylar və qanadları göyü örtən Anka*…

Özümə yer tapmıram. Bilmirəm haradayam. Otuz günəş ili uzunluğunda bir ipin ucuna bağlanıram. O ipin digər ucu əlçatmaz, ünyetməz bir yerə bağlıdı. İllər öncəsinə gedib gələn, böyük bir boşluqda hey yellənən bir kəfkirəm...

Birdən gecələri o kərpic evin otaqlarında dinlənilən şeirlər, nağıllar uzaqlaşır, itir. Mən o evin kiçik otağında lap yalqız qalıram. Sonra səhər açılır. Böyük qardaşım sübhdən atamın əlindən tutub gedir. Gedir. Mən hələ də əlimi buraxmayan qoca qadının əlindən xilas olub onların ardınca qaçıram. Mavi, sınıq-salxaq bir mikroavtobus toz dumanı içində uzaqlaşır.

"Böyük qardaşım getdi! Böyük qardaşım getdi!", - deyə yerə uzanıb ağlayıram.

O qoca qadın: "Gələcək, ağlama!", - deyir, məni ovutmağa çalışır. Ona inanmıram. Anamın atama söylədiyi giley dolu sözlər qulaqlarımda cingildəyir: "Barmaq boyda uşağı qürbətə atıb gəldin." Atam cavab vermir.

Hər gecə "Böyük qardaşım niyə gəlmədi?", - deyə soruşuram. Qoca qadın həmişə eyni cavabı verir: "Pansionata getdi, məktəb bitsin, gələcək. Sən yat, yat!"

...Və qaz lampası sönür. Qoca qadın bir xəyal kimi çıxıb gedir. Kərpic evin bütün otaqlarında qara bir hayula gəzir. Dəli külək dayanmadan uğuldayır, pəncərələri titrədir. Qorxaraq yatağıma girib yorğanı başıma qədər çəkirəm. Az sonra ağacları kökündən çıxardan div dişlərini itiləyib gəlir və yatağıma əyilib şüşələri titrədən səsiylə soruşur: "Kim yatmış, kim oyaq?"

Yatsam, səs verməsəm div məni yeyəcək. Sonra iri bir ağacı kökündən çıxardıb dişlərini qurdalayacaq. Divin dişləri arasından bir-bir qanlı qollarım, qıçlarım töküləcək.

Div dişlərini bir-birinə sürtür. Sanki göy guruldayır və təzədən soruşur: "Kim yatmış, kim oyaq?" Qorxudan titrəyərək cavab verirəm: "Nənə! Hamı yatmış, bir mən oyaq..."

Div donquldanaraq gedir. Mən yorğanın altından başımı çıxardıb gözlərimi tavana dikirəm. Otaqdakı əşyalar əyilib bükülür, qəfildən şəklini dəyişir. Divin dişləri tavandan asılan yabaya dönür. Ocaqdakı son közlər divin qanlı ağzıdı...

"İnsan ətinin iyi gəlir! İnsan ətinin iyi gəlir!", - deyə divin uşaqları üstümə qaçır. Böyük qardaşımı axtarıram. Döşəyimin sağ yanı boşdu... Əllərimlə yastığı yoxlayıram, boşa çıxır, ürəyim sıxılır. Qaranlıq gecələrdə məni qorxu-hürküdən azad edən o səs yoxdu. Əllərimi o qızıl saçlı qoca qadının əllərindən qurtarıb yavaşca müəllim otağına dönürəm. Bu an hər yan yalnız pansionatdan ibarət olur. Bütün təkliklər, qorxular, həsrətlər... sislər, duman içində, uzaq bir qürbətdə buğlanır, buğlanır və otağıma yağır. Ağlayıram. Qaranlığı parçalayan o zəng səsi hələ qulaqlarımdadı. Kameraların işığı sönəndə masaya qoyduğum kitab orda eləcə durur. Kitaba könülsüz baxıb gözlərimi pəncərəyə, uzaq qaranlıqlara dikirəm. Nə o qoca qadın, nə kərpic ev, nə pansionata gedən böyük qardaşım, nə də ağlayaraq tozlu yollarında qaldığım o kənd... heç biri yoxdu. Hamısı tünd bir qaranlıqda, keçmiş zamanda itib-batıb. Kameralardakı uşaqların qardaşlarını düşünürəm. O an bədənim yüz parçaya bölünür və parça-parça uzaq dağ kəndlərinə səpələnirəm. Göydə bulud narahatdı, yerdə ağaclar… Sərt bir külək əsir. Bütöv Ay buludlu gecəni zəifcə işıqlandırır. Buludlardan sıyrıldığı zaman Təkəldinin (dağ) zirvəsində, dik qayalıqlarda gümüş bir tac kimi parıldayır. Buludlar gündüzlər qardan gəlinliyinin ətəklərini düzənliyə sərən Təkəldinin üzünü qara bir duvaq kimi örtüb. Pansionatın şüşələrinə qədər uzanan akasiyanın zərif budaqlarını bir-bir yerə əyən külək pəncərələrdən muğam üstdə inləyən bir tar səsi kimi keçir. Üşüyürəmmi, qorxurammı, bilmirəm. Bədənimdə buz kimi bir əl gəzir. Dişlərim bir-birinə dəyir, ürpənir, titrəyirəm. Akasiyanın budaqları bir qədər aralıdakı kiçik söyüd ağacına doğru qırılanacan əyilir, söykənir və təkrar dikəlir. Bu dəli külək nə vaxt əssə bu akasiya həmişə kiçik söyüd ağacıyla dərdləşir. Bəlkə də tələsirmiş kimi dördnala çapan və uğuldadıqca ağacların incə, nazik budaqlarını şax-şax qoparıb yerə tökən küləkdən şikayət edir, kim bilir...

Eni-uzunu bir neçə addımlıq otaqda gəzişirəm. Dörd bir tərəf beton, bir masa, bir yataqdı... Gecə arşın-arşın uzanır və ona yoldaşlıq edən bir hüzn durmadan artır. Təklik məni dirhəm-dirhəm xırdalayır. Masaya yönəlirəm və yenidən kitabın səhifələrini çevirirəm.

Atasını gözləyən bir uşaq... Kameralardakı uşaqlara bənzəyir. Dirənə-dirənə kəndin yaxınlığındakı yüksək bir təpəyə dırmaşır. O təpə, zirvəsi qarlı, gümüş taclı Təkəldi olmalıdı. Min bir ümidlə o təpəyə çıxan o uşağa qoşuluram. Onunla birlikdə çölnoxudu bitkisindən, otlardan yapışaraq qan-tər içində zirvəyə çatmaq, əlimi müşahidə borusu kimi gözlərimə tutub uzaq üfüqlərə, sislər içindəki gölə, o göldə üzən ağ gəmiyə baxmaq, atama əl eləmək istəyirəm...

Yox, alınmır. Kameralardakı uşaqlar arxamdan çəkir. Kim bilir onlar hansı təpələrə dırmaşır, hansı yaylaqlara gedirlər. Qalxıram. Çöldə ulayan külək ayaz diliylə içimi yalayıb keçir. İçim sızlayır. Birdən qıçlarımın taqəti kəsilir. Təpəyə çıxa bilmirəm. O uşağı kitabın səhifələri arasında qoyub qayıdıram. Gözüm divardakı saata sataşır. Gecə yarısıdı. Dəqiqələr ağır-ağır sonrakı gündən dəm almağa başlayır.

"Şagirdlərə daha bir dəfə baş çəkmək lazımdı", - deyə öz-özümə söylənib ağır, yorğun addımlarla kameralara doğru gedirəm. Üst mərtəbədən, qızlar kamerasından zəng səsi kimi cır bir qadın səsi eşidilir. Koridorlar ana səsinə heç bənzəməyən bu səslə oyanır, sanki diksinir. Nazan xanımın dişlərinin qıcırtısı belə eşidilir. Bir div kimi donquldanır. Hirslənir, əvvəl bir uşağın sifətinə şillə vurur, sonra səsi boş koridorlarda əks-səda verir: "Sus! Zırıldama! Gecənin bu vaxtı ananı haradan alım? İndi yatağa get! Bir daha gözümə görünmə! Burda bircə qoyun iyi, gübrə iyi çatmır! Təbii, yata bilməzsən!"

...

Uşaq deyəsən nəyisə izah etməyə çalışır. Nazan xanım bir neçə saniyə susub yenidən qışqırır: "Kəəəs! Otağına! Tez!"

Nədənsə Nazan xanımla məni eyni günə salırlar, həmişə birlikdə keşik çəkirik, gecə o, qızların mərtəbəsində qalır, mən oğlanların. Səbəbini bilmirəm, uşaqlar hələ başını yastığa qoymamış Nazan xanım özünü yatağa atır, yuxu bir qarabasma kimi gözlərinə çökür və işıqlar sönər-sönməz yuxuya gedir. Aydın eşidilən bir uşaq ağlaması yuxusunu qaçırır. Hiddətli, hirsli, qızğındı... Azğın sular kimi guruldayır, köpürür. Uşaqlar bu selin qarşısına çıxmamağı öyrənənə qədər bir neçə dəfə sulara qərq olurlar.

Nazan xanım sanki mənə də qışqırır, bir müddət eləcə donub qalıram. Səslər kəsilincə yenidən addımlayıram. Boş, səssiz koridorda əks-səda verən ayaq səslərim şam işığındakı əşyaların kölgəsi kimi uzanır, böyüyür. "Takk... takk…" ayaq səslərim qaranlıqda çoxalır. Məni vahimə basır, sanki arxamca divlər gəlir. Və birdən dönüb arxama baxıram. Kimsə yoxdu. Qorxum dağılır, düşüncəm dəyişir və daha diri, daha sərt addımlarla irəlləyirəm. O an sanki həbsxanadayam, bir həbsxana gözətçisiyəm…

Bu məktəb, bu pansionat, bu çılpaq, soyuq divarlar və üzünü turşutmuş həbsxana gözətçiləri... Kim bilir, bəlkə də bura yarı azad bir cəza evidi, uşaqlar da məhkumlardı. Səhər erkəndən qulaqlarda mişar kimi işləyən bir zəng səsiylə qaçan yuxular və bir zəng səsiylə başlayan həbs həyatı...

Zəng səsi… Yataqlardan qalxın! Qaç! Əlini-üzünü yu, əyin-başını geyin, beş-beş düzlən, yemək salonuna keç! Çürük zeytun, köhnə pendir, metal stəkanda soyumuş çay və irəliki gündən qalma quru çörəklər... Sonra daha bir zəng səsi… Kitabını, dəftərini götür, beş-beş düzlən! İki ildir tamamlanmayan asma körpünün döşəli əyri, çürük taxtalarına qorxuyla baxa-baxa keç və sıranı pozmadan beş yüz metr aralıdakı məktəbə get!

Zəng səsi… Qırx dəqiqəlik bir hücrə həbsi: üçbucaq, kvadrat, düzbucaqlı, sahə, perimetr, hündürlük... Kədəri böl, hüznü vur, həsrəti topla, qürbəti çıx...

Zəng səsi... Beş dəqiqəlik azadlıq. Lakin azadlıq adına getdiyin hər yerdə: koridorlarda, pillələrdə, bağçada… əli dəyənəkli gözətçilərin qışqırıqları eşidilir: "Burada gözləmə!" "Qaçma!" "Danışma!" "Aşağıya en!" Aşağı enər-enməz daha bir zəng səsi, həyət gözətçilərinin bağırtıları: "Zəng çalındı!" "Oturma!" "Yellənmə!" "Danışma!" "Yuxarı çıx!" "Sinfə keç!"

Və beş günlük bir təlimdən sonra açıq görüş günləri... Səhər erkəndən pansionatın bağçasına doluşan adamlar, qadınlar və beçə verən arılar kimi uzaq dağ kəndlərindən gələnləri gözləri yuxulu dövrəyə alan oğlanlar, qızlar... Yolu bağlı kəndlərdən görüşə gələ bilməyən ana-ataların divar dibində çökmüş boynu bükük uşaqları...

Gedirəm. Nazan xanımın dağıtdığı düşüncələrimi heç cür qaytara bilmirəm. Nədənsə olduğum məkandan kilometrlərlə uzağa düşürəm. Bəlkə bir azdan məhkumlar bu koridorlarda nəfəsliklərdən əllərini, başlarını uzadacaq, nəfəsliklərin qapağını barmaqlıqlara vuraraq qışqıracaqlar, bir üsyan başlayacaq və səslər bir-birinə qarışacaq: "Analarımızı istəyirik!" "Burada oxumaq istəmirik!"

…

101 nömrəli kameranın ağzında dayanıram. Bütün işıqlar sönüb. Upuzun koridorun ortasında yalnız bir lampa yanır. Koridoru düz-əməlli işıqlandıra bilməyən lampanın zəif işığında kameraya daxil oluram. Qapının ağzındakı çarpayılardan biri boşdu! Gözlərim böyüyür, zehnimdə bir-birinin ardınca min bir fikir dolanır. Bu soyuqda?.. Fərarilikmi?.. Ola bilməz, hələ çox balacadılar. Amma…

Əlimin yardımı ilə irəliləyir, çarpayılarda yatan uşaq məhkumları bir-bir yoxlayıram. Bir az aralıdakı çarpayıda, bir yastıqda əlim iki uşaq başına dəyir. Kiçik bir uşaq özündən bir-iki yaş böyük bir uşağın qoynuna sığınmış, yatır. Gülümsəyirəm. Bir anda bütün qorxuları yelə verir, özümdən qovuram. Çarpayısından fərarilik edən bu uşaq bir əliylə yatağına sığındığı uşağın əlindən tutmuşdu. İşıqlar sönəndə qorxur, bilirəm. Yataqda büzüşüb digər uşağa sığınması onun məktəbə hələ təzəcə gəldiyini anladır. "Qoy yatsın!", deyirəm öz-özümə, "bəlkə böyük qardaşı üçün darıxıb..."

Növbəti kamera... Külək şüşələrdə ulayır... Qanad səsləri... Narahat quşlar pərvaz etməkdə. Bəlkə mən içəri girəndə hürküb havalanacaqlar. Bu kamerada, ikinci qatdakı çarpayıda bir uşaq yatağından əməlli-başlı sallanıb… Adım kimi tanıyıram. Bu uşaq indi yamyaşıl, bənövşəyi çiçəkli bir yaylaqda uçur. Hər yanı çayır, çəmən, çiçəkdi... Yanağında məsum bir təbəssüm var. Hərdənbir arxasına baxaraq qaçır. Onu qovan digər uşaqlar ona yetişə bilmirlər... Birdən üzü gərilir, arxasınca gələn uşaqlar onu tutacaq. O, indi dərə ilə şırıl-şırıl axan çayın qarşıdakı sahilinə keçəcək. Gülür, daha sürətli qaçmağa başlayır, yataqda vurnuxur, indi atlanacaq...

Gözlərimi yumub bu uşağın xülyalarına qapılıram. Qaçaraq dərə yatağına yaxınlaşıb onun əvəzinə qarşı sahilə atlanıram. Bədənim bir quş kimi yüngüldü, uçuram, ayaqlarım boşluqdadı. Yüksəklikdə başım fırlanır, yerə enmək istəyir, enə bilmirəm. Böyür-başımda çayır quşları, qaranquşlar, kəpənəklər... Birdən bütün ağırlığımla yerə düşürəm. Düşdüyüm yer o dərənin sahilindəki yamyaşıl çəmənlik deyil. Sərt, soyuq bir məkandı. O saat xülyalarım çəkilir. Yuxulu gözlərimi böyük bir qaranlıqda açıram. Sarı, qırmızı çiçəklər, yaşıl əkinlər, bənövşəyi sümbüllər, qaranquşlar, kəpənəklər yoxdu. Bir az əvvəl göydə yanan günəş də... Gicgahımdan ilıq-ilıq qan sızmağa başlayır. Əllərimi alnıma aparıram, əllərim qana boyanır.

İkinci qat çarpayıdan düşmüş kimi gicgahım ağrıyır, sızlayır, döyünür… Uşağın çarpayıdan sallanan başını yavaşca yastığına qoyuram.

Koridorun sağındakı son kamera... Hıçqırıqlarla boğulan bir uşaq səsi... "Ana! Anaa!"

Tez qapının ağzına qaçıram, gözləyirəm. Koridorda küləyin o qorxulu səsindən və hərdənbir kameradan gələn bu səsdən başqa heç bir səs yoxdu. Uşaq təkrar inləyir: "Anaa! Anaa!"

Akasiyanın yarı çılpaq budaqlarının kölgəsi qarşıdakı divara düşür. Divardakı kölgələr birdən bir qadın silueti olur. Qadının arxasında da kiçik bir uşaq görünür. Qadının çiynində bir dəryaz var, dəryazın ucunda azuqə torbası... Qadın bir əliylə çiyninə atdığı dəryazı tutub, digər əlində bir səhəng var. Akasiya əyildikcə kölgələr divarda titrəyir. Qadın gedir, arxasına baxmadan gedir. Bu qadın, bu kamerada ağlayan uşağın anasıdı. Uşaq anasının arxasınca qaçıb qışqırır. Qadın eşitmir. Akasiyanın budaqları titrədikcə onların arasından kiçik təpələri aşırmış kimi əvvəl itib sonra yenidən görünür. Külək uğuldadıqca kiçik budaq əyilir, uşaq büdrəyib yerə yıxılır, sonra qalxıb təkrar anasının ardınca qaçır. Kiçik addımlarıyla ona çata bilmir. Anasının arxasınca ağlayaraq qışqırır: "Anaa! Anaa!" Bəlkə də divarda bu uşağın xəyalını görürəm.

Ayaqlarımın ucunda içəri girirəm, səsin gəldiyi tərəfə yaxınlaşıram. Bir uşaq üzüüstə yastığa qapanıb. Çiynindən tutub yavaşca çevirirəm. Yatmayıb, qorxuyla yataqdan qalxır. Sonra hıçqıraraq ağlamağa başlayır. Səsimi qısaraq astadan soruşuram: "Niyə yatmırsan, oğlum?"

Ağlayaraq cavab verir: "Annaaa! A-naa! Anamı…"

"Yaxşı, yaxşı! Ağlama, sakit ol! Yoldaşlarını oyadarsan. Madam yata bilmirsən, qalx görüm, gödəkçəni geyin, haydı, başmaqlarını da tax, mənimlə gəl!"

Bu uşaqla digər kameraları birlikdə gəzirik, sonra mən qabaqda o arxada müəllim otağına gedirik. Otağa girəndə gözləri işıqdan qıyılır, gözlərimə baxa bilmir, davamlı şəkildə içini çəkib ağlayır. Hıçqırıqdan danışığı boğulur, nə dediyi anlaşılmır. "Ağlama görüm! Ağlama, sakit ol, adın nədi sənin?"

İçini çəkir, kəkələyərək cavab verir: "Uh, uh... Mir Seyid." "Mir Seyid, hansı kənddən gəlmisən?" "Aşağı Civanlıdan." "Neçənci sinifdə oxuyursan?" "Üçüncüdə." "Nazan xanımın sinfindəmi?" "Bəli." "Bura nə vaxt gəlmisən?" "Dö, dö... dörd gündü." "Niyə başqa yoldaşların kimi məktəb açılanda gəlmədin? Bax, onlar artıq öyrəşiblər." "Mən kənddə oxuyurdum." "Demək, kəndinizdə məktəb var, bəs bura nə üçün gəldin, Mir Seyid?" "Məktəbimiz vardı, ıhıı, ıhıı, ıhııı..."

Ağlamaqdan danışa bilmir, sakitləşdirib bu yuxu fərarisini sorğu-suala çəkirəm: "Ağlama, Mir Seyid! Ağlama! Müəlliminiz yoxdu? Demək, təyinat alıb getdi, müəlliminiz gedincə məktəbiniz də bağlandı." "Yox, müəllimimiz də vardı. Vardı, ıhıı, ıhıı, ıhhıı..."

Mir Seyid tıxanır, boğulur, kəkələyir, danışa bilmir. Sinəsi enib qalxır, bir stəkan su verirəm, udqunaraq içir. "Ağlama, Mir Seid! Bax, birinci sinifdə oxuyan uşaqlar belə artıq ağlamırlar. Ağlama, haydı anlat görüm, niyə kəndinizdə oxumadın?" "O, o, məktəbimizi yandırdılar! Müəllimimiz öldü! Atam da... Iıhıhıhııı!.." "Kim yandırdı, Mir Seyid? Kim öldür..." "Atamı... Atamı..." "Yaxşı, Mir Seyid, yetər, ağlama!"

…

Otağa soyuq hava dolur. Bədənim quru budaqlar kimi titrəyir. Külək qulaqlarımda küyüldəyir, fırtına qopur, qasırğaya dönür. Bu an ağaclar yarpaq-yarpaq sovrulur, dağlar daş-daş ovulur. Ulu dağlar, əngin düzənliklər, sərin yaylaqlar, güllə səsləri önümdən keçib gedir. Bütün dərələr qan olub içimə axır. Mir Seyidə tərəf dönürəm: "Mir Seyid, ağlama, haydı, sakit ol artıq! Sən indi yat, yat! Səhər danışarıq, olarmı?" "Xeyr, mən orada yatmayacağam, mən bu məktəbdə oxumayacağam, mən kəndə gedəcəyəm." "İstəsən burada, bax, mənim yatağımda yat. İşığı da yanılı qoyaram, olarmı?" "Xeyr, mən yatmayacağam, kəndimizə gedəcəyəm." "Amma indi gecədi, həm də yollar bağlıdı, yollar açılanda səni göndərərəm gedərsən." "Xeyr, səhər açılanda gedəcəyəm."

Mir Seyid tez yola gələnə, yıxılıb yatana oxşamır. Tay-tuşlarına baxanda güclü, qüvvətlidi, iri əlləri, ayaqları var, dağ uşağıdı. Onu yatırtmaq üçün aşılmaz, mərhəmətsiz dağlara aparmaq, sarı, bənövşəyi çiçəkli yaylaqlarda başını qatmaq, dik qayalardan, üsyankar dərələrdən keçirib kərpic evli viran kəndlərdə gəzdirmək, yaxşıca yormaq lazımdı…

"Mir Seyid, kəndiniz buradan görünürmü?" "Yox, görünmür, çox uzaqdı..." "Mənim kəndim də çox uzaqdı, Mir Seyid", öz-özümə deyirəm. "Kəndinizin dağları da görünmür, Mir Seyid?" "Onlar görünür." "Haydı, gəl! Səninlə üst mərtəbəyə çıxıb pəncərədən baxaq, kəndinizi mənə göstər, görüm ha tərəfdədi" "Yaxşı."

Dördüncü mərtəbəyə qalxırıq. Sol tərəfdə gövdəsi zülmət qaranlıqda itmiş, qarlı zirvəsi ay işığında parıldayan və qaranlığın içində bir buz kütləsi kimi yüksələn Ağrı dağı... Ağrının yan tərəfində ağ saçlarını səmaya doğru uzatmış Zor dağları... Dağların qoynunda tək-tük işıqlar yanır. Yaxın kəndlərdən gələn it hürüşləri küləyin səsinə qarışır. Cincavat çayı bütün səsləri köpüklü sularına qatır, özüynən uzaqlara aparır. Gözlərimi bütün heybətiylə gecənin sinəsini yarıb göyə yüksələn Ağrı dağından ayıra bilmirəm. Heyrətdəyəm. Xəyala dalmışam. Mir Seyid yavaşca səslənib xəbərdarlıq edir: "Müəllim, kənd o tərəfdə deyil, bu tərəfdədi!" "Eləmi?"

Başımı çevirib Mir Seyidin boy verib böyüdüyü dağlara baxıram. Əliylə sağ tərəfdəki dağları göstərir: "Bizim kənd bax, ordadı, müəllimim. Təkəldinin arxasında. Qışda kimsə bizim kəndə gedə bilmir, maşınlar çıxa bilmir. Kəsə bir yol var, amma gərək atla gedəsən. Atam o yoldan gəlirdi. Yay olsa, mən də ordan gedərəm, mən heç qorxmuram, yolu da tanıyıram."

"Kədərlənmə, Mir Seyid, bahar gələndə gedərsən. Bax, sizin kəndin maşınları buradan qalxır, səni maşına mindirərik, gedərsən." "Bizim kəndin maşını yoxdu. Hamı kənddən köçüb, dördbeş dənə ev qalıb." "Olsun, sizin kəndə yaxın, digər kəndlərin maşınına mindirərik, gedərsən." "Qazilərəcən maşınla getsəm, oradan kəndə piyada gedə bilərəm, yaxındı." "Amma indi getmək olmaz, Mir Seyid, bahar gələndə..." "Amma bahara hələ çooox var." "Olsun, sən məktəbə alışarsan, onda tez gələr." "Yox, tez gəlməz." "Gələr, gələr, bu qar ərisin, dərhal gələr." "Atam sağ olsaydı, qışda belə atla gələ bilərdi. Atam ölməsəydi…" Udqunaraq davam edir, sözlərini çətin tamamlayır: "Mənə velosiped alacaqdı…"

Cavab verə bilmirəm. Dilim dolaşır. "Mir Seyid, sizin kənd yayda çox gözəl olur, elə deyilmi?" "Bəli, amma qışda da gözəldi. Bir bizim kəndə gəlin, çox gözəldi..."

Mir Seyid hələ indidən yaylağın qarı-ayazı, qışı-baharı, qurdu-quşu, çiçəyi, böcəyi, otu, tikanı üçün darıxdığını anladır. Altun çiçək, bənövşəyi süsən, qız kirpiyi, gəlincik, göybaş, bənövşəyi çiçək… Çiçəklər dərələrdə, təpələrdə, qarın tutmadığı daldalarda, dağın koğuşlarında boy verib açır. Dəvədabanı, kəklikotu, yovşan, çobanyastığı... bütün otlarla birlikdə torpağı yarıb üzə çıxır. Qanqal, şəkər tikanı, çölnoxudu, dəvətikanı, cürbəcür otlar... Kəndə doğru gedir, tozlu yollarla qaçır, heç bir tikan ayağına batmır… Və quşlar. Dağların, yaylaqların quşları: Mir Seyid yaşılbaş sonalarla, qızıl rəngli anqutlarla, telli durnalarla sulara enir və bir xınalı kəklik sürüsünə qoşulub dağlarda süzür. Artıq ağlamır, amma gözləri hələ nəmlidi, gözləri par-par parıldayır Mir Seyidin. Düşünürəm ki, indi yatmağa razı olar: "Haydı, Mir Seyid, kameraya, yatağına gedək! Bir az da orada danışaq!" "Yaxşı, amma yayda bizim kəndə gələcəksən!" "Olar, gələrəm."

Pillələri tələsə-tələsə enirəm. Arxamca başmaqlarını şappıldadaraq gəlir. Uşaqlar dərin yuxudadılar. Kameraya giririk. Mir Seyid dəmir tutacaqlardan yapışaraq yatağına çıxır, ədyalını üstünə çəkir. Artıq bir neçə sual da versəm yatacaq. "Demək, sizin kəndin dağlarında çoxlu kəklik olur?" "Bəli, qar çox yağanda atam kəklikləri əllə tuturdu." "Eləmi?" "Təbii." "Necə? Kəkliklər uçmur?" "Qar çox yağanda uça bilmirlər." "Onda de görüm atan kəklikləri necə tuturdu?" "Qar çox yağanda kəkliklər yem tapa bilmirlər, düzdümü?" "Bəli." "Yem tapa bilməyəndə kəndə gəlirlər. Qanadları da qardan islanır. Qanadları islananda uça bilmirlər. Atam kəklikləri qovub yoraraq tuturdu. Atam sağ olsaydı, mənə velosiped alardı, müəllimim..."

Mir Seyid yayda kəndə getsəm, məni atasının atına mindirəcək. Söz verir. Atasının çox gözəl bir atı var. Mən ata minib dördnala çapacağam, o da velosipedinə minəcək, ötüşəcəyik.

Səhərə az qalır. Axşamdan bəri hədə-qorxu diliylə danışan külək sakitləşməyə başlayıb. Mir Seyidin səsi az eşidilir, göz qapaqları ağırlaşıb, yorulub. Bədəni soyuq yataqda yatır, ruhu düşür yollara, dağların ətəyindəki o kəndə doğru uçur. Bəlkə də yaylaqlara qar yağır. Mir Seyid təzə qarda bir kəklik kimi batıb qalır. Pəncərənin taxtasına qonub duran bir qumru kameraya girir, Mir Seyidin çarpayısına qonur. Qapını açıq qoyub yavaşca çıxıram.

Mir Seyidin gözləri uzun müddət gözlərəmin qarşısından getmir. Sanki qarşımdadı... Otağıma gedə-gedə Mir Seyitlə danışıram: alışacaq, öyrəşəcəksən Mir Seyid! Əvvəl soyuq yataqlara girəcək, anasız yuxulara dalacaq və qorxulu yuxular görəcəksən. Bəzən altını isladacaqsan, paltarını bədəninin istiliyi ilə qurudacaqsan. Dərsdə turşumuş iy verəcəksən. Nazan müəllim səni sinifdən çıxaracaq, kameraya göndərəcək. Paltarlarını özün yuyacaqsan, yəni soyuq suya salıb çıxaracaq, sıxıb çarpayının dəmirlərinə, ya da qızdırıcının üstünə sərəcəksən. Bəzən sevdiyin bir yeməyin dadı qalacaq damağında, doymayacaqsan. Bir az da yemək istəyəcəksən, yemək qurtarmış olacaq, verməyəcəklər. Bəzən loxmalar boğazında qalacaq, uda bilməyəcəksən. Bir parça quru çörəyi gəvələyərək yeməkxanadan çıxacaqsan. Xəstələnəcəksən. Qapısında tibb məntəqəsi yazılan həkimsiz, tibb bacısız otaqda yatacaqsan. Hansı dərmanı nə vaxt içməyi bilmədən udacaqsan həbləri. Öskürəcəksən, ciyərlərin söküləcək. Zəng səsləri ilə yuxuların qaçacaq, alaqaranlıqda səksənərək oyanacaqsan. Tələşlı, narahat halda qaçacaqsan. Yolları qar örtəcək, həftə sonu anan görüşünə gələ bilməyəcək, divarların dibində boynu bükük qalacaqsan. Atan sağ olsa, gələrdi. Atan daha heç vaxt gəlməyəcək, Mir Seyid. Yetimliyə alışacaqsan. Mir Seyid, unudacaqsan! Qulaqlarında uğuldayan güllələrin səsini, məktəbinizin divarlarına sıçrayan qanı, səni kənddən qoparan, bu soyuq divarlar arasına atan canavar üzlü adamları unudacaqsan. Bəlkə müəlliminin üzünü də unudacaqsan, amma yaddaşından o bənövşəyi dağlar, çiçəkli yaylaqlar və atanın üzü silinməyəcək. Hər bahar, hər bayram gözləyəcəksən. Gözlə, Mir Seyid, atan sənə velosiped gətirəcək!

Qar yağır, külək sakitləşib. Özümü çarpayıya atıram. Sakitlikdi. Hər saniyə sanki böyük bir zəngə vurulan toxmaqdı: "çık, çık, çık..." Qalxıb divardakı saatın batareyasını çıxarıram. Saat susur. Yataqda o tərəf-bu tərəfə çevrilirəm. Yuxular uzaq, yuxular qaçaq. Əzik, yıxıq, yorğunam. Gözlərimi yumuram. O qoca qadının əlləri, o kərpic ev, yerdən yataq, Aşağı Civanlı kəndi, Mir Seyidin atası, güllələnən müəllim, divarlarına qan çilənən məktəb, o məktəbdən sürgün olunan uşaqlar və Mir Seyid...

Mir Seyidi o gecədən unutmuram. Növbətçi olduğum gecələr bir bəhanə tapıb otağıma gəlirəm. Danışırıq. Kəsə yolla kəndə gedirik. Quzuları, itləri sevir, dayları, qara batan kəklikləri qovur, çiçək yığıb quşları seyr edirik. Sonra o velosipedinə minir, mən də atasının atına... O, tələsik pedal çevirir, mən atı mahmızlayıram. Aşağı Civanlıdan dərəyə enən bir yol var, o tozlu yolda ötüşürük.

***

Mart ayının əvvəli... Cümə günü, hava ilıqdı... Növbətçiyəm. Düzənlikdəki badam ağacları, ərik ağacları qırmızı tumurcuqlarını yarıb dümağ çiçəkləyib. Əsən yeldə bir bahar qoxusu var. Küləyin istiqaməti dəyişmiş, artıq salxım söyüd akasiyaya doğru əyilir.

Uşaqlar axşam düşəndən bir az sonra zəng səsiylə kameralara çəkilir. Mir Seyid gələr, deyə gözləyirəm, amma o gecə gəlmir. "O da öyrəşdi", deyə gülümsəyirəm. Şənbə səhəri erkəndən qalxıram. Pansionatın bağçası hər zamankından daha izdihamlıdı. Hər on dəqiqədən bir pansionatın bağçasının qapısında bir kənd taksisi dayanır. Taksidən enənlər bağçada yüzlərlə uşağın içində öz uşaqlarını axtarır, taksidən enənləri tanıyan uşaqlar isə sevinclə qapıya doğru qaçırlar. Hər qadının, hər adamın ətrafında onlarla uşaq var... "Dağların qarı əriyib, yollar açılıb," deyə öz-özümə düşünürəm.

Pansionatın yaxınlığında qalan müəllimlərin uşaqları da bağçadadı. Nazan xanımın oğlu Tunç velosiped sürür, səkkiz-on uşaq da velosipedin arxasınca qaçır. Gözlərim Mir Seyidi axtarır. Ordadı, ziyarətçisinin gəlməyəcəyini bilir. Divarın dibinə çökmüş, əlini yanağına söykəmiş, gözünü qırpmadan velosipedi izləyir.

Pansionatdakı uşaqlardan bir hissəsinə icazə verirəm, azadlığa buraxılan məhkum sevinci ilə anaları, atalarıyla bərabər uzaqlaşırlar. Qalan uşaqlar bağçada gəzişirlər. Tunç velosipedini atıb uşaqlarla oynamağa başlayır. Mir Seyid oturduğu yerdən qalxıb velosipedə doğru gəlir, yanında çömbəlib oturur. Velosipedə toxunur, sükanından yapışır, əliylə pərini çevirir, pedalını hərlədir, əzizləyir, oxşayır velosipedi. Birdən mənzilinin pəncərəsində görünən Nazan xanımın səsi yüksəlir: "Eeey! Səydərəm, ordan çəkil! Velosipedi burax! Tuuunç, Tuuunç! Velosipedini də götür, tez evə gəl, tez! Səni bir də o uşaqların arasında görməyim!"

Mir Seyid bayaq oturduğu yerə gedir, Tunç anasına çiyin çəkir, müqavimət göstərir, getmək istəmir, amma anasının təhdid dolu sözlərinə çox dözə bilmir. Velosipedinə minib mənzillərinə sürür. Mir Seyid divarın dibində oturub Tunçun arxasınca uzun-uzadı baxır. Şənbə günü növbətçi olan müəllimlər gəlirlər. Uşaqları sıraya düzüb sayıram, icazə kağızlarını da… Hamısı burdadı, uşaqları təhvil verirəm.

Bazar ertəsi səhərdi… Müəllimlər otağında çaxnaşmadı. Danışılanlardan bir şey öyrənməyə çalışıram. "Eşitdinizmi?" "Nəyi?" "Bazar günü pansionatdan bir şagird qaçıb." "Uşağı tapa bilməyiblər!" "Jandarma kəndlərinə qədər getmiş, hər tərəfi axtarmış, izini belə tapmayıb." "Bəlkə tapılar deyə ailəsinə xəbər verməyiblər." "O uşağı tanıyıram, görüşünə heç kim gəlməzdi."

Bu sözlərdən sonra içimi bir qorxu bürüyür, pəncərədən Təkəldi dağına tərəf baxıram və dodaqlarımdan həyəcanlı bir sual qopur: "Hansı uşaq qaçıb, kim qaçıb?" "Nazan xanımın sinfindən..." "Kimdi?" "Deyəsən, öz kəndinə getmək istəyib, adı da Mir Seyiddi." "Mir Seyidmi?"

…

Pəncərənin ağzında donub qalıram. Dilim tutulur, danışa bilmirəm. Eşitdiklərim ya yalandı, ya da soyuq bir yuxu… Hər ağızdan bir avaz gəlir, amma artıq nə danışdıqlarını eşitmirəm. Məktəbin bağçasındakı yüzlərlə uşağı tək-tək gözdən keçirirəm. Heç biri Mir Seyidə oxşamır. İnanmıram. Sanki o şagirdlərin arasından çıxıb gələcək, sinifdə adı oxunanda "burada!" deyəcək.

Məktəb müdiri gəlir. Bir fəlakət xəbərçisinə bənzəyir…"Mir Seyidi tapıblar", deyir, "donub."

…

Bu an mən də donuram. Heç bir baharın əridə bilməyəcəyi bir buz kütləsinə dönürəm. Sanki müəllimlər otağında minlərlə insan var. Səslər bir-birinə qarışıb. Otaqdan qaçmaq istəyirəm, qaçmaq… Sinfin divarları üstümə gəlir. Nə qara taxta, təbaşir, kitab, dəftər, qələm, nə də uşaqlar... Sinifdə bir tək mənəm, bir də Mir Seyidin xəyalı. Pəncərənin önündə qurumuşam, gözlərimi Təkəldiyə çevirib dağlara ümidsizliklə baxıram… Təkəldinin ağappaq döşündə gözüm bir qaraltıya sataşır. Mir Seyid! Kəsə yolla dağa dırmaşır. Günəş buludların arasından sıyrılıb ölgün işığı ilə gülümsəyir və dərhal yox olur. Yuxarı çıxdıqca, kəndə yaxınlaşdıqca Mir Seyidin ürəyi böyüyür. Addımlarını artırır, daha sürətli getməyə başlayır. Ağ Torpaq, Boğum Dərəsi, Tək Söyüd… Mir Seyid bir-bir onları keçir. Soyuqbulağa çatsa, kənd görünəcək. Soyuqbulaqda Qız Qayasına çıxıb çağırsa, kənddə eşidəcəklər.

Birdən hava qaralır, külək uğuldayır. Qar səpələyir. Mir Seyid bir qarşısındakı dağa, bir də dönüb arxasına baxır. Nə şəhər, nə məktəb, nə kameralar var… Əllərini ağzına aparıb nəfəsiylə isitməyə çalışır, amma Mir Seyidin nəfəsi də donur. Qar dənələri dayanmadan üzünə çırpılır, yanaqları ağrıyır. Qız Qayası qarşıda, bir neçə yüz metrlikdədi. Qara batıb çıxa-çıxa gedir, amma bu zaman dizlərinin taqəti kəsilir. Sanki ayaqlarından tonlarla yük asılır. Çətinliklə Qız Qayasının dibinə çatır, qayanın koğuşuna sığınır. Əllərini, ayaqlarını yoxlayır. Əlləri, ayaqları sanki yoxdu. Hava bulanır, dörd bir tərəf qaralır. Mir Seyid artıq ətrafındakı qayaları, ağacları seçə bilmir. Uzaqlardan it hürüşü gəlir və qorxur, ağlamaya başlayır. Üzünü kəndə doğru döndərib son bir ümidlə qışqırır: "Annaaa! Annaaaaaa!"

Uğuldayan külək Mir Seyidin səsini də udur. Mir Seyidin boğuq səsi çovğunda eşidilməz olur. Qorxaraq qayanın koğuşundan çıxır. Kəndə tez çatmaq üçün özünü qarın içinə atır. Birdən ayağı büdrəyir və sinəsinə qədər qara batır. Qanadları islanmış bir kəklik kimi çırpınmağa, qarın içində vurnuxmağa başlayır. Sonra ayaq barmaqlarına, əllərinə ilıq su tökülür, əlləri, ayaqları istilənir. O istilik bütün bədənini bürüyür, daha üşümür. Bir yay günü dərənin kənarında yalın ayaqlarla qaçır və yorulub yamyaşıl çəmənlikdə uzanır. Gözlərini ağır bir yuxu basır. Mir Seyid birdən uzaqdan atasının ona tərəf gəldiyini görür. Əlində də bir velosiped var. Mir Seyit yerindən qalxıb atasına doğru qaçır, qaçır, qaçır...

* **Anka... – nağıl qəhrəmanlarına işarədi**

Türkcədən çevirən: Eyvaz Zeynalov

Anamın saatları

Zavallı anam hardan biləydi Saatlı Maarif Təqvimi nədi?..

Şəmsi tarixi ilə illər neçə gündü, Qəməri tarixi ilə aylar neçə gecə?..

Adı Sultandı, özü qurub-qoşduğu təqvimdən istifadə edərdi, evin də, çölün də hər işini adı kimi bilərdi, vaxtı, saatı bilməzdi. Bəxtinin ələ gələn ipliyini əzab-əziyyət yumağına dolayıb yaşayardı...

Qarçiçəkləri xırman yerində şam yandırıb baş qaldıranda təqvimi sıfırdan başlanar, fəsillər dövr edərdi…

Onun miladı ilk bahardan başlanardı…

Qarçiçəkləri, novruzgülləri açanda çölə gedər, qovaqlar yarpağını tökəndə, ya da durnalar köç edəndə evə dönərdi…

Hicri min üç yüz altmış beşmi? Miladi min doqquz yüz qırx doqquzmu? Nəyinə gərəkdi, zamanın fərqində deyildi. İllər kürəyində şələ, çiyinində yük, saçında ağdı...

İstər mart, aprel, may əsrləri arşınlayıb getsin, istərsə dekabr, yanvar, fevral nəfəsi dondursun… Keçən zamana nə möhnət? Əziyyətdə keçən hər an, hər gün, gələn həftəyə, aya, ilə qovuşur, anamın ömrünü yeyə-yeyə axıb gedirdi…

Bahar çiçəklərlə, novruzgülləri ilə gələrdi… Budaqlarda yarpaq-yarpaq əylənər, xəzəllərlə çıxıb gedər, qarşıdan qara qış gələr, anamın ilk baharını qarda basdırardı. Günləri qar-çovğuna tutulanda qanadları islanmış bir xınalı kəklik kimi çarəsiz, qərib, təkbaşına qalardı…

Anamın təqvimində illər, aylar olmazdı. Həftələr, günlər, saatlar da yoxdu. Vaxtı naməlum, işıqsız, kölgəli, kimsəsizdi. Anamın təqviminə görə, uşaqlar çiçəklər açılarkən, ya da toxumlar cücərərkən doğulardı. Sürgün dövrünün sonası (nənəmiz) yayın axırında, arpa orağa gəlməzdən əvvəl ölərdi həmişə. Və Avşar gözəlləri xırman sovulanda, qışın əvvəlində gəlin köçərdi. Atalarımız qar yağanda qürbətdən qayıdardılar…

Damlara çorak (torpaq) atılanda, qurdlar qoyuna soxulanda, durnalar çayıra-çəmənə gələndə… hər hadisə müəyyən bir tarixə işarəydi. Ancaq o tarixlər anamın yaddaşında əlçatmaz, ünyetməz bir yerdəydi. Hadisələrin hansı ildə, hansı ayda olduğunu onun yaddaşının dərinliklərindən, yaşadığı məhrumiyyətlər arasından üzə çıxartmaq, hətta təxmin etmək mümkün deyildi. Bəzən ocağın başında közü eşə-eşə hansısa hadisəni xatırlayardı. Dalınca neçə hadisəni sadalayar, ailəmizin tarixçəsini danışardı. Amma filan hadisə nə vaxt olub, soruşsaq da, öyrənə bilməzdik…

- …O il də çox qar yağmışdı. Qar-çovğundan çölə çıxa bilmədik. Dam boyu qar yığıldı. Bahar gələndə də bu qar əriməmiş yağışlar yağdı, dərələr doldu-daşdı, Ziyamı sel apardı o il, evlərdən iraq…

- Böyük qardaşımı nə vaxt sel apardı, ana?

- Bəkir yanan ili!

- O nə vaxt yandı?

- Meralı quduz it dalayanda!

- Bacımı quduz it daladımı? Nə vaxt?

- Hakanım doğulanda…

- Hakan nə vaxt doğuldu?

- Böyük qardaşını sel aparanda!!!

Anamın təqvimi üç mövsümlü, doqquz aylı, çoxhadisəli idi və anamın ayları qırx gündən artıq çəkərdi. Payızın xəzəl çağını yayın axırına keçirər, payızın son ayını dekabra əlavə edər, qışın fevral ayını da ilk bahardan sayardı...

Xəbərləri gündüz günəşdən, gecələr də ay və ulduzlardan alardı. Kənddə beş dəfə azan oxunardı. Azançı beş dəfə namaza çağırardı, üç öynə yemək yeyilərdi, iki dəfə suya gedilərdi… Amma anamın bir gündə qırx dönəmi vardı. Onun vaxtının çoxu görünməz bir iplə göydəki günəşə bağlı idi. Gün dağın başını qızartmamış oyanar, ocağı yandırar, gün doğarkən inəyi sağar,

səhər erkən tarlaya gedər, günortaya qədər bir yekə həyətlik yerin arpasını biçər, günorta evə gəlib qoyunları sağar, gün günortanı ötəndə bulağa gedər, gün əyiləndə xəmir yoğurar, qürub çağı təndiri qalayar, gün batarkən dovğa bişirər, axşamtərəfi süfrəni bəzəyərdi...

Axşamlar da ay doğanda kilim toxuyar, kilim toxuyarkən ağı deyər, ulduzlar göydə sayrışarkən qara bəxtini qarğayar, gecəyarısı, el-oba yatıb ilbizlər batdıqdan sonra yuxulu gözlərini yumar, quş yuxusuna gedərdi…. Və hər səhər dan ulduzu doğmamışdan, xoruzlar bir-birinin ardınca ötərkən oyanar, yatağından qalxardı…

Qışda çöllərin, dağların nitqi tutular, donar, baharda dili açılar, yenidən çiçəklənərdi, yamaclar, ağ, lümlüt bədənlərindən utanar, novruzla birlikdə yamyaşıl bir şal bürünər, yaylalar sarı qarçiçəyi dövrünü sovub bənövşəyi dağ çiçəyinə bürünər, ağaclar gah yarpaqlayar, gah da xəzəlini tökərdi… Və zaman bir çay kimi qıvrıla-qıvrıla axıb getdikcə çöldəki hər şey boy atar, bir az da böyüyərdi… Quzular qoç olar, çəmənlikdə doxlaşar, dəli daylar madyan olub qan-tər içində yarışar, ərgən qızlar gəlin olub oğul-uşağa qarışar, imələyən uşaqlar ayaq tutar, yeriyərdi… Ay dolanar, gün dolanar, fəsillər bir-birini əvəz edər, amma anamın günləri, saatları, hər fəsil eyni qalardı, onun taleyi heç dəyişməzdi. Əziyyət içində, kərpic evdə üç fəsillik bir vaxt keçirər, qar əriyincə, əlinə kürəyi alıb həmişə eyni yerdən başlayardı həyata. İlk baharda ağaclar yenidən boy atar, yayda bar verər, hər payız solardı yenidən… Və hər qış daha bir az qar yağardı başına... O, bizim evin durnası idi ilk baharda, əhəng üzlü kərpic evin çardağından havalanar, qışdan əvvəl, yayda çöldən əl-ayaq çəkilər-çəkilməz süzə-süzə gələr, damın üstünə qonardı.

Quşlar gələr, quşlar gedər, anam tarlaya gedər, yenidən evə dönərdi, amma atam gəlməzdi… Atam yersiz-yurdsuzdu, sürgündə idi, xəbəri həmişə Fizandan gəlirdi… Anam atamın nə vaxt getdiyini, nə vaxt gələcəyini də bilməzdi. Anamın əri yoxdu, Fizandakı uşaqlarının atası idi… Uşaqları atalarının nə vaxt getdiyini soruşanda öz təqvimindən bir zaman kəsimini dilə gətirirdi. Di gəl bunu anla, anlaya bilsən…

- Ana, atam nə vaxt getdi?
- Ərik ağacları çiçəkləyəndə…
- Martdamı? Apreldəmi?
- Nə bilim, narın bir yağış yağırdı…

O ərik ağacları hansı ilin baharında çiçəkləmişdi, anamla atamın arasına yağan o yağış hansı ildə yağmışdı, hansı baharın yağışı idi, məlum deyildi…

Zalım aylar, şər illər, çətin günlər hamısı anamın çiyinlərində keçərdi. Həftəni, günü izləməsinə gərək yoxdu, günləri bir-birindən yamandı. Saata, dəqiqəyə darılmazdı heç. Saat əqrəbi, dəqiqə əqrəbi, siferblat, dəqiqə, saniyə? Ədədləri bilməzdi ki...

Atam kənarlarında qırmızı və mavi naxışları olan, naxışları bir-birinə dolanmış qırmızı, mavi iplərə bənzəyən zərflərlə məktublar göndərərdi. Əvvəldən axıracan böyük hərflərlə yazılmış, duyğulu, ümidli, sevincli, kədərli məktublar… Bəzən uzaq bir çöldə yazılmış o məktubların sətirləri arasından sərt bir külək əsər, sözə çevrilən hərflər bir qum fırtınası qoparardı. Nə hüznünü yaşaya bilirdi, nə də sevincini. O məktubları anam özü oxuya bilməz, dilini başa düşməzdi…

Çölün yazdığı qədim kitabı, hər fəsil dəyişən əlifbasını əzbərdən oxuyardı. Neynəsə də sovxaya qalmış hərfləri bir-birinə calaya, ərinin ürək sözlərini heç cür səsləndirə bilməzdi. Məktəbdə bir gün, molla məktəbində on beş gün oxumuş, molladan öyrəndiklərini hələ də unutmamışdı.

- Elə gözəl oxuyardıq ki… - deyər, zülfləri dolaşıq bir kiçik qız olar, düz kəndinə gələr, hocasının rəhili önündə diz çökərək oxumağa başlardı: - Əlifim çubuq kimi, Be, çanaq kimi, Te, ona bənzər, Se, ona bənzər. Cim, qarnında bir nöqtə, Ha, ona bənzər, Hı, ona bənzər. Kaf, qoyun başlı, Kef, quzu başlı. Tı, dovşan qulaqlı, Zı, ona bənzər. Sin, dəvə dodaqlı, Şın, ona bənzər…

Atamın məktublarını təzəsi gəlincə oxudurdu. Mənim qiraətimi çox bəyənirdi, bacım məktubu hıqqana-hıqqana höccələyərək oxuyana qədər barmaqları ilə qızcığazın başını dimdikləyər, məktubu ondan alıb mənim əlimə dürtərdi:

- Bu qız mənə çəkmiş, çəkməz olaydı, mənim kimi korafəhmdi... Al bu məktubu, gözəl-gözəl oxu, quzum…

Atam məktubunu "Sarı Sultanım" deyə başlayınca, anam bizi eşidirlərmiş kimi həyəcanlanır, narahat olur, yanaqları xəfifcə qızarır, tez qalxıb qapını-bacanı yoxlayırdı. Kimsənin eşitmədiyinə əmin olandan sonra mənim şəxsimdə atama hirslənirdi:

- Sarı Sultanım nəymiş! El-obadan ayıbdı! Sus! Elə oxuma!
- Bəs necə oxuyum, ana! Elə yazır!..
- Olsun, orasını oxuma! Korsanmı?
- Hə, koram! Onda atam da belə yazmasın! Mən nə bilim?
- Allah atanın canını alsın! Əvvəldən qədrimi-qiymətimi bilsəydi, nə vardı? Belə yazmasa kim küsər!
- Oxuyummu, ana?
- Əvvəlini oxuma! Keç, aşağısını oxu…

Mən məktubun sətirlərini bir-bir sözə çevirib anamın könlünü aldıqca dodaqları yaşmağının altında xəfifcə titrəyirdi. Gülümsəyirdimi? Bilmirəm. Oxuya-oxuya əzbərlədiyim məktubun satılan tarlanın geri alınacağını deyən hissəsinə çatanda nəfəsini çəkmədən dinləyər, sonra yaylığının ucuyla yanaqlarına düşən yaşı silərdi…

Anamın təqviminə görə neçə il, neçə ay, neçə əsr keçmişdi, bilmirəm, amma atam çoxdan getmişdi və illərdi geri dönmürdü. Atamı ilk dəfə nə vaxt görmüşdüm? Xatırlamıram. Amma atasız dil açıb atasız ayaq tutub yeriyən kiçik qardaşımın divardakı şəklə baxıb-baxıb anama suallar yağdırdığı yadımdadı. O soruşduqca anam da bir-bir öz təqvimini vərəqləyərdi.

- Ana, atam gələcəkmi?
- Ölməyə getmədi ki! Gələcək, əlbət...
- Nə vaxt gələcək?

"Nə vaxt" sualı çətin sualdı, anam o anda bir az düşünər və Sultan təqvimini (yəni öz təqvimini) işə salaraq tarixi bir hadisənin adını çəkərdi:

- Dağlara qırov düşəndə.
- Qırov nə vaxt düşəcək?
- Qovaqlar xəzəlini tökəndə.
- Qovaqlar xəzəlini niyə tökmür?
- Yarpaqlar beləcə dayanıb-durası deyil ki, guzum, vaxtı çatanda tökələcək. Durnalar köçəndə yarpaqlar da tökələcək.
- Durnalar nə vaxt köçəcək?
- Bostanlar sovulanda.
- Bostanlar sovuldumu?
- Yox.
- Nə vaxt sovulacaq?
- Qoç qatımından əvvəl…
- Qoçlar hara qatılacaq?
- Qoyunların içinə.
- Niyə?
- Onlardan quzular doğulacaq.
- Quzular nə vaxt doğulacaq?
- Qarçiçəyi çıxanda.
- Qarçiçəyi nə vaxt çıxacaq?
- Atan gələndə!!!
- Atam nə vaxt gələcək?..

…

Sultanın təqviminə görə, dağlara qırov düşəndən az sonra düzənliyə qar yağar, qaraqış qapını alardı. Qarayel adamı buz kimi, köz kimi kəsəndə isə qar dağın ətəklərindən yuxarı dırmaşar, havaya, suya, torpağa və anamın içinə od düşərdi. Qarçiçəkləri şam kimi yanaraq çəmənə çıxanda, ilk bahar gələrdi, ardınca da döl tökümü… Mart - doqquzu, aprel - beşi, leylək - qışı, Xıdırilyas… sonra gilas ağacları çiçəkləyir, tutlar yetişir və çölə-düzə yay gəlirdi. Yay gəlincə də arpa, buğda orağa, öküzlər xırman yerinə, saman bir tərəfə, dən bir tərəfə… Durnalar ikiyə bölər-

di anamın illərini, durnaların köçü yay ilə qışı bir-birindən ayırardı… Xəzəl dəmini, qoç qatımını yaydan, avarayı (fevralı - xalq deyimi) da qaraqışdan sayardı anam və durnalar gedərkən dağlara qırov düşərdi…

Evin ən kiçik oğlu Hakan atasının nə vaxt getdiyini, nə vaxt gələcəyini bilmədən məktəbə getdi, mən isə nə vaxt doğulduğumu… Bürcüm oğlaqdımı? Quzumu? Qoyunmu? Qoçmu? Xoş bir xəyalla qəzetdən bu falı oxuya bilmədim…

Anam ocağın başında dovğanı bulayarkən qatıq çürüməsin deyə qazan qaynayana qədər yanında gözləyər, uzun saplı çömçəsiylə çoxlu qarışdırardı. Mən də bürcümü öyrənmək üçün anamın qarşısına keçib əbəs yerə ili, ayı, günü axtarardım…

- Ana, mən haçan doğuldum?
- Sənmi? Eee, vergiyığanlar xırmanı müsadirəyə gəldiyi il!
- Xırman zamanımı doğuldum?
- Yox, o ilki xırman zamanı sənin hələ iyin-tozun da yoxdu…
- Bəs vergiyığanlar xırmanı müsadirəyə nə vaxt gelmişdi, ana?
- Atan tutulan il.
- Atam nə vaxt tutuldu?
- Öküzlərimizin ikisi birdən öldüyü il.
- Öküzümüz nə vaxt öldü, ana?
- Bağlar sovulanda.
- Mən bağlar sovulandamı doğuldum?
- Yox!
- Soruşuram, bəs nə vaxt, ana?
- Bağlar sovulandan çox sonraydı, çöldən əl-ayaq çəkilmişdi. Çox soyuq idi, qar yağırdı…
- Yaxşı də, ana, qar hər il yağır! Sən yadına sal bir…. Payız idimi? Qışdımı? Qar vardısa, qış idi, yaxşı, qışın hansı ayında doğuldum?
- Qar yağırdı!!!
- Tamam, qış idi, qar nə vaxt yağırdı?
- Hə, sən doğulanda kənddə bir dava oldu!
- Dava nə vaxt oldu?
- Atanın kəndxudalığa namizəd olduğu il.
- Atam nə vaxt namizəd oldu?
- Kənd mollasının öldüyü il.
- Molla nə vaxt öldü?
- Kənddəki davada, ara yerdə güllə dəydi.
- Molla öləndə qış idimi?
- Molla atanın tutulduğu il öldü!
- Ana, deyirsən, qışda, mən qışdamı doğuldum?
- Qaraqışmı, deyim, yanvarmı, fevralmı? Allahım, nə bilim, qaraqışın içindəydik.
- Qaraqışmı? Qaraqışın hansı ayı? Dekabrmı?
- Mən nə bilim, o dekabrdı, dekabr hələ yoxdu…
- Dekabr, yanvar ayı deyilmi? Yanvar ayının əvvəli idimi? Sonu idimi?
- Ocağa bir qazan dovğa qoymuşdum. Oxlovla onu qarışdırarkən belimdən bir sancı tutdu. Böyük qardaşına, qaç, dedim, qaç, Naciyə bibini çağır...
- Ay ana, məni necə doğduğunu soruşmuram! Nə vaxt anadan olmuşam! Haçan?
- Sən doğulmamışdan bir gün əvvəl ala inəyimiz buzovlamışdı, axşama yaxın bir sərnic ağzınacan süd sağıb gəldim. İndiki kimi yadımdadı! Özü kimi ala bir buzovu vardı, sən o buzovla yaşıdsan!
- Yaxşı də, ana, indi ala inəyin buzovunu haradan tapıb soruşaq, kim bilir hansı ilin qurban bayramında boğazına bıçaq çəkilib. Sən yenə bir düşün, xatırla…
- Nə bilim? Mənim ayım, günüm bəlliydimi? Bəxtiqaranın biriydim. Böyük bacın doğulanda, dedilər, qış yarıdı…
- Bəs mən?..

- Aman, guzum, məni yorma, ayı, günü, vaxtı, saatı hardan bilim...

- Ay anaa!

- Dərdim atandı! Sus! Keşkə doğulmayaydınız! Sizə görə atanızın qəhrini çəkdim… Doğulmasaydınız mən də bu uçuq divar dibində oturmazdım heç olmasa. Qalx, mənə bir tas su gətir, ürəyim yandı…

…

Gəlinlər nazlanaraq yaşmağını sıyırıb üzünü azca göstərəndə anam əvvəl uşaqlarını rahatlayar, sonra köçəri quşlar kimi əhənglənmiş kərpic evimizin çardağından uçardı. Leyləklər yuvaya dönəndə o, çölə gedərdi. Anam çölün ən qərib quşu idi, torpaqsız, arxasız, kölgəsiz, kimsəsiz…

Belə kişi kimi güc vurar, kürəyi əlinə götürdümü torpağı küləyin qarı sovurduğu kimi sovurardı. Gah başının üstündə, gah da şitillərin dibində ahənglə qalxıb-enən kətməni əllərinə necə də yaraşardı. Oraqla işləyəndə başağı əlinə dəstə-dəstə yığar, onu çalanda başaqlar dərz-dərz olardı…

Çöldəki otların, çiçəklərin, quşların, ağacların diliylə danışardı. Qar düzənlikdən çəkilib dağların döşünə doğru gedəndə çölün bahar fəsli yetişər, yaşıl çəmənlərə rəngarəng çiçəklər səpilərdi. Anam yol boyunca gördüyü çiçəklərin adlarını bir-bir sadalayar, qarçiçəyi sümbüllü türkülər zümzümə edərdi. Mən anamın dalınca tarlaya gedərkən, onun dilində min bir rəngə bürünən bu çöl qızlarının bir neçə günlük zərif rənglərini və incə, xəfif, kövrək adlarını öyrənər, yaddaşımın ağ vərəqinə yazardım…

Anamın əzablı, əziyyətli Sultani illəri ilə bizim hazırkı təqvimimizin kədərli illəri bir-birinin ardınca keçib getdi. Sürgün kimi ayrıldığımız o kənd, bağımız-bağçamız, ala inək, boğazı yoluq toyuq, qarabaş, muncuq… hamısı çox uzaqda qaldı. Beş uşaqlı, əhəngli kərpic evi isə yağışlar əritdi, sellər yuyub apardı…

Şəhərdə yaşayırdıq...

Süfrədə hərənin bir qaşığı vardı və səhərlər düyü aşı əvəzinə çay içər, nazik yuxa əvəzinə sobadan təzə çıxmış baton çörək yeyərdik... Salonda, vitrinli şkafın içində ağ-qara bir televizor, mətbəxdə soyuducu, yerdə fabrik xalçaları, pəncərələrdə tül pərdə və divarda böyük bir ayna ilə atamın Fizandan gələrkən gətirdiyi batareyalı bir saat vardı…

Anamın saçları günbəgün ağarırdı, bacımı köçürdü, böyük qardaşlarımı da yan-yön elədi. Atam yenə uzaq bir ölkəyə getdi, bu dəfə anamın çox istədiyi zəngli saatlardan gətirəcəkdi. Kiçik qardaşımla mən artıq anamın can yoldaşlarıydıq…

O il litseyə birinci sinfə getdim, Hakan da beşinci sinifdə oxuyurdu. İkimiz də səhər öynəydik. Məktəb uzaq idi, bir səhər fizika dərsinə gecikdim. Üstəlik tələsikdə fizika kitabımı da unutmuşdum, fizika müəllimi zalım adamdı, bir də musiqi müəllimindən qorxardım…

O axşam evdə anama divardakı tık-tak, tık-tak işləyən saatı göstərib bərk-bərk tapşırdım:

- Ana, səhər saat yeddinin yarısında məni oyat, bu dəfə də geciksəm, qayıb yazacaqlar...

- Yaxşı, quzum, yaxşı, - dedi, - ananın gözünə yuxumu gedər, sən narahat olma, mən yeməyini hazırlayar, səni tezdən oyadaram…

Elə o gündən sonra yuxu mənə haram oldu. O gündən sonra anam isti yatağımdakı rəngli yuxularıma qənim kəsildi. Həftənin beş günü bəs eləmirdi, şənbə, bazar günləri də başımın üstünü kəsdirirdi. Hər gün, hər səhər dan yeri ağarmamış alıcı quşlar kimi yorğanımı qapır, məni silkələyirdi:

- Qalx, guzum! Qalx bir! Məhəllənin uşaqları məktəbə getmiş, küçədə ins-cins yoxdu, qalx! Məktəbə gecikərsən, yenə sənə qayıb yazarlar...

- Ana, bu gün istirahət günüdü! Məktəb yoxdu…

İstirahət günü məni oyatdığına görə min dəfə peşiman olub deyinərdi.

- Əvvəl malın, davarın dərdindən yata bilmədi quzularım, indi də məktəb… Mən başıbatmış ayı, günü, saatı bilsəydim nə vardı!

Şənbə, bazar günləri anamın əlindən qurtarmaq üçün fikirləşib bir çarə tapdım. Yatağımın baş tərəfinə süpürgəni və xəkəndazı qoyurdum. Anam bunları görəndə məni durquzmaqdan vaz keçirdi. Şənbə, bazar günlərini beləcə öyrəndi. Amma qış səhərlərində saatın neçə olduğunu nə

bilsin. Kənddəki kimi günəş doğulmadan qalxırdı, küçədə kimsənin olmadığını görən kimi tələşla məni oyadır, məktəbə özü gedəcəkmiş kimi tələsdirirdi:

-Qalx, guzum, qalx! Xalxın uşaqları çoxdan getmiş, məhlədə məktəb uşağı qalmamış, sən yenə gecikdin, qalx!

Köz basılmış abdal kimi yatağımdan atılır, gözlərimi ovaraq divardakı saata baxıb donquldanırdım:

- Ana, hələ səhər açılmayıb! Allahı sevərsən, burax, xoruzlar oyanmamış sən oyanırsan! Bu saatda təbii ki, küçədə kimsə olmaz! Bir saat sonra oyat, yaxşımı?

- Yarım saatmı? Yaxşı, guzum, yat, yaxşı.

On dəqiqə sonra anam yenə gəlirdi:

- Yarım saat oldumu, guzum, qalx, saata bir də bax, amandı gecikmə…

- Ay Allah, ana! Hələ çox tezdi, qurban olum, qaranlıqda durquzma məni, yeddinin yarısında oyat, yeddinin yarısında…

Qadın çarəsizdi:

- Mən saatı bilmirəm, quzum, oyanıb qalxıram, küçəyə baxıram, kimsə yoxdu, camaatın uşağının məktəbə getdiyini düşünürəm…

Bir gün məni lap səhər azanında oyatdı. Yataqdan qalxdıqda məhəllənin imamı azana başladı. O gün qərar verdim: anama sovxaya qalmış saatı öyrətmək lazımdı, amma necə…

Anama bir dəftər aldım, əvvəl ədədlərdən başladım... Anam artıq kiçik bir qız idi, mən onun müəllimi…

- Ana, əvvəl ədədləri öyrənməyin lazımdı. İndi on ikiyə qədər say baxaq…

- Sayaram, canım, burda nə var. Bir, iki, üç … on bir, on iki..

- Yetər, on ikiyə qədər saydınmı, yetər. İndi bunların necə yazıldığını öyrənəcəyik. Bax, indi, bu neçədi?

- Saymağa sayıram, yazmağı bilmirəm, oğulum.

- Bax, bu "bir", ana, söylə görüm, "bir" nəyə bənzəyir?

- Birmi? Oxlova bənzəyir...

- Yaxşı, bunu unutma, "bir" oxlova bənzəyir. Bu neçədi? Birdən sonra hansı ədəd gəlirdi?

- İki…

- Yaxşı, "iki" neyə bənzəyir, ana?

- Bu sovxanı heç nəyə bənzədə bilmirəm, guzum.

- Sağ qolunu göstər, hansıdı?

- Bax, budu.

- Saata bax, bir hansıydı?

- Bax, budu, oxlova bənzəyən.

- Bəs oxlovun yanındakı? Bax, bu da "iki". Birin yanından sağ qoluna doğru get, "iki"di. Yaxşımı? Necə oldu?

- Birin yanından sağ qoluma doğru gedəndə ikidi.

- İkidən sonra sağa doğru get. Bu da "üç"dü. Say görüm.

- Bir, iki, üç…

- Birdən başlayıb hansı tərəfə doğru sayacaqsan?

- Sağ tərəfə doğru.

…

- Oxlovun yanında bir də bir yuvarlaq xəmir kündəsi olsa, "on" olar. Elə deyilmi, guzum? Cüt oxlov olsa, on bir, yanındakı da on iki… On ikidən sonra, yenə bir gəlir…

- Bəli, ana, indi oxlovdan başla, say baxaq, sağ tərəfə doğru…

- Bir, iki, üç, dörd… on bir, on iki?

- Bax, öyrəndin ana, gördünmü?

- Atam başı batmış o il müəllimlə dalaşmasaydı, öyrənərdim, oğlum. Əlif xalan üç il getdi məktəbə, hər şeyi öyrəndi, saatı da bilir, pulu da... Denən, atan boynu sınmış, kafir kimi hər şeyi bilsə də otuz ildə mənə bir şey öyrətdimi...

Bir oxlov kimi, iki heç bir şeyə bənzəməz! Üç qəssab çəngəli… Yeddi oraq kimi, səkkiz gözlüyə bənzər… ədədlər qurtarmışdı, daha nə qalmışdı ki... yalnız bir dəfə göstərdim, əzbərlədi, su kimi içdi anam…

- Bax, ana, bu saat əqrəbi, bu dəqiqə əqrəbi, bu da saniyə…

- Tamam, oğulum, - dedi və dərhal da öz dilinə çevirdi: kiçik, iri başlı olanı saat əqrəbi, uzun, qara olanı dəqiqə əqrəbi, dəli kimi fırlananı da saniyə...

Saatı əlimə aldım, burmacını burub-burub soruşurdum:

- Saat əqrəbi birin üstündə, dəqiqə əqrəbi də on ikidə, saat neçədi, ana?

- Saat bir!

Hər dəfə dəqiqə əqrəbini bir dövrə artırıb soruşurdum:

- Dəqiqə əqrəbi daha bir dəfə fırlandı, indi neçədi?

- İki.

- …Neçədi?

- …Üç

Hərdənbir karıxsa da bütöv saatları öyrəndi. Bir-iki gün ara verdik. Bazar axşamı saatı divardan çıxardıb burmacını burdum. Saat yeddi idi. Möhkəm-möhkəm tapşırdım:

- Məni saat yeddidə durquz…

Bir az tərəddüd etdi:

- Olar, yaxşı, saat əqrəbi yeddiyə, dəqiqə əqrəbi də on ikinin üstünə gəlincə durquzaram.

Səhər anam çiynimdən tutub silkələdi:

- Qalx, oğulum, qalx, fikrim qarışıb, hələ bir saata bax!

Saata baxdım, yeddiyə iyirmi dəqiqə vardı.

- Bax ana, - dedim, - bax, o dəqiqə əqrəbi var ha, on ikinin üstündə olanda durquz məni…

Aradan bir neçə dəqiqə keçmişdi, tələşlə məni silkələdi.

- Anan qurban, oğlum, bu sovxa saniyə var ha?..

- Bəli, ana!

- Oğlum, saniyə məni çaşdırır. Dəqiqədə bir on ikinin üstündən keçir!

- Ana, sən saniyəyə fikir vermə! Qoy gəlib keçsin, sən dəqiqə əqrəbinə bax!

Bu dəfə anam hər dəqiqə başı gəlirdi:

- Oğlum, saniyə sovxa məni çaşdırdı, bax gör yeddi oldumu? Saniyə əqrəbi gəlib keçir, gəlib keçir, dəqiqə əqrəbi isə yerindən tərpənmir. Bu sovxa sürətlə fırlanan kimi çaşıram, bu olmasa daha yaxşı öyrənərdim...

Saatın saniyəölçəni gözümdən düşdü. Səhərisi saatı da qoltuğuma vurub saatsazın yanına getdim. İçəri girən kimi soruşdum:

- Usta, bu saniyəölçəni çıxartsaq, saat yenə işləyərmi?

- İşləyər, işləyər… - dedi, - niyə çıxardım?

- Sən çıxart, usta, çıxart, çıxart! - Dedim.

Deyə bilmədim ki, bu sovxa anamın fikrini qarışdırır. Usta başını bulayaraq saatın içini açdı, saniyəölçəni ehmallıca tutub çıxartdı. Batareyasını təzədən taxdı, qulaq verdi. Saat işləyirdi, yenə həmin səs gəlirdi: Tıq-tıq, tıq-tıq…

Saniyəölçəni çıxardandan sonra anamın fikrini qarışdıran olmadı. Hər saatbaşı soruşurdum, həmişə də doğru cavab verirdi. Növbə yarımları öyrətməyə çatdı. Bir yarım! İki yarım! Yox, alışa, yadında saxlaya bilmədi. Qarşısına aşılmaz bir dağ itələmiş, özünü də bərk qısnamışdım...

- Ana, çətin deyil, yarımları da öyrənəcəksən.

- Amaan! Yarımı yerə batsın! Yarım olmasa, kim küsəcək...

- Bax, belə olsa, bir yarım… - dedim, anam gileyləndi:

- Yarımı icad edənin evi başına uçsun, yaxşıca öyrənmişdim saatı...

Saatın içində saat əqrəbi ilə dəqiqə əqrəbi qalanda anam təzədən həvəsləndi. Saat, saat yarım… dəqiqə əqrəbi 6-nın üstündə, saat əqrəbi 1 ilə 2-nin arasında, əqrəb 8 ilə 9-un arasında, dəqiqə əqrəbi 6-nın üstündə… Sovxa yarımlar heç cür ağlına batmırdı. Xeyli təkrarladım, amma yarımları tam öyrənə bilmədi. Hərdənbir yarımı icad edənlərə hirslənsə də, neçə aydan sonra öyrənməyə başladı. Saatı göstərib deyirdi: bir, bir yarım, iki, iki yarım…

Bir gün güldü.

- Məsələ dəqiqə əqrəbindəymiş, - dedi. - Dəqiqə əqrəbi fırlanıb 12-nin üstünə gələndə, saat əqrəbi də başqalarının üstünə gəlir. Dəqiqə əqrəbi fırlanıb 6-nın üstünə gedəndə saat əqrəbi də iki ədədin arasına gəlir. O zaman yarım olur…

Anam artıq saatı öyrənmişdi, dəqiqə əqrəbi necə olsa fırlanıb-fırlanıb gəlir, saat da ya üç, ya üç yarım, ya dörd, ya da dörd yarım olurdu. Dörddəbir, dörddəbirdən keçdi, iyirmi var, iyirmi beşi keçir… deyə öyrətməyə başlasam, fikri yenə qarışacaqdı. Məni hər səhər yeddi yarımda dur-quzurdu və ikimiz də xoşbəxt idik…

Bir axşam dərsimi hazırlayarkən anamı sınamaq istədim. Saata baxdım. Nə saat tamdı, nə yarım, səkkizdən on keçmişdi.

- Ana, - dedim, - de görüm, saat neçədi?

Anam saata baxdı... Saat əqrəbi ilə dəqiqə əqrəbi onun öyrəndiyi vəziyyətdə deyildi. De-yinməyə başladı:

- Səkkiz desəm, səkkiz deyil, səkkiz yarım desəm, o da deyil…

- Söyləsənə, ana, - dedim, - öyrəndin də, de görüm…

Uzun-uzadı saata bir də baxdı, dodağının altında nəsə mızıldadı və boynunu büküb gözlə-rimə baxdı:

- Saat indi çox dağınıqdı, oğlum, - dedi, - dəqiqə əqrəbi bir az özünü toplasın, ondan sonra deyərəm…

Türkcədən çevirən: Eyvaz ZEYNALOV

Ürəyində söyən uşaq

Düzənlik sonu olmayacaqmış kimi getdikcə uzanır...

Asfalt yol düzənliyin tam ortasından keçən çayın hər qıvrımına uyğunlaşır. Çay və yol, bir-birinə sarılan iki qara və yaşıl ip kimidi. Maşınımız onların aralarından bir məkik kimi şütüyür. Hərdən çaya lap yaxınlaşır, hərdən də ondan uzaqlaşırıq. Çay, yol və biz dolana-dolana irəliləyirik…

Səssiz, sakit, aydın bir səhər, günün ilk saatları... Günəş sevinclə yüksəlir, alovlanıb yanır. Hava aydın, səma təmiz, mavi, ışım-işım işıldayır. Amma quru bir sazaq var, soyuqdu…

Daxilimdə bir peşimanlıq dənizi dalğalanır. Alışdığım bir şəhərdən ayrılığın hüznü ilə yaşayıram. Uzaq bir kənddə qoyub gəldiyim şagirdlərimi düşünürəm. Bilmirəm niyə, amma müfəttişliyə ürəyim heç cür qızmır. Neçə aydır özümü gözətçi kimi hiss edirəm…

Başımı maşının şüşəsinə söykəyirəm. Qulağıma uğultulu bir külək dolur, təkərlərin səsini dinləyirəm. Alnıma dəyən soyuqluq peysərimə doğru yayılır və canımdan bir üşütmə keçir…

Nəfəsim maşının şüşəsinə yayılır, qarşımdakı mənzərə get-gedə dumanlanır, çay, dağ, yol, ağaclar, yaşıl otlar bir-bir qeyb olur. Bir azdan heç bir şey görünmür. Dəbdəbəli evlərin divarlarından asılan qiymətli tablo kimi gözlərimin qarşısından sürətlə keçən mənzərələri qaçırmaq istəmirəm. Əlimi pencəyin qolundan içəri soxub dumanlanan şüşəni silməyə başlayıram...

Yolun ortasında, qarşımızda bir dəstə çöl göyərçini var. Göyərçinlər maşınımız yaxınlaşan kimi havaya qalxırlar. Maşını mən sürməsəm də göyərçinləri əzməsin deyə sağ ayağımı sıxır, qeyri-ixtiyari əyləci basıram. Maşın sanki yoldan son anda qalxan göyərçinin çaldığı qanadlarına toxunaraq keçir. Havada bir neçə dənə göyərçin tükü uçuşur, üzülürəm. Quşlara deyinir, hirslənirəm…

Çay ilə yolun arasında, çay yatağından daşan suların əmələ gətirdiyi kiçik göldə iki anqut suyu dalğalandırır, sürüşərək üzür. Onların əvəzinə mən üşüyürəm. Tüklərinə günəş şüası düşdükcə iki qızıl külçəsini xatırladan anqutlar qamışlığa doğru üzüb onların arasında gözdən itirlər…

Maşınımız havanı yararaq irəliləyir. Bir ağaclıqdan keçirik. Biz sürətlə gedərkən yolun hər iki tərəfindəki qovaqlar arxada sanki bir-birinin ardınca aşırlar…

Hava tamam açılır, bir az istilənir…

Bahar ətəyində nə qədər zümrüd varsa, bu düzənliyə səpmiş. Qara yol, yolun kənarıynan axıb gedən firuzə rəngli çay və başı buludlara toxunan, göyə yüksələn dağın qarlı yamaclarından başqa hər yan yaşıllıqdı…

Bir müddət sonra çayın sahilindən ayrılıb sola dönürük. Birdən yolun rəngi dəyişir. Torpaq yol düzənlikdən çəkib qoparır bizi. Maili yoxuşu çıxmağa başlayırıq. Heç beş yüz metr getməmiş yaşıllıqlar içində bir qəsəbə görünür. Kirəmit damlı, önü bağçalı evlərin hamısı bir-birinə bənzəyir...

Təftiş edəcəyimiz məktəb qəsəbənin yuxarısında, evlərin qurtardığı yerdən bir az hündürdə, evlərin başının üstündə nəhəng bir div kimi dayanıb. Bu bədheybət qəsəbədə yaşayan hər kəsi udacaq qədər böyükdü…

Məktəbin qarşısında geniş bir düzənlik var. Xırman yerinə oxşayır. Çünki keçən ildən qalan dənlər yaşıllaşaraq böyüyüb. Otlar qılçıq, saman arasından boy verib. Xırman yerində qışdan güc-bəla çıxdığı aydın görünən bir neçə eşşək otlayır. Havalar istiləndiyindən bir dəri, bir sümük qalan heyvanların uzanan tükləri tökülür...

Məktəbə tənəffüs vaxtı çatırıq. Bağça izdihamlıdı. Uşaqlar beçə verən arılar kimidi. Tək ayağı üstündə gəzənlər, xəyali bir sükanı fırladıb maşın sürənlər, ağaclara dırmaşanlar, ip üstündən atlananlar, top-top oynayanlar... Uşaqların hamısı öz aləmlərində, başqa bir dünyadadılar.

Uşaqların arasında bir müəllim hərlənir. Bizi görmür, arxası bizə tərəfdi. Bağçadakı yaşıllıqlar və yüzlərlə mavi önlük içində onun saçları dərhal gözə çarpır. Uzun, dalğalı, sapsarı saçları çiyinlərinə tökülüb, günəş kimi parıldayır…

Maşından düşüb məktəbin qapısına doğru getməyə başlayırıq. Uşaqlar ya əlimizdəki çantalardan, ya da yaddaşlarındakı hansısa oxşarlıqdan bizi tanıyırlar. Görən kimi qışqırmağa başlayırlar:

- Müfəttişlər gəldi!!!
- Müfəttişlər gəldi!!!

Uşaqların səsi məktəbin bağçasından aşıb dalğa-dalğa xırman yerinə doğru yayılır. Səslər xırman yerinə çatanda orada otlayan eşşəklərdən biri iştahla, həvəslə anqırmağa başlayır, sonra o birilər də qoşulur ona…

- Müfəttişlər gəldi!!!
- Aaaaaiiiiiih!!!
- Müfəttişlər gəldi!!!
- Aaaaaiiiiih!!!

Uşaqların səs-küyünü eşidən müəllim saçlarını geri atıb bizə tərəf döndü. Şagirdləri yara-yara gəlib bizi qarşıladı. Gülümsəyərək əlini uzatdı:

- Xoş gəldiniz, hocam, xoş gəldiniz, xoş gəldiniz…

Lap arxadayam. Müəllim mənə yaxınlaşıb əlini uzadır, göz-gözə gəlirik. Mən müəllimi tanıyıram, amma haradan? Onun tanış üzünü illər öncəki yaddaşımda axtarıram. Tapmıram. Müəllimin baxışlarında da çaşqın bir ifadə var. Müəllimlə eyni şeyləri düşünürük, amma ikimiz də əmin deyilik…

- Siz də… Eee, xoş gəldiniz.
- Xoş gördük, sağ olun…

Müəllim məndən nəsə soruşmaq istəyir. Elə mən də ondan. Amma başçımız imkan vermir, sözümüzü ağzımızda qoyur. Hələ məktəbə ayaq basmadan təftişə başlayır. Müəllimi növbətçi olduğuna peşiman eləyir.

- Növbətçisiniz?
- Bəli, hocam.
- Bağça növbətçisi?
- Bəəli.
- Demək, növbətçisiniz?
- Bəli!
- Növbətçiliyi bağçada eləyirsiniz?
- Bəli.
- Növbətçilik dəftərində qeydlər aparırsınızmı?
- Eee, bəli!
- Gözəl, demək, növbətçilik dəftərində qeydlər aparırsınız?

…

Məktəbin giriş qapısına çatırıq. Müəllimi xatırlayıram, adı dilimin ucundadı, söyləmək istəyirəm. Amma sualı sual dalınca düzən başçımız yenə mənə imkan vermir:

- Məktəbdə növbətçilik işinə çox diqqət yetirmək lazımdı!
- Elədi, çalışırıq…
- Növbətçilik işini, eee, növbəli yerinə yetirmək lazımdı!
- Eee, bəli, yerinə yetiririk, növbəli…
- Müdiriyyət lazımdı, indi sən növbətçilik sahənə, məktəb bağçasına dönməlisən…
-Bəli, dönürəm, hocam.

Məktəbə giririk, bu zaman dönüb arxaya baxıram, müəllimin gözü məndə qalıb, mənim də ağlım onun kim olduğunda...

Müdirin otağındayıq. Çay içirik. Otaqda danışılanları belə eşitmirəm…

Özümlə qovğadayam, yaddaşımı zorlamışam.

İyirmi il əvvələ qayıtmışam. Litseydə oxuyuram. 9/A sinfindəyəm. Taxtada qarışıq düsturlar… Arxada otururam. Lap qabaqda, müəllimin masasına bitişik yerdə saçları uzun, sapsarı, gözləri mavi bir qız oturur. Ayla!

Birdən Ayla böyüyür, müəllim olur. Pəncərədən çölə baxıram. Bəli, odu! Məktəbin bağçasında növbətçi olan Ayladı.

Dərindən bir ah çəkirəm. Çiynimdən dağ götürülmüş kimi rahatlanıram…

Bir azdan Ayla xanım müdirin otağına gəlir və içəri girər-girməz barmağını mənə tuşlayıb soruşur:

- Hocam, siz litseyi harada oxumusunuz?

...

Ayla xanımın bir xahişi də var:

- Hocam, mən ikinci sinifdə dərs deyirəm. Xahiş etsəm, mənim sinfimə siz gələrsinizmi?

Başçımızın üzünə baxıram, gözlərini yumub başını aşağı salaraq "olar," işarəsi verir.

- Yaxşı, - deyirəm, - yaxşı, gələrəm. Şagirdlərinizlə də tanış olarıq…

Ayla xanım otaqdan sevinclə çıxır…

Zəng çalınır, şagirdlər ikinci dərsə girmək üçün koridorlarda qaçışırlar. Sonra daha bir zəng səsi... Koridorlarda ayaq səsləri, müəllimlər də siniflərə tələsir.

Ayla xanım müdirin otağının qapısında gözləyir. Koridorda birlikdə addımlayırıq. O, iti-iti danışır. Bir anda şagirdlik illərimizə qayıdır, təkrar məktəbə gedirik və 2/A sinfinin qapısından içəri giririk.

Səssizlik…

Ayla xanım şagirdlərindən daha həyəcanlıdı. Bir tərəfdən özü haqqında danışır, o biri tərəfdən şagirdlərini tərifləyir:

- Bilirsiniz, bura sərhəd bölgəsidi, hocam. Bu qəsəbədə böyük bir əsgəri bölük var. Ərim bu bölüyün komandiridi. Bura ikinci şərq xidməti oldu mənim üçün! Bunlara keçən il də mən dərs demişəm. Hamısı da çox dinc, çox çalışqan, çox sevimlidi. Təbii, bəzən dəcəllik də edirlər, amma mən onları çox sevirəm! Onlara müfəttişlər gələcək, demişdim, gəlməyiniz yaxşı oldu.

Ayla xanım məni şagirdlərinə tanıdır və davam edir:

- Hocam, bir məsələdə çox çətinlik çəkirəm.

- Nədə?

- Bu qəsəbədə yaşayanlar azərbaycanlılardı axı!

- Bəli, bilirəm…

- Uşaqlar yerli şivəylə danışırlar. Çox məşğul oluram, amma istədiyim kimi alınmır.

…

Sinifdəki sakitlik pozulur. Şagirdlərin gözü məndədi... Səslər ucalır…

Ayla xanımın incə, sərt səsi sinifdə əks-səda verir:

- Haydı baxaq! Həyat bilgisi kitablarınızı çıxardın! Yüz yetmiş üçüncü səhifəni açın! Açdınızmı?

- Bəəəli!

Həyat bilgisi kitabları açılır. Yüz yetmiş üçüncü səhifədəki mövzunun başlığı böyük hərflərlə yazılmışdır: SİNİFDƏ ƏMƏL OLUNMASI LAZIM GƏLƏN QAYDALAR...

Ayla xanım soruşur:

- Dünən bir tapşırıq vermişdim, yerinə yetirdinizmi?

Sanki tapşırığı hamısı yerinə yetirib, bir nəfər kimi cavab verirlər:

- Bəəəli!

Öz şagirdlərimdən bilirəm. Tək-tək yoxlasaq, ən azı yarısı tapşırığını yerinə yetirməyib. Lakin soruşanda böyük bir coşğuyla, "bəəəli", deyirlər. Bu yaramazlar həmişə belədilər. Lazım olan şeyləri yerinə yetirməz, bir az qulaqardına vurarlar... Lazım olmayan şeyləri soruşsanız, ordan-burdan cavablandırarlar, amma mütləq yerinə yetirərlər...

Şagirdlərlə tanış oluruq. Bir-bir soruşuram:

- Sənin adın nədi?

- Zeynəb.

- Salatın.
- Cəmil…

Arxa sırada oturan şagird digərlərindən daha böyükdü. Gözlərinin içi gülür, növbəsinin çatmasını səbirsizliklə gözləyir. Göz-gözə gələndə hələ soruşmamış bir əsgər ədəb-ərkanıyla bərkdən adını söyləyir:

- Mənim adım Mirəli!
- Nə?
- Mirəli!

Ayla Xanımın qaşları çatılır, qulağıma doğru əyilir.

- Hocam, məktəbə bir il kec gəlib, bir il də sinifdə qalıb. Əslində gərək indi dördüncü sinifdə olaydı. Oxumağı da o qədər yaxşı deyil. Adı Mir Əlidi. Burada Mirəli, deyirlər…
- Yaxşı, Mirəli!! Otur görək.

Mirəli daha nəsə demək, danışmaq istəyir, amma nə söyləyəcəyini unudur, dodağını dişləyib başını qaşıyır, gülür və birdən gözlərində yeni bir işıltı peyda olur.

- Atamın da adı Cəfərdi!

Ayla xanım sanki xəcalət çəkir, yalvarırmış kimi Mirəliyə baxır, susmasını, oturmasını işarə edir. Mirəli başını qaşıyıb yerində oturur…

Uşaqların qarşısına keçirəm, şagirdlərdən birinə mövzunun başlığını göstərirəm.

- Oxu, baxaq…
- Sinifdə əməl olunması lazım gələn qaydalay!

"R" hərfini söyləyə bilməyəndə yoldaşları gülür…

- Demək, sinifdə əməl olunması lazım gələn qaydalar var, eləmi?
- Bəəəli!!
- Baxaq görək sinifdə əməl olunması lazım gələn qaydalar hansılardı? Kim söyləyəcək?

Bir neçə barmaq havaya qalxır. Baxışlarım sinfi gəzir. Qapqara gözləri ışım-işım işıldayan uşağı qaldırıram:

- Sən söylə.

Uşaq yavaş-yavaş, birtəhər söyləyir.

- Sinfin divarlarını çirkləndirməməliyyiiik!

Sinfin divarlarına baxıram. Uşaqların boylarının çatdığı yerəcən ayaq izləri, palçıqdı… Uşaq bir xahiş kimi cavab verir, olsun, saçlarını oxşayıram:

- Afərin sənə, - deyirəm, - daha kim söyləyəcək?

Bu an bütün barmaqlar havaya qalxır. Səhv etdiyimi kec başa düşürəm, amma uşaqlara söz verməsəm olmaz.

- Sən söylə.
- Taxtanı da çirkləndirməməliyik.

…

- Masanı da…
- Sən söylə.
- Şüşələri qırmamalıyıq!
- Partaları da qırmamalıyıq.
- Şkafı da…
- Kitabları cırmamalıyıq.
- Dəftərimizi də…

Yazı taxtasını qaralamışdılar, taxta çirkliydi, müəllimin stolunun bir ayağı qırıqdı, şüşələrdən ikisi sınıqdı, dəftərlərin, kitabların kənarları cırıqdı…

Mirəlinin barmağı da qalxır. Ona yaxınlaşıram.

- Sən söylə, Mirəli.

Mirəli birdən susur, cavab verə bilmir, yenə nə söyləyəcəyini unudur.

İlk cavab verən şagirdin cavabını doğru kimi qəbul etdiyim üçün cavabların ardı-arası kəsilmir. Barmaqlar hamısı havadadı. Çarə nədi, bu dəfə iş-işdən keçib, hamısını dinləyirəm, ürəkləri istəyən kimi cavab verirlər.

- Etməməliyik, atmamalıyıq, tutmamalıyıq, qırmamalıyıq, tökməməliyik…

Mirəli yenə barmağını qaldırır. Söyləyəcəyini unutmamış qaldırmaq, nə söyləyir-söyləsin, onun verdiyi cavabı da doğru kimi qəbul etmək, sonra saçlarını oxşamaq, "afərin" demək istəyirəm. Arxa partaya qaçaraq çatıram:

- Hə, Mirəli, haydı, söylə görüm.

Mirəli başını qaşıyır, bir gözünü yumub yuxarı baxır. Bütün sinif onun cavabını gözləyir. Ayla xanım büruzə verməsə də mənim Mirəli ilə maraqlanmağımdan narahatdı, sıxılır.

Sükut hökm sürür…

- Hə, Mirəli, haydı söylə…

Mirəlinin birdən gözləri parıldayır. Ayla xanımın şagirdlərinə tərgitmək istədiyi şivə ilə cavab verir:

- Müəllim bizi döyəndə ürəyimizdə onu söyməməliyik!!!

Türkcədən çevirən: Eyvaz Zeynalov

Allah görər

Uzun Çarşı hər cür peşə sahibinin olduğu bir Osmanlı bazarı idi. Misgərlər, dəmirçilər, qalayçılar, dülgərlər, palançılar, nalbəndlər, pal-paltar, taxılsatanlar və ədviyyatçılarıyla əsrlər boyu keçmişi gələcəyə daşıyırdı…

Onlar bir Ahi* idilər və birdən-birə qeybə çəkildilər. Qalanı ağzına bir ovuc ayaqqabı mıxı doldurараq bir-bir əlinə tüpürüb ayaqqabı mıxlayan çəkməçilər də tərk etdilər. Onların Qalanın ətəyindəki yastı-yapalaq komaları da bir-bir itdi-batdı.

Əvvəl taxta qapılı, iri asma kilidli, köhnə dükanlar sökülüb yerində yeniləri tikildi. Sonra mis qazanlar polad qazanlara, qalaylanmış bəzəkli qablar çini qablara, quyruqlu* tavaya, turşu, bəhməz küpləri kapron bidonlara çevrildi…

Keçə palanlar və yəhərlər kreslo örtüyü, döymə nallarla at muncuqları maşın əşyaları, naxışlı qumaşlar, uzun qadın paltarları, parçalar manekenlərin əynində hazır paltar, çörək taxtaları, divanlar, naxışlı şkaflar tez bir zamanda mebel oldu.

Çayın sahilində qəhvəxana binaları, içindəki masalar, kürsülər, samovarlar, stəkanlar da dəyişdi. Lakin qəhvəxana əhli düşmənə müqavimət göstərirmiş kimi müqavimət göstərdi, heç dəyişmədi.

Təqaüdçüsü, məmuru, işçisi, kəndlisi, dükançısı, almançısı*, heç biri dəyişmədi. Uzun Çarşının o fərqli rəngi, abdallar* da... Onların zurna, təbilləri, sazları və qəmli skribkaları onsuz da əsrlər boyu eyni idi.

Bu qəhvəxanalarda hökumətlər qurulur, yıxılır, buğdanın, arpanın qiyməti təyin olunur, sənədlər alınıb verilir, zavod fəhlələrinin tətil qərarı təsdiqlənirdi. Milli komandanın heyəti bu qəhvəxanalarda seçilir, axşamkı serialın namərd oyunçusu burada söyülürdü.

Həzrəti İsmayıla göndərilən qurbanın qoçmu, qoyunmu, toğlumu, şişəkmi olduğu haqqında qərarlar verilir, o il həccə getməyin qaydaları bu qəhvəxanalarda qoyulardı… Bu qəhvəxanalar şəhərin döyünən nəbziydi.

Bazardan bir həftəlik meyvə, tərəvəz və digər ehtiyaclarını alan, ya da ehtiyaclarını təmin etmək üçün bazara gedən qadınlar ərlərini tapmaq üçün bu qəhvəxanaların qabağına gələrdilər. Bu qadınlar əvvəl qulluqçuya müraciət edərdilər:

- Bizimki burdadımı, qadasını aldığım?

- Burdadı, bibi.

- Yenə oyun başındamı?

- Həə, bibi, indicə oynayırdı. Çağırımmı?

- Çağır, balam, oyun başında canı çıxacaq, o oyun daşları qoy onun başdaşı olsun, mən də onun üç ayda bir verilən təqaüdünü "rəhmətliyin parası" deyərək, ağız dadı ilə xərcləyim. Qollarım düşdü, bu sovxaları daşıya bilmirəm, mənim nə ölümüm var burda, guzum…

- Quzum, bizimki burdamı?

- Burda, xala.

- Çağır görüm, gurban olduğum, hər həftə məni bura gətirdir, gözü kor olsun. Onun tayları həccə getdi, bu da qəhvəxanada yarma ayırtlayan kimi okey* daşı seçir. Heç lazım olanı eləmir. Desəm, bağçanın daşlarını təmizlə, xəstəyəm, ölürəm, deyib yatar. Qəhvəxanaya gələndə tez gəlir. Yekə kişi eldən-obadan ayıb eləmir, cahıl-cuhul da deyil.

Qulluqçular da qadınlara, "yaxşı, bibi", "yaxşı, xala," deyib içəri girər, oyunçuları oyundan ayıran bəd xəbəri onlara çatdırardılar:

- Əmi, bibim gəldi, vallahi, üzünü bir turşudub, bir turşudub! Bəri başdan kəlmeyi-şəhadətini-filanı de, fatihəni oxu ki, heç olmasa o dünyaya imanlı gedəsən. Deyimmi, burda deyil?

- Əmi, sənin arvadın gəldi, borclun gəlsə bundan yaxşıydı, vallah. Vuruşmağa bəhanə axtarır, üzünü görsən, üç gün yemək-içməkdən kəsilərsən, vallah. Deyimmi, məscidə getdi, burda yoxdu?

Bu qəhvəxanalarda qəliz söhbətlər olar, xoruz səsi eşitməmiş xəbərlər eşidilərdi. Bu qəhvəxanalarda dövlətli, kasıb, qoca, gənc, manıs, ağa ayrı-seçkiliyi olmazdı.

Almançı Faiqlə Hacı Duran Uzun Çarşı qəhvəxanalarının ən köhnə müştərilərindəndi.

Almançı Faiq nəhəng adam idi, sifəti uzun burma bığlarıyla qaranquş tutmuş pişiyə oxşayırdı. Boynundan sallanan asılı qalardı. Başına panamasını keçirib qalxanda dağ kimi görünər, qapıdan hansısa Pirə baş əyirmiş kimi ikiqat keçərdi. Oyun oynayarkən çəkdiyi daşı ortaya atar-atmaz dərhal qara burma bığlarını eşərdi.

- Mənim gəzib-dolanmağım dünyanın bütün var-dövlətinə dəyər, əmioğlu. Bir gün kafirə hirsləndim, sizin qulunuzam, ölənəcən sizə işləməliyəm, dedim, çıxdım gəldim. Kafir oğlu kafir qədrimi nə biləcək. Vətəni heç nə əvəz etməz! Oralarda, adı Almaniyadı, deyərdi, yediyimin, içidiyimin dadını-tamını bilmədim, gardaşım.

Hacı Duran yay-qış pencəyini əynindən çıxarmazdı. Köynəyinin düyməsini hulqumuna qədər düymələyər, yayın günü qapı-pəncərəni belə bağlatdırardı. Uzun Çarşının dəlisi Hərarətli Yaşar qışın günü mayka ilə qəhvəxanaya girəndə Duran əmi ona baxıb iliklərinə qədər donardı. Üst dodağının ortasında nazik bir bığı vardı.

- Uşaqlar, dünən axşam təzədən qayıtdım oynamağa. Səhərəcən daş çəkdim, sovxa yaşıl ikilik gəlmədi. Adamın yuxusunda da daş bitir, qardaşım, çək at, çək at. Arvad dürtmələyib oyadır ki, neynirsən? Deyirəm, arvad, yuxumda Mina dağındaydım, hacılarnan şeytanı daşlayırdım.

Gündüz oynadığı oyunlar gecələr Duran əminin yuxusuna girərdi. "Sizdən sirr çıxmaz, uşaqlar", deyib, keçmişdə Faiqlə manıslardan Zülfiqarı da götürüb sazın müşayəti ilə səhərə qədər yeyib-içdiklərindən danışardı. Bir də, ona sataşanda çox küyükər, hamını söyərdi.

Səhərlər qəhvəxananın şəxsi heyəti yığılınca almançı Faiqlə Hacı Duran atışırdılar:

- Bu Faiqin özünü öyməyinə baxmayın, uşaqlar, quş ürəyi qədər ürəyi yoxdu, ağciyərin biridi. Düşməni qorxutmaq üçün bunu göstərib geri çəkəsən, vəssalam. İrəli buraxmayasan, adımızı batırar...

- Siz bunun dediklərinə qulaq asmayın. Yalan deyirəmsə, bu cığara kimi yanım. Bir gün Hamburqdayam. Qarşıdan üç kafir gəlirdi. Yaxınlaşdılar... Türk, dedi, biri…

Qulluqçulardan biri dözməyib araya girərdi:

- Vur, Faiq əmi, daha niyə durmusan?

- Vuracağam, hələ dayan. Namussuzların üçü də qayış qıran cöngə kimiydi. Yaradana sığındım, əmioğlu, bismillah, deyib cumdum… Türk, deyənə bir soxuldum, qurd qoyuna soxulan kimi… O biri ikisi qaçdı. Hərifi iti döyən kimi döydüm, əmioğlu. Üstümü-başımı çırpıb əlimi-qolumu yelləyərək yola düzəldim, gedirəm artıq... Bir də baxdım ki, biri dalımca qaçaraq gəlir. Gördüm döydüyüm kafirdi. Vecimə almadım, özümü elə apardım ki, guya bunu heç mən döyməmişəm. Arxadan "türkk", deyə çağırdı, döndüm. Birdən nə desə yaxşıdı?

- Türk, bir az bundan əvvəl sizinkilərdən biri məni döydü, bu tərəfə gəldi, onu görmədin?

- Nayn, - dedim. Adamı necə döymüşdümsə, məni tanıya bilmədi…

- Əllərinə sağlıq, Faiq əmi.

- Allah atana rəhmət eləsin, Faiq əmi.

Manıs Zülfiqar ikisinin də dostuydu. Nə yesələr, nə içsələr gözləri Zülfiqarı axtarardı. Bir bulaq başına getmək istəyəndə Zülfiqar işini bilər, tədarükünü görər, sazını götürüb düşərdi yanlarına. Uzun Çarşıda Zülfiqarı hamı sevərdi. Bəzən o da Faiq ağa ilə Duran ağaya yaman ilişərdi:

- Uşaqlar, bu almançını görürsünüz, otuz il ona nisyə saz çaldım, kafirlərin yanından gələndə mənə bir kürk gətirmədi. Zəhmətimi itirdi. Buna çaldığım havaları başqa birinə çalsaydım, bir evin pulunu alardım. Baxın, indi yavan çörəyə möhtacım. Yalan deyirəmsə, köz kimi yanım…

- Eh, bu Duran ağaya nə deyim!? Yaxşıca yeyib-içdiyimiz yerdə durub həccə getdi. Beş-on il də gözləyəydin, əldən-ayaqdan düşüb bir işə yaramayanda gedərdin də. Həcc qaçırdımı, qurban olduğum? Taxıldöyənə qoşulan öküz kimi durduğun yerdə ağzını bağlatdın*. Amma Ərafatda şeytan bunu görən kimi qorxusundan salavat çevirir, uşaqlar. İbilinin dediyin deyirəm, babalı onun boynuna…

Həcdən söz düşəndə Duran əmi araya söz qatardı. Həccə getdiyi iki il olmuşdu, amma qəhvəxana əhli yanından ötəndə ona sürtüşürdü, altı ayda ilk itkini verdirmiş, bir il sonra da Duran əmi yuxusunda okey oynamağa başlamışdı. Duran əminin bircə içməyi çatmırdı.

Duran əmini çağırtdıran arvadı qəhvəxananın qapısında gözləyərkən söylənərdi:

- Hamı getdi ağıllandı, bizimki ağlını itirdi, Hacı adam da gumar oynayarmı? Başqa dəlilər də var, gurbanınız olum. Dəliyə təpəyə çıx, desələr, hamısından əvvəl bizimki çıxar. Allahdan qorxmaz, bəndədən utanmaz, imkan versələr, içki də içər bu kafir. Hacılığı yerə girsin, həccə gedirəm, deyib, bir ətək pul xərclədi. Bu necə işdi, bilmirəm, əli-ayağı düz olana həcc qismət olmaz, bizim nadürüstə qismət olar.

Bir axşamüstü almançı Faiq Zülfiqar da yanında ikiqat əyilərək qəhvəxanaya girdi. Şəhadət barmağıynan Duran əmini çağırdı və qəhvəxananın lap küncündəki masaya keçdilər. Alçaqdan danışmağa başladılar. Az sonra Duran əminin səsi yüksəldi:

- Qudurdunmu, Faiq! Olmaz, qardaşım. O işlər əvvəl idi, indi mənə Hacı Duran, deyərlər. Eşidən-bilən olsa, Uzun Çarşıda hansı üznən gəzərəm? Bax bu kafir İbili dalıma vedrə bağlayar, dəllal da bazara çıxarar. Evdəki dəliyə çatıncadı, düşmənə ehtiyacım yoxdu, bizim arvad dünyanı dağıdar, vallah!

- Ay Duran, hardan biləcəklər? Qəsab Arifdən yaxşı ət-filan aldım, Zülfiqarı da dünəndən bəri sazını kökləyir. Maşın da var… Qalx gedək bulaq başına. Zülfiqar həzin-həzin çalar, biz də bala-bala vurarıq…

- Tövbə, tövbə, məni aləmdə rüsvay eləmək istəyirsən? Hacıyam, deyirəm, inanmırsan?

- Ay Duran, o boyda baş nazir həccə getdi, sonra viski içmədimi? Mən Respublika başçısıyam, deyib sudan duru çıxdı. Kim nə deyə bildi? Ondan artıqmısan? Qalx gedək, heç kim görməz, Zülfiqar da heç kimə sir verməz.

- Aman, ağam, bu nə sözdü? Elə şey olarmı? Başımı kəssələr də ağzımdan bir kəlmə qaçırtmaram, - Zülfiqar dedi, ürəyi gedirdi əylənmək üçün. Səssizcə dinləyir, hacı ilə Faiqin haçan razılığa gələcəyini gözləyirdi.

Hacı iki yol ayrıcında qalmışdı. Xəyalında gah bağlar, bulaqlar, sazlar, gah da ağ büründüyə bürünmüş hacılar canlanırdı. Bir tərəfdən qulaqlarında Zülfiqarın səsi əks-səda verirdi, o biri tərəfdən sanki təbil səsləri eşidirdi. Buraxsalar, dəsmalını çıxardıb halaya qoşulardı.

Birdən yerində qurcalandı. Qulağında: "Ləbbeyk! Allahümmə Ləbbeyk!"* sədaları inlədi, imtina etdi.

- Olmaz, olmaz, mən baş nazir tayıyammı, qardaş, - dedi.

Almançı Faiq əsəbiləşdi:

- Ay Duran, mən sənin həm danalığını, həm də öküzlüyünü bilirəm. Bir hacılıq elədin, iki ildi ağızımızın dadı qaçdı. Həqiqi hacı olsan, heç məni yandırmaz. Getdin Adanaya, orda gözləyib, həcdən gələnlərə qoşularaq gəldin. Zəmzəm deyə gətirdiyin də Acıpınarın suyuna oxşuyurdu, o zaman səsimi çıxartmadım. Mənə bax, ikicə kəlmə desəm, hacılığın gedər arada… Kimsə görməz, deyirəm, qalx gedək, haydı.

Hacı Duran qorxmağa başlamışdı. Əgər Faiqin dəliliyi tutarsa, gəncliklərindən başlayıb:

- Ay camaat, bu Hacı Duran ilə ikimiz bir gün… deyib danışarsa?

Qorxdu, yalvarırmış kimi dedi:

- Ay Faiq, gudurdunmu? Heç kim görməsə də Allah görər axı.

Almançı Faiqin səbri tükənmişdi ki, imdadına Zülfiqar çatdı:

- Qurban olduğum Duran ağa, Allah səni görən kimi gəlib Uzun Çarşıda İbiliyəmi söyləyəcək! Qalx, gedək…

Duran ağa hirsləndi, deyinə-deyinə qəhvəxanadan çıxdı, dalınca da Zülfiqarla Faiq ağa…

*** Ahi - Səlcuqların dövründə İslami əsaslara (doğruluq və düzlük) söykənən təşkilat, o təşkilatın üzvü**
*** quyruqlu – qab**
*** almançı – dolanışıq xatirinə Almaniyaya müvəqqəti gedən**
*** abdallar – kompakt yaşayan sazəndələr, çalğıçılar, manıslar**
*** okey – üzerinde nömreler olan plastik daşlarla oynanan oyun**
*** taxıldöyənə qoşulan öküzün ağzını bağlayırlar ki, taxıldöyəni çəkərkən taxılı yeməsin**
*** ləbbeyk – Allahın dərgahında hər şeyə hazır olduğunu bildirmə**

Çevirən: Eyvaz ZEYNALOV

Evin yıxılsın, Hacı

Ziya Afşara

Bir küləklə çovuyan qar yağdımı… Qayabaşı məhəlləsinin dəlmə-deşik kərpic evləri titrəyər, abdal*lar qışda eldən bir ayrıca üşüyərdilər. Oyma sazlar divarlarda boynu bükük qalardı, yanıqlı kamançalar, keçi dərisindən olan nağaralar, qara zurnalar… Hər qış əlləri yanlarına düşərdi yazıqların.

Yayda bir-birinin dalısınca məhəlləyə gəlib gedən maşınların, toy dəvəti verən ağaların izləri itər, qış gələndən sonra görünməz olardı. Yağan qarı dalda yerlərə yığan külək qurd kimi ulayar, Abdallar məhəlləsində bir alıcı quş kimi dolanardı. Susardı bütün nağaralar, zurnalar, sazlar və suyu sovulmuş dəyirmana dönərdi kərpic evlər.

Nə divar diblərində abdal kişilərindən zurna, saz, kamança dərsi alan qarabuğdayı uşaqlar, nə qapının önündə çatılmış ocaqlarda çır-çırpı yandıraraq hisli qəhvədanlarda çay qaynadan əziyyəti çox abdal anaları, nə də limonad qapaqları ilə qardaşlarını müşaiyyət eləyən saçları dağınıq qızlar vardı… Hamısı qışın soyuq pəncəsindəki kərpic evlərdə analarını gözləyən quş balaları kimi baharı gözləyərdilər.

Dimdiyi qırıq şapkası, yaxası tiftiklənmiş köynəyi, qıvraq arıq bədənləri ilə əmilərimizə oxşardılar abdallar. Iri, qara gözləri, dağınıq saçları ilə analarımıza bənzərdilər Abdallar məhəlləsinin qadınları, amma yoxluq qılıncı onları bir başqa cür kəsərdi. Tarla yox, əkin yox! Cüt yox, cütçü yox! Od yox, ocaq yox! Un yox, yarma yox! Qışda abdal evlərində bir çarəsizlik, kərpic evlərin pəncərələrində də sərt şimal şərq küləkləri əsərdi. Dolanar, gəzər, hər qış yenidən gələrdi qış qıtlığı və bir nər dəvə kimi çökərdi abdalların qapısında.

Gecələr kübrə torbalarının salafanları ilə qapadılmış pəncərələrindən süzülən korun-korun işıqlar bu fəsildə Abdallar məhəlləsinin tək bir rəngi olurdu. Ən kasad aydı bu şaxtalı aylar. Nə əskərliyə, nə qürbətə gedənləri, nə də Almaniyadan gələnləri olurdu. Axşamlar üç-beş hal əhli gənclər bir araya gəlib bir şüşə «Bozoğlan»ın axırına çıxar, bir neçə taksi ilə Abdallar məhəlləsinə gələrdilərsə, qapılar aralanar, küçələr bir az daha işıqlanardı.

Məhəlləyə maşınlar gələndə məhəllə uşaqlarının sifətinə qan gələrdi, maşınların işıqları məhəllə uşaqlarının göz bəbəklərini böyüdərdi. Atalarının «Ağa», «Ağanın oğlu» dediyi əmiləri onlar da sevərdilər. Ağalar gəlib atalarını aparınca, evə buğda çörəyi, biskvit, konfet, halva, alma, naringi ayaq açardı.

Qışda məhəlləyə gələn gənclərin istəyinə görə bir həzin saz, ya da zurna, nağara dəstəsi yaradılardı. Şərabdan keflənmiş gənclər əvvəlcə Kor Bəktaşın evinin önünə gələrdilər. Kor Bəktaşın nağaraçısı Adəm onların istədiyi çalğıçı dəstələrini bir göz qırpımında tapıb gətirər, çalğıçıları maşınlara mindirər, ən sonda da özü minərdi. Adəm nağaranı qoltuğuna alar-almaz gənclər coşar: «Vur usta! Vur!» deyə bağırardılar, bu arada nağaranın da üzərinə bir neçə dənə göy minlik düşərdi.

Ağa istərsə, aşıq ölməzmi? Adəm uçuşan minlikləri görüncə, çubuqlarını nağaraya deyil, yoxluğun üzünə-üzünə vurardı. Damarlarında qan təzyiqlə vurar, qollarına yeni bir güc gələrdi belə axşamlarda. Atasına yaxınlaşan, əlləri üşüyən kiçik Bəktaş nəfəsini çəkib başını yuxarı qaldırar, babası Kor Bəktaşın bəstələdiyi yanıqlı havalarla ortalığı acı-acı inlədərdi. Zurnanın yanıqlı səsi belə qarlı gecələrdə Abdallar məhəlləsinin rəsmini çəkərdi.

Incə-incə bir qar yağar fağırların düzünə
Nədən fələk inanmır füqəranın sözünə.

****

Çalğıçı dəstələri tamamlanınca taksilər yola düşər, zurnanın qüssəli səsi küləyin səsinə qarışaraq yayılar və şaxtaya düşmüş gecənin içində donub gedərdi.

Abdallar belə gecələrin səhərisi qarı dizləyə-dizləyə çıxardılar məhəlləyə. Yorğun bədənlərinə təzə bir ruh, fəri sönmüş gözlərinə işıq gəlir, evlərinə xoşbəxt qayıdardılar. Kor Bəktaşın Adəmi,

*Abdal, - dərviş, aşıq, musiqiçi, ozan

Şahan ustanın Aslanı, Qara Süleymanın Heydəri… Səhərə qədər gənclərin min bir cür əziyyətlərinə qatlaşar, uşaqlarına çörək pulu qazanardılar.

Bəzən də evladlarını evləndirmək üçün yorğan-döşək saldıran ağa xanımları Abdallar məhəlləsinin qadınlarını çağırardılar. Abdallar məhəlləsinin qadınları bu işi çox gözəl bacarardılar. Ağa qızlarının yorğanlarını öz qızlarının yorğanlarını sırıyırmışlar kimi diqqətlə sırıyardılar. Yorğan sırımaq üçün getdikləri ağa evlərinə kiçik oğlan uşaqlarını götürməz, yalnız qız uşaqlarını apararardılar. Oğlan uşağı bu, rahat durmaz, əyər ağanın oğluyla dalaşıb bir dəcəllik elərsə, ağanın evində nə iş görə bilərik deyə, narahat olardılar.

Qışda yorğan-döşək işi olanda da uşaqların boğazından bir isti aş keçər, yazıqların dişləri çörəyə dəyərdi. Hələ ağa Almaniyadan gələn olarsa və ağa uşaqlarının köhnə ayaqqabıları, köhnə paltarları da varsa…

Qış Əzrail kimi gələr, uzandıqca uzanardı insafsız qış. Qışı yola salmaq üçün nə acılar çəkilərdi. Qış küləyi onların ürəyinə əsər, qar onların üzünə sovrulardı ən çox. Qış uzandıqca yayda aldıqları əşyalardan pula gedən nə varsa dəyər-dəyməzinə satardılar, bəzən yastıq-yorğana qədər bazara çıxardardılar.

Uşaqları, körpələri xəstələnəndə həkimə pul tapa bilməyəndə bölgənin bunu özünə fürsət bilənlərindən faizlə pul alar, yayda qazandıqlarının yarısını sələmçilərə faiz olaraq ödəyərdilər. Qarşqanın qazancından da dəvəyə pay olurdu.

Yoxluq evə-eşiyə buraxılası mətah deyildi, amma ağalıq başqa, abdallıq başqa. Yoxsulluq iqliminin abdallarıydılar onlar.

***

Axşamın gəlişi ilə birlikdə dərd-ələm Kor Bəktaşın evinə hücum çəkdi. Çarəsizlikdən ürəyi sıxıldı. Tütün qabını götürdü. Tütün qabının içindəki son tütün qırıntılarını ağ kağızın arasına qoyub bükdü, dərindən bir qullab vurdu və:

- Zurnanı bura gətir, - arvadına dedi, - zurnanı bura gətir.

Qara zurnanı arvadı kimi sevərdi. Yeməyə çörək tapmasa da zurnanı yağlamağı heç vaxt unutmazdı. Qara zurna dərdi kimi ötər, anasız quzu kimi mələrdi Kor Bəktaşın əlində…

Yayda gəlini almaq üçün gedəndə bu zurnayla çaldığı havalara qız evində bircə nəfər olsun belə ağlamayan qalmazdı. «Ağ gəlin»i çalanda qız evində bir ağlaşma tufanı başlardı. Hələ oğlu Adəm də qabağında nağara ilə dolanıb döndükcə, ovurdlarını başqa bir həvəslə doldurar və sevgi ilə üflərdi qara zurnanı. Nə zaman nəfəs alırdı, zurnanın səsi kəsilmədən necə davam elərdi, bir kimsə başa düşə bilməzdi.

Kor Bəktaş belə qəm yüklü axşamlarda nəvələri kiçik Bəktaşla Cəsura nağara ilə zurnanın yanında həyatı da öyrədərdi. Bir müdrik, ulu abdaldı Kor Bəktaş.

Qara zurnasını əlinə aldı və nəvələrini yanına çağırdı: «Uşaqlar, mən ölərəm, siz qalarsınız. Yoxluq qapıya qoyulacaq mal deyil, amma ağalıq da, abdallıq da nəsilnəndir. Biz ağalara xidmət üçün varıq. Onlar bizim çörək, aş ağacımızdılar. Süfrədə qaba saldığımız qaşığa nə gəlirsə, onlardan gəlir. Onlar olmasa, bax bu təpənin başında ayaqlarımızı sürüyə-sürüyə ölərik. Ağaların qızları, gəlinləri də bizim anamız, bacımız olur. Çörəyimizdə onların da duzu var. Ehtiyac nə zaman sıxışdırsa, qapılarına getsək, ağalar evdə olmasa belə, çörəyimizi onlar verər. Evladlarım, ağalar nə verirsə, şükür edin, elə çox da ummayın. Əvvəl Allah, sonra da onlar, aclıq çəkməyə qoymazlar bizi. Dedim axı. Ağalığın da, aşıqlığın da bir adəti, ənənəsi var. Olur ki, toylarda ağanın uşaqları qədərindən artıq içir, sizə söyüş söyərsə, bir qulağınızdan alın, o birisindən verin. Duymayın, kar olun, danışmayın, lal olun. Olar ki, hirslənib sizi döyərlərsə, əlsiz, ayaqsız olun. Qul qüsursuz olmaz, evladlarım. Aman haaa! Ağaların üzünə qayıdıb, çörəyinizə təpik atmayın».

Bir abdal Allah dərgahındaymış kimi danışırdı. Oturuşunu dəyişdirdi və danışmağına davam elədi Kor Bəktaş:

«Sərxoşluq cürbəcürdür, evladlarım. Hamımız insan oğluyuq. Hamımıza eyni cür təsir elər bu sərxoşluq. Insan bu zəqqumdan iki qədəh içərsə kefi tovuz quşu kimi al-əlvan olar. Nə çalsan xoşuna gələr. Üçüncü qədəhdə meymuna dönər, budaqdan-budağa hoppanar. Oynaq hava istər, oynamaqdan doymaz. Dördüncü qədəhi içərsə, Aslan olub kükrəyər. Ağır havalar istər, Koroğludan istər, halaya durar. Igid olan aslanlıq məqamında daha bu zəqquma yaxın durmamalıdı, artıq içərsə donuza dönər, ağzında dili dönməz, nə istədiyini bilməz. O Ağyazılıynan Qızıldəli var ha, zəqqum şüşədə dayana bilmədiyi kimi dayana bilməz namussuzlar. Sərxoşun könlünü xoş eləmək çətindir, amma bizim də alnımıza boyun əyəmək yazılıb».

Kor Bəktaş öz nəfsini bətnində boğur, nəvələrinin nəfsini söz çəkiciylə döyür, döyür, döyürdü.

Dərindən köks ötürdü və susdu. Əlindəki zurnanın başlığını ağzında islatdıqdan sonra taxtı yerinə. Adəm də babasına yol göstərmək üçün gəldi, divardan aılmış nağaranı qucağına aldı. Nəvələrindən kiçik Bəktaş babasına, Cəsur dja atasına dikmişdi gözlərini. Biri nağaraçı, biri də zurnaçı idi. Kor Bəktaş soyuq havanı ciyərlərinə çəkdi və sarıldı zurnasına.

Otaqda külək kimi əsən yoxluq çalmaq məqamında yerini kədərə buraxdı. Kor Bəktaş bir körük kimi ovurdlarını şişirdib ürəyindəki yanğını nəfəs-nəfəs üfüləyincə qara zurna dilə gəldi:

Bir ayrılıq, bir yoxsulluq, bir də ölüm…

Kor Bəktaş zurnanı yenicə dilləndirmişdi ki, maşın faraları evin qabağını işıqlandırdı. Çalmağına ara verdi:

- Adəm, dəli oğlanlar gəldi, deyəsən.

Adəm qucağındakı zurnanı kənara qoyub, qalxdı, pəncərəyə yaxınlaşıb pərdəni araladı.

Dörd taksi dayanmışdı qapıda. Taksilərdən enən gənclər:

- Bəktaş baba! Adəəəəm! – deyə qışqırdılar.

Adəm qapını açdı. Çöldəki gəncləri görüncə gözlərinə işıq gəldi. Sehrli su içibmiş kimi açıldı iti gözləri, çardaqdan adlayıb endi aşağı:

- Harda qaldınız, qurbanı olduğum ağa uşaqları, - dedi, - evdə bizim uşaqlar aclıqdan birbirlərinin qulaqlarını gəmirir. Cibimizdə siçanlar oynaşır. – Çardaqdakı arvadını göstərdi. – Bax bu bizim it yeməz belə, üzümə baxmır, qurbanı olduqlarım. Bizə də keçinmək lazım deyilmi? Evdə it bağlasan, acından ölər. Sizə layiq bir şey yox evdə, amma içəri keçsəniz kiçik Bəktaşı kəsər, qurban elərəm. Yolunuzda ölüm, ağam. Evimi yandırar, üzümü ağardaram vallah…

Utanan üzü yoxdu, zarafatcıldı Adəm, nağara çalarkən qanı qaynar, cuşə gələr, coşardı. Nağarası ilə bir insan kimi danışar, bəzən nağarasından küsərdi. Adəm nağaradan küsüncə, pul yağardı nağaranın üstünə. Bəzən nağaranı yerə qoyar, belbağısını çıxarar, nağaranın ətrafında dönə-dönə oynar, bəzən yerə yatar, yerdə yumalanaraq çalardı. Yaxşıca coşdumu, nağaranı başına qaldırar, bir nağaraya, bir də çanağına vurardı. Bu üzdən də toyların və məclislərin baş nağaraçısıydı Adəm.

Bölgənin hal əhli gənclərydi gələnlər. Bu axşam «Qalatasaray»ın italyan kafirləri ilə oyunu vardı. Adəm ortalığı şənləndirəcək, onlar da gülüb əylənəcəkdilər. Bir də Qalatasaray qalib gələrsə, bol qollu oyun olarsa, daha demə…

Gənclərdən biri hövsələsizləşdi, başını maşının pəncərəsindən çıxartdı:

- Adəm, nə durubsan, dəli oğlan, qurbanın, qadanınmı vaxtıdır, oğlan? Kiçik Bəktaşı da gətir, haydı tez ol. Qaracanını kafesinə gedirik. Əlli ol, dəli oğlan, hardasa oyun başlayacaq, geciksən Saatsaz Irəcəb bir quruş da verməz, vallah…

Saatsaz Irəcəb Qalatasarayın xəstəsiydi, Qalatasaray bir qol atdımı Irəcəb Adəmin önünə keçər, davulun qabağında səkərək oynar, olmayan olyunlar çıxarar, bol bəxşiş verərdi. Qalatasarayın oyunlarını nağaranın, zurnanın müşaiyyəti ilə izləməyi də Saatsaz Irəcəb icad eləmişdi.

Oyun sözünü eşidincə Adəmin gözləri bir daha parıldadı.

- Yenəmi oyun var, ağam? - dedi. – Kiçik Bəktaşla əmrinizdəyəm. Nə zaman istədiniz, Adəm boynunun qılıncın qabağına vermədi, qurbanı olduqlarım…

Adəm oğlu Bəktaşa qışqırdı:

- Bəktaş! Nağaranı, zurnanı götür, gəl, yenə oyun varmış.

On beş gün öncə Qalatasaray italyan kafirləri ilə bir oynamış, oyun iki-iki bərabərliklə bitmişdi. O gün Qalatasarayın hər hücumunda Adəm ilə kiçik Bəktaş ortalığı bir-birinə qatmış, Qalatasaray qol atdıqca, coşan gənclər nağaranın üstünə pul yağdırmışdılar. Adəm çubuğu davulun ortasına vurduqca da, göy minliklər yerə səpələnmişdi.

Hər məclsin adamıydı Adəm. Getdiyi yer topal isə axsayar, kor isə çəp baxardı. Atası ulu bir aşıqdı; Dünya görmüş, əzablar çəkmiş, fələyin ilgəyindən qırx dəfə keçmişdi Kor Bəktaş. Necə olmuş olsa Adəm onun oğluydu. Illərcə ondan dərs almışdı. Kiçik bir uşaqkən toylara gedəndə axırlarda, təndir damlarında atası ilə qucaqlaşıb yatmışdı. Ağalar nə istəsə Adəm eləyərdi. Dəvə balası görmək istəsələr belindəki belbağısını çıxardıb, paltarlarını dəyişər, həmən dəvə balası olurdu.

Bu dəfə ağalar Adəmin də azərkeş olmasını istəyirdilər, Adəm də çoxdan qızğın bir azərkeş olmuşdu. Neyləsin, qış idi, çörək də toylardan yaşıl sahələrə qonmuşdu. Bir Qalatasaray tərəfdarı olmasa, fələkdən qol yeyib duracaqdı, zavalı.

On beş gün öncəki oyunun ilk on dəqiqəsində futbol terminlərini həmən öyrənib öz dilinə çevirmişdi Adəm. «Afisayt, santrifor, penalti, avut, cəza, fasilə…» Hamısını da bir göz qırpımında öyrənmişdi. Elə həmən o gündən gənclərin ondan nə gözlədiklərini hiss eləyib, oyunda baş verənlərə müdaxilə belə eləməyə başlamışdı. Gənclər də əslində Adəmin oyuna müdaxilə eləməsini istəyirdilər.

On beş gün öncəki oyun Italiyada oynanılırdı. Qalatasaray yaxşı oynayırdı, gənclərin kefinə dəyəcək bir şey yox idi. Hakim də yaxşıydı! Ümumiyyətlə Qalatasarayın xeyrinə qəraralar verirdi. Gənclər aramsız olaraq hakimə sitayiş edir, onu alqışlayırdlar.

- Bravo, hakim!
- Vay, aslanım!
- Bizim Kamanda doğulub, böyüyüb hakim!
- Bravo, göstər qırmızı kartı!
- Çölə at, o Karanı!

Gənclər səslərini yüksəldəndə Adəm nağaraya bir-iki çubuq vurub sözə başlardı: «Qurbanı olduqlarım, mən deyim də, siz inanmayın. Vallahi də, billahi də, ba hakimin atası türk! Bax, bura yazıram, həm də bizim Almaniyada olanlarımızdandır. Baxın, yenə cəriməni bizimkilərə verdi».

- Atası türkdümü?
- Həə, qurbanı olduğum, vallahi türkdü!
- Atası kimdi, Adəm? Kamandandımı?
- Kim olacak, canım, nəslimizi Avropaya yayan Qart Tahir əmi…
- Olmaz, yanlışın var, Adəm.
- Qurbanınız olum, bunun bir baş-gözünə baxın hələ. Bunda heç kafir siması varmı? Eyni ilə bizim Tahir əmiyə bənzəyir. Vayy, qurbanı olduğum, Tahir ağa! Kim bilir bu hakimin anasından nə qədər xeyir dua aldı, neçə gecə quluncunu qırdı, kim bilir. Onun səpdiyi toxumun xeyrini görürük, uşaqlar!
- Adəm, penalti də verərmi?
- Hakan qapının önündə yıxılsa, penalti də verər, vallah. Nə olmuş olsa belə bir qaşıq qan, əmioğluyuq ya…
- Qol vəziyyəti, Hakan qapıya gedir!
- Vur, oğlan, vur!

Hakan qapının qabağında yıxılır, qol vura bilmir, kafedəkilər öncə ayağa sıçrayır, sonra yerə otururdular. Halkan qol qaçırtdıqca Adəm içini yeyirdi:

- Yahu, Hakanın heyi qalmamış, səhər tezdən morj yağımı yeyib?

O gün qəhvədəkilər hop oturur, hop dururdular. Qalatasaray qol atdıqca, Adəm ortada fırlanır, nağaranı Saatsaz Irəcəbin qabağında çalırdı. «Qoool!» səsləri, nağara, zurna səsləri bir-birinə qarışırdı.

O gün oyun bərabərə bitsə də, Qalatasaray iki qol atmış, Adəm də çörəyini futbol topundan qazanmışdı.

***

Abdallar məhəlləsindən soyuq gecəyə qarışıb enən taksilər gəlib Karacanın kafesinin qabağında dayandılar. Içəri yenə çox qələbəlikdi. Adəm oğlu kiçik Bəktaşın ustalıqla çaldığı oynaq havanın müşaiyyəti ilə nağarasını başının üstündə çalaraq girdi kafeyə. Gənclər Adəmi görüncə yellər əsən buğda zəmisi kimi dalğalandılar, qalxıb Adəmlə oynamağa başladılar, kafe toy evinə döndü.

Qısa bir səssizlik oldu. Oyun başlayacaqdı. Adəmlə kiçik Bəktaş on beş gün öncəki yerlərini aldılar. Aparıcı oyunçular ekranda görününcə sayırdı: Taffarel, kapitan Bülənt, Popesku, Fatih, Ümid, Okan, Hakan… Hacı!

Gənclər Haci adını eşidincə böyük bir uğultu qopdu kafedə. Hacıyə təriflər yağdırırdılar.

- Aslanım.

- Qoçum!

- Bu axşam bütün Italya gəlsə, Hacını dayandıra bilməz!

- Bütün Italyanı dördnala qaçdırar bu gecə.

Adəm də özünü başa düşürmüş kimi göstərib çubuğunu dik tutaraq ekrandakı Hacıya bağırırdı:

- Hacı! Evdəki uşaqlar mənim nağaramdan öncə sənin ayaqlarına baxır. Qurban olduğum, bu kafirlərnən ancaq sən bacararsan… Ən azı iki qol gözləyirəm haaaa!

- Hacı bu gün qol ata bilməyəcək, bax, bura yazıram, Adəm!

- Ağzından yel alsın, qurbanı olduğum. Evdə Bəktaş ustanın tütünü yoxdu vallah.

Gülüşmələr arasında oyun başladı.

Kiçik Bəktaş da qələbəlikdəki insanları seyr edirdi. Kim bilir öz uşaqlarına nələr anladacaqdılar. Adəm qulaqlarını qol səsinə şəkləmiş, toplayacağı bəxşişləri düşünürdü, ara-sıra da qələbəliyin təpkisinə ortaq olurdu.

Italyan komandasındakı zənci oyunçunun kobud hərəkətinə hirsləndi gənclər, küfürün biri bir quruş. Adəm həmən özünü yetirdi:

- Oğlan, uşaq, o Qara var ya, o Qara, Hacının qabırğalarını, belini qıracaq. Hacıya göz verdi, işıq vermədi, ya bu. Ac it qursağı qapan kimi qapdı topu yenə. Allah colma-cocuğunun üzünə baxsın, nə olar, ayağı qırılsa. Qurbanı olduğum Tahir əmi, bir az da afrikada gəzib dolaşsaydın nə olardı.

Gənclər gülməkdən yerə yıxılırdılar.

Bir başqa vəziyyətdə yenə rəqib komandanın zənci oyunçusunun təpiyi ilə Hacı ağrı içində yerə sərildi. Zənci futbolçu da yerdəydi. Hacı hiddətlə qalxdı və zəngi futbolçunun üzərinə yeridi. Adəm əlindəki çubuğu göstərərək yenə ortalığa atıldı.

- Hacıı! Al bunu da, o Qaranın yan-başını qaralt, nə olar! Çörəyini gətirərəm, dəli oğlan! Altmış beş milyon arxandayıq! Qorxma, Hacı! Vur!

Qələbəlikdən biri də Adəmə söz atdı:

- Elə demə, oğlan, Adəm! O da yazıqdı. Kafirin komandasında çörək pulu qazanmaq üçün oynayır.

Adəm kafe sahibini səslədi:

- Adnan, qurbanın olum, bu fənərlilərin burda nə işləri var?

Adəm qırx illik Qalatasaraylıydı, artıq çörəyi də sarı-qırmızıydı.

Ilk yarı bitdi, ikinci yarı başladı. Dəyişən bir şey yoxdu. Dəqiqələr irəliləyir, oyun heç cür Adəmin istədiyi kimi getmirdi. Qalatasaray futbolçularının sanki üstlərinə ölü torpağı səpilmişdi. Qələbəlikdən küfürlər yüksəlir, köks ötürmələr çoxalırdı. Oyunun son dəqiqələriydi. Adəmin gözündəki işartılar yerini yavaş-yavaş kədərə buraxırdı. Qalatasaray bir qol belə atmamışdı. Adəmin əlindəki çubuq başı aşağı, zurna səssizdi.

Birdən qələbəlik dalğalandı. Bir anlığa nəfəslər tutuldu. Aparıcı səsini yüksəltdi. «Gözəl bir hərəkət! Hacı rəqibini keçdi! Birini də keçdi! Sağ tərəfdə Hakan boş! Əmrə də soluna gəldi! Hacı qalanı qarşısına aldı! Sevdiyi yer! Topu sol tərəfinə çəkdi! Oralardan gözəl vurur…»

Nəfəslər tutulmuşdu, oyunu izləyən gənclər fərqində olmadan ayağa sıramış, stullar çevrilmiş, çaylar dağılmış, stəkanlar qırılmışdı.

Adəm cəld bir hərəkətlə nağaranın ipini boynuna keçirtdi, çubuğu havaya qaldırdı. Küçük Bəktaş da zurnanın fitilini islatmış, ovurdunu doldurmuş, zurna ağzında gözləyirdi.

Aparıcı qışqırırdı:

- Hacı, yaxşı vur!

- Hacııı!

- Zərbə!

Zaman qalaya gedən futbol topu ilə irəliləyirdi sanki. Top süzərək qalaya doğru gedirdi… Böyük bir gurultu qopdu.

- Qooooooooooo….

Nağara, zurna coşdu

Sonra bu gurultunu ahlar, vahlar təqib elədi. Adəm nağaraya iki dəfə vurmuşdu ki, gənclər üzüntü içində yerlərində oturdular.

Aparıcı da ah çəkərək davam edirdi: «Top dirəkdən döndü, hörmətli tamaşaçılar, şanssız bir an, budur, təkrar baxırıq…»

Kameralar Hacını yaxından təkrar göstərərkən 90 dəqiqə gözləyib bir lirə də bəxşiş toplaya bilməyən və ümidini itirən Adəm Hacıya qışqırdı:

- Evin yıxılsın Hacıııı! Çörəyimnən oynadın!

Oyun bitdi, çöldəki soyuq hava Adəmin üzünü yalayıb keçdi. Kafe birdən boşaldı. Gənclər küfürlər yağdıraraq üç-beş məhəlləyə dağıldılar. Adəm kiçik Bəktaşa tərəf döndü:

- Olsun, heç olmasa isti bir yerdə oturduq, iki stəkan çay içdik, oğlum, - dedi.

Adəm öndə, kiçik Bəktaş arxada bazar yerindən burulub, soyuq gecənin içində yox oldular.

Türkcədən çevirən: Aslan Quliyev

Türbənin dəlisi

Anamın iki kəlmə sözü ürəyimi sızlatdı, vurdu, yaraladı məni. «Yay gəldi, keçir, oğlum, gözlədim… Keçən gecə səni yuxuda gördüm, ürəyim istədi, qurbanı olduğum, uzaqmı yerdi, bala? Çox şükür, at var. Maşın var…» «Tamam, ana, - dedim. – haklısan, gələcəyəm».

O gecə elə hey anamın sözləri qulaqlarımda səsləndi: «Yuxumda gördüm səni, ürəyim, istədi, oğlum».

Sabah tezdən durub avtovağzala getdim.

Malatya avtlvağzalı.

Iyulun sonu.

Daha günün ilk saatları, amma adamların tərdən köynəkləri bədənlərinə yapışır.

Sürücü köməkçilərinin səsləri bir-birinə qarışır.

- Istanbul, Istanbuuul!

- Ankara, indicə çıxırıq, Ankara, Ankaraaaa…

Biri yanıma yaxınlaşır.

- Abi*, haraya?

- Kırşəhrə.

- Gəl, abi, həmən çıxırıq, Ankara maşını, boş yer var.

Sözləri bir-birinə calayır, qolumdan yapışır, çantamı da alır. Səsimi çıxarda bilmirəm. Çantamla birlikdə iradəmi də alır bu iri cüssəli adam. Arxasına düşürəm, bu gur səsli adamın. Tinə gedirik, «Usta, Kırşəhrə» deyir, biletimi kəsdirib verir əlimə. Pulu uzadıram.

Avtobusun yola düşməsinə bir neçə dəqiqə var. Yolçular hazırdılar. Tələsik özümü avtobusa salıram. Sürücünün müavini əlində bir dəstə kağızla dolaşır avtobusun içində. Yolçulardan soruşur:

- Abla*, on doqquz, iyirmimi?

- Bəli.

- Harda düşəcəksiz?

- Ankarada.

- Iyirmi birmi?

- Hə də, qurban!

- Kirvə, harda düşəcəksən?

- Vallah, Ankarada, qurban.

- Kirvə, şəhərdəmi?

- Yox, babo, qarajda.

Müavin soruşa-soruşa yanıma qədər gəlir. Yarısı boş avtobusun ən arxasında otururam, təkəm, məndən başqa avtobusun arxa tərəfində kimsə yoxdu.

- Iyirmi dördmü, abi?

- Bəli.

- Harda düşəcəksən?

- Kırşəhirdə.

-Abi, türbədəmi?

- Bəli, bəli, türbədə.

Türbə! Birdən məmləkət canlanır gözlərim önündə. Bir məmləkət havası dolur içimə. Bir neçə il olub türbədə düşmədiyim.

Şərqdən qərbə, qərbdən şərqə gedən hər avtobus, hər sürücü, hər müavini türbəni tanıyır.

Ulu yollar üstündə bir daynacaqdı Türbə.

Qayada şahin kimi durur, əzəmətli, məğrur.

Yanı başında bir meşəlik, dörd yanı söyüt, qovaq, şam ağacları. Ətrafında minlərcə illərdən bəri ayaqda duran baş daşları.

Bir şikayət var kitabəsində, yüz illər öncə Aşıq Paşanın dilindən yazılan o səs hələ canlı, hələ də dipdiri.

Türk dilinə hər kəs baxmaz idi

Türklərə hər kəsin könlü axmaz idi

Səssiz, sakit, yüz illərdir çölün ortasında bir təpədə qərar tutub Aşıq Paşa türbəsi.

Bu təpədən əsrlərdir Kılıçözünə, Ahi Evrana, Casabəyə baxar.

Yay, qış, bahar…

Yolçular bu türbədə enər, bu türbədə minər.

Kim bilir bu türbə neçə yolçunu qarşılayıb, Karvansarayın bağırını günəş dələrkən, neçə yolçunu yola salmıb, günəş Qurd belindən aşarkən.

Mahaldan Sila torpağına gedənlər burda düşər. Düşər və çiçək açarlar. Çiçək açarlar, çünki ana, ata, oğul, bacı, qardaş və ömür yoldaşları gələr qarşılamağa.

Qürbət bu türbədən başlar, gedənlər burda ayrılar gözü yaşlı qalanlarından.

Bəzən burda nağaralar, zurnalar ötər. Əskər yola salarlar. Igidlər halaya durar, qızlar-gəlinlər ağlar. Anaların dilləri dualı, əlləri havada.

Çölün qıvraq, qayışbaldır dəliqanlıları türkülərlə, halaylarla gedər şərqə, ya da qərbə doğru. Analar əskərlərin arxasınca kassa-kasa su atarlar, əlləri kədərlə düşər yanlarına.

Əskərlər yola salınandan sonra analar türbəyə gələrlər, türbənin pəncərələrindən çölə dualar yayılar. Ərənlərdən, övliyalardan hümmət dilər analar, boya-başa çatdırdığı oğlanları sağ-salamat dönsünlər deyə.

Gecə-gündüz, yay, qış, hey yolçular minər burda, hey yolçular düşər buraya.

Fasilə vaxtı böyük qardaşıma zəng eləyirəm.

- Qağa, gəlirəm. Gözləyin, saat birdə, ikinin yarısında türbədə düşəcəyəm.

- Oldu, - deyir, - saat birdə mən türbədə olaram.

Bəydağı, Sultan Suyu, Qaradağ, Darendə, Gürün… Avtobus sürətlə keçir. Mazıqıran keçidi yavaş-yavaş əriyir, qurtarır, avtobusun pəncərələrindən yox olur. Uzunyayla, Pinarbaşı, Bünyan, bir-bir arxada qalırlar. Yırrı-yığıncaqlı qoca Kayseri, qarşısında başı dumanlı Ərciyəz… Və Mucur… Və bizim boz dağlar, əhəngli torpaqlar görünür, sarı, quru, çılpaq təpələr.

Anamın gözü yoldadır. Indi düyü kiftəsi bişirib, xəmiri yoğurub, mən çatan kimi içli çörək bişirəcək. Məni görüncə, şükr edib duaya duracaqdır. «Ya Rəbbi, cəmi-cümlətanın balasını qoru, mənimki də onların içində!»

Türbə görünür.

Yolun iki tərəfinə düzülmüş insanlar, yolçu gözləyənlər, yolçu yola salanlar, analar, atalar, uşaqlar, çamadanlar, çantalar…

Müavinin bir gözü məndədir.

- Abi, türbədə düşməyəcəkdinmi?

- Hə, türbədə.

- Ustaaa, türbədə saxla.

Aşıq Paşa türbəsi.

Düşürəm.

Məni qarşılamağa gələn birisi yox?

Təkrar zəng eləyirəm.

- Gəlirəm, gözlə, - deyir, - dərsdəyəm, bir azdan çıxacağam.

Türbənin yanındakı bulağın başında bir oturacaq var, otururam.

Aşıq Paşa türbəsi! Məmləkət! Seyr eləyirəm.

Aşağıda Qılıncözü, hər iki tərəfi yamyaşıl! Ağbayır qarşımda bozarıb durub, şoranlıq, kimsəsizlik…

Birisi yanıma gəlir.

Üstü-başı dağınıq, yayın ortasında şalvarının qıçlarını corabına salıb. Dərə keçirmiş kimi. Şalvarının belini ağ iplə möhkəmcə sarıyıb. Əlində bir dəyənək var. Başında şapka, şapkanın əvvəllər ağ olduğu bəlli, amma indi o ağlıqdan əsər qalmayıb, torpaq rənginə çalır. Köynəyin yaxaları dovşan qulağı kimi, bir də nazik bir qalstuku vurub. Qalstukun düyünü yaxasının içində

itib, yox olub. Gözləri fırıl-fırıl oynayır, əlində siqaret var, çəkib-çəkib tüstünü yuxarı üfürür. Kefi sazdı, dünya vecinə deyil, aramsız gülür.

- Salami əleyküm, abi.
- Əleykümə salam.

Siqaretini çıxardır. Siqareti «Samsun»dur. Əzilmiş siqaret qutusu. Qutunun içində bir neçə dənə siqaret qalıb. Gözlərimə baxaraq birini mənə uzadır.

- Çək.
- Sağ ol, mən sənə verərəm, bax, mənim siqaretim daha çoxdu, al bunlardan çək.
- Olmaz! Sən qəribə bənzəyirsən, qardaş, burdan çək.

Hansımızın daha qərib olduğunu düşünürəm, gülümsəyirəm.

- Yaxşı, - deyirəm, bir siqaret yandırırıq.
- Adın nə, qurban? – soruşuram.
- Rəşid, abi.
- Burda neyləyirsən?
- Vətəni gözləyirəm, onuynan ikimiz gözləyirik.
- O kimdi?
- O, gündüz yatır, uyuyur türbədə, gündüz mən gözləyirəm, gecə o. Qədir əmini deyirəm, övliyalar gecə gözləyirlər…
- Hə, tamam.
- Abiiiiii?
- Nə var, Rəşid?
- Mənim ağlımda zor bir fikir vra, amma kimsəyə demərəm.
- Nəydi ağlındakı, Rəşid, haydı, mənə de.
- Iıih ıh. Demərəm.
- Eləmə, Rəşid, inciyərəm, vallahi, söylə, qurban.
- Kimsəyə deməsən, söylərəm.
- Oldu, kimsəyə demərəm.
- Kimsəyə demə haaa!
- Tamam, tamam, kimsələrə demərəm.
- Bax, burdan bir avtobusa minəcəyəm.
- Eeee?
- Ver əlini, Ankara. Ankaraya yaxınlaşınca da, özümü avtobusdan aşağı atacağam.
- Aman Rəşid, niyə özünü avtobusdan atırsan?

Əlini ağzına qoyur, səsini tamam aşağı salır.

- Susssss! Sürücüyə heç pul verməyəcəyəm, onun üçün…
- Həəə, anladım, Rəşid. Ağlındakı fikrin doğrudan da zor imiş Rəşid.
- Zordu, əlbəttə, beş kuruş vermədən Ankaraya ged.

Rəşidlə həmən sirdaş oluruq, birbirimizi sevirik. Vətənin, məmləkətin, millətin qayğıları da var Rəşidin çiyinlərində. Məmləkətdə quraqlıqdır, yağış yağmır. Əkinlər yaxşı deyil…

- Susayıbbsansa, su iç, - deyib bulağı göstərir, sonra davam eləyir. – Yağış yağmır, abi, yenə əkinlər olmadı.
- Niyə yağmır, Rəşid?
- Namaz qılmırlar, şərəfsizlər. Qədir əmim elə deyir.
- Qılsalar, yağarmı?
- Gurultu ilə yağarmış həm də.
- Sən qılırsan?
- Mənə düşmür.
- Niyə?
- Vətəni gözləyirəm mən.
- Həəə, unutdum dediyini.
- Bax, mən burda olmasam, gələrlər.
- Kim gələr?

- Makaryus…
- Daha ölmədimi o?
- Yox, tutsam öldürəcəkdim, qaçdı, tuta bilmədim.
- Başa düşdüm.

Dəqiqədən bir siqaret qutusunu uzadır, qutunun içində iki-üç siqareti var.

- Sağ ol, Rəşid, çəkməyək.
- Xərcliyin, beşliyin varmı? Yolçusan, qurban, yoxsa, çəkinmə…
- Sağ ol, Rəşid, var, var.
- Onda mənə bir milyon ver.

Adamın nəyi varsa, yoxsa, hamısını vermək istəyir.

- Al, Rəşid, bu olarmı?
- Olmaz! Bir milyonun varsa ver!

Rəşid ilə danışırıq, bir yandan da böyük qardaşımı axtarır gözlərim. Gələn gedən yoxdu. Birdən ortalıq şənlənir. Seçimlər var, son gündü, şəhərləri dolaşan partiyanın maşın karvanı türbənin önündən keçir, şeypur səsləri, qalmaqal, gurultu, nağara, zurna səsləri. Hər maşın karvanı da özünü sabahısı günün iqtidarı kimi görür. Karvanlar dəstə ilə keçirlər, yüzlərcə maşın, rəngbərəng bayraqlar. Rəşid sıçrayıb ayağa qalxır, hər karvan Rəşidi salamlayır, bütün partiyalar onu tanıyırlar. Rəşid hamısına salam verir. Dəyənəyini qaldırıb gələnləri qarşılayır və yola salır. Hər karvandan da bir bayraq uzadırlar, bayraqları alıb gəlir, Rəşid. Gülərək oturur. Sonra mənə tərəf dönür.

- Səsini kimə verəcəksəən?
- Mənim burda səsim yoxdu, Rəşid… Sən səs verəcəksənmi?
- Hə, verəcəyəm.

Partiyaların bayraqlarını göstərirəm.

- Hansına verəcəksən?
- Hamısına da vuracağam!
- Nəə?
- Hə, hamısına vuracağam, möhürü alacaq, hamısına vuracağam.
- Həəə, gözəl, vur, Rəşid, vur.
- Abi.
- Əfəndim, Rəşid.
- Bunlar namaz qılsa, yağış yağar, elə deyilmi? Bunlar namaz qılmırlar, ona görə də yağmır.
- Onu bilmərəm, Rəşid. Kim dedi sənə bunları?
- Bizim caminin imamı dedi. Mən səhərlər quran kurslarına da gedirəm. Kiçik uşaqlar var orda. Hoca*** məni qovur, amma yenə gedirəm. Soruşsan, hər şeyi bilərəm. Haydı, məndən soruş.
- Nə soruşum?
- Hoca kimi soruş.
- Yaxşı, Rəşid, söylə görüm, kimin qulusan?
- Allahın.
- Afərin, Rəşid.
- Başqa şey də soruş.
- Kimin ümmətisən?
- Iııııh, Həzrəti Əlinin?

Gülürəm, Rəşid də gülür, gözlərinin içi gülür, gözləri billir-billir oynayır. Sağa-sola baxıram, gözüm yolda, böyük qardaşımı gözləyirəm. Hələ gəlib gedən yoxdu. Ağlı çoxluq eləyən Rəşid susmur.

- Abi, mənim ağlımda bir şey də var. Sənə deyimmi?
- De, Rəşid.
- Kimsəyə demə haaa.
- Tamam, demərəm.

- Kafeyə gedəcək, iki stəkan çay istəyəcəyəm, çay gəlincə də qaçacağam.
- Eeee?
- Çaya bir quruş da verməyəcəyəm, hahahaaaaaa…
- Bu da çox zor fikir, Rəşid.
- Hə, zor.
- Rəşid, qurban.
- Nə var, abi?
- Sən bu ağlının yarısını icarəyə versən, yarısı ilə də keçinərsən.
- Kimə versəm?
- Az öncə gedən partiyaçılar vardı ha, onlara.
- Vermərəm o şərəfsizlərə, namaz qılmırlar, yağış yağmır, əkinlər yaxşı olmur…

Bir maşın dayanır türbənin qabağında. Içindən mənə gülümsəyən gözlər baxır. Siqaretimi Rəşidə verirəm, çantamı götürüb qalxıram. Rəşid arxamca qışqırır:

- Gülə-gülə, abiii!

Dönüb cavab verirəm:

- Sağ ol, Rəşid, ağlından muğayat ol, qurban.

*** Abi – böyük qardaş, özündən yaşlıya müraciət edərkən deyilir.**
***Abla – bacı, böyük bacı**
*** Hoca – müəllim, tərbiyəçi, məşqçi, xoca.**

Türkcədən çevirən: Aslan Quliyev

Hökumətin imzası

Ayağında qara qaloş, əynində qara şalvar, başında yay-qış çıxarmadığı toxunma papaq, arxasında heybəsi, əlinə beli alar, kəndin qurtaracağındakı məktəbin lap qarşısındakı tarlaya gələrdi. Kənd hər səhər sübhdən oyanan Rəhman dayının səsiylə qarşılardı səhəri.

Günorta vaxtı Zeynəb nənənin çiynindəki nimçədə yağ, pendir, çay və bir bükülü saç çörəyindən ibarət olan nahar yeməyi gələrdi.

Rəhman dayının üç fəsli vardı. Üçündə də eyni işi görərdi. Bahar, yay və payız, tarladan daşları çıxardar, çıxartdığı iri daşları tarlanın ortasına daşıyardı.

Ya yerdən vulkan püskürtmüşdü, ya da göydən yağmışdı daşlar. Kənddəki hər tarla, palıd ağaclıqlarından və daş yığınlarından ibarətdi və daş yığınlarının arasında qalan, hələ də xışla əkilən bu boş yerlərə əkin əkərdi kənd adamları.

Həftə sonları yatağımdan qalxıb pəncərədən baxanda Rəhman dayının tarlasında ya köhnə bir daş yığımının bir az da böyüdüyünü, ya da yeni bir daş yığını görərdim.

Palıdın dibində oturub çay içdiyi zaman çay boğazından keçməz, yorğun-ərğın evə qədər gələr: «Hocam, gəl, gözünə dönüm sənin, gəl, bir stəkan çayımı iç», - deyə dəvət elərdi.

Evdə Rəhman dayının süfrəsində olmadığını bildiyim nə varsa, zeytun, halva, mürəbbə… Boşqablara doldurub yanına gedərdim. Qəlbi incə, ürəyi geniş, sevgiylə dolu bir adamdı Rəhman dayı. Tarlasına addım atmaq, onun qonağı olmaq deməkdi. Çayımı o süzür, yağ sürtdüyü çörəyi mənə uzadır, ayağa qalxıb altındakı klim parçasını götürür: «Sən qonaqsan, atam» deyər, altıma sərərdi.

Bir ata kimi mənə qarşı şəfqətliydi. Onun hörmətindən utanar, sıxılar, əzilərdim, amma onun istəklərini qəbul eləməsəm üzüləcəyini, inciyəcəyini bilir, çarəsiz qalaraq hər istəyinə boyun əyirdim.

Yanında bardaş qurub süfrəsində oturunca, gizli bir sevinc duyar, bir müəllimin süfrəsinə gəlib onunla yemək yeməsindən məmnun olardı. Dərdləşirdi mənimlə, iri barmaqlarını çiynimə qoyar, əlinə keçən bir palıd budağıyla torpağı eşər, başını qabağa əyib başlardı anlatmağa: «Hocam, sən sanki bizim kənddə anadan olubsan, evimizə gəlirsən, çörəyimizi yeyirsən, toylara, mövludlara da gəlirsən, o biri hocalar niyə gəlmirlər, atam? Halbuki hamısına da hörmət eləyirik. Bir də sənin kimi Qəhrəman müəllim var idi, insan evladıydı, bizimlə oturub durar, söz-söhbət elərdi. Keçənlərdə Zeynəb qarı isti çörək bişirdi, iki çörəyi qızın əlinə verib orta məktəbin müəlliminə göndərdim, almamışdı, qız geri gətirdi. Alıb da itlərə atsaydı, bundan yaxşıydı. Sabah qış gəlir də, kəndə maşın işləməsə, bu hoca nə yeyəcək, qurban? Ərizə yazdırmağa, xəbərləri oxutdurmağa, pasportun surətini yazdırmağa, şəhərdən gələn hər kağızı oxutmağa kəndçi həmişə sənin qapına gəlir, nə edək, avamlıqdı, hocam. Allah sənin də qismətini bu kənddən üzməsin, ye, iç, başımızın üstündə gəz. Hoca, qurbanın olum, pul verib də, kömür alma, bu il odununu mən verəcəyəm, odunları da əlimlə yarıb içəri atacağam, dərdimizin dərmanısan, hamımız səndən razıyıq, hamınızı dövlət göndərir, ayrı-qeyriniz yox, amma o birilərin yanına getmək olmur ki, atam».

Rəhman dayıdan ayrılıb evə gələndən sonra onun dediklərini təkrarlar, hər bir cümləsini yaddaşımda canlandırar, düşünürdüm. Rəhman dayı bu yerləri fəth eləmək üçün bir açar və bu dağlarda illərdən bəri alovlanan atəşi külə döndərəcək torpaq, söndürəcək bulaqdı. Bir yol göstərmək, bir ərizə yazmaq, bir yazını oxuy ub anlayacağı dildə izah eləmək, toyuna gedib oynamaq, yasına gedib iştirak eləmək, süfrəsində oturub plovuna qaşıq uzatmaq, göndərdiyi bir-iki almanı gülər üzlə qəbul eləmək heç də çətin deyildi.

Üstəlik Rəhman dayı dövlət olaraq buralara göndərdiyi müəllimin nə yeyəcəyini düşünür, bir şirin dillə, gülər üzlə qışlıq odun bağışlayırdı.

Nədən olmamışdı? Nədən olmurdu? Düşünür, düşünürdüm…. Uzaqdan silah səsləri gəlirdi. Gecələr boyunca yuxularım qaçardı. Rəhman dayı bu kürd kişisi, ulu bir ağsaqqal, bir ərən olub dolaşardı xəyallarımda.

Tarlada bir qarışqanın özündən qat-qat ağır bir dənəyə yapışıb yuvasına gətirdiyi kimi, iri bir daşa sarılıb yuvarlardı Rəhman dayı. Bir qarış torpaq üçün qayaları qucaqlar, ömrünü yeyəyə verərdi. Evnə vaxtı azan oxununca beli, lingi bir tərəfə qoyar, bir az irəlidəki kanalaın başında outrar, dəstəmazını alar, palıdların kölgəsində namaza durardı. O div kimi cüssəli, vursan yıxılmaz bədəniylə huşu başında əyilərdi Allahın hüzurunda. Qəlbində, könlündə əskiyliyi yoxdu. Dev cüssəsinə rəğmən bir qarışqanı incitməyəcək qədər yuxa qəlbli, geniş ürəkli idi. Içində bir atəş kimi yanıb közərirdi Həccə getmək istəyi…

«Aaah, hocam, Allah bir qismət eləsəydi o mübarək torpağı», - deyərdi. Hər il ziyarət zamanı əldə etdiyi qazancın bir bölümünü həccə getmək üçün ayırar, amma ayırdığı pulun ancaq yarısı qalırdı.

Cümə ertəsi və bazar günləri evdəki televizoru məktəbdə qurar, kənd adamlarını çağırardım. Cümə ertəsi yaşlılar, bazar günləri də gənclər gələrdi televizoru izləməyə. Həftə sonları çay, qənd gətirər, bir də samovarı qoyardım sinifə. Mustafa dayı, Bəktaş dayı, Məhmət dayı, Rəhman dayı, hamısı şagirdlərin yerlərində oturar, çay içər, film izlər, xəbərlərə qulaq asardılar. Bəzən bir xəbəri öz aralarında bir müddət türkcə danışdıqdan sonra kürtcə danışmağa başlayardılar, sinifə bir uğultu yayılar, qalmaqal başlardı. Rəhman dayı bir müəllim kimi ayağa qalxıb həmkəndlilərinə hirslənər, onları məzəmmətlərdi:

- Hoca dediyinizi başa düşmür, düz danışın.

- Danışsınlar, vacib deyil, - deyərdim, amma Rəhman dayı məktəbi mənim evim kimi dəyərləndirərdi.

- Olurmu, hocam. Biz sənin evindəyik, atam, - deyərdi.

Rəhman dayı cümə ertəsi xəbərlərini yaddaşına yazar, bazar günləri tarlaya gəldiyində çay içərkən soruşardı:

- Hocam, məmləkətin halı necədi? Biz xəbərləri dinləsək də, bir şey başa düşmürük. Bu terror nə olacaq, atam?

Onun yaddaşındakı bütün suallara cavab verməyə çalışırdım. Terrorun tüğyan elədiyi illərdi, dağlarda əmin-amanlıq deyildi. Mahala daha otuz kilometr uzaqda bir quş uçmaz, karvan keçməz dağ kəndində terrora çarə axtarırdı Rəhman dayı. Terrorun bitəcəyinə əmin olsaydı, bədənini güllələrə sipər eləməkdən çəkinməzdi. Hər terror hadisəsində sinəsinə döyər, yanıma gələr, radioda dinlədiyi xəbərləri mənə yorumlardı. Şəhid olan əskərlərimizin harda şəhid olduqlarını soruşardı:

- Hocam, deyirsən oralar uzaqdımı? – deyərdi. Yaşadığı kənddən başqa bir də Dərsimi tanıyardı. Rəhman dayı dörd il əskərilikdə olmuşdu, ikinci dünya müharibəsində Dərsimdə əskər imiş. Anladırdı bəzən.

«Hocam, dinimiz bir, müsəlmanıq, müsəlman da heç müsəlmana düşmən olarmı? Dövlətə qarşı çıxarlarmı heç? Kürd nə, türk nə, atam? Ikisi də bu barmaqlarım kimi, hansını kəssən, o birisi də göynəyəcək. Biz qardaşıq, atam. Keçən gün xəbərlərdə qulaq asdım, bir müəllimi vurublar. Hocam, indi sən bir qərbsən burda, bizim kəndin gəncləri qalxıb, sənə silah çəksinlərmi? Tövbə, ya rəbbiii! Göstərmə, ya rəbiii! Aman hocam, sən ağlı başında adamsan, bizim gənclər də səni çox sevirlər. Səni onların içində görüncə ürəyim fərəhlə döyünür. Cahil adam suya bənzəyir, qabağını haraya döndərsən, oraya da axar, qurban».

Bir səhər tezdən oyandım və pərdəni çəkdim. Rəhman dayı yenə də daşlarla əlləşirdi. Evdə səhər yeməyi hazırlatdım və yanına getdim.

- Rəhman dayı, gəlinin səhər yeməyi hazırlayıb, haydı evə gedək. – dedim.

Dikəldi, çaşıb qalmışdı, iki əlini yana açıb başını qabağa əydi, üst-başına göz gəzdirdi. Güldü. Gülüncə də gözləri ağappaq saqqalının içində yoxa çıxırdı.

- Hocam, üst-başım toz-torpaqdı, mən sənin evinə necə gedim, indi Zeynəb qarı gələr, sən məni bağışla, qurbanın olum.

- Olmaz, - dedim, məni qırmayacağını, qəlbinin yumşaqlığını, gövrəkliyini bilirdim. Qaşlarımı çattım: - Mən də bir daha sənin yanına gəlmərəm, - dedim, - küsərəm.

Yaxınlaşdı, gəlib üsulluca yanımda durdu, boynuma sarıldı. Bir yandan da məni küsdürməmək üçün yalvarır, bir yandan da kiçik, məsum gözləri gülürdü.

Nəvəsi Ebruya mənim dərs keçməyimi çox istəyirdi. Təkid ettim əvvəlcə, sonda isə hədələdim:

- Mən də bir daha sizə gəlməyəcəyəm, gələn il də Ebrunu kim oxudar oxudar.

- Elə demə, qurban, Ebrunu sən oxudacaqsan.

- Oxutmaram!

- De haydı. Mən neyləyim, hocam?

Onu çarəsiz vəziyyətdə qoymuşdum. Evimizin önündəki tut ağacını göstərdi.

- Hocam, ağacın dibinə bir çul parçası atarsan, gələrəm, içəriyə keçmərəm, - dedi.

Mən evinə getdiyimdə evini alt-üst eləyən, tarlasına getdiyimdə könlünü kilim eləyən bu kürd kişisi niyə bu qədər çəkinir, niyə müəllimin evinə getməkdən qorxurdu? Məktəbdə, bizim qaldığımız ev də onun üçün bir dövlət binasıydı. Başa düşmüşdüm. Bu qorxusunu aradan götürəcəkdim, qərarlıydım, üstəlik Rəhman dayı da israrlarım qarşısında çətin vəziyyətdə qalmışdı, məni qırmayacağı bəlliydi.

- Evə keçəcəksən, səhər yeməyini bərabər yeyəcəyik. Bax, gəlməsən Ebrunu oxutmayacağam.

«Ebru» deyincən susur, əlini yanlara açır, danışa bilmirdi.

Rəhman dayı dözə bilmədi:

- Tamam, hocam, - dedi, - gedək.

Birlikdə evə doğru getdik. Mən qapını açıb içəri keçdim, Rəhman dayı qaloşlarını çıxartdı. Corabları yırtılmışdı, ayaq barmaqları görünürdü. Mənim fərq etdiyimi görüb utandı, ayağını gizləməyə çalışdı və üzündəki acı bir ifadəylə:

- Hoca, sənə qurban olum, - dedi, - bu ağacın altına bir çul parçası sər, oturum da.

O nur üzlü adama daha bundan artıq təkid eləyə bilmədim, eləmədim.

- Tamam, Rəhman dayı, - dedim, - sən keç ağacın altına, mən gəlirəm.

Danışdıq, yenə dərdləşdik, Həccə getməyi niyət eləmişdi, qərarlıydı:

- Qismət olarsa, həccə gedəcəyəm, hocam, - dedi. - Inşallah qaysılardan bu il yaxşı pul götürərik. Keçən il dolu vurdu, öncəki il də çiçəkləri töküldü, soyxalar meyvə vermədilər. Beş-on qoyun da satacağam. Ölmədən bir ayağım o mübarək torpağa dəysəydi, yuxularıma girir, vallah, bu il inşallah gedərəm.

- Inşallah, istədiyin kimi olar, Rəhman dayı.

- Hocam, mən qalxım, - dedi. – Ya Allah, ya şeyx, ya mədət.

Dizlərinə dayanaraq dikəldi və dizlərinə qədər enən uzun qollarını yelləyə-yelləyə getdi, yenə tarladakı bir daşın başı üstə dayandı.

Qış artıq yaxınlaşmış, uca təpələrə qar yağmışdı. O gecə məni yuxu aparmadı, evdə dörd dolanıb gərdiş eləyirdim. Gecə saat ikini keçmişdi. Kənd qaranlığa qərq olmuş, dərin bir sükut içində uyuyurdu, külək evdən bir az aralıdakı qoz ağaclarının dili ilə danışırdı. Bu boyda kənddə sadəcə mənim evimdə işıq yanırdı, hələ də yata bilməmişdim.

Birdən evin qapısını döydülər, mətbəxin pəncərəsindən çölə baxdım, çöldə iki kişi gözləyirdi. Kənddə hər kəsi tanıyırdım, gələnlər yad adamlardılar. Evin qabağında bir küçə fanarı var idi. Gələnlər fanarın işığında dayanmışdılar. Birinin köynəyində qan izləri var idi, digərinə söykənərək dayanmışdı, o birisinin isə çiynində tüfəng var idi.

- Kimdir? – deyə səslədim, amma cavab vermədilər. Qəribə bir qorxuya düşdüm, ətrafda kimsə yoxdu, bir müddət qapını açıb açmamaqda tərəddüd elədim. «Ebe üçün gəliblər hər halda», deyə düşündüm. Kənddəki xəstələrin üstünə belə gecə getməyə qorxardı zavalı qız. Bu üzdən gecələr xəstələri olanlar, başqa kənddən Ebe üçün gələnlər əvvəlcə məni oyandırardılar. Gecələr sadəcə mənimlə gedərdi xəstəyə baxmağa. Yenə də qapını açmağa tərəddüd edirdim.

Bu zaman evin qabağında bir gurultu qopdu, birdən səslər çoxaldı, sanki bütün kənd oraya toplanmışdı. Rəhman dayının səsini tanıdım. Qapını açdım. Kənd adamları o iki gənci yerə uzatmışdılar, Rəhman dayı başları üzərində dayanıb gözləyirdi.

Nə olduğunu başa düşmədim. Aşağı endim. Kənd adamlarını bir tərəfə çəkdim, qorxudan gözləri geniş açılan gənclərin yanına getdim və kim olduqlarını soruşdum. Biri nə olduğunu başa saldı. «Tohma çayının sahilindəki bir kəndə getdik, qız qaçırdacaqdıq, qızın ailəsi hiss eləyibmiş, atəş açdılar, qaçdıq, yoldaşım yaralandı. Nə olar, kömək edin».

Bir neçə evin qapısını döyüb kömək istəyiblər, kimsə qapını açmayınca da kənddə işığı yanan tək bir yer olduğu üçün mənim evimə, kömək istəməyə gəliblərmiş.

Yardım istədikləri evlərdən biri də Rəhman dayının eviymiş. Rəhman dayı şübhələnmiş, qonşuları da qaldırıb bunları təqib eləmiş, gənclər bizim evə gəlincə, terrorist olduqlarını güman eləyən Rəhman dayı canını sipər edib gənclərin üstünə atılmışdı.

Sevgi nələrə qadirmiş, gənclərə üzüldüm.

- Rəhman dayı, - dedim, - yazıqdılar, gənclərə yol göstər, qoy çıxıb getsinlər.

Rəhman dayı gənclərə nəsihət verdi, onları yola saldı və mənim yanıma gəldi:

- Hocam, sən narahat olma, mən nə qədər sağam bu kənddə sənə bir şey olmaz, gecə-gündüz gözüm sənin qapında, keç içəri, yorğanı başına çək. Yat.

Kənddə bir terror olayı olar, hoca çıxıb gedər deyə həyəcanlanır, təyinat mövsümü gəlincə, «başqa yerə təyinat istəmə, qurban» deyə yalvarardı zavallı.

Məktəbə bir rəsmi şəxs maşınla gələrsə, evdə əlinə nə keçərsə bir nimçəyə doldurar, qışda daima sobanını üstündə qaynayan qəhvədandan çay dəmlər, məktəbə gətirərdi, Rəhman dayı. Məktəbə gələn yad adamlar kim olurlarsa olsunlar, çiyinlərini qucaqlayar:

- Atam, biz bu hocadan çox razıyıq, qurban olum, bunu bir yerə göndərməyin, eləyə bilərsinizsə, buna heç başqa yerə təyinat verməyin, - deyə yalvarardı.

Mən yay tətilinə gedərkən yanıma gələr:

- Hocam, inşallah, başqa yerə təyinat verməzlər, tez gəl, qozunu, əriyini, armudunu ayıracağam, - deyərdi.

Ramazan ayı bitmiş, həcc mövsümü yaxınlaşmışdı, bir axşam oğlu Ömər ilə qapını döydü Rəhman dayı. Əlindəki boşqabda qoz, ərik qurusu və ərik çəyirdəyi, üzündə də hər zamankı məsum ifadə var idi.

- Içəri keçin, - dedim.

- Yox, atam, yox, bir şey söyləyib gedəcəyəm, - dedi söyləyəcəyi şeyi unudubmuş kimi bir neçə dəfə udqundu.

- Hocam, - dedi, - sənə bir şey deyəcəyəm, amma…

Deyə bilmədi, sustu və oğlu Ömərin qolunu dürtmələdi. Deyə bilmədiy nəydisə, Ömər deyəcəkdi. Onun o məsum, məzlum baxışı məni duyğulandırırdı.

- Xeyir, Rəhman dayı, Ömər deməyəcək, sən deyəcəksən.

- Ata, mən deyə bilmərəm, - dedi və gülərək üzünü məndən gizlədi.

- Sən de, Ömər nə oldu?

Ömər qayğısız, zarafatcıl, dəli-dolu, igid bir dəliqanlıydı. Əskərliyini yenicə bitirmişdi, amma yaşıdlarından fərqli olaraq hələ subaydı. Qara saqqalı vardı, «Rəhman ağa məni evləndirməyincə, bu saqqalı kəsməyəcəyəm», deyirdi. Babasının vəkili olaraq gəlmişdi, dəcəlcəsinə gülərək danışmağa başladı.

- Hocam, səndən məsləhət adlmağa gəlmişik. Subay oğlu olan adama oğlunu evləndirmək vacibdi, yə Həccə getmək?

- Tez ol, de! – Rəhman dayı dedi və hirsləndi.

Güldü, sözün əl-ayağını yığdı Ömər:

- Hocam, atam həccə gedəcək, 150 dolları çatmır.

Rəhman dayı utanırdı, üzümə baxa bilmirdi, deyə bilmədiyi şey buymuş, demək.

- Məndə var, verərəm, Rəhman dayı, - dedim və pulu gətirib Ömərə verdim. Bu sıxıntılarına baxmayaraq kəndin ən zəngin adamlarından hesab olunurdu, Rəhman dayı dualar edərək getdi.

Bir qış günü qonaqlıq verdi, kəndiylə vidalaşdı, məktəbə gəlib mənimlə halallaşdı, avtobusa mindirib göndərdik Rəhman dayını. Dayı kənddən ayrılarkən başladı ağlamağa, mübarək torpaqlara çatandan sonra hər küncdə ağlayacağı bəlliydi. Allah qismət eləmiş, duaları qəbul olmuşdu. Getdi…

Bir gün Ömər bir neçə yoldaşıyla məktəbə gəldi. Üzündə yenə dəcəl bir gülüş vardı.

- Hocam, - dedi, - babam sabah həcdən gələcək, o gələndən iki gün sonra bir kağız yazıb bizə verəcəksən. Rəhman ağanı elə bir müşkülə salacağıq ki, bu müşküldən qurtulmaq üçün bizə bir qoyun kəsəcək, bərabər yeyəcəyik.

Kəndin cavanları ağayana, səmimi, dürüst, hörmət saxlayan idilər. Onları sevirdim, həftə sonu futbol oyunları olduğundan utana-sıxıla gəlib televizoru məktəbə qoymağımı xahiş edirdilər, heç qırmazdım onları. Bir də komanda yaradıb futbol topu almışdıq, boş zamanlarda futbol oynar, ətrafdakı kəndlərə yarışlara gedərdik. Hamısı işsiz-gücsüz, qışda divar diblərində oturub yazın gəlməsini gözləyərdilər. Baharda şəhərə gedər, qışa qədər inşaatlarda fəhləlik eləyərdilər.

Şeytanca bir planları vardı.

- Olmaz, uşaqlar, - dedim, - sonra Rəhman dayı inanar, üzülər, günaha batarıq.

Beş gənc yalvarırdılar. Ömər:

- Hocam, qırma bizi, Rəhman ağanın bir qoyununu kəsib yeyək. O ancaq sənə inanır, sən eləməsən, bu iş olmaz, - dedi.

Bir yanda o məsum üzü ilə, saf, təmiz ürəkli, müəllimi oğlu kimi sevən nur üzlü Rəhman dayı, bir yanda qolumdan tutub yalvaran gənclər… Az-çox olacaqları təsəvvür eləyirdim. Gənclər durmadan israr edirdilər. Onları qıra bilmədim. Əvəzində xəyanət elədim, sattım Rəhman dayını.

- Tamam, - dedim.

Ertəsi gün Rəhman dayını qarşıladılar, şəhərdən alıb, kəndə gətirdilər. Yeməklər verildi, mövlud oxundu, Rəhman dayıgilə xoş gəldinə getdik, boynuma sarılıb ağladı. Mənə xüsusi olaraq gətirdiyi və öncədən ayırdığı hədiyyələri digər otaqdan götürüb gətirdi, əlimə verdi. Bir qutu xurma və bir şüşə zəmzəm suyu, bir də qızım üçün sədəfdən boyunbağı.

Zavallı Rəhman dayının ona hazırlanan və mənim də ortaq olduğum plandan heç xəbəri yoxdu. Üzü daha da aydınlaşmış, saqqalı daha da ağarmışdı, sakitcə oturur, xoş gəldinə gələnləri qarşılayır, gedənləri yola salırdı.

Ertəsi gün Ömər yanında da yolddaşları məktəbə gəldilər. Orta məktəbə bir uşaq göndərdim və Şahin hocanın yazı makinasını da alıb gəlməsini xahiş elədim. Bir az sonra Şahin hoca əlində makina ilə gəldi.

- Xeyirdi, hocam, makina ilə nə yazacaqsan?

- Otur, - dedim, - rəsmi yazı yazacağıq.

- Hocam, qurban olum, yaxşı yaz, - Ömər dedi. – Rəhman ağı oxuyunca dizinə döyüb ağlasın. Məni evləndirməmək nəymiş, görsün.

Makinaya ağ kağız qoyub, yazını yazmağa başladım. Makinanın düymələrini taqqıldadaraq bir azdan yazını tamamladım. Səudiyə Ərəbistan hökumətindən gəlirdi yazı:

«Hörmətli Rəhman Qorxmaz, 1991-ci ildə Türkiyə Cumhuriyyətinin aidiyyatı orqanlarına Həccə getmək istədiyinizi bildirərək, müraciət eləmisiniz. Hökumətimiz Həcc ibadətinizi yerinə yetirməniz üçün lazım olan bütün işləri görmüşdür. Vətəndaşı olduğunuz Türkiyə Cumhuriyyətinin səlahiyyətli nümayəndələrinə sizi qəbul etdiyimizə dair gərəkli bilgilər verildi. Buna uyğun olaraq ölkəmizə gəlib, mübarək torpaqlarda bir ay qaldınız və müqəddəs torpaqlarda Həcc borcunuzu yerinə yetirdiniz. Fəqət Səudiyyə Ərəbistanı hökumətinin apardığı araşdırmalar nəticəsində Həcc pulunuzun 150 dollar az ödənildiyi müəyyən edilmişdir, bu səbəbdən də həcciniz qəbul olmamışdır».

Şahin hoca ədəbiyyatçıydı, yazının altındakı imza yerinə əski əlifba ilə Füzulidən bir beyt yazdı. Beytin üzərinə də məktəbin möhürünü vurdum. Dolabdan bir sarı zərf çıxartdım, zərfin hardan gəldiyi göstərilən hissəsinə də Şahin hoca bir beyt döşədi, məktubu alanın yerinə də Rəhman dayının adını və ünvanını yazıb, zərfi Ömərə verdim.

Axşamüstü Rəhman dayı məktubu əlinə almış, bir boşqaba da bir az xurma, bir az da ərik çəyirdəyi doduraraq məktəbə gəlmişdi.

- Hocam, al bunları, uşaqlar yesin, - dedi, - bir məktub gəlib, bunu bir də oxu, görəsən nə yazırlar?

Rəhman dayı ərəbcə oxumağı az-çox bilirdi, amma anlaşılan buydu ki, Osmanlıca beyti sona çıxa bilməmişdi.

Az öncə ağzını bağladığım zərfi açıb, bir nəfəsə oxudum. O nəhəng daşları yuvarlaya-yuvarlaya yüzlərcə metrə sürükləyən adam yığıldı qaldı, dizlərinə döydü, məktəbin pilləkənində oturdu.

- Hocam, mənim həccimi qəbul eləməyiblər, eləmi?

- Hə, Rəhman dayı, qəbul eləməyiblər.

- Axtarıb tapıb göndərsək, qəbul elərlərmi, hocam?

- Bilmirəm, hər halda qəbul elərlər.

- Mənim taleyimi görürsənmi, bu ərəbin mənə elədiyini gördünmü, hocam? Niyə qəbul eləməyiblər, bir daha oxu görüm.

- Həcc pulu 150 dollar az ödənilib, Rəhman dayı.

- Hocam, pul az deyildi, 150 dolları səndən aldıq ha, görəsən səhvmi hesabladılar? Yoxsa bizim Ömər keçirtmədimi? Hocam, sən bir yazı yazsan da, Rəhman Qorxmazın çatmayan pulunu mən verdim desən, qəbul eləməzlərmi?

- Yazaram, amma bilmirəm, qəbul eləyərlərmi, Rəhman dayı?

- Artıq verək, atam, qəbul eləsinlər də, 300 dollar verək. Olmazmı?

- Olmaz, Rəhman dayı, rüşvət heçab eləyərlər.

- Vayyy! Oralarda necə də namaz qıldım, gecə-gündüz ibadətlə məşğul oldum, hocam… Ömərin boynu sınsın, mənim uşaqlarım belədir. Demək, Ömər deyilən boynu altında qalmış 150 dolları yeyib bəlkə? Keçirtməyibmi? Indi el məni hacı bilir, mən onların üzünə necə baxaram.

- Sən üzülmə, Rəhman dayı, mütləq səhv hesablayıblar, gedər, araşdırar, düzəldərik, inşallah, amma sən kimsəyə bir söz demə.

- Vayyy! Deyərmiyəm, hocam, əvvəl Allaha, sonra sənə güvənirəm, get, bir soruşdur.

- Tamam, soruşaram, sən qorxma.

- Hoca, bir daha oxu, qurban, doğrudan da qəbul eləməyiblər?

- Sən get, mən həll elərəm, qorxma, yanlış hesablamışlar.

Dizlərini döyə-döyə getdi, o tərtəmiz duyğuları, o saf və sevgi dolu ürəyiylə. Bir peşmanlıq dənizində boğuldum, dalğaların yırğaladığı cəsədim dəqiqələrcə sərt qayalara çırpıldı. Rəhman dayı uzaqlaşdı, göz görməz oldu. O axşamkı sözləri gəldi ağlıma. «Nə qədər mən sağam, sənə bir şey olmaz, hoca» deyir, ağappaq saqqalı, div kimi bədəniylə qarşımdan getmirdi.

Bir az sonra Ömər gəldi, gülməkdən keçinirdi, dayanmadan qəhqəhə çəkirdi.

- Tamam, hocam, - dedi, - indi Rəhman ağa bu işi həll eləmək üçün qoyunlarının hamısını verər. Bir az sonra birlikdə bizə gedək, sən anlat.

Axşam kor-peşiman yanına getdim, olanları anlatdım, üzünü bir sevinc işığı qondu.

- Məni bağışla, Rəhman dayı, - dedim.

Bir yuxudan oyanıbmış kimi idi, olayın gerçək olmadığına elə sevindi ki, qalxıb boynuma sarıldı, ağlamağa başladı. Ağlamamaq üçün özümü güclə saxlayırdım.

- Bağışla, Rəhman dayı, - dedim, - gənclərini sözünü yerə sala bilmədim, amma sən də həmən inandın. Belə şeylərə inanarlarmı?

O könlü dənizlər kimi geniş, saflıq, təmizlik heykəli Rəhman dayı hirslənmədi, heç məzəmmətləmədi də. Məktubun sonundakı möhürü göstərdi:

- Hocam, necə inanmayım, altında hökumətin imzası vardı, - dedi və qəhqəhələr çəkən Öməri səslədi: - Tez bir qoyun kəs, hoca qonağımızdı.

Türkcədən çevirən: Aslan Quliyev

Kərəm

Sıldırım qayalarda, dərin vadilərdə çağlaya-çağlaya yorulan çay Arpaçayı həsrətlə qucaqlayanda sevdiyinə qovuşan bir igid kimi ram olur, kəndin önündəki geniş düzənlikdə qıvrılaraq sakit-sakit axardı. Yay gecələrində Araz kərpic evləri işıqlandıran qaz lampalarının közərən işıqlarıyla, o biri sahildə tikilmiş dəbdəbəli daş binalardan süzülən pırıl-pırıl elektrik işıqlarıyla ikiyə bölünər, işıqlanan səsini götürüb gedərdi.

Arazın kənarındakı düzənliyin söykəndiyi çılpaq təpənin yamaclarında yerləşirdi kənd. Araz baharın əvvəllərində coşub sahillərini selə qərq eləsə də, hər yay bərəkət gətirər, nazlı-nazlı axardı kəndin kənarından.

Uşaqlığı bu kənddə keçdi Kərəmin, cavanlığı bu kənddə. Quru qamışları bir-birinə bağlayıb gəmilər, ərzaq torbalarının kənarını cıraraq o gəmilərə bayraqlar düzəltdi. Gəmilərin içinə ümidlə salamlar doldurub Xəzərə göndərdi illərcə.

- Buuuu, su! Xəzərə qucaq dolusu salam apar.

Araz başını qayalara vura-vura həsrətində olduğu bir diyara axıb getdi illərcə. Hər bahar yenə də sahillərində qamışlar qalxdı. Neçə bahar durnalar gəldi, neçə payız durnalar getdi. Əkinlər sahillərində boy atdı, Kərəmlə bərabər. Göybaşlar, gəlinciklər, sümbüllər yenidən bitdi. Əkinlərə, çiçəklərə qarışdı, boy atdı, böyüdü Kərəm.

***

Kəndə iki jandarma gəldi, əllərində bir dəstə kağız var idi. Muxtarı çağırıb bir-bir oxudular zərflərin üstünü. Jandarmalar adları oxuyur, Muxtar cavab verirdi:

- Kənddə yoxdu, komandanım.
- O da yox, Istanbuldadır.
- Kərəm Dəmir, - dedi jandarma.
- Burdadır, bax, ordakı cavandır, - muxtar Kərəmi göstərərək dedi.

Əskərlərin ətrafındakı kiçik qələbəliyə doğru gəldi Kərəm:

- Ay Hüseyin əmi, məni niyə axtarırlar? – dedi.
- Ay Kərəm, sən hələ böyümədin? Yaşın iyirmi olub. Sənin tayların evlənib arvad-uşaq sahibi oldu. Sən hələ də Arazın qırağında quzu otarırsan. Komandan deyir, əskərilik yaşın çatıbdı.

Muxtarın söylədkilrini eşidincə Kərəmin gözləri işıldadı. Qürurlandlı, əliylə kəkilini düzəltdi, pencəyinin içində çiyinləri genişləndi. Pencəyi indi ona dar gəlirdi. Çiyinlərini yuxarı qaldırıb bir neçə dəfə endirdi. Cəld irəliyə doğru qaçdı, adamları araladı:

- Ver görüm, Hüseyin əmi, əskəriliyim hara çıxıb?

Muxtarın əlindəki zərfi aldı, səbirsizliklə açdı. Yazılanların hamısını oxumadı. Böyük hərflərlə yazılan «Istanbul»u görüncə sevindi.

- Istanbul! Istanbul! Təvəkkül əmimin yanına gedirəm! - gülərək dedi.

Əmi, dayı, bibi, xala, qohum-əqrəba bir-bir dəvət etdilər Kərəmi. Yemədiklərini Kərəmə yedizdirdilər, geymədiklərini geydirdilər, imkanlarının məhdudluğuna baxmayaraq cibinə xərclik qoydular.

Bir sabah anası ağlayaraq arxasınca bir qab su atdı:

- Araz kimi çağla, get, Araz kimi çağla, gəl! – dedi.

Bir zamanlar önündə insanlar qaynaşan uçuq su dəyirmanının qabağından yola düşdü maşın. Geridə ayrılığın acısıyla yellənən əllər, bir də Kərəmin daha kimsələrə söyləmədiyi könül ağrısı qaldı.

Maşın dönə-dönə kəndin arxasındakı təpənin üzərinə çıxanda aşağıda qalan kəndə uzun-uzadı baxdı Kərəm. Qovaqlar yamyaşıl zoğlar bağlamış, alçalar ağappaq çiçəyə bürünmüşdü. Xəfifcə əsən külək əkinləri, otları bir yatırıb, bir qaldırır, toxunduğu çobanyastıqlarından, gəlinciklərdən aldığı qoxunu dörd bir yana yayırdı.

Qışda kənd kiçilirdi. Evlər üstünə-üstünə gəlirdi. Getmək, uzaq yerlərə getmək istəyirdi Kərəm. Əskərilik hesabında yox idi. Baharda kənddən ayrılmaq fikri qoca bir dağ kimi siənəsinə çökdü birdən. Boz, bulanıq Araz bir yanardağ axıntısı, közdən bir çay olub axdı içinə.

Az irəlidəki düzdə kiçik bir uşaq gördü. Əlində dəyənəyi, yanında iti, önündəki körpə quzularını otarırdı. Birdən maşını dayandırıb enmək istədi. «Ah, mən də bu düzənlikdə bir çoban olsaydım!» deyə ani olaraq düşündü. Birdən böyüdüyünə min peşiman oldu. Kənd avtobusu onun bədənini sürətlə apararkən, sanki sinəsindən ruhunu çıxartdı və kiçik bir çoban eləyib o uşağın yanına buraxdı Kərəmi.

Araz hər bahar olduğu kimi üsyankar idi, qəzəblə kükrəyib yatağından daşaraq axırdı. Ram olmayan bir ayğır olurdu, bu mövsüm qabağında durmaq olmazdı. Torpaq yol bitdikdən sonra avtobus asfalt yolda sürətlə irəliləyərkən Arazdan dönə-dönə havalanan bir durna qatarına sataşdı gözləri. Yoldaşından ayrılmış bir yaralı durnayı Kərəm. Qanadlandırdı ürəyini, qatıldı durnalara və son dəfə süzdü göy üzündə.

- Durnalar, durnalar gəlir, - zümzümə eləyərək dedi.

Avtovağzalda avtobusun yanına gələrkən ətrafıdakı əskər yola salan qələbəliyə baxdı. Aralarında tanıdığı birini axtardı. «Istanbul!» deyəcəkdi qürurla. Tanıdığı birini görə bilmədi. Ürəyi sıxıldı və kəndinə doğru baxtı. Kırac təpə görünmürdü. Kənd uzaqda qalmışdı. Köydən tək gəlmişdi, burda ona əl eləyən də yoxdu. Bir qəriblik çökdü içinə. Qələbəlikdə yaşlı bir qadını tutdu gözü: «Hesab elə ki, mənim anamdı» - dedi. Əllərini şüşəyə söykəyib asta-asta yellədi.

Avtobus Sıla torpaqlarını sürətlə keçdi. Kərəm çağlayıb Arazın tərsinə sürətlə qürbətə doğru axıb getdi.

***

Soraqlaşa-soraqlaşa hərbi hissəni tapdı. Bu mövzuda haqlı olduğu anlaşırılırmış kimi növbətçiyə uzatdı kağızını.

- Burdan gedəcəksən, ikinci bölük yazılan yer, - hisssənin növbətçisi dedi.

Üzü yaya gedirdi. Kərəmə yüngül əskər paltarları verdilər. Güzgülərdə uzun-uzadı özünə tamaşa elədi. Güzgülərə salam verdi, güldü…

Hazır ol, azad, yat, qalx, sürün, qaç, dur, hoppan... Rahat otur, siqaret çəkmək sərbəstdi. Qısa vaxtda Kərəm əskəriliyə alışdı.

Hissədə universitet məzunları, qısa müddətə əsəkərilik çəkən təhsilli gənclər də vardı. Kərəm bu qısa müddətli əskərlər içində Sərvəti çox sevirdi. Yataqları da yan-yanaydı. Bütün sualları Sərvətdən soruşardı. Sərvət bezib usanmadan başa salardı.

Bir gecə Sərvət iki qat olub gəldi, Kərəmi oyatdı. Ayaq üstə dura bilmirdi. Sifəti saralmış, ara-sıra titrəyirdi. Kərəmi səslədi:

- Saat 3-lə 5 arası növbətçiyəm, xəstələndim, növbədə dayanacaq halım yoxdu, mənim yerimə…

Tələşlə, həyəcanla ayağa qalxdı, cəld geyindi. «Sən get, yat, - dedi, - mən sənin yerinə növbədə dayanaram».

Səssiz, sakit gecəydi. Növbətçilər qarşılıqlı fit çalır, Kərəm yoldaşının yerinə vaxtı keçirdirdi. Uzaqdan üç nəfər göründü. Yaxınlaşdılar. Gələn komandandı. Komandan əlindəki kağıza baxdı, Kərəmə baxdı, qaşlarını çatı:

- Sərvət, bərk xəstədyi, komandanım, - deyə bildi, amma komandan söz anlayacaq kimi görünmürdü.

- Eləmi? Mənim niyə xəbərim yoxdu? – dedi.- Növbə qurtaran kimi yoldaşını da götür, yanıma gəlin.

Qarşıdakı dağların zirvələri xəfifcə qızarırdı, növbəni dəyişdirənlər gəldi, Kərəm növbəni təhvil verib kazarmaya gəldi. Sərvət hələ də oyanmamışdı, vəziyyəti başa saldı, geyinməsinə kömək elədi. Sərvətin qoluna girdi və komandanın yanına getdilər.

Komandan əsəbiydi. Sərvətin vəziyyətinin ağır olduğunu başa düşdü, ona bir söz demədi, amma Kərəmə üzünü tutub:

- Niyə mənə xəbər vermədin? – deyə ona bir yumruq vurdu. – Indi bayıra çıxın! – dedi və əlavə elədi. - Sən də dərhal tibb məntəqəsinə get.

Sərvət daha böyük bir acı duydu. Kərəm tutmasa yıxılacaqdı. Ikisi də danışa bilmədilər. Lal-kar gəldilər kazarmaya.

Yıxıldı Kərəm, evnəyə qədər hey o anı yenidən yaşadı. Günortadan sonra Sərvətin də xəstəxanaya aparıldığını eşitdi. Sərvət o gün getdi və bir daha gəlmədi. Gecələr yanındakı boş yatağa baxdıqca Kərəmin qəlbi göynəyirdi.

Siqaret fasilələrində eyni yerdə otururdu onunla. Boğazın mavi sularına baxardılar. Kərəm boğazın sularında bir gəmi kimi üzüb kəndə gedərdi. Sərvət də ona Istanbulu tərifləyər, sarayları, köşkləri, sahildəki evləri, qala divarlarını, bulaqları göstərir, bir-bir tanıdardı.

Sərvətin yoxluğunda isə daha da dolaşıq, daha da anlaşılmaz oldu Istanbul. Istiqamətini təyin eləyə bilmədi Kərəm. Uzaqdakı köşklər, saraylar, camilər, bulaqlar mənasını itirdi. Yaddaşında bir-birinə qarışdılar.

Günlər su kimi axıb getdi. Kərəm əskəriliyini bitirdi. Paltarlarını geydi və elə hey dönüb arxada qalan kazarmalara baxır, gedirdi. Buraxılış məntəqəsinə gələndə arxada qalan əskərlərin «Hər şey vətən üçün!» deyə söylədikləri mətin sözlər səsləndi qulaqlarında. Sanki o da əskərlərin içindəydi. «Hər şey vətən üçün!» fərqində olmadan zümzümə eləyirdi. Buraxılış məntəqəsindən çıxıb getdiyi anda arxadan çiyninə bir əl qoyuldu.

Döndü, Sərvət idi! Gülürdü. Qucaqdaşdılar, ayrıldılar, bir də qucaqlaşdılar.

- Gəl, - Sərvət dedi, - gəl. Qoy Istanbul bir igid görsün.

Bir az qabaqda qara bir maşın dayanmışdı. Maşına doğru getdilər, sürücü düşüb qapıları açdı, mindilər. Maşın buraxılış məntəqəsindən sürətlə uzaqlaşırdı, yarım saat sonra bir fabrikin qabağında dayandılar.

- Sən mənim qardaşımsan, Kərəm. Burda istədiyin işdə çalış, qalacaq yer də var, burda işlə, getmə, - dedi.

Kərəm bir kəndi düşündü, bir burdakı imkanları. «Getsəm, kənddə neyləyəcəyəm ki?» deyə düşündü.

- Tamam, - dedi,- işlərəm.

Beş il sədaqətlə işlədi fabrikdə, hər şeyi qaydasıncaydı, amma məmləkət həsrəti keçmirdi. Bəzi gecələr Araz düz sinəsinin ortasından çağlayıb axırdı. Hər bazar həmkəndlilərinin olduğu yerlərə gedib tanıdığı adamları görür, bir gün də olsa öz məmləkətinin diliylə danışır, rahatlanırdı.

Bir gün Sərvət yanına gəldi:

- Kərəm, - dedi, - bu fabriki satırıq. Mən də xaricə gedəcəyəm.

Bura alışmışdı Kərəm. Sanki baharda Araz daşmış, tarlaları sel basmışdı. Hər şeyi itirəcəyini düşündü, ağlamaq istəyirdi.

Sərvət davam elədi:

- Sənə bir iş tapaq. Bacardığın bir iş varsa de, sənə o işi təşkil eləyib gedəcəyəm.

Kərəm fabrikdən yağları doldurub getdiyi günlərdə belə fürsət tapıb həmyerliləri olan yerə baş çəkərdi. Vurğundu o yerə. Oraya gedincə kəndə getmiş kimi olurdu. Orda tanıdığı çox həmkəndliləri vardı. Son dəfə gedəndə bir qaz balonu dükanının satıldığını görmüşdü. «Bu işi bacararam», - deyə düşündü, amma udqundu, deyə bilmədi.

- Bir şeylər düşündün. Nə isə söylə, yoxsa kəndəmi gedəcəksən? Göndərmərəm səni! – Sərvət gülərək dedi.

Qəlbindən keçənləri dedi Kərəm.

- Qaz balonu dükanı görmüşdüm, satılırdı.

-Gəl, - Sərvət dedi, - min maşina.

Birlikdə taksiyə mindilər. Kərəmin tərif etdiyi qaz balonu dükanını tapdılar. Caminin tam qarşısında gediş-gəlişli küçədəydi dükan. Kərəm olanlara inana bilmirdi. Birdən xəyal kimi dükandakı kresloda oturmuş halda gördü özünü.

Bir neçə gündən sonra Sərvət gəldi, bir qədər də pul verdi Kərəmə: «Haqqını halal elə, dostum!» dedi və dükandan çıxdı.

Ətrafı yaxşıca tanıyan bir şagird götürdü işə, bu tərəflərdə bir ev də tutdu. Artıq öz işini qurmuşdu, sinəsini gərərək kresloda otururdu. Üstəlik tanıdığı mühitdi burası, həmkəndliləri vardı.

Ertəsi gün dükanı tezdən açdı, bir də kardon kağıza bir elan yazıb asdı qapıdan: «Sərvət qaz balonu ticarəti».

Saatlar keçdikcə küçədən kəlib keçənlər də artırdı. Kərəm dükanın qabağını süpürür, şüşələri silir, bir içəri keçib kresloda oturur, bir çölə çıxıb ətrafı sey eləyirdi.

Qarşıdakı səkidə uzun boylu, üst-başı dağınıq, saçı-saqqalı uzanmış bir adam gördü. Diqqətlə baxdı, birdən özünü itirdi. «Bu Təvəkkül əmi deyilmi?» özü-özünə dedi. Bu tərəflərə çox gəlib getmişdi, amma Təvəkkül əmi ilə heç qarşılaşmamışdı. Sadəcə bir neçə tanışla salam göndərmişdi. Həyəcanla qışqırmağa başladı.

- Təvəkkül əmiiiii! Təvəkkül əmiiii!

Dəli-dolu bir gənclik yaşamışdı Təvəkkül əmi. Bir qızla sevişmiş, könlü Araz kimi çağlayıb axmışdı. Bir ramazan ayında kəndə gələn molla da o qızı istəmiş, Təvəkkülün qarşısına bir divar olub dikilmişdi. Molla o qızla evlənincə də Təvəkkül kəndi tərk eləmişdi. Dəli-dolu bir həyat sürdüyü, heç evlənmədiyi xəbərləri gəlirdi kəndə.

Təvəkkül əmi səs gələn tərəfə baxdı, yaxınlaşıb tanıdı Kərəmi.

- Ay Kərəm! Sənsəəən?! Niyə heç yanıma gəlmədin?

- Gəlmişəm, amma səni heç görmədim Təvəkkül əmi.

Təvəkkül əmi ətrafı süzdü. Qarşıdakı yarısı tikilmiş caminin önündə üç saqqallı adam oturmuşdu, birdən yerə tüpürdü:

- Demək, bu dükan sənindi hə? De keç içəri, keç, bu mollaları gözüm görməsin.

Təvəkkül əmi içəri keçdi, bir balonun üzərində əyləşdi, pəncərədən çöldəki mollalara baxdı:

- Ay Kərəm. – dedi. – Qoca Istanbulu yordun? Qoca şəhərdə yer qəhətdi? Qaça-qaça gəlib bu caminin qabağına niyə ilişdin?

- Niyə ki, Təvəkkül əmi?

- Aha, bu caminin qabağındakı mollalar var ha?

- Bəli, ötən gün gəldilər dükana.

- Yaxşı, bir ildən artıq çəkməz, səni də soğan-çörəyə möhtac elərlər.

- Nə olub, Təvəkkül əmi?

- Otuz il öncəsini heç demirəm. Bax, qarşıdakı dayanacaqda mənim də bir avtobusum var idi.

- Hə, dedilər.

- Satmışam.

- Niyə ki?

- Bu mollaların ucbatından satmışam axı, özümü zor qurtardım. Boş ver, məni burda çox görməsinlər, - deyə çayını içib dükandan çıxdı.

Çölə çıxandan sonra bir daha tüpürdü yerə və uzun qollarını yelləyə-yelləyə yoxuş aşağıya getməyə başladı. Təvəkkül əmi qələbəliyə qarışana kimi Kərəm arxasınca baxdı.

Bir neçə gündən sonra səhər tezdən iki gənc gəldi dükana. Salam verib: «Xeyirli olsun!» dedilər. Gənclərdən iri cüssəli olanı:

- Molla əminin salamı var, caminin balonu qurtarıbdı, camiyə balon versin, - dedi.

- Olar, - Kərəm dedi, - cami bizim camidi.

O gündən sonra caminin balonunu onun boynuna yıxdılar.

- Molla əmi balon istədi.

- Nesə dənə.

- Üç dənə.

- Molla əmi balon istədi.

Molla əmilərin istəkləri bitmək bilmədi o gündən sonra, onlar istədi, Kərəm verdi.

Gənclər ara vermədən gəlirdilər:

- Məhərrəm ayı gəlib, caminin üst mərtəbəsi də xidmətə açılacaq. Molla əmi deyir ki, camaat üşüməsin. Kərəm balon göndərsin.

- Aşurə günü üçün ərzaq alınacaq, aşurə bişirəcəklər. Molla əmi deyir beş min versin.

- Molla əmi deyir ki, çay dəsti alsın, stəkanların üstündə on iki imamın şəkli olandan, camiyə yardım üçün.

- Molla əmi deyir üstünə Həzrəti Əlinin rəsmi toxunmuş xalı alsın.

Həzrəti Əlinin rəsmi toxunmuş xalılar, on iki imamlı çay-kofe dətsləri, Kərbalanı təsvir edən toxunma odeyallar, Imam Hüseynin təqvimləri, Zülfüqarlı şamdanlar, düldüllü dəsmallar, jurnallar, qəzetlər, kitablar, nisyə verilən balonlar, ödənməyən borclar. Iki gündən bir: «Molla əmi deyir ki…» deyə dükanın qabağını kəsən gənclər. Kərəm dükanı açdığına peşiman oldu, birdən Təvəkkül əminin dediklərini xatırladı.

Yenə iki gənc gəldi.- Molla əmi deyir ki…

Gənclər hələ sözlərini bitirməmiş Kərəm ayağa sıçradı:

- Molla əminiz bu camini mənəmi güvənib tikdi? Həzrəti Əli də desəniz almaram, Imam Hüseyin də desəniz almıram, bir şey almıram, daha camiyə də yardım eləmirəm. Get denən mollə əmiyə, məni soğan-çörəyə möhtac elədilər axı!

Gənclər özlərini itirmişdilər, dabanları üstə döndülər, camiyə doğru getdilər.

Ertəsi gün başqa iki gənc gəldi dükana. Ikisi də iri cüssəli, güclü, qüvvətliydilər. Biri Kərəmdən soruşdu:

- Denən görüm Həzrəti Əli Heybər qalasında neçə dənə kafirin başını vurdu?

Üç yüzdümü, beş yüzdümü? Bir dəfə vuranda neçə dənə kafirin başını kəsərdi Zülfüqar? Kərəm cavab verə bilmədi. Çaşıb qaldı, nə olduğunu başa düşə bilmədi.

- Yaz,- dedi,- iri cüssəli oğlan, - buna cəza yaz.

Bir qəbz çıxarıb yazdı o biri gənc.

- On min lirə! Camimizə yardım, - dedi.

Kərəm neyləyəcyini bilmədi, çətinliklə düzəltdi, ürəyi ağrıyaraq verdi pulu.

Gənclər çıxdı, Kərəm dükanın içində donub qaldı. Deyinməyə başladı.

«Hələ kopoyoğlanlarına bax! Mən nə bilim Həzrəti Əlinin atının örtüyü nə rəngdədi? Zülfüqarın uzunluğu neçə metrədi? Imam Tağının qəbri hardadı? Mən nə bilim Heybər qalasında Həzrəti Əlinin neçə kafir öldürdüyünü? Mən çörəyimin dalısınca düşmüşəm, kopoyoğlanları qoymur bir tikə çörək yeyəm!»

Artıq Kərəm ümidini əməllicə itirdi. Dükanı satıb kəndə qayıtmağı düşünürdü artıq.

Bir həftə sonra eyni gənclər yenə gəldi.

Kərəmdən biri soruşdu:

- Imam Hüseyn şəhid olanda başı üstə dolanan atın yerişi nə təhərdi?

Kərəm dişlərini bir-birinə sıxaraq cavab verdi:

- Mən Həzrəti Hüseynin atına çox minmişəm. Örtüyü al rəngdəydi, özü də löhrəm yerişliydi, heç xoşuma gəlmeyib.

Əvvəlcə səslər yüksəldi, balonlar devrildi, şüşələr qırıldı. Sonra dükanın içində bir qiyamət qopdu…

Ertəsi gün Kərəm dükanın şüşəsinə bir lövhə asdı.

«Mövsümü satılır»

Ramazan ayının girdiyi üç gün olmuşdu. Bayramdan əvvəl dükanı satıb kəndə dönmək istəyirdi Kərəm. Artıq dükandan tamam soyumuşdu, içərisinə girmək istəmirdi.

Mollalar yenə caminin qabağında oturmuşdular. Kərəm stulunu başqa tərəfə çevirib oturdu. Birdən yuxarıdan yenə saç-saqqalla, əynində rəngi solmuş dəri pencək pərişan vəziyyətdə gələn Təvəkkül əmini gördü. Təvəkkül əmi əlində iri bir dürməni dişləyərək gəlirdi.

- Eyvah, - dedi, - Təvəkkül əmi düz mollaların üzərinə gedir. Üstəlik də Ramazandır.

Bir yandan səsini mollalar eşitməsin deyə səsini aşağı salır, bir yandan da Təvəkkül əmini dayandırmağa çalışırdı.

- Təvəkkül əmiii! Təvəkkül əmii!

Nəhayət Təvəkkül əmi eşitdi.

- Bura gəl! Bura gəl! – deyə işarə elədi.

Təvəkkül əlindəki iri dürməyi dişləyərək gəldi.

- Nə deyirsən, ay Kərəm? Sürüsünə canavar girmiş çoban kimi nə qışqırırsan?

-Təvəkkül əmi, bu gün Ramazanının üçüncü günüdür, sən də əlində dürməklə gəzib dolaşırsan. Bax, qarşıda mollalar səni görsələr, nə deyəcəksən? Onsuz da qoca Istanbulu bizə dar eləyiblər.

Mollarlar da qarşıdan onlara baxırdı, mollalardan yanıqlı olan Təvəkkül əmi partladı:

- Mən o mollaların…

- Sərxoş hardan gəlib çıxdı, - deyə mollalar içəri qaçdılar.

- Mən o mollaların… Hər şeyə qarışırlar da, niyə gəlib bir gün əvvəldən mənə demirlər ki, Təvəkkül Ramazan girib. Mənim ayıq vaxtım olurmu? Mən yazıq hardan bilim Məhərrəm ayıdı, Səfər ayıdı? Hardan bilim Ramazan gəlib çatıb?

Təvəkkül əmi qayğısızcasına dürməydən dişləyib çıxıb getdi.

Kərəm girib lövhəni dəyişdirdi.

«Qaz balonu dükanı təcili satılır».

Türkcədən çevirən: Aslan Quliyev

Bəhri usta

Əli Akbaşa

Çölün sərin gecəsində ulduzlar titrək şamlar kimi yanırdı. Uzaqdan ara sıra nağara səsi gəlirdi…

Birdən gecə silah səsləriylə inildədi, sarsıldı…

Toyun masabəyisi Əli Çavuş əsasına dayanıb tələşlə ayağa qalxdı:

«Eyvah!, - dedi , -gəlirlər, qayın dəstəsi gəlir!»

Neçə toylar görmüşdü Əli Çavuş… Qoşa nağara ilə gələnləri qarşılar, ağır qonaqların könlünü alar, yola salardı. Neçə qapıya gözü yaşlı, ağ duvaqlı gəlin gətirmiş, neçə cavanı zifah gecəsinə yola salmışdı. Silah səslərini eşidincə həyəcanlandı, sağa-sola əmrlər yağdırmağa başladı.

«Qayın dəstəsi gəlir! Qəhvəçini oyandın, yemək bişirənləri çağırın gəlsinlər, kababçılar manqalı yandırsın, xidmətçilər işə başlasın, aşıqları yola çıxarın, aşıqlar hazırdır?»

Əli Çavuş əsasını yerə vura-vura, oğlan evində bir səliqə sahman yaratdı. Kimin neyləyəcəyini başa saldı. Xidmətçilərə qışqırdı.

«Oğlan evinin əlli metr qabağına çıxarın nağara zurnanı! Gələn qayının dəstəsidi! Yolda qarşılamaq lazımdı. Sabah gəlini gətirəcəyik. Gəlinimizin qardaşları yolu yoxuşa dirəməsinlər. Haydı, üzümü qara eləməyin, gözünüzü sevim».

Masabəyinin gözləri geniş açılmışdı. Dəyənəyini sürüyərək nağaraçı Aslanla zurnaçı Əkrəmin yanına getdi:

«Amandı ha! – dedi. Qız evinin nağarasının səsini batırın, qarşılama havasını ürəkdən çalın. Aslan, gözünə dönüm, nağaranı Osmanın qabağında çal. Bu Osmandı! Özün də bilirsən, qurbanı olduğum. Huylu at kimidir Osman, qabaqdan gələni qapar, arxadan gələni təpiklər».

Əli Çavuş oğlan evinin xidmətçilərini də nağaranın arxasına düzdü.

«Gələnlərə yer göstərin, - dedi, bir sözlərini iki eləməyin, uşaqlar, xidmətinizdə qüsur olmasın. Amandı ha! Dəli Osmanın könlünü alın, qurbanınız olum, toy evini başımıza uçurmasın».

Qaynın dəstəsi oğlan evinə bir şey alacaqlarmış kimi gəlirdilər. Onları ağırlamaq Əli Çavuşun işiydi. Qayınların bitib tükənməz istəklərinə boyun əyər, yaz günü əba, qış günü yaba, avqustda qar, çilədə nar… nə istəsələr yerinə yetirərdi. Gəlini sağ salamat gətirmək üçün ələkdə su daşıyar, şam alovunda çay qaynadardı.

Nağaraçını, zurnaçını, xidmətçiləri qaynın dəstəsini qarşılamaq üçün düzən masabəyi əsasını sürüyə-sürüyə gəldi, qoz ağacının gövdəsinə söykəndi. Üzündə getdikcə artan bir təşviş var idi.

«Qaynın dəsdəsi qapıya dayandı! Həzin sazlar hazırdımı?» - deyə yenidən gurultadı və təndir damına doğru getdi.

Beləcə neçə gecəni yola vermişdi Bəhri usta. Dərd ölçər, qəm biçərdi belə axşamlarda. Əli Çavuş təndir damının qapısını açar açmaz, diksinib yerindən qalxdı. Gözlərini Əli Çavuşa dikdi:

- Hazırıq, Əli qağa, hazırıq. Tələşlanma, qurbanı olduğum» - dedi. Təndir damının kərpic divarına söykənmiş, başı çiyninə düşmüş mürküləyən oğlunu səslədi. -Tufan, qayın dəstəsi gəlir, qalx dəli oğla» -dedi və Əli Çavuşa tərəf döndü:

-Əli qağa, Allah üzümüzə baxar qəzasız, bəlasız sovuşdurarıq inşallah. Indi bu dəli oğlanlar bağdan quduz olublarmış kimi girərlər oğlan evinə. Sabah göz-gözə baxacağıq deməzlər, qırıb tökərlər ortalığı. Əvvəllər beləydimi, qurbanı olduğum ağam? Ağalar da, ağaların uşaqları da əsilzadəydilər. Məclislər ağır, tünlük olurdu, böyük kiçik bilirdilər. Aaah! Qədimidə sözü qılınc kimi kəsən bəylər vardı. Qan axsa, axan qanı bir-iki sözlə kəsərdilər… Toyların da bir dadı-duzu vardı. Ağa uşaqları zatıqırıq oldular. Babaları Dadaloğlu, Koroğlu, Kərəm dastanlarının oxunmasını istərdilər. Eşq ilə dilləndirərdik sazın tellərini. Sazda nə havalar çalınardı! Elə məclislər qu-

rulurdu ki, səhərlərə qədər saz yanar, söz əriyərdi. Əvvəldən də vardı könlü yaralı gənclər, amma sevda belə ötüb-keçən deyildi. Sevdanın ötürülən, könülün toxtayan olacağını bilirdi əvvəlkilər. Indi…

- Bəhri usta, indi hər şey dəyişdi, əvvəlki toylar hardadı, əski sevdalar hardadı.

- Qurbanı olduğum Əli qağa, üzüm ayağının altına… Bu dəli uşaq öz kökündən boy atmayıbmı? Sanki o babaların nəvələri, o ataların oğulları deyil bunlar. Bunlar elə zənn eləyir ağalıq verməknən olür, igitlik vurmağnan. Əvvəllər xətirə, könülə dəyən olmazdı. Qədir bilən, könül alan qalmadı…. Aaaah! «Qırıldı bəylər, paşalar, keçəllərə qaldı dövran», deyərdi babam…

- Haqlısan, usta, amma adət budu, min illərdir davam eləyir, boyun əyəcəyik, başqa çarəmizmi var?

Bəhri usta işini bilən, əzəldən ürəyinin bir tərəfi yaralı aşıqdı. Bir qartal kimi aldımı sazı sinəsinə, pəncəsində inləyən tellərdən qüssə qanadlanardı. Mizraba ürəyini qoyardı, könlünü qanadardı saz çalarkən. Bəhri usta oxuyarkən dodaqlarını örtən qapqara bığlarının arxasında yanıqlı, yorğun bir səs inildəyərdi. Sol əli sazın pərdələrində can çəkişən bir quş kimi çırpınar, sağ əli alışıb yanan sazın sinəsinə bir pərvanə kimi dönər, dönər, dönərdi… O mizrablara vurduqca bir cüt durna havalanardı sevdalı ürəklərdən….

Bəhri usta oğlu Tufanı da qəm xəmirindən yoğurmuşdu. Tufan hələ uşaqdı, amma ən çətin havalar bir qəm seli kimi axırdı sazından. Bir uşaq anasına sarılan kimi sarılırdı qucağına sığmayan saza. Bəhri usta onun saz çalmasını qürurla seyr edər və:

«Bu dəli oğlanın mizrabı kimsələrə bənzəməz», - deyərdi.

Atası saz çalarkən Tufan körpə şahin kimi başını əsdirərək izlərdi onu. Babasının dayandığı yerdən o başlardı. Ondan aldığı qığılcımı kiçik ürəyində yeni bir atəşlə yandırardı məclislərdə…

Əli Çavuş:

- Mən gələnləri qarşılayım, sən də hazır ol, Bəhri usta, - dedi və çıxdı.

Əzab çəkən bir mürid kimiydi Bəhri usta. Təslim olmuşdu. Üzündəki dərin cizgilərdən düşüncələr yağırdı. Sazını alıb bir giriş elədi, Tufanın gözlərinə baxdı.

Tufan atasının bir səs axtardığını başa düşdü. Öz sazının tellərini köklədi, atasına qoşuldu. Sazlar bir müddət birlikdə çaldılar, səslər uyuşurdu, hazırdılar…

Silah səsləri oğlan evinin qapısına qədər dayandı. Nağara, zurna səsi qoyun quzuya qarışan kimi qarışdı bir-birinə. Zurnanın qəmli, yanıqlı havaları pırıl-pırıl alışıb yanan göy üzünə yayılırdı. Ulduzlar sanki halaya durmuşdular. Halayın başındakı çoban ulduzu dəsmalını yelləyərək sanki türkü oxuyurdu:

«Su gələr, lilləndirər…»

Qız evinin nağarası susar susmaz, oğlan evinin nağarası, zurnası çalmağa başladı. Aslan nağarasını dizi üstə qoymuş, rəqsin təranələri altında özünü unutmuşdu. Nağaranı Dəli Osmanın ayaqlarına kimi əyərək çalır, çubuqlarını ahəngə uyğun olaraq endirib qaldırırdı… Nağara halay çəkənlərin ayaqları havaya qalxıb yerə endikcə gur-gur guruldayır, halay çəkənlərə yol göstərirdi.

Qayın dəstəsinin qabağında havaya pullar səpərək bağıran Dəli Osmanın dili ağzında dönmür, nə dediyi heç anlaşılmırdı. Halaydan ayrılıb sağa-sola səntirləyərək getdi, belindən silahını çıxarıb xəzinəsini havaya boşaltdı.

Osmanı bu halda görənlərin təşvişi daha da artmışdı. Dəvə üstündə adam öldürərdi Osman. Özünü apara bilməzdi. Bir-iki qədəh içincə alçak dağlardan hesab sorar, böyük yolları kəsərdi. Karsızın birisiydi, amma babası zəngindi, arxalı da adamdı. Qaynının kölkəsində gəzər, bununla da fəxr elərdi. Onun axşamdan qırıb tökdükləri sabah tezdən unudulardı. Osman bu halda gələndə, məclisləri dağıdar, çox məclislər də özü dağılardı.

Toyların qədim yemək bişirəni Mühacir qızı bişirdiyi yeməkləri bəyənməyib dağıtmasının, yenidən qazan asdırıb yemək bişirtdirməsinin neçə dəfələrlə şahidi olmuşdu. Osmanı qarşısında görüncə deyinməyə başladı.

«Ölümünü düşünməyən onun bunun artığı! Dağ dayısı, dovşan əmisiymiş bunun. Hər qayın dəstəsinin başına bu keçməlidi. Kəlhüseynlərin buna nə yaxınlığı var? Qurbanınız olum, məni qınamayın. Bunu görəndə cin atına minirəm. Boynu sınmasa buna güc-qüvvət də çatmazdı».

Oğlan evinin qoşalay qapısından girər girməz Osman əlini havaya qaldırdı. Bir nərə çəkərək bağırdı.

- Oğlan, qayın gəldi! Doldurun masaların üstünü! Əyər bir dostum narazı qalarsa, yandıraram buraları! Balası itmiş eşşək kimi anqırdaram hamınızı! Xırda qüsur belə olmasın!

Zurna ahəngdar bir avazla inildəyirdi. Nağara ara vemədən guruldayırdı… Dəli Osman əliylə işarə eləyərək zurnayla nağaranı susdurdu. Arxasındakı gənclərə bağırdı:

- Oğlan, biz gəlmədikmi?

Gənclər bir ağızdan omsmana cavab verdilər.

- Heeeeeeeeey! Hey!

Dəli Osman əlini havadan endirər-endirməz nağara-zurna yenidən coşmuştu ki, nağarayla zurnanın səsi qəfildən kəsildi. Aslanın əlindəki çubuq Osmanın nərəsiylə havada donub qaldı.

- Nağaranı buraya gətiriiiiiiin!

Nağaraçı Aslanın çubuq tutan əli çiynindən qırıldı sanki. Başına gələcəkləri bilirdi. Gözlərini qırparaq Osmana baxdı və yalvarış dolu səslə:

- Ağam, çörək ağacımdı, qulun olum, cırma nağaranı! - deyə bildi.

- Nağaranı gətirin!- deyə Osman kükrədi.

Nağara Aslanın kürəyində, çomaq dəli Osmanın əlindəydi. Osman düşməni vururmuş kimi nağaranı döyəcləməyə başladı. Bir az öncə nağaradan çıxın o ahəngdar səs yerini anlamsız, qulaqları cırmaqlayan quru bir gurultuya buraxdı. Aslan gözlərini yummuş, üzü acıdan qıc olurmuş kimi gərilmişdi. Osman nağaranı deyil, Aslanın sinəsini döyəcləyirdi. Aslan çomaqla onu döyürmüşlər kimi acı çəkirdi.

Toyun masabəyisi Əli Çavuş Aslanın nələr çəkdiyini hiss eləmişdi. Qələbəliyin içinə daldı. Osmanın qoluna girdi:

- Igid Osmanım, sən ağasan, ağa olan kəs nağara çalarmı? Sabah Osman çalmağa həvəslənmiş deməzmi adamlar? Qoy Aslan çalsın, qurbanı olduğum, - dedi.

Osman hər sözə yatan deyildi, bir işarə ilə zurnanı susdurdu və barmağını havaya tuşladı:

- Nağaraçı nağaranın üsğtündə oynayacak, oynasın oğlan!, - dedi və bağırdı. - Nağaraçıya dəsmal verin!

Sonra başını qaldırıb gözlərini zurnaçı Əkrəmə dikdi. Əkrəm bir kəklik kimi çırpındı. Dəli Osman zurnaçının yaxasından tutub çəkdi və qarşısına gətirdi:

- Sən də çal baxım, «Badi səba»nı.

Aslan çarəsiz halda nağaranı yerə qoydu və zurnanın oynaq bir havasının müşaiyyəti ilə nağaranın üstünə çıxdı. Körpəsini tapdalayan ana kimi narahatdı. Bir kəklik qayada səkən kimi nağaranın üstündə səkib oynamağa başladı. Nağaraya zərər verməmək üçün nəfəsini tutur, qollarını yuxarı qaldırıb sanki havadan asıla qalırdı. Nağaranın dərisi bir müddətdən sonra Aslanın ağırlığına tab gətirməyib cırıldı. Aslanın ayaqları nağaranın cırılan dərisindən içəri girdi. Aslan yerdə bir ölü kimi səssizcə yatan nağaranı ağrıyla qucaqladı. Cırılan nağara yox, Aslanın ürəyiydi…

Dəli Osman zurnanın da susdurdu. Bir qələbə qazanmış kimi qürurlandı. Yerdəki cırıq nağaraya da bir təpik vurdu və arxasındakıları səslədi.

- Qayını dəstəsi belə olur, gəlin görək aşağıda nə var.

Dəli Osman bir neçə addım atandan sonra seyrək dişlərinin hamısını göstərərək:

- Masalar düzülübmü? – deyə bağırdı.

Masabəyi qayın dəstəsinə masaları göstərərək, buyurun, dedi.

Dəli Osman ayaq üstə çətinliklə dururdu, amma əmrləri bitib tükənmək bilmirdi. Qayın dəstəsindəkilərin hamısı yeniyetmə idi, hamısı da sərxoş idi. Ağlı başında olan, Osmanın təkərinin altına daş qoyan, atəşi söndürə biləcək kimsə yoxdu içərilərində. Oğlan evinin xidmətçiləri qayın dəstəsi lak desə ət, luk desə su verirdi.

Əli Çavuş iki dəqiqədən bir xidmətçilərin yanına gedib: «Canınızı dişinizə tutun, gec gələn xidmətçi bitdi!» - deyirdi.

Qayın dəstəsi əvvəldən qurulmuş masaların arxasına keçdi. Masanın başında oturan Dəli Osman bağırdı.

- Açdı lala, vuraq bala-bala. Həzin sazlar gəlsin, oğlan, hardadı həzin sazlar? Bu aləmdə bizi sayan biriləri qalmadımı?

Bəhri usta, arxasınca da Tufan gəldi. Əlini sinəsinə qoyub salamladı qayınları.

- Ayağınızın tozuyam, könlünüzün xidmətçisiyəm. Ağa nə deyər ki, aşıq onu eləməz? Sabaha qədər qulluğunuzda durar, canımı sizə qurban elərəm. Əmr elə, qurbanı olduğum, igidim Osman, - dedi.

Bəhri usta və Tufan hərəsi Osmanın bir tərəfində oturdu. Osman artıq danışa bilmir, işarə verirdi. Bir hava ilə Bəhri usta sazı dilləndirdi… Qayın dəstəsindəkilərin istədiklərini bir-bir çalmağa başlamışdı ki, Dəli Osman sazları susdurdu. Ayağa qalxdı, ombasından yuxarısı ayaqlarından ayrılıbmış kimi irəli-geri yırğalanırdı. Qəlbinin dərinliyindəki bütün düşüncələri alkolun təsiri ilə çaş-baş olmuşdu. Işarət barmağını aşıqlara tuşlayaraq əmr elədi:

- Mən aşiqəm, oğlan! Mənə Orxan babadan «Ayşəm»i çalacaqsınız!

Bəhri ustanın dişinə daş dəydi. Bir qazan qaynar su töküldü başına. Belə bir türkünü bilmirdi. Məhərrəm ustanı, Çəkici Alını, Hacı Taşanı, Necet Ertaşı adını bildiyi kimi bilirdi, amma kimdi bu Orxan baba, nə çalar, nə söylərdi? Televiziyalarda oxuyan sənətçilərdəndimi? «Ayşəm» uzunmu havaydı, qırıqmı havaydı, halaydımı? Görəsən Tufan «Ayşəm»i bilirdimi?

Bəhri ustanın sazı tutan əli soyudu, keyləşdi. Bir itiyini axtarırmış kimi Tufana doğru baxdı. Tufan qaşlarını qaldırıb atasına bu türkünü bilmədiyini işarə elədi. Bəhri usta Osmana tərəf döndü:

- Ağam, üzünə durmaq kimi olmasın, mən bu türkünü bilmirəm, oğlan da bilmir. Qulun qüsuru olarsa, sultan bağışlar, əmr elə başqa bir hava çalım, - dedi.

Dəli Osmanın damarlarından qan yox, alkolla qarışıq qəzəb axırdı, hiddətlənib bağırdı:

- Oğlan, «Ayşəm»i çalacaqsız! Ağa nə desə, aşıq da onu çalar. Bilmirsinizsə, öyrənəcəksiniz, oğlan, aşıq deyilmisiniz? Işinizin adı nədi? Mən aşiqəm, oğlaaan, sevirəm! Mənə «Ayşəm»i çalacaqsız!

Qayın dəstəsindən biri:

- Osman qardaşımın könlü yaralı, - dedi, - nə desə, onu da eləyəcəksiniz.

Bəhri usta Osmanı dilə tutmaq üçün yalvarmağa başladı.

- Qurbanı olduğum ağam, valih bilmirəm, qanım da, canım da sənə halaldı. Istəyirsən öldür, amma bu türkünü heç eşitməmişəm. Bilsəm, ağam üçün sabahlara qədər çalmarammı? Əmr elə, başqa türkü çalım?

Atasının bu itaətkar vəziyyəti Tufanın ürəyini yaraladı. Atasının çarəsizliyi bir bıçaq olub ürəyinə saplandı.Sazlar susmuşdu, hər kəs Osmanın ağzına baxırdı. Tufan Bəhri ustanın boynunun ipdən qurtarmaq istəyirmiş kimi Dəli Osmana səsləndi:

- Osman ağam, «Nə gözəl yaraşır xallar Ayşəyə» havasını çalaqmı?

Birdən Osman ayağa sıçradı.

- Mən hara qısqırdıram, sən haraya hürürsən! Ayşə kimə yaraşmış oğlaaaan?! O sadəcə mənə yaraşır… Aşıqlarrrr!

Osmanın gözü dönmüşdü, ağız dolusu küfürlər yağdırırdı. Dişlərini qıcırdaraq gözlərini qəzəblə Tufana dikdi.

- Həm də sən nə zamandan söz sahibi oldun da, Osmana dil uzadırsan, oğlan, şərəfsiz! - dedi və stulda möhkəmcə büzüşmüş, qorxudan titrəyən Tufanın üzünə var gücüylə bir sillə vurdu.

Ağaclarda xışıldayan yarpaqlar, qayınlar, xidmətçilər, Əli Çavuş… Hamısı birdən səssizliyin sularında qərq oldular.

Saz inləyərək bir yana. Tufan da bir yana düşdü. Bir əlini sillənin zərbəsindən qızaran yanağına qoydu, digər əliylə sazını götürüb səssizcə ayağa qalxdı:

- Ayağının tozuyam, qurbanın olum, bağışla, ağam, - dedi.

Öz oğlunu vururlarmış kimi ürəyi yandı masabəyinin. Itliyi də, igidliyi də vardı Əli Çavuşun, amma əli qolu bağlıydı. Osmanın yanına getdi.

-Osmanım, sənin kimi igidə bunlar yaraşarmı? Bizim havalara azarmı dəydi? Əl boyda uşağa necə qıydın? Bax hələ, əlinin yeri qalıb uşağın üzündə. Qurbanı olduğum Osman! Bunlar olmasa, bizim ağalığımız, bəyliyimiz harda qalır? – dedi.

Balasını qapdırmış sərçə kimi çırpındı Bəhri ustanın ürəyi. Toyda qazandığı pullar bir koz oldu cibində, ətini yandırmağa başladı. Əli yanına düşdü, sazı tuta bilmədi. Dodaqları ilə birlikdə bığı da titrədi. Biri qoluna girib kimsəsiz bir yerə aparsaydı, səhərə qədər ağlardı. Tufan Yusif olub böyüdü gözlərində. Bir Yaqubdu Bəhri usta. Içingəki ağrı iki damla göz yaşı olub yanaqlarıyla süzüldü. Və ağrıdan bir türkü doldu içinə… Sustu. Oxuya bilmədi….

Oğlan evinin bağçasına qısa bir səssizlik çökdü, qoz ağacının budaqlarına xəfifcə əsən yel toxundu. Ağac səssizliyi pozaraq inildədi.

Osmanın başı bədəni üstə dayanmır, gözləri yumulurdu.

- Başqa nə çalırsınız, çalın, oğlan, bura yas yeridimi? – deyə yenidən guruldadı.

- Sən çal, bala, bildiyimiz havalardan çal. Anadan olanı o havaları dinlədik biz. O havalara ağladıq, o havalar ilə oynadıq, - masabəyi dedi.

Tufan sazını yenidən sinəsinə basdı. Saz Bəhri ustanın və Tufanın ürəylərindəki alovu böyüdərək inildəyirdi. Uzun-uzadı simləri köklədi, orta teli dilləndirərək başını göyə qaldırıb fəryada başladı Tufan:

Bir yaratmış Allah bütün insanları
Ayrılıq insanın sözündən olur
Ayrı görmə gəl, bu insan oğlunu
Hər əməl kişinin özündən olur.

O yanıqlı səs dalğa-dalğa göy üzünə yayılır, göydə pırıl-pırıl alışıb yanan ulduzlara qədər çatırdı. Bütün ulduzlar titrəşirdilər…

Türkcədən çevirən: Aslan Quliyev

Abdal kişisi

Kafedə uğultu, tüstü, sıxıntı…

Birbirinə qarışan daş səsləri, zər səsləri…

Qəzəblə sovrulan yaşıl üçlük, həyəcanla gözlənilən beşlik, havada uçuşan kart kağızları. Karol, valent, dama…

Masalara gurultu ilə vurulan domino daşları və gülüşmələr, gülüşmələr…

Qarson iki dəqiqədən bir qışqırırdı:

- Altı elə, biri açııık…

Bir zamanlar bu kafedə mən də eyni ilə bu qarson kimi qışqırırdım:

- Doldur gəlsin, usta!

- Iki dənə süzgəcsiz, çəək!

- Şeytan Bəkir gəlir, bismillah de, salavat çək, usta!

- Koreyalı qazi gəlir, tam super usta!

- Şahan usta gəlir, çayı dəm olsun….

- Patron yenə uduzdu, samovara su tök usta!

Gurultular arasında keçmişdən bir iz, köhnə, tanıdığım, səmimi üzləri axtardım. Yox. Sonra bir daha göz gəzdirdim. Küncdə oturan bu ixtiyar?! O olmalıydı…

Diqqətlə baxdım.

Kafenin küncündəki taxta stulda ayağının birini altına qatlayaraq oturub, fələyin çiynindən endirmədiyi qəm yükünü çəkirmiş kimi başını sinəsinə sallayıb qalmışdı. Əlləri vurulmuş bir sərçə, yaralı bir quş əlləri, titrəyir, çırpınır… Siqaret tustusundan saralmış bığları çiçək açmış gülümbahara oxşayırdı. Dərin cizgilər içində itmiş sifətində gözləri oyulmuş iki qara nöqtəyə oxşayırdı… Pencəyinin cibləri torbalanmış, qoltuğunun altı sökülmüş və ağ sapla çöldən kobudcasına tikilmişdi. Qara pencəyin söküyünə ağ sapla vurulan tikişlər, pencəyin söküyünü tutan bir itin dişləri kimi göstərirdi…

Siqaretindən bir udum də çəkmək istədi və başını qabağa doğru əyərək iradəsindən asılı olmayaraq titrəyən, çırpınan əlini dodaqlarıyla tapdı. Ciyərlərinə çəkdiyi siqaret tüstüsünü kafenin çirkli tavanına doğru buraxıb, çayını masadan çətinliklə götürdü, bir əliylə aramsız olaraq titrəyən başını tutub, digər əliylə stəkanı ağzına apardı…

Bir neçə il qarsonluq elədiyim və illərcə baş çəkmədiyim kafeyə sürgündən qayıtmış birisi kimi gəlmişdim. Şahan ustanı belə görüncə heyrətləndim. Bədənimdən bir şeylər axıb töküldü, bir tərəfim uçdu, qəlbimə od düşdü. Şahan ustanın sazında həyata vəsiqə alan türkülər üçün göynədim, alışdım, yandım….

O türkülər ki, bu titrəyən əllərin pərdə-pərdə çaldığı sazda sevdaların əvvəli-axırı olurdu. Indi bu əllər nə saz, nə mizrab tuta bilir, nə də yol göstərə bilirdi ah çəkən türkülərə. Artık bu əllər pərdələrdə gəzişə, sazı kökləyə bilməzdi. Çöl səmasında parlayan bir ulduz gözlər önündəcə axıb gedir, sönür, yoxa çıxırdı….

***

Çərşənbə gününün səhərisi Abdallar məhəlləsindən tezdən enər, qarşıdakı caminin adamlarından sonra ilk o gəlirdi kafeyə. Içəri girər-girməz də düşərdi atamın üstünə.

«Həsən ağa, ağa da ölür, aşıq da! Axirətdə savab qazanacaq deyilsən ki, qurbanı olduğum! Üzüm ayağın altına, ağam, mənim üsün bir şorba de».

Şorbanı içib bitirər-bitirməz əliylə çay qarışdırırmış kimi bir işarə verərdi, dəmli çayını gətirirdim.

Çayından bir qurtum içər, bığlarını yuxarıya doğru burar, cami adamlarından Bəkir əmiyə ilişərdi, aralarında bir söz müharibəsi başlardı.

- O biri dünyaya hansı üzlə gedəcəksən, Bəkir ağa? Acın qarnını doyurmadın, qəzəbini cilovlamadın, ağasan, amma əlin cibinə çatmır, cibini kürəyin tikiblər, qurbanı olduğum. Allah özü

bilər, amma yəqin o tərəfdə alovun gur olar sənin. Deməyə də dilim gəlmir, amma cənnət üzü görə bilməzsən…

Bəkir ağa gülərdi:

- Allah canını almır, qəlbin də üzün kimi qaradır sənin, içinin pasını tökmə yenə. Əsil sən nə üznən o tərəfə gedəcəksən? Sabah dəftəri sol tərəfindən verərlərsə, nə deyəcəksən? Alnın heç möhürə dəydimi? Tövbən də qəbul olmaz sənin. Əlli ildir yeyib içir, saz çalıb, türkülər oxuyursan. Mən imam olsam, cənazəni yusam, Allah bəlamı versin…

- Mənim dəftərimi sona qədər oxusalar, hər səhifəsindən iki günah çıxar. Raki, toyuq, raki, toyuq… Onu da yuxarıda şah bilir, aşağıda padşah bilir, odumu başımın qaxıncı? Dəyirmançı üçün oğurluq günahdımı, qurbanı olduğum? Toyuq onsuz da halaldır, raki üçün də qədəh başına bir qamçı vursalar, iki ildə qurtararam. Bəs sən neyləyəcəksən?

- Saz çalıb türkü oxuduğun üçün qamçı vurmazlarmı? Başqa bir xeyirli iş görə bilməzdinmi, deməzlərmi?

- Kimsənin malını satmadım, Bəkir ağa, saz çaldım. Kimsəyə pis söz söyləmədim, türkü söylədim. Xətirə dəyib, könül də qırmadlım. Mənim çalıb oxuduqlarım günah hesabından silinmişlərdi…

Bəkir ağa söz çatdıra bilməz, həmən geri verər, məni çağırıb pulu uzadardı.

- Bunun qarnı doydu, buna qurğuşun da batmaz, oğlum, al bunu, mənə bir Bafra siqareti al, birini də bu ağlı çaş olmuşa.

Şaban ağa siqareti cibinə qoyar:

- Ağzınız dadlı olsun, ağalar, Allah sizi başımızdan əksik etməsin, - deyər və çıxıb gedərdi.

***

Toylara kamança Haqverdi ilə gedərdi. Birlikdə çalarkən baxışları ilə bir-birini başa düşər, sazla kamanı eyni ahəngə salardılar. Hakverdi ilə toylara gələndə qonaqları salamlar, oturar oturmaz sazını köklərdi. Sazını köklərkən:

«Qurbanı olduğum ağalar, mənim sazım yalan dünya kimidi, əlli ildi kökləyirəm, elə hey kökdən düşür» deyərdi. Sonra Haqverdiyə tərəf dönüb: «Dilləndir kamanı, dəli oğlan!» - deyincə saz və kaman qarşılıqlı səs-səsə verərdilər. Haqverdi kamanı inlədib ayaq verəndə, Şahan ustanın həzin, dumduru səsi dalğa-dalğa yayılırdı çölün axşamlarına…

Açdım pərdəni də, durnanı gördüm,
Dost üzündən artar dərdim, qəmim.

***

O, həyat dolu, söz əhli qoca aşıqdan geriyə yarı canlı ixtiyar qalmışdı. Salam verib, qarşısında oturdum. Başını yırğalayaraq gözlərini üzümdə gəzdirdi.

- Tanıya bilmədim, ağanın oğlu, - dedi, - gözlərim əvvəlki kimi seçmir, yaradanın hikmətindən sual olunmaz, amma gözünü mənə dikdi qurbanı olduğum. Iynə udmuş it kimi titrəyib dururam, görmürsənmi? Kimlərdənsən sən?

- Şahan əmi, mən Həsən ağanın oğluyam. Tanıdınmı? Bu kafenin əvvəlki sahibi…

- Teho, dəli oğlan, sözünə bax bunun, tanımaz olarammı? Avşar bəyini tanımayan aşıq, cəddini nə bilər, qurbanı olduğum! Elin, aşirətin içində tək idi Həsən ağa. Qışın yük atı kimi dolanıb-dolanıb yanına gələr, hirsimizi onun üstünə tökərdik. Allah birini min eləsin, ovucladığı qum yox, qızıl olsun Avşar bəyinin. Azmı çörəyini yedik, suyunu içdik, hamımzın boynunda haqqı var. Böyük adam idi Həsən ağa. Könlü dərdindən, insanı halından tanıyardı. Dövran dəyişdi, ağanın oğlu, böyük-kiçik bəlli deyil indi.

- Niyə ki, Şahan əmi?

- Səhərin gözü açılan kimi əsaya söykənib güclə gəldim kafeyə, insan arasına çıxım, bir-iki kəlmə söz kəsim deyə. Məhəllə uşağı «aşıq gedir» deyə məni daşa basdılar. Bir ağlı kəsən çıxıb uşaqlara acıqlanmadı, qurbanı olduğum. Üzümü tutub bir şey də deyə bilmədim uşaqlara. Xətir-hörmət qalmayıb.

Əzildim, içim yandı, nə deyəcəyimi bilmədim. Sonra:

- Şahan əmi, uşaqdılar, ağılları kəsmir, anaları, ataları görsəydilər, acıqlanardılar uşaqlara… - deyə bildim.

Çay gətirtdim. Qəndini atıb qarışdırdım. Siqaretini yandırdım. Yaralı könlünü qanatmamaq üçün söhbəti dəyişdim.

- Yaşın neçə oldu, Şahan əmi?

- Doqquz yüz otuz ikidənəm, yetmiş beş ildir arxamdan enmədi fələk. Nə ovundurdu, nə də güldürdü

Soruşmağa tərəddüd elədim, dayandım, sonra:

- Saz…- dedim, - Şahan əmi, saz, türkü?

Iki əlini birdən mənə doğru uzatdı:

- On beş ildir sazdan küsmüşəm, divardan asıla qalıb, o mənə baxır, mən ona baxıram. Çalıb oynadığımız yalan oldu, indi uşaqlar çalır, amma toylardan da əlimizi üzdük, qulu olduğum, şəkimizi vurduq. Toylara aşıq çağıran varmı? Biz kafir olubmuşuq, xəbərimiz yox! Bir qismi müsəlman toyu eləyir, çalğısız toy olurmu, atam? Bir qismi də salonlarda toy eləyir. Sazlar elektrikə qoşulur, bir cihaz varmış, sazı, zurnanı, halayı, qırıq havanı… Havaları o cihaz çalırmış. Sən bilərsən, adı nə isə…

«Orq» demək istədim, vaz keçdim. Bu söz onun şüurunda heç nə ifadə elməyəcəkdi. Siqaretindən dərin bir qullab vurdu, ciyərləri sökülürmüş kimi öskürdü, boğuldu. Çayından bir udum içib boğazını təmizlədi və ürəyini boşaltmağa davam elədi:

- Dövran dəyişdi, əşirətin çoxu pis gündədi. Bir qarış torpağımız yox, amma bura bizə vətəndi. Uşaqlar daha burda qalmırlar, qışda Izmirə gedirlər. Tənəkə, kağız toplayıb çörək pulu qazanırlar. Bizim kimi əldən-ayaqdan düşənlər qaldı burda.

Kafeyə girdiyimə peşiman oldum, danışmağa söz tapa bilmədim, sonra yenidən soruşdum:

- Uşaqlar yoxdu, dedin, Şahan əmi, barı xalam yanındamı?

- Məni yarı yolda qoydu, getdi o. Beş ildi. Oğlanlar, gəlinlər, qonum-qonşu… baxırlar, sağ olsunlar. Evin yarısı uçtu, bir otaqlı evdə qalıram. Yeməyimi verir, siqaretimi alırlar, şükür…

- Xəstəxana, həkim, dərman bəs?

- Vilayətdə bir yer var. Yaşıl kart almaq üçün bir ərizə yazdırıb, ora getdim. Sonra ordakı məmurlar mənim evimə baxmağa gəldilər. Doğrudanmı kasıbdır, deyə baxırmışlar, ağanın oğlu.

- Eeee, nə oldu?

- It yatağında çörəyin kiçiyi olurmu, qurbanı olduğum? Bir dəst yataqla, qab-qacağı, sazı, nağaranı yazıb getdilər. Sonra nə axtaran oldu. Nə də soruşan…. Ramazanda yardım eləyən olur, amma eldən gələn, pay olmaz, demişlər. Bax, ac gəzib, tox yellənirik, yıxıla-dura gedirik, qurbanı olduğum.

Nə soruşdumsa, Şahan ustanın sözləri bir dərd seli olub üstümə gəldi, dəli sel məni bir kötük kimi acının girdabına apardı. Bir yerlərdən bir şey tapıb rahatlanmaq istəyirdim.

- Şahan əmi, sənə qocalıq təqaüdü kəsildimi? Müraciət etdinmi? Yaxşı, pis, bir aylıq?

Əvvəlcə gülümsədi, sonra içini çəkdi:

- Teho, dəli oğlan, - dedi, -dinlə hələ…

Stulumu masaya doğru lap yaxın çəkib, Şahan ustaya yaxınlaşdım. Anlatmağa başladı.

- Bizim əşirətdən bir üzü qara qışın sonu, baharın əvvəlində unsuz, yarmasız qalınca, qonşudan arıq bir at tapıb, bəlkə «uşaq sünnət elətdirən» oldu, deyə yollara düşür. Bu məsəli eşidibsənmi?

- Yox.

- Çox getdikdən sonra bir çobana rast gəlir. Çobanın qabağında beş yüz qoyunluq yaz sürüsü varmış. Çobana yaxınlaşıb soruşur:

- Ağa, bu sürü kimindi?

Çoban: Həmid ağanındı, - deyir.

- Malına bərəkət, - deyib, bizimki ağzını yelə verir.

Bir az da gedəndən sonra bir qaramal sürüsü görür. Gedir çobanın yanına:

- Bu sürü kimindi, ağam? – soruşur.

Çoban: «Həmid ağanın» deyincə, «Allah artırsın» deyərək, arıq atını sürüb gedir.

Axşama yaxın bir at sürüsü görür, mən deyim iki yüz, sən de üç yüz at varmış. Bizim üzü qara çobana yaxınlaşıb yenə soruşur:

- Ağam, bu atlar kimindi?

Çoban yenə: «Həmid ağanın» deyincə, bizimki mindiyi atdan enib, ata bir qamçı vurur, at sıçrayıb dördnala sürünün içinə çapır. Bizimki başını yuxarı qaldırıb deyir:

«Al, qurbanı olduğum, al! Bu atı da Həmid ağaya ver!»

- Bax, qurbanı olduğum, verdikləri siqaretin pulu deyil. Axşama qədər növbədə gözləyirik, ala bilmirik. Mən də dedim ki:

- Ağam, alın, bu da sizin olsun! Daha qocalıq təqaüdü almağa getmirəm…

Türkcədən çevirən: Aslan Quliyev

Bizim evin qibləsi

Qabağında söyüd ağacları, yanı başında yaz-qış şırıl-şırıl axan bir çeşmə var idi. Çardağın lap kənarında boy verən cəhrayı balqabaq gülləri, çardağı aşıb pəncərələrə qədər uzanan ərgüvən çiçəkli sarmaşıqlar… Əhənglə ağardılmış divarları söyüdlərin arasından gülümsəyirdi. Dörd fəsil mətbəxindəki ocağı tüstülənərdi. Otaqları, şən, şaqraq, beş uşaqlı bir evdi.

Qapısı gündoğana açılırdı. Qiblə divarı daşdan, digər üç divarı kərpicdəndi. Dörd otağı vardı, böyük otaq, kiçik otaq, mətbəx, ev otağı.

Pərqu yastıqları, xalı, döşəkçələri və toxunma kilimləriylə bəzədilmişdi böyük otaq. Hər zaman dönmə dolabı kiltiliydi, qapısını açmaq isə uşaqlara qadağandı. Qonaq gələndə lampası yanar, bacası tüstülənər, üzü aydınlaşardı. Böyük otaqdakı pərqu yastıqların üzərində rəngbərəng şəkillər var idi. Birbirinə iplərlə bağlanmış dəvə şəkilləri. Dəvələr bir karvan olur, elə hey uzaq diyarlara gedərdi. O karvanlar hara gedərdi, hardan gələrdi, bilinməzdi. Yaz-qış, gecə-gündüz gedərdi karvanımız.

Kiçik otaq iki pəncərəliydi. Biri açıq, bir də kor pəncərə… Qışda soyuq olmasın deyə kor pəncərə salafanlarla örtülərdi. Qışda kor pəncərədən heç bir yer görünməzdi. Gün batanda kiçik otağın digər pəncərəsinə günəş işığı düşərdi, çöldən baxanda alov-alov görünərdi, həmişə o pəncərədən kəndə baxardıq.

Qat-qat yorğan və döşəklərin olduğu yüklük ev otağındaydı. Ev otağının içində həmişə yaz fəsli olurdu. Saçaqları bir qızın saçları kimi hörülmüş soğanlar, dişlərini ağardan diş-diş qarğıdalılar, bostanlar sovulanda hələ göy ikən toplanmış pamidorlar…

Mətbəxin quzey divarında ocaq var idi. Içində ölgün təzək alovları, qabağına külü tökülmüş, üstündə hisli qazançası…Bərk yel əsəndə evi tüstüyə qərq elərdi bu ocaq. Nənəm dağınıq, xınalı saçlarıyla, dumanların içində cadu eləyən bir ovsunçu kimi dururdu ocağın önündə. Ocaq alovlananda tüstünün içindən sifəti parıldayardı. Nənəmin xınalı saçları alov kimiydi. Ocağı üfürərək yandıranda sanırdım saçları indicə od alıb alışacaq…

Ocaq dəmirlərinin üstündəki hisə batmış qapqara qazanda hər zaman aş bişərdi. Dovğa aşı, paxlalı aş, sütlü aş…

Ocağın hər tərəfində iki taxtadan ibarət olan stullar vardı. Nənəm o stullardan birində outrar, maşa ilə ocağın közlərini eşər, uzun taxta çömçəsiylə hey aş qarışdırardı.

O şən, şaqraq, beş uşaqlı ev indi bir viranədi. Bir tək qiblədəki divarı uçmayıb qalıb. Qarlarla ərimiş, yağışlarla axıb getmiş kərpic divarlar.

Mətbəxin divarındakı ocağın yanına gedib oturdum, ocağın qalıqları hələ də qaraydı. Əlimdəki çöp ilə ocağın külləri arasındakı keçmişi eşələrkən dastanlar söyləyən ixtiyarların səsini duydum birdən. Ağ saqqallı qocalar oturdu ocağın başında: Kümpür Məmməd, Yaqub ağa, Qoca Osman… bütün ixtiyarlar qarşımda dururdular. Əlimi uzatsam, əllərindən yapışacaqdım. Sanki keçmiş bir zamandaydım.

Ocaq yenidən alovlandı, qarlar çırpıldı üzümə, bir uğultuyla pəncərələri döyəcləyib keçdi külək. Yenə axşam düşmək üzrəydi, günəş Dədə Damını aşdı, hava qaralmağa başladı. Qapının qabağından suya gedən qadınlar keçdi. Qollarında ağır vedrələr qarı yara-yara, üşüyərək keçdilər…

Təzək alovunun işığında nənəm lampanı yandırdı, ocağın başında oturdu. Birdən ocaq dilə gəldi, danışdı. O ixtiyarların diliylə rəvayətlər, dastanlar anlatmağa başladı. Hüseyni Kərbəlada susuzluqdan yanarkən, Arzuyu bulağa enərkən, Koroğlunu yol kəsərkən, Kərəmi ağlarkən gördüm. Insanlar o yanda bu yanda, səsləri də açıq-aydındı. Hamısı bu müqəddəs ocağın başındaydılar…

Bir müddət sonra yuxudan oyanıbmış kimi gözlərimi ovuşdurub özümə gəldim, ocağın başındakılar da gözlərim önündən bir-bir yoxa çıxdılar.

Çöl ayazının şaxtadan bir bıçaq olub kəsdiyi səhərlərdə, ya da qan donduran axşamlarda kəndin qızları, qadınları suya gedərdi. Böyük yolun üstündə bir məbəd kimiydi bizim mətbəx. Qışda bulağa gedən qadınların əllərini isindirdiyi bir məbəd. Payızda evin qabağındakı bağ keçilməz olanda bulağa gedən qadınlar hardasa bizim evin içindən keçib gedərdilər. Vedrələrini bizim pilləkənə qoyar, çardaqdan mətbəxə açılan qapını öz qapıları kimi açarlardı. Günəş Ağbayırdan burnunu göstərəndə, ya da Qol Xırmanından enib batarkən suya gedən qadınlar bu ocağın başına gələr, üşüyən əllərini qızındırar, yorğun qollarını dincəldərdilər.

«Nəfəsim kəsildi, qurban olduğum, dondum».

«Qollarım qopdu, anaaam, əllərim şişdi».

«Aman anaaam! Bu necə soyuqdu, çöldə qalanın canını alar» - deyə dişlərini şaqqıldadaraq, əllərini bir-birinə sürtərək gələrdilər ocağın başına. Səbahət bacı, Səbri yengə, Vahidə nənə… Hər biri çilə kliminde bir gül şəkli idi, hamısı dözümlü, igid, cəsur, kişi təbiətli analardılar.

O üzünü yellər döyəcləyən talesizlər suya gedəndə bir sərçə kimi üşüyər, ocağın başına dəvətsiz yığışardılar. Kəndin ən yüksək təpəsi Ağbayır kimi dikdi başları. Bu üzdən də çölün ayazı ən çox onları vurur, qar ən çox onların başına sovrulardı. Fələyin rüzgarı sərt əsərdi onların başı üzərindən. Ev-eşik, uşaq-böyük, mal-qoyun, aş-çörək… Hamısı onların çiyinlərindəydi.

Dan yeri söküləndə, xoruzlar banlamağa başlayanda düşrərdilər yollara. Ya qollarında ağır vedrələr keçirilmiş çiyin ağacları, ya da əllərində qonşu ocaqlardan aldıqları atəş… Atəşlər ocaqlardan ocaqlara daşınardı. Kəndin kibritsiz atəş daşıyanlarıydı onlar. Bir yanğın yeri olan ürəklərini ocağa qoyub üfüləsələr, təzəklər od alardı, amma bundan xəbərləri belə yoxdu. Hər sabah tüstü çıxan bacaları gözlər, ocaqlarını yandırmaq üçün bir təzək parçasıyla qapılara qaçardılar. Səhərlər məhəlləyə atəş də dağıdardı bizim ocaq. Bir parça təzəyi alışdırıb gedərdi qonşu qadınlar.

Bulağa suya gedərkən ocağın başında ya anamla, ya da nənəmlə bir-iki kəlmə kəsib, qızınar, gedərdilər. Bəzən iki kəlmə söz dadına doyulmayan söhbətə çevrilərdi. Ocağın başında başbaşa verən iki nəfər söhbətə uyub özlərini unudardılar. Bəzən onların bir-iki kəlmə kəsmələri axşamüstü başlar, gün gədikdən aşana qədər davam elərdi. Ocaqbaşı söhbətləri qızışdımı, çöldəki vedrələrin üzü buz bağlardı. Axşamüstü qarda analarının iziylə gələn uşaqlar qapının önündəki vedrələrini tanıyar, analarının ocaq başında olduğunu bildiklərindən içəriyə keçərdilər. Çox zaman atalarından bir fərman gətirib oxuyardılar uşaqlar. Ocağın başında atalarının fərmanını oxuyan uşaqlar analarından bir cavab fərmanı alıb izləriylə geri dönərdilər. Uşaq elçilər axşamüstü analarından aldıqları fərmanı atalarına, atalarından aldıqlarını da analarına oxuyardılar.

«Ana,atam dedi ki, ağzını ayırmasın, tez evə gəlsin».

«Ata, anam dedi ki, atanın boynu altında qalsın, bağrımı çatladı, indicə gəlirəm».

«Anaa, atam dedi ki, sahibsiz evin iti kimi qapı-qapı dolaşmasın, tez gəlsin».

«Ataa, anam dedi ki, ilahi, atasız qalırdın, iki eşşəyin arpasını bölə bilməz, əvvəl-axır yarımadıq!»

«Anaa, atam… tez gəlsin, məni ora gətirməsin, deyir».

«Ataa, anam… boynu yerə soxum atanın, deyir».

«Anaa, ocaqdakı süd daşdı, atam qazanı zibilliyə atdı. Yalançı əmziyi şəkərli suya batırıb verdik, uşaq yenə kirimədi, atam dedi ki, gələndə dəyənəyi də alıb gətirsin».

«Atasız qalarsan, inşallah… Əli yanına düşsün atanın, uşağı bir az qucağına alsa, bəyliyindənmi olar? Papağını yerəmi soxdum? Gizlində qəhbəlikmi elədim ki, dəyənək istəyir? Gəlsəm o qazanı başında sındıracağam. Qaç, get, beləcə də de, o əlindən-başından iş gəlməyənə!»

Elçilər qaçaraq gəlirdilər, elçilər gedirdilər… Analara fərmanlar gəlirdi. Analar ocaqlara atıb yandırardılar fərmanları. Uşaq elçilərlə ərlərinə qəzəbli fərmanlar göndərərdilər.

Mən o gül üzlülərdən ən çox Vahidə nənəni sevərdim. Nənəmin axirətlik yoldaşıydı o. Ikisi də gənc yaşda dul qalmış, saçlarını ağardaraq yetimlərini böyütmüşdülər. Onların hesabına bu günlərə gəldik. Ocaq başında söhbətə başladılarmı, dörd cəbhədə müharibə başlardılar, ruslarla, ingilis kafirləri ilə çarpışardılar. Sarıqamışda donar, Yəməndə yanar, Çanaqqalada torpağa düşərdilər… Bir saatda üç qitəni dolaşıb gələrdilər. Səfərbəyliyi, yoxluğu, yoxsulluğu, qıtlığı, aclığı, səfaləti… danışardılar. Sonra pərişan hallarına şükrlər elərdilər. Səfərbərliyin sonasıydı onlar.

Bəzən biri başını digərinin dizləri üstə qoyar, dən-dən olmuş saçlarına baxdırar, bir-birlərinin saçlarında bir şeylər axtarardılar.

Vahidə nənə də nənəm kimi geyinərdi. Başında muncuqlu başlığı, al donunun üzərindən önlüyü vardı. Əynində rəngi getmiş bir jilet, ayaqlarında arxası yırtılmış qara rezindən ayaqqabıları vardı. Ağzında heç dişi yoxdu, dodaqları büzüşmüş, ağzının içinə geçmişdi. Anamın bişirdiyi gömbələri çox sevər, damaqları ilə gəvələyib yeyərdi. Fürsət tapan kimi ikiqat bükülmüş halda gəlirdi nənəmin yanına. Yaylığının kənarlarından boyanmış saçları çölə çıxardı. Xınalı saçlarının dibləri ağappaqdı. Ağlına gələni birdən deyərdi. Saf, təmiz, cəfakeş bir qadındı. Bulağa getmək üçün, su gətirmək üçün gəlmirdi. Nənəmlə bir az söhbət eləmək, varsa təzə sacarası gömbələrdən yemək üçün əlinə iki çubuq alıb düşərdi yollara…

Bir gün yenə əlində iki çubuqla gəldi. Hardasa beli iki qat olmuşdu. Təngənəfəs gəlib çatdı bizim qapıya. Çardaqdaydım.

- Nənən evdəmi, qurban olduğum? – soruşdu.

- Evdə, evdə, gəl. – dedim.

Pillələrdə dincini alaraq pilləkəni çıxdı, son pillədə taqəti kəsildi, əlini uzadıb yardım istədi.

- Əlimi tut, qurbanı olduğum.

Əlindən tutub yuxarı çəkdim, inildəyərək çıxdı, əllərini belinə qoyaraq çətinliklə belini düzəltdi.

- Ooff! – dedi. – Dizimin dərmanı qalmadı, gözümün işığı söndü, qadasını aldığım. Əldən-ayaqdan düşməmiş, canımızı alsaydı, nə vardı…

Yaylığından çölə çıxan saçlarını külək yelləyirdi. Yaylığını açdı, saçlarını əliylə sığallayıb, yenidən yaylığı başına doladı. «Zelihaa, hardasan, ay qız» - deyə içəri keçdi.

Nənəm ilə mətbəxdəki ocağın başında oturub söhbətə daldılar. Bir müddət sonra yarım əsr sonrasına getdilər.

Hava qaralırdı. Axşam azanını oxuyan imamın səsini külək aparır, qırıq-qırıq azan səsi, bizim evə güclə gəlib çatırdı. Axşam azanını eşidən Vahidə nənə:

- Zeliha, bacı, - dedi, - bir ceynamaz ver, axşam namazını qılım gedim.

Nənəm böyük otaqdan bir ceynamaz gətirdi, Vahidə nənəyə verdi.

- Sən namazanı qıl, - dedi, - uşaq yatmışkən mən də tövləyə gedim, gəlinə bir az kömək eləyim.

Vahidə nənə ilə mətbəxdə ikimizdik. Bizim evin daş divarına qiblə divarı deyərdilər. Bizim evdə namaza duranlar üzlərini daş divara doğru çevirərdilər. Ocaq quzeyə baxırdı. Vahidə nənə «Allahu Əkbər» deyib namaza başladı. Məni bir təlaş bürüdü. Vahidə nənə namaza tərs durmuşdu. Dözə bilmədim. Qışqırmağa başladım:

-Nənəəəə! Nənə! Tərs durubsan! Bax, qiblə bu tərəfdədi!

Namaza yenicə durmuşdu, sağa-sola salam verib mənə doğru döndü. Özünə əmindi.

- Yanlışın var, qadasını aldığım, - dedi, - bizim evin qibləsi ocağa baxır.

Türkcədən çevirən: Aslan Quliyev

Tövbəçilər

Nə ev, nə ocaq, nə oğul, nə də uşaq…

Həyatda əl atıb tuta biləçəkləri bircə ümid yerləri də qalmamışdı. Dünya yansa içində yanacaq bir bağ otları yox idi. Əllərinə keçəni yeyərdilər. Evdən eşikdən qovulmuş, həyatdan əllərini üzmüş, ömrü ara yerlərdə keçən dörd dostdu onlar.

Qaranquşlar göy üzündə həyəcanla fırlanmağa başalyanda hər biri bir tindən çıxıb gələrdi. Axşama qədər nə qazanaralarsa, ortaya qoyardılar, «Üç şüşəmi, beş şüşəmi?» aralarında mübahisələşər, sonra razılaşıb Duranın şərab dükanına yığışardılar.

Hər biri bir şüşə alma şərabı, bir qutu «qərib öldürən», bir az da ağ ləbləbi alar, taxıl satanların olduğu ara küçəyə gedərdilər. Ordakı tərk edilmiş viranə bir evin, ayaqda qalan çardağında qurduqları süfrədə yıxılana qədər içər, sonra hərəsi bir küncdə uzanardı.

Qədir yay-qış meyvəsatanlar bazarında gözlərdi. Tərəvəz gətirən yük maşınlarının bütün yükü onün çiyinlərində daşınardı. Zəif, cılız bədəni hər gün tərəvəz-meyvə yeşiklərinin altında əzilərdi. Yükün ağırlığını gözləriylə bildirər, dizləriylə hiss elərdi zavallı. Arxasındakı yeşiklər həddən artıq ağır olanda gözləri bəbəyindən çıxacaqmış kimi bərələr, yorğun dizləri titrərdi. Dincəlmək üçün işə ara verəndə axşamdan bəri ciyərlərində alovlanan yanğını söndürmək üçün ağzını kranta dayayıb dayana-dayana su içər, ağzını əlinin arxasıyla sildikdən sonra bir siqaret yandırar, uca səslə deyərdi:

- Aaah! Aaah! Fələk ilə aramız düzəlmədi…

Hacı dən-taxıl satılan bazarda durardı. Kənd adamlarının gətirdiyi buğdanı, arpa, noxud və mərcini gah ambara daşıyar, gah ambardan dükanın qabağına gələn yük maşınlarına yükləyərdi. Arxasında çüvalla ambardan çıxarkən toz dolmuş ciyərləri çölə çıxacaqmış kimi öskürürdü. Atasını kiçik yaşlarında itirmişdi Hacı. Anası da bir başqası ilə evləndiyindən, onu babası böyütmüşdü. Babası da öldüyündən uşaq sayılacaq yaşda ortada qalmışdı. Arxasındakı kisələrlə kamyonun kuzovuna söykənmiş qatlama nərdivanlardan iki qat olub çıxar, yükünü boşaldandan sonra belini düzəldib dikələrdi. Ağzından düşməyən bir söz vardı:

- Vurma, fələk, vurma, mən baba yetimiyəm…

Bəzən onu : «baba yetimi hardadı, baba yetimi gəldimi?» deyə arayıb soruşardılar.

Qüdrəti axtaranlar isə onu qəssablar bazarında, bələdiyəyə haqq verməmək üçün heyvanları oğurluq kəsən qəssabların çardağında tapardılar. Yarım saat içində bir qoyunu yerə yıxıb kəsər, dərisini soyar, ciyərini, dalağını, qolunu, budunu ayırardı. Qəssablar bazarına ət almağa gəlib də Qüdrəti tanımayanlar onu görüncə qorxar, yollarını dəyişərdilər. Əli bıçaqlı olurdu, üst-başı da qan. Yaralı barmaqlarından sarğı əskik olmazdı. Boş vaxtlarında cibində gəzdirdiyi bülövünü çıxarar, sümük saplı bıçağını itiləyrdi. Bıçağını itiləyərkən həmişə eyni türkünü oxuyardı Qüdrət:

Bəybazarı məskənimiz, elimiz,
Kim bilir harda qaldı ölümüz…

Sevda oxu dəymiş, bir könlü yaralıydı Heydər. Yük maşınının sürücüsüydü o. Iş olanda üçbeş günlüyə ortadan yox olur, uzun yolları qət eləyib sonra gələrdi. Yeni səfərə çıxınca hər axşam viranəyə gələr, içib-içib ağlardı. Heydər Dəstəgülü sevirdi, həm də dəlicəsinə sevirdi. Dəstəgül də bir Almaniyada olanla evlənincə: «Bu həyat mənə ölümdən artıq dərd olur», deyib özünü bir burulğana buraxmışdı Heydər. Fələklə ayrı bir hesabı vardı. Gecə saat on ikidən sonra məhəllədən yanıqlı, əzgin bir səslə, sözləri zəhər kimi bir türkü söyləyələk keçərsə, Heydərin uzun bir səfərdən döndüyünü anlardı hər kəs. Heydər Dəstəgülün evinin yerləşdiyi küçəyə girəndə küçənin başındakı tut ağacının dibindəki qara daşın üstündə oturar, o məşhur türküsünü oxuyardı:

Başımda qızıl tacım
Həm susuzum, həm acım
Yarımı mənə verin
Qalanı anam, bacım

Hacı, Qədir və Qüdrət yayda gözdən uzaq yerlərə çəkilib gecələrdilər. Qışda da stullar üzərində, ya da tikintilərdə yatardılar. Yatmağa yer tapmayanda da bazar yerindəki piştaxtaları bir-birinə yaxınlaşdıraraq bu müvəqqəti daldanacaqda gecələyərdilər.

Heydərin atadan qalma bir evi var idi. Taxta pilləkənləri qabarmış, torpaq damı çökmüş bir evdi. Yalnız anası qalırdı evdə. Səfərdən dönəndə anasına baş çəkər, sonra yenidən yoxa çıxardı. Anasının sızlayıb ağlamasına dözə bilmədiyindən evdə qərar tuta bilməzdi Heydər.

Anası qapı-qapı dolaşıb duaçılara-pitiçilərə min ümidlə yazdırdığı dualaın suyundan içirtmək üçün Heydərin yolunu səbirsizliklə gözləyərdi. Heydər evə gələr gəlməz, əlində dua oxunmuş bir stəkan suyla qarşısını kəsər, səylə bisimillah deyər, stəkanı Heydərə uzadardı:

- Bunu bir iç, qurbanı olduğum, çox savadlı xocaymış Musa Əfəndi, ona oxutdurmuşam…

Heydər də hər dəfə əlinin arxası ilə stəkanı itələr, deyinərdi:

- Əl çək ana! Qurbanın olum, əl çək! Mənim ürəyimin fərmanı oxunub.

- Içən kimi unudacaq, Xoca Əfəndi deyirdi. Bir nurlu üzü var ki… Iç qurbanı olduğum, bir udum iç.

Kimsəyə istisi-soyuğu olmazdı onların. Kimsənin azında-çoxunda gözləri yox idi. Hər birinin könlündə ayrı bir yara, hər birinin fələklə ayrı bir hesab var idi. Yayda elə də çətinlikləri olmazdı, amma qışda pərişan olardılar. Onların vəziyyətini bilən qəsəbə əhli əllərindən gəldiyincə yardım edər, başlı-başına buraxmazdılar. Özlərini də ələ almaları üçün bolluca nəsihət verərdilər. Amma heç biri nəsihətlərə qulaq asmaz, axşama qədər qan-tər içində qazandıqlarını gətirib Durana verərdilər. Qışda iş olmayanda Duranın qapısına gəlib yalvarar, özlərini zamin qoyub nisyə şərab alardılar.

Gördürməyə bir iş olmayanda kimsə axtarıb aramazdı onları. Heydər uzun zaman evə getməyəndə Heydərin anası dəli kimi dolanardı viranənin ətrafında. Zavallı qadın: «Içimə bir şübhə düşdü, dolaşıq bir yuxu gördüm. Əcaba Heydərim yolda-çöldəmi qaldı?» - deyə iki qat olub gələrdi viranənin qabağına. Çardağın küncünə qədər yaxınlaşıb qulağını Heydərin səsinə verərdi. Soruşmağa qorxardı. Heydər görsə, ona hirslənərdi. Heydərin səsini eşidincə əllərini havaya açar, yalvarardı:

- Evlad acısı göstərmə, ya rəbbi, çox şükür, oğlum sağ. Içərsə də qoy içsin…

Heydərin səsini duyan qadın gecənin içində bir xəyal kimi yoxa çıxar, iki qat olub gedərdi. Evə dönərkən dizlərinə döyə-döyə ağlar, qarğış elərdi:

- Sebep, məzarında bayquşlar ulasın. Bir saçı kəsiyi qabağa verib oğlumun başını pozdular. Eviniz yıxılsın, dünyanız qaralsın.

Bir gün Hacının ölməsi xəbəri kafeləri çalxalandırdı:

- Hacı ölüb, cəsədi də yoxa çıxıb…

- Yəqin öldürüblər. Neçə gündür, kimsə görməyib.

- Çox içib, bir daha ayılmayıb.

- Deyirlər, donub ölüb, buz bağlayıbmış.

Kimi donub öldüyündən, kimi yoxa çıxdığından, kimi də içib zəhərləndiyindən danışdı.

Hacını qəsəbənin bazar yerində yarı donmuş halda tapmışdılar. Ölməmişdi. Xəstəxanada bir neçə gün yatandan sonra «baba yetimi» xəstəxanadan çıxıb gəldi.

«Allah öldürməsə öldürməz», deyə bir müddət gəzib dolaşdı.

Bu hadisədən sonra: «Allahın yaratdığı qul deyilmi bunlar? Küçədə ölsələr, Allah bizdən də sorar. Bunların başlarını soxacaq bir yer hazırlayaq» deyən Əli dayı Bələdiyyə Başçısını razı saldı.

Bələdiyyə taxtadan üç daxma tikdirdi. Içərisinə yatacaq da qoyub, daxmaların açarlarını verdi bunlara. Artıq başlarını soxacaq evləri var idi.

Qəsəbənin gəncləri daxmaların hər birinin üzərinə boya ilə yazılar yazmışdılar.

«Diqqət! Qədir var!»

«Hacı çıxa bilər!»

«Qüdrətistan: Əhalisi 1, dəniz səviyyəsindən yüksəkliyi 956»

Bir səhər göyərti satan Kərim ağa Hacını dükana çağırdı. Çay gətirtdi, siqaret verdi, bir müddət nəsihət verdi.

«Bu gün iki maşın gələcək,arpa ilə dolu, daha iki adam tap, tez boşaldın maşınları», - dedi.

Hacı əvvəlcə qəssablar bazarından Qüdrəti, sonra da tərəvəz bazarından Qəribi tapıb Osman ağanın dükanına gəldi.

Dükanın qabağına bir yük maşını yaxınlaşmışdı. Içəridə bir adam oturmuşdu. Bu adam tez-tez gəlirdi, Kərim ağanın dostu olan bir tacirdi. Yenə arpa almağa gəlmişdi. Yaşıl bir təkkəsi, sinəsinə qədər uzanmış uzun qara saqqalı var idi. Əyninə geniş şalvar və dizlərinə qədər düşmüş qolsuz bir jilet geymişdi. Bir əliylə saqqalını tutmuş, digər əliylə iri dənəli təsbehi şaqqaşukla çevirir, təsbehi çevirərkən dodaqları xəfifcə qımıldanırdı.

Maşın yüklənərkən Kərim ağa və qonağı işləyənləri seyr eləyirdilər. Kürəyində öz ağırlığına yaxın ağırlıqda olan bir çuvalla ambardan çıxan Hacı növbəti öskürək tutumasına tutulub çuvalla birlikdə yerə yıxıldı. Kürəyinə vurdular, əlini-üzünü yudular, su içirtdilər Hacıya. Nəfəsi tükənmiş, gözlərinin ağı qırmızı olmuşdu. Dincəlməsi üçün bir küncdə oturtdular.

Tacirin qəlbi ağrımışdı, bir müddət oturduğu yerdə donub qaldı, sonra Kərima ağaya tərəf dönüb soruşdu:.

- Bunun uşağı-zadı varmı?

- Yox, - dedi Kərim ağa, hər üçü haqqında uzun-uzadı danışdı.

- Bunlardan Piri də var, - dedi, - yük maşınının sürücüsüdü o. Səfərdə deyilsə, axşamüstü gələr buralara, bəlkə də hardasa ilişib qalıb.

Tacir qaşlarını çatıb, səsini yüksəltdi: «Kərim ağa, bunlar yazıqdılar. Hər ay şeyxin yanına gəlirsiniz. Bəs bunları niyə götürüb gətirmirsiniz? Şeyxin belə neçə adamı müalicə edib doğru yola qaytardığını eşitmədinizmi? Necə sərxoşluğa mübtəla olanların Şeyxlə tanışlıqdan sonra əlində təsbeh çəkdiklərini, neçə yolunu azmışların evinə-ocağına dönüb, arvad-uşağının dolanışığı üçün halal yolla pul qazandığını görmədinizmi? Bunların babalı bizim boynumuzda deyə Allahdan qorxmazsınızmı? Heçmi vicdanınız sızlamadı? Bu adamları qurtarmağın bir yolunu niyə axtarmırsınız? Bir yolunu tapıb Şeyxin yanına aparın bu zavallıları. Tövbə qapısı daima açıqdır. Şeyx Allahın izniylə bunları qurtarar».

Yük maşını yüklənmişdi. Kərim ağa ilə vidalaşan tacir: «Eyvallah! – dedi. – Kərim ağa, söylədiklərmi unutma, günahdır».

Kərim ağa bir müddət tacirin dedikləri haqda düşündü. «Adam düzünü deyir, bunların ehtiyacı olanda qarınlarını doyurmaq, bir parça çörək, bir qutu siqaret almaq çarəmi? Bir çarəsi varsa, bu niyə ağlımıza gəlmədi, bəlkə Şeyxin bir köməyi dəyəcək, bəlkə bir səbəb olar. Bir yolunu tapıb bunları Şeyxin yanına aparmaq lazımdır. Apararıq, düzəlməzlərsə, heç olmaya şəkdən düşərik. Heç olmasa vicdan əzabından qurtararıq» özü-özünə dedi. Oğullarını qoydu onların yerinə. «Allah iraq eləsin!» dedi və axşamüstü camaatın irəli gedənlərini evinə çağırdı.

Kərim ağa o axşam evinə gələnlərə olanları anladınca hamısı ona haqq verdi: «Adam düz deyib, haqlıdı» dedilər.

Heydər yeni səfərdən dönmüşdü. Nə lazımsa alıb viranənin çardağına topladı dostlarını. Pamidor, pendir, ağ ləbləbi. Məzələri qabaqlarına düzdülər, sonra da yavaş-yavaş içməyə başladılar.

Şüşələr əskildikcə dünyanın rəngi də dəyişməyə başlayırdı. Viranənin çardağından ara-sıra gülüşmələr, qəhqəhələr yüksəlirdi. Mülayim bir yaz axşamıydı, əkin-biçin zamanı olduğundan küçələrdən əl-ayaq çəkilmişdi. Belə axşamlarda «Pirimiz» dedikləri Heydər danışır, digərləri onun ağzına baxaraq dinlərdilər. Heydər sinəsini arıtlayıb dərin bir ah çəkdi, üzünü turşudaraq içdiyi şərabın şüşəsini dizinin yanına qoyub sözə başladı:

- Dəyirman iki daşdan, məhəbbət iki başdan, uşaqlar. Mən qəlbində deyildim ki, «Özümü asaram, ölərəm, amma getmərəm» deyə ayağını yerə vermədi Dəstəgül. Saçından sürüyüb aparmadılar ki… Getdiyi oğlan bir adam ola, ürəyim yanmazdı qardaşlar, üç qoyunu buna etibar eləyib çoban saxlamazsan qapında. Vayy! Dağılasan, Almaniya, soldurdun Dəstəgülümü….

- Pirim, anası, nə elədisə, anası elədi. Mən bilməzmiyəm? Qızın könlü səndəydi.

- Denən anası, o boz ilan ağlını çaldı. Məni belə boynu bükülü qoydu. Aramızda bir qaratikan kimi bitdi. Aaah! Kərəm kimi yandı bağrımın başı! Mənə qulaq asın, yadınızda saxlayın.

- Buyur, qurban, nə dedin ki, eləmədik?

- Sizdən əvvəl ölsəm iki əlim yaxanızda… Hüseynin bağından bir ovuc torpaq gətirib səpin qəbrimin üstünə. Onsuz da mən sizdən əvvəl öləcəyəm. Yollara çıxınca Dəstəgülün xəyalı gözlərim önündən getmir. Vayy! Zalımın bir qızı var! Mənmi maşını aparıram, maşınmı məni aparır, məlum deyil. Bir gün bir dərəyə yuvarlanaram, amma nə zaman…

Heydər şüşəni başına çəkdi.

- Qızın könlü səndəydi, - Qüdrət dedi, - elin qızı gəlib sənə yar olan deyildi ha, götürüb qaçırmadın. Haydı desən, yolunda ölməzdikmi?

- Yaramı eşmə, Qüdrət. Yaramı eşmə! Götürüb qaçırmaq asandımı? Yetim quzudan qoç olarmı? Qoç igidə arxa gərək, el gərək. Götürüb qaçarmaq üçün arxan dayağın olmalıdı dedi və oxumağa başladı Heydər.

Sevdiyim qız gəlin olmuş
Mənim deyil, elin olmuş.

Heydərin oxuduğu mahnı yanındakılara bir laylay kimi gəldi, göz qapaqları enməyə başladı, şüşələri tutan əlləri boşaldı, tək-tək yuxuya getdilər oturduqları yerdə.

Heydərin başı çox dumanlandı. Harda olduğunu bir anlığa bilə bilmədi. Gözlərini önünə dikdi, gözlərini qırpmadan baxırdı.

Gələn Dəstəgül idi. Əfil-əfil əsən saçlarını çiyinlərinə töküb sudan gəlirdi Dəstəgül, o da Heydərə baxırdı. Bir az sonra Dəstəgül əl elədi, Heydəri çağırırdı. Heydər dikəldi, əllərini dizlərinə dayadı, amma yerindən qalxa bilmədi. Şərab minlərcə kiloluq bir ağırlıq asmışdı göz qapaqlarından. Gözləri yumulurudu, amma Dəstəgülü daha bir az görməyə çalışırdı. Az sonra Hacının başı dizləri üstə düşdü. Əllərini sinəsi üstə möhkəmcə çarpazlayıb yuxuya daldı.

Kərim ağanın adamları tez xəbər çatdırdılar. Bir avtobus yaxınlaşdı viranənin qapısına. Maşından dörd cavan oğlan düşdü. Viranənin çardağında uyuyan dostları odeyalların arasına qoyub avtobusa mindirdilər. Yatarkən bir yerdən götürülüb başqa yerə aparılmağa alışmış dostlar bundan elə də rahatsız olmadılar. Avtobusun içində də dərin yuxuya dalmışdılar.

Avtobus son dayanacağa gələndə günortaçağı idi. Cavanlar dostları oyatdılar. Tanımadıqları bir yerdə, alışıq olmadıqları bir məkandaydılar. Birbirləriylə baxışırdılar. Olub keçənlərə heç bir anlam verə bilmirdilər. Onları bura kim gətirmişdi? Hardaydılar?

Müridlər qollarına girib onları bir otağa gətirdilər. Yeni paltarlar və camaşır verdilər, hamamı göstərdilər. Hamamdan çıxanda üzlərinə bir işıq gəlmişdi. Gözlərinin ifadələri də dəyişmişdi, hələ də nələr olduğunu başa düşmürdülər, ətraflarına və bir-birlərinə baxıb dururdular.

Günəş yavaş-yavaş batarkən bir neçə mürid qollarına girib onları şeyxin hüzuruna apardılar. Bir növ günahkar kimiydilər, şeyxin qarşısında büzüldükcə büzülürdülər.

Bəmbəyaz paltarlar geymiş şeyxin bəmbəyaz saqqalı vardı. Gülümsəyəndə üzündə güllər açan bir ixtiyarla baş-başa qaldılar. Büsbütün döşənmiş otağın içərisinə süzülən günəş şüası gümüş sinidən şeyxin üzünə doğru yönəlir, o tərtəmiz üzü aydın bir ifadəyə boyayırdı. Otaqdakı bütün əşyalar işım-işım işıldayır, onların gözləri qamaşır, şeyxə baxa bilmirdilər. Xəyali bir aləmdəydilər, sanki böyük bir boşluğa qərq olmuşdular. Şeyxin gözlərindən saçılan işıq onları əhatə eləyən bir aydınlığa döndü. Dərindən gələn təsirli və sehirli səs sanki başqa bir aləmdən, qeybdən gəlirdi, onların qulaqlarında xoş nəğmələr kimi səslənərək otağa yayılırdı. Şərabın təsiri ilə başlarının dumanlandığı vaxtda duyduqları həzdən başqa bir həzz varlıqlarına hakim kəsilirdi. O an bir uçuruma yuvarlanırdılar. Başları yerə, ayaqları göyə doğru hərəkət eləyir, sonra boşluqda aramsız olaraq dönürdülər. Deyilənləri dinlədikcə qəlbləri çırpınırdı və bir əl keçmişləri hafizələrindən silirdi. Susadıqlarını hiss eləyirdilər, ciyərləri yanırdı, görmədikləri bir əl su içirdirdi onlara. Boşluqda fırlandıqca sürətləri artır, yıxılacaqlarından qorxurdular. Söylənənləri dalğın-dalğın dinlərkən bədənləri kiçilir, gözləri yumulurdu. Oraya yıxılıb dərin bir yuxuya dalmaq istəyirdilər.

Qarşılarında ahənglə danışan adam birdən susdu. Sonra səsin rəngi dəyişdi. «Evladlarım, tövbə qapısı həmişə açıqdır. Tövbəni min dəfə də pozsan yenə gəl, övliyalar övliyası belə deyib. Ancaq Allahın bizə bəxş elədiyi ağıl və iradə hər şeyin üstündədir. Allah şübhəsiz bizə yaxşı olmağı əmr elər. Iradənizə sahib olun və Allahı zikr eləməkdən geri durmayın. Əsil sərxoşluq onu

zikr eləyərək vəcdə gəlməkdir. Evladlarım, dualarım sizinlədir. Yaxşı olan işləri görün, pislikdən, azğınlıqdlan uzaq olun. Allah yolunuzu açıq eləsin, haydı salamatçılıqla gedin».

Qalxıb şeyxin əllərini öpmək istədilər. Şeyx əlini vermədi. Gülümsədi, hər birinin kürəyini sığalladı. Hamısının da kürəyi yandı o an, bir atəş düşdü içlərinə.

Bir həftə sonra hamısı əvvəlki yaşayışları ilə aralarında qalın bir divar hörərək gəldilər.

Hər kəs yenə eyni işdə çalışırdı. Hacı meyvə-tərəvəz bazarında, Qüdrət qəssablar bazarında, Qədir taxıl bazarında, Heydər uzun yollarda. Amma hamısı da boş vaxtlarında əllərində təsbeh dərslərini tamamlayır, nəfslərinə hakim kəsilirdilər.

Qəsəbə adamları onlardakı bu dəyişiklәri görür, bir şey başa düşə bilmirdilər. Şərab dükanının sahibi Durandan başqa hər kəs bu işə səbəb olanlara dua eləyirdi.

Heydərin anası: «Məni o qapıya aparın, qalan ömrümü şeyxin qapısında xidmətçiliklə keçirim. Çox şükür, oğlum qurtardı!» deyir, baqqaldan aldığı şəkərləri məhəllənin uşaqlarına bağışlayırdı.

Xəbər tezliklə bütün bölgəyə yayıldı. Oğlundan, ərindən dərdli olan qadınlar gizlicə Kərim ağanın dükanına gəlir, yalvarıb-yaxararaq öz oğullarını, ərlərini də ora aparmasını xahiş eləyirdilər.

Ilk həftələrdə şeyxin nurlu üzü dörd yoldaşın gözləri önündən çəkilmirdi. Əllərindəki təsbehlər xoş bir ahənglə şak-şukla çevrilir, dillərindən dualar yağırdı. Nə vaxt axşamlar ayaqları iradələrinin ziddinə olaraq hərəkət eləsə, ağappaq saqqalı və əmredicə səsiylə bir ixtiyar dururdu gözləri önündə: «Allahı zikr etməkdən dayanmayın, əsl sərxoşluq onu zikr eləyərək vəcdə gəlməkdir».

Ayaqları onları başqa bir yerə apararkən şeyxin təsirli səsini eşidirdilər, «Tövbə!» deyib yollarını dəyişdirirdilər.

Günlər, aylar keçdikcə şeyxin üzü uzaqlaşdı onlardan. O təbəssüm bulanıqlaşdı, o nurlu üz donuqlaşdı. Qüdrət, Hacı və Qədirin o xəyali hava, o mənəvi dünya ilə aralarındakı məsafə gedgedə uzaqlaşırdı. Dərsləri yarımçıq qalır, axşam olunca ağızlarında hiss elədikləri o ləzzətli dad onları çağırırdı.

Bir neçə aydan sonra Qüdrət, Hacı, Qədir şərabçı dükanına gəldilər.

- Dilimiz-damağımız qurudu, Duran ağa, tövbəsi batsın!

- Şeyx bizi tələbəyə çevirdi, dərs ha dərs.

Qüdrət, Hacı və Qədir tövbəni pozub mey-məzəni alaraq viranənin yolunu tutdular.

Duran ağa əllərini ovuşdurur, gizlin-gizlin gülürdü.

Qəsəbədə bir xəyal qırıqlığı oldu. Kimisi dizlərinə vurub «Qurtarmışdılar, heyif oldu» dedi, kimisi də: «It yeməyə tövbə edərmi?» dedi.

Əməllicə uzatdığı qara saqqalları və əlində təsbehi ilə uzun bir səfərdən döndü Heydər. Anasının əlini öpüb, evə lazım olan şeyləri aldı. Əlinə-üzünə qan gəlmiş, bət-bənizi ağarmışdı. Əynində şıq bir kostyumu vardı. Axşama doğru pencəyini çiyninə atıb çarşıya getdi.

Anası ardınca dua eləyirdi:

- Səbəb olanlar nur içində yaşasınlar, Allah mənə bu günləri də göstərdi. Itlərlə çörək yeyərəm…

Çarşıda Heydəri görənlər gizlincə bu bəd xəbəri verdilər. Heydərin beyninə qan vurdu. Birbaşa viranəyə getdi. Üçü də ordaydı, şərab içirdilər.

Heydəri ilk öncə Qədir gördü:

- Vaay! Pirim, tövbə qapısı bağlanmadı ki! Gəl sən də iç, yenə tövbə elərik, - dedi.

Hacı:

- Heydərim, sənin ağ saqqallın demədimi, tövbəni min kərə pozsan da, yenə gəl. Qorxma, gəl içək, - dedi.

Qüdrətin başı yerdəydi, səsini çıxartmadı.

Heydər neyləyəcəyini bilmirdi. Nəsihət eləyə bilmirdi, bir neçə ay öncə özü də eyni haldaydı. Bir şey söyləməyə dili gəlmirdi. Qabağındakı şəraba və məzələrə baxdı. Boğazında bir yanma duydu, ağzına qəribə bir dad doldu. Damarlarında qanın sürətləndiyini hiss elədi. Sonra

həmən o gün otağa yayılan təsirli səsi duydu birdən, diksindi, üzünü bürüşdürdü. Hirslə geri döndü, kafeyə doğru getdi.

Üç dost Heydərin ardınca bağırıb gülürdülər.

- Heydər, kimsəyə demərəm, gəl otur, iki qədəh iç.

- Heydəəəəər! Bildir bundan yaxşıydın. Sənə nə oldu qurbanı olduğum?

- Heydəəəəəəəər! O şeyx səni səni yoldan çıxartdı, ged. Bir də şeyxə görün, dua oxusun sənə.

Üçü birdən Heydərin arxasınca oxumağa başladılar.

Sofular haram demiş bu aşqın badəsinə

Mən doldurar, mən içərəm, günah mənim, kimə nə

Ooooooof! Heydər, Heeeydəər, kiiimə nəəə…

Ardına baxmadan qaçırmış kimi ordan uzaqlaşdı Heydər. Dostlarından heç qaçmamışdı. Bu ilk qaçışıydı. Narahat, yorulmuş, hüzünlü halda girdə kafeyə. Bir çay gətirtmək istədi, vaz keçdi, kafedən çıxdı.

Heydər ertəsi sabah içində bir sıxıntı gəldi çarşıya. Hacı yenə öskürərək çuvalları daşıyırdı. Dözə bilmədi. Ürəyi ağrıdı, için-için yandı. Gözlərindən bir-iki damla yaş süzüldü. Ayrıldı ordan. Qəssablar bazarında Qüdrəti gördü. Əli-üzü qan içindəydi. Qoyun dərisini duzlayırdı. Bir az qabaqda yeşiklərin altında inləyərək gedirdi Qədir. Əlindəki təsbehi sürətlə çevirməyə başladı. Dostlarını yenə bir yerə yığıb Şeyxin yanına aparmağı düşündü. «Çarə olmaz insanın iradəsinə, bunlar yenə bildiklərini eləyəcəklər» dedi ürəyində. Çarşı üstünə-üstünə gəlirdi. Bir yuxarı getdi. Bir aşağı gəldi. Qəsəbəyə sığmırdı. Evə doğru iti addımlarla getməyə başladı.

Axşam evdə darıxdı, sıxıldı. Təzədən çarşıya çıxdı. Bilərəkdən yolunu viranəyə saldı. Oradaydılar. Yanlarına getdi. Nə deyəcəyini bilə bilmirdi. Bir yandan da gəlib keçənlərin onu burada görəcəklərindən narahat idi. Kimi şüşəni uzadır, kimi məzədən yeməsi üçün təkid eləyirdi. Bir şeylər söyləmək istədi. Söz boğazında düyünlənib qaldı. «Nə gözəl tərgitmişdik bu zəqqumu» deyə qəlbindən keçirtdi.

Qədir bir qəhqəhə çəkdi və Heydərə doğru döndü.

- Xocalıq eləmək istəyirsən, camiyə get. Qurbanı olduğum, ağzımızın dadını pozma, - dedi. - Burda yalan dünyanın qıçına iki təpik atırıq, sabah kürəyimizə neçə yumruq dəyəcəyi bəlli deyil.

Hacı sözə qarışdı:

- Ay uşaq, cücə yumurtadan çıxdı, qabığını bəyənmədi. Daha dünən məhəllələrdə «Yarımı mənə verin» deyə ağladığını nə tez unutdu bu? Içib-içib anasını itirmiş eşşək sıpası kimi anqırırdı…

Qüdrət:

- Qardaş, kefimizi qaçırtma, - dedi. – Hər gün sənin moizələrinimi dinləyəcəyik? Haydı, get, artıq. Tövbəni pozmadan da yanımıza gəlmə. Dost ikən düşmən olmayaq.

Ən çox da Qüdrətin sözləri ona təsir elədi Heydərə, neyləyəcəyini bilmirdi. Bir zamanlar öz anasını belə burdan qovmuşdu. Sərxoşlüğün nə demək olduğunu çox yaxşı bilirdi Heydər. Çarəsizcə geri döndü, sürətlə ordan ayrıldı. Ardından yenə qəhqəhələr yüksəlir, üçü də növbəylə Heydərə qışqırırdılar:

- Heydəəər, boğazın qurumuşdur, gəl boğazını islat, qurbaan!

- Poz da gəl Heydəəəəər! Tövbəni poz da, gəəəəl!

- Heydəəəəəər! Şıx desəm gəl, şah desəm gəlmə!

- Heydəəəər! Tövbəni pozmadan gəlməəəəə!

- Heydəəəəər! Dəstəgül qəsəbəyə gəlib!

- Heydəəəəəər! Hahhahahahaaaaaaaa!

- Heydər! Heydəəəəər! Biz içərik, kiiiimə nə!

«Dəstəgül qəsəbəyə gəlib!» cümləsi bir qurğuşun kimi saplandı Heydərin ürəyinə. Almaniyada olanların məzuniyyət fəsliydi. Heydər özü özündən soruşmağa başladı. «Birdən qarşıma çıxarsa, yenə sallanıb gedərsə, yenə oğrunca anamın yanına gəlib «Heydər üçün» deyib, bir qutu siqaret, bir köynək verib gedərsə? Ya çarşıda, bazarda qarşıma çıxıb gözlərini süzdürərsə… Ürə-

yindəki yara birdən-birə təzələndi. Bir alovun ortasındaymış kimi narahat, mənasızcasına ora-bura vurnuxmağa başladı. Başını bürüyüb günlərcə yatmaq istəyirdi. Evə özünü zorla çatdırdı Heydər. Gecəni bir yorğan kimi çəkdi başına.

Ertəsi gün axşama kimii evdən çıxmadı. Axşamüstü geyindi, pencəyini çiyninə atıb çıxdı. Tut ağacının dibinə gələndə Dəstəgül iki uşağı və əri ilə çıxdı qarşısına. Sifəti ağappaqdı. Yeridikcə saçları əfil-əfil dalğalanırdı. Uca boyuyla görünüşü yel dəyən zəmi kimiydi. Boynunu dik tutub saçlarını çiyinlərinə ataraq bir baxdı Heydərə!!!! Dizlərinin gözü titrədi Heydərin, birdən gözləri qaraldı. Özünü ələ almağa çalışdı, iti addımlarla yeridi. Bir əl boynunun kökündən yapışıb onu arxaya doğru dartırdı. Tini dönərkən Dəstəgülün arxasınca son dəfə baxdı. Dili, düşüncələri, yaddaşı, beyni tutulmuşdu. Bir şey xatırlamır, danışmır, düşünə bilmirdi.

Qəsəbəni bu başdan o başa addımladı, başı qabaqda getdi. Qəsəbənin son evləri də arxasında qaldı. Hava artıq qaralmışdı. Gənclik illərindən bu günə gəlməyə çalışır, bir neçə ay öncəki həyatını düşünür, şeyxin qaşısında gəlib dururdu. Birdən o günkü kimi bir əl hafizəsini silməyə başladı, təzə keçmişini unutdururdu. Dostlarının yanına gedib gəlirdi. Bir tikan üstündəydi, hansı yana dönsə bağrı qan olurdu. Bir baxışla ağlını başından alan Dəstəgülün gözlərindəki sirri düşündü bir müddət. «Yandı bağrım, yandı eşqin əlindən» dedi. Çaşqın, dəli kimi yeriməyə başladı, dönüb çarşıya getdi və yolunu bilərəkdən viranədən saldı.

Dostları ordaydılar. Üçünün da yanında bir şüşə şərab var idi.

- Çıx get işinə, - Qədir dedi, - onsuz da fələklə aramız pozulub.

- Niyə gəldin? – Hacı dedi. – Sən tövbəli deyilmisən?

Qüdrət yenə hüzünlü və səssizdi.

Heydərin gözləri qəzəblə parıldayırdı. Xasiyyətini bilirdilər, dostları susdular. Viranəyə bir səssizlik çöktü. Birdən Qüdrətin əlindəki şüşəni çəkib aldı Heydər.

- Oğlan… Oğlan, bir daha tövbə elərsəm, tövbələr olsun! – dedi və qırmızı şərabın şüşəsini çəkdi başına.

Gecə yarısı tut ağacının dibində yenə o səs və o mahnı səslənirdi.

Başımda qızıl tacım, həm susuzum, həm acım.

Heydərin çaşqına dönən anası dizlərinə döyür, əllərini havaya qaldırırmış kimi bir yandan ağlayır, bir yandan da qarğış eləyirdi.

- Sebep, məzarında bayquşlar ötsün...

Türkcədən çevirən: Aslan Quliyev

Şeyxin çavuşu

Müridlərinin olduğu hər bir kəndə Şeyxin bir vəkili vardı. Uzaq dağ kəndlərinin qışda şəhərlə və şeyxlə əlaqəsi kəsilincə hər sahədə fətvanı bu çavuşlar verir, kəndlilərin üzərində Şeyxin mənəvi kölgəsi kimi dolanır, kəndlinin gününü buluddan çıxartmazdılar.

Ətraf kəndlərin ən nüfuzlu çavuşu Yusif dayıydı.

Ağ saqqalı, hörmə təkkəsi, qədimi çəliyi ilə kəndin ən aşağısından sabah namazına gəlir, azanı verərdi. Sabah azanının normal bir səs tonuyla oxuyarkən «Es salati minen nevm» qismində gəlincə birdən səsinin tonunu dəyişdirir, kəndlini namaza gəlməsi üçün sanki təhdid edirdi.

Azanı bitirəndən sonra bəzən mikrafonu bağlamağı unudardı. «Bu necə müsəlmançılıqdı, atam! Müsəlman camiyə gəlməzmi?» nidaları minarədəki mikrafonlardan ətrafa yayılardı.

Yaşar çavuş şeyxdən aldığı mənəvi qüvvə ilə xəstələri dua ilə müalicə elər, itən heyvanları qurd yeməsin deyə qurdların ağzını bağlar, uşağı olmayan qadınlar üçün suya dua oxuyub göndərər, yeriyə bilməyən, danışa bilməyən, yerini batıran uşaqlara dua yazar, erkən baharda göyün üzünü bulud aldımı, ərikləri dolu vurmaması üçün ağaclara və bağlara doğru ağzını tutub üfürərdi.

Anlaşılmamazlıqları o çözər, evlənənlərin başlığını o kəsər, bazarlıqlarda son sözü o deyərdi. Payızda kənddən şeyxə gedəcək bal, yağ, yarma, ət və palıd odunu üçün kəndliyə miqdarını o deyərdi.

Zavallı kəndlilər özlərindən istənilənləri yuxarıdan gələn bir əmr imiş kimi diqqətlə hazırlar, gətirib Yaşar çavuşa verərdilər.

Yaşar çavuş danışmağa başlamazdan öncə: «Daha dəstəmaza dururam, ata» dedimi, axan sular durar, hansı işə əl atarsa, istədiyi kimi sonuclandırardı. Olayı çözümə qovuşdura bilməzsə, ertəsi gün mütləq şeyxi yuxusunda görər, şeyx ona olayın necə çözülməsini söylərdi. Şeyxi yuxusunda gördüyü zamanlarda da öz istədiyi kimi, fəqət şeyx əliylə çözərdi məsələləri.

Axşamlar heyvanları evə gəlməyənlər Yaşar çavuşun yanına gəlib qurdun ağzını bağlatdırardılar. «Mənim inəyim evə gəlmədi, qurban, qurdun ağzını bağla da».

Dua oxuyar, üflər, bir bıçaq, ya da qayçının ağzını şak deyə bağlardı Yaşar çavuş. Kəndlilərə də bir günlük vaxt verərdi. «Bir gün içində heyvanı tapdınız, tapdınız, yoxsa açaram qurdların ağzını, sizin bir inəyinizin üzündən dağdakı heyvanları ac qoya bilmərəm, dağdakı qurdlara görə günaha girə bilmərəm, atam!» deyərdi.

Özünün çavuş olmasının gərəkliyini Yaşar çavuşun olmadığı yerlərdə dini sübutlar gətirərək israrla müdafiə eləyən Salman əmi: «Ulu baba, mən səksən yaşındayam, bunun dəstəmazı bir gün pozulmadımı, bu heçmi yeyib içmir? Mübarək şeyx də iki gündən bir bunun yuxusuna girir!» deyərək iradını bildirərdi.

Bəzən böyük şeyxin kəndidir deyə bölgə və rayonlardan avtobus dolusu gələn müridlərin gəlişi ilə kənd şənlənir, canlanırdı. Kənardan gələnlər olanda camidə Yaşar çavuşun bir övliya roluna girdiyi zikir ayinləri başlardı. Yanıqlı səsi iki müridin oxuduğu ağlamalı ilahilərin müşaiyyəti ilə yüksələr, «Hu Allah! Hu, Allah!» səsləri caminin divarına çırpılıb, kəndin dar küçələrinə yayılardı.

Kənar ellərdən gələn müridləri görüncə Yaşar çavuş coşardı. Vəcd halındaymış kimi başını ahənglə sağa-sola yellər, müridlərin səsi kəsiləndə yanıqlı bir ağı deyərdi. Onun bu halını görən yad müridlər bir piri faninin hüzurunda olduqlarını zənn eləyərək ətrafına toplaşar, xorla ağlaşardılar.

Yayda kəndin suları əməlli-başlı azalar, bir qaşıq su üçün böyük dava-dalaşlar yaranardı. Su növbəti gələn kəndlilər kanaldan vedrə ilə su götürülməsinə belə qarşı çıxar, iki nəfərlə suyu gözlərdilər. Kəndlinin su növbəsi çatana kimi əkdiyi tütün, əkdiyi ərik ağacları çox zaman susuzluqdan yanardı. Amma Yaşar çavuşun kanalın lap yanındakı tarlası həmişə yamyaşıl olardı. O «Şeyxin qismətinə əkdim, atam, bu qaysıları şeyxə göndərəcəyəm» deyə kimin növbəsi olursa

olsun, suyun bir qismini öz baxçasına döndərərdi. Kəndlilərin etirazı qarşısında tab gətirə bilmədimi, evə gedib yatar, ertəsi gün itaət eləməyəni cəhənnəmə göndərəcək dərəcədə əhəmiyyətli bir yuxu ilə qayıdıb gələrdi.

Yaşar çavuşun onlardan Böyük şeyxə şikayət edəcəyini bilən kəndlilər şeyxin onlardan incik düşəcəyindən qorxar, Yaşar çavuşun hər dediyinə əməl elərdlər.

Böyük şeyxin şəhərdə dörd mərtəbəli bir evi vardı. Şəhərə fəhləliyə gedən kəndlilər yataq və yemək pulu verməmək üçün məcburən mürid olur, həm şəhərdə çalışar, həm də orda yeyib içərdilər. Qışda kəndə qayıdanda isə Yaşar çavuşa itaət elərdilər.

Yaşar çavuş cümə günləri caminin önünə gələr, xüsusi ilə də gənclərin nəbzini tutar, moizəyə başlayanda bir səssizlik çökərdi camiyə. Yaşar çavuş: «Bu necə müsəlmançılıqdır, uşaqlarımız axşama qədər top oynayır, axşamlar zikrə gəlmirlər, sizin cənazəniz yuyulmaz, Allah deməsəniz, dəstəmaz alıb namaz qılmasanız, şeyxə itaət eləməsəniz, hansı üzlə divana duracaqsınız?» deyə qəzəblənər, əsib coşardı…

Hər seçimdə böyük şeyxin dəstəklədiyi bir namizəd olurdu. Belə olunca da yuxunu şeyx görər, bu yuxunu kəndliyə anlatması üçün Yaşar çavuşu göndərərdi. Yaşar çavuş kəndə gələr, əfəndinin salamını çatdırdıqdan sonra səsini titrədər, ağlamaq həddinə gələr və başlardı anlatmağa:

- Ey camaat, əfəndimiz bir yuxu görüb. Yuxusunda bir Pir, - Allahü aləm peyğənbər əfəndimizdir, - əfəndimizə: «Sənin sülaləndən bir böyük bir işə baş qoyacaq, əyər onu dəstəkləməzsiniz, hamınız odlarda yanacaqsınız» demiş. Allah hamımızı cəhənnəm atəşindən qorusun, səsinizi kimə verəcəyiniz onsuz da məlumdur, - deyə söhbətini bitirərdi.

Qutudan başqa partiyalara çıxan səslərə hirslənən Yaşar çavuşu «arvadların yanlışlıqla başqa partiyaya səs verdiklərini» deyib dilə tutardılar.

Bir axşam məktəbdə növbə tutan kənd qoruyucularını yoxlamağa bir başçavuşun komandirliyi ilə bir dəstə əskər gəldi. Qorucular yemək hazırlatdırdılar. Çay içib, siqaret çəkərkən quru palıd odunlarının çatırtısında söhbət uzandı.

Qoruculardan Bəkir komandirə Yaşar çavuş haqqında danışdı.

- Komandirim, bizi pərişan eləyir, Yaşar çavuşun əlində qalmışıq, bu əskərləri göndərib onu yalandan tutuklasanız necə olar? – dedi.

- Olar, - başçavuş gülərək dedi, - evini göstərin, əskərlər alıb gətirsinlər, biz də görək.

Bəkir bu cavabı gözləmirdi. Dediyinə peşiman oldu, amma iş-işdən keçmişdi. Əskərlər maşınla gedib bir neçə dəqiqədən sonra Yaşar çavuşu gətirdilər və komandirin hüzuruna çıxartdılar.

Kəndliyə hər dediyini elətdirirdi, amma qarşısında «Hökumətin candarması»nı görüncə qəribə olmuşdu üzü. Çaşqın, ümidsizdi. Təlaşlı bir halı vardı, dəqiqədən bir saqqalını tumarlayır, narahat gözləriylə komandiri süzürdü. Komandir qaşlarını çatmış halda masanın arxasında oturmuşdu, kimsədən səs çıxmırdı. Yaşar çavuşun cümə moizələrindəki sərt, gur səsi yoxa çıxmışdı. Ağlar bir səslə soruşdu:

- Məni niyə gətirdiniz, günahım nədi, bəyəfəndi?

Başçavuş yerindən qalxdı, otaqda ciddiyətlə dolaşdı, başını geri atdı. Sonra əlini belinə qoyaraq gözlərini Yaşar çavuşun gözlərinə dikdi. Ağzını gözünü əməlli başlı gərib, dişlərini sıxaraq danışmağa başladı:

- Sən bu dövləti, milləti sahibsizmi sandın?

Yaşar çavuş səsini tamam aşağı saldı:

- Dövlətə canımız qurban. Bəyəfəndi.

- Belə deyirsən, amma dağlardakı qurdların belə ağzını bağlayırsan.

- Heyvanlara zərər verməsin deyə, bir günlüyə…

- Açıq aydın qanunlara qarşı çıxırmışsan.

- Günahım nə, açıq deyin, bilim, bəyəfəndi.

Başçavuşun səsi gurladı:

- Şeyxlik eləyirmişsən. Piti yazır, namaza gəlməyənləri hədələyir, zikir çəkməyənlərdən şeyxə şikayət eləyirmişsən. Cümələrdə dövlətə üsyan eləyib, cumhuriyyəti aşağılayıb, şəriəti müdafiə eləyirmişsən.

Yaşar çavuş səsini bir az qaldırdı. Ordakı kəndliləri şahid göstərdi:

- İftiradı! Tövbə, vallah, bəyəfəndi! Aha, bunlar da şahid. Hamısı yalandı, bəyəfəndi. Nə şeyxliyi? Nə şəriəti? Nə zikri? Hamısı yalandı. Bəyəfəndi, Allah deyənin evi yıxılsın, atam!

Türkcədən çevirən: Aslan Quliyev

Molla əmi

Yavuz Bağçıya

Dağ köylərindən qıvrıla-qıvrıla enən tozlu yollar, qayalara çırpılaraq çağlayan kiçik dərələr, dağları aşıb gələn yorğun kəndlilər… Hamısı da gün ağarırkən tökülür bu kiçik, sakit qəsəbəyə.

Ağ, tozlu yollar qəsəbənin girəcəyindəki asfalt yola qovuşunca birdən tündləşir, qaraya dönürdü. Dərin vadilərdə, şırıl-şırıl çağlayıb başını qayalarar vuraraq coşan dərələr, qəsəbənin həmən önündən boz-bulanıq axıb gedən Araza qarışar, Araz ilə çağlayıb uzaq diyarlara gedərdi.

Qəsəbəlilərin «Dağ adamı, xəstə edər sağ adamı» dedikləri dağ kəndliləri qəsəbənin kiçik bazarına tökülüşərdilər hər sabah.

Qəsəbənin bazarı caminin dörd tərəfindən ibarətdi. Caminin dörd bir yanına səpələnmiş dükanlarda hər növ mal var idi. Baqqal, meyvə-tərəvəz, qəssab, nalbənd, dərzi, manifakturaçı, xırdavatçı dükanları yayda qovaq və söyüd ağaclarının arasında görünməz olardı. Uzaqdan baxanda bu yaşıllıqlar arasından sadəcə caminin minarəsi və qırmızı kirəmitli damı görünərdi. Qəsəbənin ən önəmli tikilisi bu camiydi və ən önəmli adamı da bu caminin mollası. Molla Qiyas əmi!

Molla əmi gəncliyində Iranda oxumuşdu. Məsəl, kəlam, təsvir….Təhsilini orda tamamlamışdı. Xocaları ilə tez-tez mübahisələşdiyindən təhsili yarımçıq qalmışdı. «Çox əyilmə, tapdarlar, çox ucalma, asarlar» deyə anladardı tələbəlik illərini. Qəsəbənin yaşlıları ona böyük hörmət göstərərdilər, amma gənclər ardı-arası kəsilməyən suallarla molla əmini hövsələdən çıxardardılar.

Molla əminin ağ saqqalı həmişə qısa olardı. Həftədə bir dəfə saqqalını «üç nömrə»ylə qırxdırardı. Yayda və qışda geyməyə iki cür şapkası var idi. Bahar gəldimi ağ yay araqçınını, qış gəldimi qısa qış araqçınını geyərdi. Qəsəbənin, hətta ətraf kəndlərin də din-dünyəvi işlərinə o baxardı. Meyitləri götürər, ölənlərin təziyyə çadırlarında fatihə verər, Məhərrəm ayında başına vurar, dəstə düzəldər, Novruz bayramında xonça bəzərdi.

Məhərrəm ayı gəldimi, hər ay yenidən yaşardı Kərbalada yaşananları. Susuz qalıb çöllərdə yanar, qovrulardı Həzrəti Hüseynlə. Ağlayaraq anladardı Kərbala hadisələrini.

Düşdü Hüseyn atından səhrayı Kərbalaya,
Yubanma, xəbər ver, Sultani Enbiyaya

Deyə ağlayaraq mərsiyələr, ağılar deyər, özü ağlar, camaatı da ucadan ağladardı. Ramazan ayında bütün qəsəbəliləri o qaldırardı obaşdana. Qəsəbənin bütün işıqları yanmayınca, hər kəs obaşdana qalxmayınca minarədən enməzdi.

Cami qəsəbənin tən ortasında idi. Qəsəbənin dörd yanında elektrik dirəklərinə bağlanmış səsgücləndiricilər minarədəki səs cihazına bağlıydı. Qəsəbənin bütün elan işlərini də molla əmi minarədən oxuyardı. Qəsəbəlilər hər dərdlərini axşam azanından əvvəl mollaya deyər, molla əm idə azandan sonra dərdlərə dava olardı. Axşam azanından öncə hər gün molla əminin yanına birisi gəlib dərdini deyər, molla əmi əvvəlcə gələnləri dinlər, sonra boğazını təmizləyib elan verərdi.

Molla əmi «Hələ işə bax!» deyə öncə qəsəbəlini xəbərdar edər, ardında gələnlərin ona söylədiklərini deyərdi.

***

Hər axşam azanından əvvəl həyəcanlı adamlar, qadınlar gələrdilər molla əminin hüzuruna:

- Salamüəleyküm, molla əmi.
- Əleyküməsalam, ay can, söylə görüm.
- Molla əmi, nəvəmin sünnət toyudur. Bir elan versənə, annam, atam sənə qurban.

Molla əmi axşam azanından əvvəl bütün qəsəbəlilərin diqqətini çəkən elanı verməyə başlayardı.

- Hələ baaax! Mir Qasımın nəvəsinin sünnət toyu var! Sünnət xınası da bu axşamdı. Eşitmədik, deməyin! Hamınız dəvətlisiniz.

Elanlardan bir az sonra azana başlardı molla əmi. Yanıqlı bir hafiz səsiylə azanı qəsəbənin dörd bir tərəfinə yayardı. O azan səsini quşlar, ağaclar, dərələr, çaylar da dinləyərdilər.

Ertəsi gün bir başqası gəlib dayanardı molla əminin qarşısında.

- Ay molla əmi!

- De görüm, caan.

- Naxır gəlib kəndə çatıb, amma mənim balaca danam gəlməyib.

Molla əminin gur səsi ağacların arasından yüksəlirdi.

- Hələ baaaax! Məşədi Ələkbərin danası itibdir. Sarı, balaca bir danadır! Boynunda bir ip var, görənlər Məşədi Ələkbərə tez xəbər eləsinlər, heyifdi, çöldə qalar, qurd-quşa yem olar!

Qadınlar gec gələr, ancaq minarədə molla əmini tuta bilərdilər. Qaçaraq gələn bir qadın aşağıdan həyəcanlı-həyəcanlı səslənirdi:

- Ay molla əmi! Ay molla əmi! Sənə qurban olum.

Molla əmi də minarədən cavab verirdi:

- Nə var? Niyə tələsirsən? Ay sənin canına itlər daraşsın! Başının hayına qalasan! Söylə görüm, nə deyirsən.

- Molla əmi, uşaq səhərdən evdən çıxıb, hələ də qayıtmayıb.

- Nə təhər arvadsınız? Bir uşağa sahiblik eləyə bilmirsiniz! Axşama gələr leylək kimi lak, lak… Uşağa baxmırsız axı…

- Canım sənə qurban, ay molla əmi…

- Hələ baaax! Kərbəlayi Rəhimin oğlu evə qayıtmayıb. Uşaq səhərdən evdən çıxıb, çöldədi, hələ ki, gəlib çıxmayıb, görənlər tez xəbər eləsin! Anası narahatdır axı!

Bəzən dövlətin məmurları gəlirdi. Işığın pulunu toplamağa, çuğundur pulu verməyə. Məmurlar da molla əmini tapırdılar.

- Molla əmi.

- Ay can!

- Sizinkilər işıq pulunu verməyiblər. Elektrikləri kəsməyə gedirik. Son bir dəfə daha elan eləsən.

Belə hallarda molla əmi hiddətlənirdi.

- Hələ baax! Alentrik pullarını vermirsiz. Məmurlar gəlib, alentrik pullarını yığırlar, niyə aparıb vermirsiz? Sizin alentrik pullarınızı mən verim? Hələ baaax! Məmurlar caminin qabağında gözləyirlər, tez eləyin, alentrik pullarını gətirin! Onu da deyim, hələ baaax! Məmurlar gəlib cuğundur pullarını paylayanda qarışqa kimi yığışırsınız caminin qabağına, bəs indi niyə gəlmirsiniz?

Bahar gələndə sulama kanalları təmizlənirdi. Molla əmi mikrafonu alırdı əlinə.

- Hələ baaax! Sabahdan kanallar təmizlənəcək, hər evdən bir nəfər belini alıb gəlsin. Gəlməyənlər muxtara bir fəhlənin pulunu verəcəklər. Fəhlə pulu on milyondu…

Məktəb müdiri uşaqların qeydə alınma vaxtı gələrdi molla əminin yanına.

- Molla əmi, uşaqları məktəbə gətirib qeydə aldırmalıdılar, qeydə alınma sabah sona çatır.

- Hələ baaax! Min doqquz yüz doxsan ikinci ildə anadan olan uşaqlar məktəbə qeydə alınacaqlar. Məktəbin müdiri deyir, qeydə alınmanın vaxtı bitir, uşaqlarınızı niyə aparıb qeydə aldırmırsınız? Özünüz oxudacaqsınız? Fələk ömrünüzdən kəssin, uşaqları tez aparın məktəbə!

Molla əmi bəzən bir neçə ixtiyarla kafeyə gəlirdi. Iki stəkan çayını gənclər zəhər elərdilər. Dörd yandan sual yağışına tutardılar molla əmini. Hamısının da cavabını verərdi molla əmi.

- Ay molla əmi.

- Eşidirəm, de.

- Koroğlu qalasını tanıyırsanmı?

- Bəs necə tanımıram, tanıyıram axı.

- Molla əmi, o qalanı Koroğlu özü tikibdir? Axı necə də hündürdü. Uca dağın başında qalanı nə təhər tikibdi?

- Ay səni itlər yesin! Koroğlu qalanı tikəndə mən fəhləlik eləmişəm? Divarına daş daşımışam? Mən yazıq hardan bilim, Koroğlu qalanı nə təhər tikib?

- Molla əmi, səndən bir şey soruşum.

- Soruş görüm, nə deyirsən.

- Kərbalada qırılanlar hamısı bizdəndi? Bizimkilər Yezidin əskərlərindən heç qırmayıblar? Onlardan ölən yoxdu?

- Bəli, onlardan da qırılıb! Amma çoxcu bizdən qırılıb.

- Onu da denən ki, təskinlik tapaq, ürəyimiz soyusun, bəs niyə demirsən ay molla əmi? Məhərrəm ayı gələndə sinəmizə döyə-döyə ölürük, hey biz ağlayırıq. Belə də zülüm olarmı? Onlar niyə ağlamırlar ay molla əmi?

- Ay kopoyoğlu, sən birini döyəndə özün ağlayırsanmı?

- Molla əmi.

- Denən, can.

- Hərlənib, fırlanıb Kərbaladan danışırsan! Ağlaya-ağlaya özümüzü qırdıq, bəsdi, ay molla əmi!

- Boynuna boz ip tutum! Kopoyoğlunun balası, Məhərrəmlikdə başqa nə danışım?

- Bir az da məhəbbətdən danış, ay molla əmi. Bilmirsən? Leylidən, Məcnundan, Kərəmdən, Əslidən danış.

- Toyuna göydən daş yağsın! Mən altı il Leyli-Məcnunu oxumuşam.

- Molla əmi.

- Adın adlara qoyulsun! Nə var?

- Bilirsənmi, yekəpərlik başa bəladı.

- Yekəpərliyin xeyrini görməyəsən! Ay gədə, niyə başa bəladı?

- Molla əmi, mən bu gün balaca bir uşağı elə döydüm. Elə döydüm…

- Eee?

- Mənə «ay utanmaz, yekə kişisən, balaca uşağı niyə döydün? Utanmırsan?» dedilər.

- Düz deyiblər.

- Ay molla əmi! O balaca uşaq da bir gün məni döydü axı.

- Eee?

- Yenə mənə dedilər ki: «Yekə kişisən, bu uşağın səni döyməsindən utanmırsanmı?»

- Onu da düz deyiblər.

- Molla əmi.

- Dilindən ilan sancsın, əlindəki kağızlar başına tikilsin, nə var?

- Molla əmi beş yüz əlli tümənə qaz almışam. Qaz da milçəkdir. Bataram, yoxsa qazanaram?

- Kopoyoğlunun balası, payını itlərə töksünlər! Eee, sən gicsən! Mən yazıq hardan bilim qazı, qozu, xoruzu. Eh, lənətə gələsiniz, köpəy uşağı…

Gənclərə cavab çatdırmayanda çayını yarıda buraxıb, hirslənərək ayağa qalxardı molla əmi.

Bəzən qəsəbənin lap yanındakı Küləkli kəndinin dəlisini öyrədib göndərirdilər molla əminin yanına. Dəli Salman qaçaraq gəlirdi caminin qabağına.

- Molla əmi! Ay molla əmi!

- Eh, sənə güllə dəysin! Ay gədə, nə vaaar?

- Küləkli kəndində iyirmi beş ev var, sizin qəsəbədə yüz iyirmi beş. Ramazanda siz də otuz gün oruc tutursunuz, biz də. Biztim muxtar deyir ki, molla əmiyə denən bizim kəndin orucunu bir az qısaltsın.

Molla əmi gülər, Dəli Salmana bir fətva verib göndərərdi.

- Bəli, sizə otuz gün oruc çox olar, Salman. Get, muxtara deginən bundan sonra oruc bizə otuz gün, kəndə isə bir ay olacaq.

Salman fətvanı eşidib qaçaraq kəndə gedərkən qəsəbə uşaqları onun ardına düşər, hamısı bir ağızdan qışqırardılar.

- Salmaaaan!
- Nə vaaar?
- Nənəni bir alman aparır!
- Salmaaan!
- Nənəni bir alman aparır!

Salman dönüb uşaqları daşa basardı. «Oruc bir aya enib» deyə bir yandan sevinər, bir yandan da arxasınca qışqıran uşaqları söyə-söyə gedərdi.

Ramazan ayı gələndə hər axşam, obaşdan zamanı minarəyə çıxar, kəndliləri obaşdana qaldırardı molla əmi.

O il Ramazan ayı fevral ayında gəlmişdi. Havalar soyuqdu. Gecə çöldə möhkəm şaxta vardı. Kənd adamları qapı-bacanı möhkəmcə bağlayıb dərin yuxuya dalmışdılar. Molla əmi obaşjan vaxtı çıxdı minarəyə. Molla əminin səsi ağzından çıxar-çıxmaz külək aparır, uzaqlarda donub yoxa çıxırdı. Qəsəbə adamları molla əminin səsini eşitsələr də isti yataqlarında xumarlanır, qalxıb işıqlarını yandırmırdılar. Sanki bütün qəsəbə obaşdana qalxmamaq üçün bir-birlərinə söz vermişdilər, molla əmi də onları obaşdana qaldırmaq üçün and içmişdi.

Molla əminin səsi qəsəbənin dörd yanındakı səsgücləndiricilərdən gurladı:

- Hələ baax! Obaşdandı, qalxın!

Evlərdə səs-səda yoxdu, işıqlar yanmırdı. Molla əmi səsini yüksəltdi.

- Hələ baax! Obaşdandı, qalxın

Qəsəbədə hasar yox, pəncərələrdən işıq belə sızmır. Molla əminin səsi minarədə titrəyirdi. Səsini əməllicə qaldırdı.

- Hələ baax! Obaşdandı, deyirəm, ay millət! Qalxın görək!

Evlərdə tək-tük işıqlar yanmağa başladı. Molla əminin səbri tükəndi. Qəzəbi küləyə qarışıb dağlarda əks-səda verdi.

- Hələ bax! Mən obaşdandı demirəəəəm? Hələ də işıqlarınız yanmır! Ay köpəkoğlunun balaları, niyə qalxmırsınız? Ay başınıza kül ələnsin! Ay yuxunuz ərşə çəkilsin! Qulağınıza yuyucu barmağı girsin! Obaşdan deyirəm axı! Niyə qalxmırsınız? Özümü vermişəm küləyin qabağına, mən yazıq burda donum? Ay səsinizə səs verən tapılmasın! Obaşdandı deyirəm axı, qalxın!

Az sonra qəsəbənin bütün işıqları yandı. Molla əmi qəzəblə endi minarədən, deyinərək evə getdi.

Türkcədən çevirən: Aslan Quliyev

Agac atlar

Məktəbin həyət-bacası qayır-qayır qaynaşır, uşaqlar oynaşırdılar...

Budaqalara bahar qonmuşdu. Badamlar, qaysılar, əriklər... hamısı ağappaq çiçəyə bürünmüşdü. Günəşin şəfəqləri uşaqların yanağında əks edirdi...

İki uşaq həyətdə bir-biriylə höcətləşir, iki sərçə divarın üstündə dimdikləşirdi. Uşaqlar topu, sərçələr də divarın üstündə atılıb-düşən qayğısız sərçəni bölüşə bilmirdilər... Qızlar da şən idi. Hamısı sakitcə, tək ayaq üstündə "cızdançıxdı" oynayırdılar.

O topu hansı uşaq ələ keçirəcək? Bu qayğısız balaca quş hansı sərçənin dişisi olacaq? Sərçələr tüklərini daha da qabartdılar.Özlərini div sanırdılar. Tüklərini nə qədər qabartsalar da, sərçəydilər ki, sərçə... İkisi də bapbalaca bədənlərinə sığmırdı. Bir-birinin gözünü qorxutmaq istəyirdi. Bəlliydi ki, damarlarında qan coşmuşdu, həvəslənmişdilər. Erkək sərçələr qızğın, hirsli-hirsli cükküldəşirdilər. Qanadlarını yerlə sürüyüb xoruzlanırdılar. Sanki döyüş meydanında iki pəhləvan idi. İki pəhləvan! Bir dümbək, bir də zurna-balaban çatmırdı. Havalanmış sərçələr bir-birinə acıq verir, bir-birinin dövrəsində hey fırlanır, fırlanırdılar...

Uşaqlardan biri topu götürüb qaçdı, o biri uşaq da onun dalınca... Sərçələr bir-birini qovaladılar. Biri uçub qarşıdakı söyüdün budağına qondu, o biri də onun dalınca...

Uşaqlar oynadıqları oyunu dəyişdirmişdilər. Qızlar yerdə cızdıqları kiçik qutucuqların üstünə yastı bir daş atıb, cızın içində bir-bir hoppanırdılar. Oğlanlar dəli daylar kimi o yan-bu yana qaçışırdılar. Keşkə zəng çalınmaya, dərs heç başlamayaydı...

Uşaqların hər biri öz dünyasındaydı. Təkcə İsmayıl kefsizdi, ağlamsınırdı, yoldaşlarına qaynayıb-qarışmırdı. O, qarşıdakı qapıya gedib çatmamış, o biri uşaqlar geriyə qaçışırdılar. Çırpınırdı, yıxılıb-dururdu, cəhd göstərirdi, yenə də yıxılırdı İsmayıl. Yıxılırdı...

İflic, bir ala qarğa kimi lap körpəliyindən onu caynağına almışdı. O, sinfin qanadı qırıq sərçəsiydi. Bir damla, bir damla suyu çatdırıb damızdıra bilməmişdilər ağzına. Buna görə də İsmayılın bir tərəfi iflic, bir yandan da yarımcan idi. İki qaçanda bir yıxılardı. Əl-ayağını daş-çınqıl sıyırırdı. Cılız, arıq, zəif ayağını sürüyə-sürüyə həmişə əlacsız-əlacsız ağlayıb müəlliminə üz tuturdu:

- Müəllim, mənimlə oynamırlar!
- Kim sənlə oynamır, İsmayıl! Gəl görüm.
- Məni oyuna qoymurlar, qaça... ıhı! Qaça... ıhı! Qaça bilmirsən deyirlər.
- Gedək, İsmayıl, mən də sənin dəstəndənəm...

İsmayılın əlindən tutub gedirəm. Topu uşaqların əlindən alıb: "Əli, sən qabağa, Ömər, sən buraya, Mustafa, qarşı tərəfə, İsmayıl, buraya ..." dəstəni təzədən yığırıq.

Bəzi uşaqlar mızıldanıb, etiraz edirlər. Hakim gəlməmişdən əvvəl 2-0 udmuşdular. Onsuz da həmişə İsmayıldan irəlidəydilər. Bədən tərbiyəsi dərsində İsmayılla eyni dəstədən olub, top oynayırıq. Ona bir qol vurdurmaqdan ötrü bütün qaydaları pozub, uşaqlara aman vermirəm, tutub çəkirəm, dartışdırıram. Etirazları qulaq ardına vururam, çünki hakim mənəm. Bizim dəstənin qapısından qol keçsə də, həmişə İsmayılın böyrüncə qaçıram. O, yerə yıxılar-yıxılmaz: "Əzildi"-deyirəm, mənim ona yazığım gəlir, ürəyim yanır.

İsmayıl hələ körpə ikən sağlamlığını itirmişdi. Qəzavü-qədərin hesabını çoxdan saymışdı. İsmayıl hesabı lobyalarla, qarğıdalılarla çıxır, vurur, bölürdü. Ətrafımızdakı heyvanları bir göz qırpımında tanıyardı: inək, qoyun, sığırçın, sərçə...

Görmədiyi şəhərləri xəritələrdən tapır - öz şəhərimiz kimi. Oxuduğumuz adsız hekayələrə ən gözəl adı o verir. Mahnı da oxuyur, yanıltmaclar, tapmacalar da söyləyir İsmayıl... Onun rəsm dəftəri rəngarəng olur: səma - mavi, günəş - sarı, budaq - yaşıl... İri-iri quşlar çəkir İsmayıl. Dağların, buludların üstündən uçur onun quşları. Onun rəsmində quşlardan aşağıda uşaqlar da olur. Uşaqlardan biri həmişə yaşıdlarından kənarda durur. O birilər ayaq üstə olsa da, o, çömələb oturur. Büzüşüb oturan uşağın İsmayıl olduğunu bilirəm.

Hər dərsdə o biri uşaqlarla ayaqlaşsa da, bədən tərbiyəsi dərsində çarəsizdir. Bədən tərbiyəsi çatanda digər uşaqlar həyəcanla, səbrsizliklə, çılğınlıqla hərəkətə gələr, İsmayılın ürəyi qəm-qüssə ilə dolardı. Boynunu burar:

- Şəkil çəkək, müəllim, - deyərdi, - idmana getməyək.

O biri uşaqlar çımxırır. Hakim onların da qəbul edəcəyi son çıxış yolunu tapır, İsmayılı bəzən dibsiz quyulardan çəkib çıxarır:

- Di, qulaq asın, nağıl danışacağam.

"Nağıl" sözünün sehri bütün sinfi öz ağuşuna alar, arxaya yayxanıb, diqqətlə ağzıma baxarlar. O an səs-səmir eşidilməz. Bir nağıla dəyişərlər bədən tərbiyəsi dərsini. Nağıl ki başladı, hamımız başqa bir dünyaya - keçmiş zamanlara gedirik: ”Biri var imiş, biri yox imiş, Allahın çoxlu qulları var imiş. Əvvəl zaman içində, xəlbir saman içində... Dəvələr dəllal ikən, mən nənəmin beşiyini yır-yır yırğalayarkən... Keçmiş zamanda ölkələrin birində bir padşah var imiş. Padşahın da dünyalar gözəli üç şahzadəsi... Kiçik şahzadə hamısından igid və cəsur imiş. Yayını çəkib, oxunu atanda divin gözünə batarmış... Kiçik şahzadə taxta çıxanda, qırx gün, qırx gecə toy-bayram eləyib, yeyib-içib, murada yetmişlər. Onlar çatmış muradına, biz də yetişdik sona... Di, çıxın tənəffüsə...“

* * *

Günəşin şəfəqləri uşaqların yanağından mənim gözlərimə düşür. Bu dəfə elə bil hamısı kiçik şahzadə, hamısının qarşısında bir div var. Hamısı da yayları dartıblar. İsmayıl məktəbin bağçasından bir az aralı olan qoca bir söyüd ağacının dibindədir. Gözünün birini qıyıb, oxunu divin gözünə tuşlayır. Ox gözünə dəyməsə div ölməyəcək. Divi gözündən vurmalıdı... Div bir azdan öləcək, gözlərindən qan şoralanıb axacaq, nərəsi yeri-göyü başına götürəcək. Sonra İsmayıl taxta çıxacaq, şah olacaq, bir toy-düyün qurulacaq və bayram şənliyi keçiriləcək...

Hava tər-təmiz, sərçələr atılıb-düşür. Qabaqdakı Ulupınar meşələrinin ətəklərində sular çağlayır. Çoxdandır ki, uşaqlar gəzməyə getmək istəyirlər. Artıq əsl vaxtdır, özü də sabah...

Yaxınlıqdakı şagirdləri səslədim.

- Sabah gəzməyə gedirik, uşaqlar, hamı azuqəsini götürüb gəlsin.

Səs-küyləri aləmi bürüdü.

- Sabah gəzməyə gedirik!... Sabah gəzməyə gedirik!...

Bir az sonra hamısı ətrafımdaydı. Hamısı da eyni sualı verirdi:

- Haraya gedəcəyik, nə vaxt gedəcəyik, önlüklərimizi geyəcəyikmi?...

- Ulupınara gedəcəyik, sabah saat 9-da, istədiyiniz paltarı geyə bilərsiniz. Di, tez olun, çantalarınızı götürüb evə gedin...

Kimisi unudaraq, kimisi axıra qədər öyrənməsə də, amma soruşmasalar rahat olmazlar:

- Tapşırığınız varmı, müəllim?

- Bahara bağışladım, ev tapşırığınız yoxdu.

- Uraaa! Uraaa!

* * *

O sabah məktəbə həmişəkindən də tez gəldilər. Səbirsizdilər. Hamısı əşyalarını hazırlatmışdı. Gözləri həmişəkindən daha canlı, daha diri, daha parlaq idi. Qarşılarına keçsən bir “Amin alayı” kimi yeriyəcəklər.

- Haydı, - deyib, Ulupınara tərəf yola düşdük.

Uşaqlar ilk dəfə gün işığına çıxan körpə quzular kimi atılıb-düşürdülər. Bir az sonra yorulacaqlarını, hətta, geriyə qalacaqlarını bilirdim. İsmayıl arxada qaldığına görə yenə həyəcanlanırdı. Mən tələsmədən onların ardınca addımlayırdım. Bir yandan da baharı seyr edirdim.

Bir şanapipik quşu qarşımda qaçırdı. Adam onun quş və ya siçan olduğunu başa düşə bilmirdi. Ara-sıra qanadlanıb uçmasaydı, quş olmadığına and içərdin. Bildirçin səsləri eşidilir, demək, gəliblər. Göydə həvəslə bir qırğı süzür, arabir qanad çalmır, elə bil göydən asılıb qalıb. Əkin sahələrinin içində rəngbərəng kəpənəklər uçuşur. Bir günlük ömrə sığan bu qədər rəng?.. Kəpənəklər kimi uşaqlar da o çiçəkdən bu çiçəyə qanadlanırlar. Yolun kənarında inciçiçəyi, xardallar, dəvədabanı, quzuqulağı, yovşan, gəlinciklər... hamısı çiçəkləyib. Ara-sıra birnəfəsə qaçıb

gələn şagirdlər topladıqları çiçəkləri mənə verirlər, sonra yenə qaçıb gedirlər. Biri nəsə bir iş görən kimi, hamısı onu təkrarlayır. Əllərimdə dəstə-dəstə çiçəklər... əllərim çiçəkləyib.

Az getdik, üz getdik, dərə-təpə düz getdik... Yorğun-arğın Ulupınara çatdıq. Çeşmənin gözündən dupduru bir su qaynayır və aşıb-daşır, gümüşü bir iplik kimi qıvrıla-qıvrıla axırdı. Hər tərəf çayır-çəməndi. Uşaqlar çəmənlikdə ağnaşırlar. Özlərini ora-bura çırpırlar. İsmayıl yıxılsa belə burada əzilməzdi. Onlar yıxılıb-duranda heç bir təşviş keçirmirdim.

Mən onları səsləməkdən yoruldum, onlar qaçıb-oynamaqdan yorulmadılar. Bir az sonra yanaqları alma kimi qızarmış, pörtmüş halda, ləhləyə-ləhləyə ətrafımda toplaşdılar. Süfrə açdıq. Kömbələr, yumurtalar, pendirlər, yağlar... Hamı birinci tikəsini götürüb üstümə gəldi:

- Müəllim bunu sən ye... Müəllim bunu sən ye!...

Günortadan sonra gəzməyə daha taqətləri qalmamışdı.Çəmənliyə sərildilər. Düzənliyə enən coşqun çaylar kimi durulduldular.

- Qalxın- dedim- kəndə gedirik. Tənbəl-tənbəl toplandılar. Səhərki coşğunluqdan əsər-əlamət qalmamışdı. Qaçaraq gəldikləri məsafəni yeriyə-yeriyə gedə bilmirdilər. Səhər yanından ötəndə baş çəkdiyimiz bulağın başında dincəlməyə icazə verdim. Çeşmənin üstündə yamyaşıl söyüd ağacı vardı.

- Uşaqlar!- dedim,- siz söyüd ağacından tütək düzəldə bilirsinizmi?

- Xeeeyiir!

- Mən siz boyda olanda bu ağaclardan tütək düzəldərdim.

Çaşqın-çaşqın baxdılar. Bıçağımı çıxarıb söydün bir budağını kəsdim. Hamısı toplaşıb məni izləməyə başladı. Canına su yığılmış söyüd budağının qabığını ehmalca soydum. Süd kimi ağappaq budaq qabıqdan sıyrılıb çıxdı. Səs-küy kəsildi, sanki sinifdə nağıl danışırdım. İncə bir boru kimi əlimdəki söyüd budağının uc tərəfdən üz qatını ehtiyatla yontalayıb çıxartdım, özümə gözəl bir tütək düzəltdim. Onlarca göz məni maraqla izləyirdi. Tütəyi ağzıma yaxınlaşdırıb üfləyəndə səs-küy qopdu.

- Müəllim, mənə də tütək... müəllim, mənə də tütək...

Sıraya düzüldülər, hamısına bir-bir tütək düzəltdim. Gözlərinə yenidən parıltı gəldi. Bir an yorulduqlarını unutdular. Tütəkləri götürüb yola düşdük. Arxaya baxdım. Uşaqlar yaman yorulmuşdu, daha yeriyə bilmirdilər. Onları toparlayıb kəndə gətirməyə əziyyət çəkirdim. Az sonra qoca bir söyüd ağacının yanında dincəlməyə qərar verdik. Kəndə çatmağa hələ xeyli yolumuz qalmışdı. Uşaqları özbaşına buraxsam, bu sərin kölgəlikdən qalxmayacaq, uzandıqları yerdə yuxuya gedəcəkdilər. Keçən ildən budanıb və bir tərəfə atılmış söyüd budaqlarına sataşdı gözüm.

Təzədən uşaqları yığıb sıraya düzdüm.

- Kim yaxşı at çapa bilir?

Yenə də gözləri hədəqəsindən çıxdı.

- Mən, mən, mən...

- Gəlin baxaq, görək kim atı yaxşı çapıb, kəndə birinci çatacaq!

İsmayılı unutmuşdum. Bir damla suyun qurbanı olmuş İsmayıl bir an yadımdan çıxmışdı. Amma geriyə yol yox idi. ”Atlılar” çığır-bağır salmışdılar. Quru budaqlardan götürüb hərəsinə bir at, bir qamçı verdim. Ağac “atlar”ın hamısı gözəldi, cins “atlar” idi. Kəhər atlar, boz atlar, qır atlar, kürən atlar... İsmayılın da bir atı vardı - kiçik, xırda bir budaq, qıvraq kürən at. O da hamı kimi öz atına minmişdi. ”Haydı” deməyimi gözləyirdi...

Atlıları üzü kəndə tərəf düzmüşdüm. Artıq hamısı bir-bir atlanmışdı.”Haydı” deyə bilmirdim. Bir çarə tapmalıydım. İsmayıl yenə də yıxılacaqdı, mən kəndə yaralıyla dönəcəkdim. Son çarə tapıldı - özümə də bir at ayırdım. İri bir budağı da mən mindim və İsmayılın yanına sürdüm atımı.

- Haydı!- dedim - görək kəndə kim birinci çatacaq.

Atların kişnərtisi, ”tıqıtıq, tıqıtıq” nal səsləri, bir yandan çalınan tütəklər... toz dumana qarışdı. Kəndə tərəf axın başladı.

Heç yerindən tərpənməmiş İsmayılın atı sürüşdü. Qaldırdım. Təzədən mindi atına, alınmadı, bir daha, bir daha...

Uşaqlar toz-duman içində, atlarını çapıb, doğrudan da, kəndə doğru uzaqlaşdılar.Yenə də İsmayılın gözləri dolmuşdu.

- Bu at çapa bilmir, müəllim!- dedi.

- Düzdü, İsmayıl, - dedim, - burax o atı, yaxşı qaça bilmir o...

Öz atımın quyruğundan bir budaq qırdım. İsmayılın atını dəyişdirdim. İsmayıl minən kimi bu atın da ayağı sürüşdü.Qaça bilməyən at deyildi - o, bunu anladı.

- Mən qaça bilmirəm, müəllim!- dedi, - bu ayağım yeriyir, bu ayağım yerimir.

Atlardan endik. Doğrudan da, yaxşı yeriyə bilmirdilər. İsmayıl kəndə tərəf dördnala çapan atlıların dalınca ağladı. Dolu kimi yaş tökdü gözlərindən...

Türkcədən çevirən: Zakir Sadatlı

Ag bulud

Günortaya yaxın dümağ bir səs ilıq bir yeltək əsər, bir rəhmət buludu kimi keçərdi məhəllədən. O gələndə küçələrdə bəmbəyaz bir səs əks-səda verərdi, uşaqları çığır-bağırla öz arxasınca çəkən bir səs:

- Özü gedir!
- Özü gedir!

Uşaqlar bu səsə bağlıymış kimi uzun bir qaçışa hazırlaşardı. Bir yaylaq mehi yalayardı üzlərini. O bəyaz səs həmişə eyni yerdən keçərdi. Onun keçəcəyi yolun hər iki tərəfində düzülən uşaqlardan kimisi ayaqqabılarının bağlarını sıxar, kimi də tələşla balaca oyun kürələrini cibinə doldurardı. Oyunda yaxalanan, cəza alan uşaqlar bağışlanardı. Bütün oyunlar yağışdan sonraya keçirilərdi. O gələndə uşaqlar bir bəyaz yağışa tutulardı, günəş "şirniyyat bürcü"nə girərdi. Havaya atılan çəlik-çomaqlardan ürkən quşlar ağaclardan uçardı. Bəyaz buludun gəldiyini bir-birinə müjdələyən uşaqların nəşəli səsləri yüksələrdi tozlu yollarda.

- Hacı Baba gəlir!
- Hacı Baba gəlir!

Hacı Baba hər həftə dolu kimi yağıb keçərdi. İri, bəyaz qanadlı bir quş kimi uçaraq gələr, uşaqlar da ona doğru çığır-bağırla qaçardı. Hacı Baba və uşaqlar bir-birinə yaxınlaşdıqca səslər də çoxalardı.

- Hacı Baba gəlir!
- Özü gedir!

Hacı Baba məhəlləyə girincə velosipedinin sükanını buraxar, iki əlini yana açardı. Küləyin dalğalandırdığı ağ önlüyünün ətəkləri havalanar, ağ bir göyərçin kimi qanadlanardı. Üzündən əskik olmayan o təbəssümlə uşaqlara şəkər yağdırar, qışqıra-qışqıra yoluna davam edərdi.

- Özü gedir!
- Özü gedir!

Uşaqlar "özü gedən" o ağ və bərəkətli səsin arxasına düşdüyü zaman, məhəllədə bir qəhqəhə tufanı və səs-küylü bir qaçış başlardı. Uşaqlar dillərində şən bir təkərləməylə bir çay olub axardılar velosipedin arxasınca. Hacı Baba özü də şən bir təkərləməydi onların dilində. Qaçarkən elə hey bir ağızdan qışqırardılar.

- Hacı Baba, bəri bax! Qulağına dəri tax!
- Hacı Baba, bəri bax! Qulağına dəri tax!

Bütün varını şəkərə çevirib uşaqlara paylayan, ağlara bürünmüş bir könüllü dəli idi Hacı Baba. Bir yaylaqdan enib keçdiyi tarlalara bərəkət bağışlayan ağ köpüklü bir çay idi. Pambıq kimi idi saqqalı. Başındakı şapka, ayaqlarındakı ayaqqabılar, paltarının üstündən geydiyi uzun önlüyü, velosipedi, velosipedinin sükanına bağladığı lentlər, ön təkərin iki yanındakı fırfıralar, uşaqlara yağdırdığı şirniyyatlar, səsləndirdiyi dini musiqilər… hamısı bəyazdı.

O, uşaqların üfüqündə bəyaz bir buluddu. Keçdiyi küçələrə şirniyyat olub yağar. O bəyaz buludun yağdırdığı şirniyyatları əldə etmək üçün uşaqlar dəlicəsinə qaçardılar. Hacı Baba hər dəfə əlini cibinə salanda, təkərləmə söyləyən uşaqların səsi kəsilərdi bir an. Bütün gözlər onun əlinə dikilər, bir yağmur gözləyərdilər. Hacı Baba şirniyyatları havaya atanda qışqırıqlar yenidən yüksələrdi. Uşaqlar məscid həyətində yem atılmış göyərçinlər kimi şirniyyatın düşdüyü yerə yığışardılar.

Yemləri yığan göyərçinlər, "Hacı Baba, bəri bax! Qulağına dəri tax!"- deyə qışqıraraq yenidən velosipedin arxasınca düşərdilər. Uşaqların bu qışqırıqlarını eşitmirmiş kimi arxasına heç baxmazdı "özü gedən." Hər gün başqa bir məhəlləyə yağan o bərəkətli, bəyaz bulud, hər gəlişində arxasınca şirniyyytlar və xoşbəxt uşaqlar səpələyərdi…

Uşaqlar yorulanda onun da səsi uzaqlaşar, qollarını bir quş qanadları kimi çırparaq uçar, süzər və xəyal kimi gözdən itərdi.

Hacı Babanın kimsəsi yoxdu. Köhnə bir kərpic evdə təkbaşına yaşayardı. Şirniyyat yağdırdığı məhəllələrdən köhnə maqnitofon, radio, saat, qaz sobası… nə tapsa satın alar, onları təmir edərək qəsəbə bazarında satardı… Qazandığı bütün pulları şirniyyata verər, uşaqların xoşbəxtliyi üçün xərcləyərdi.

Bəzən velosipedinin arxasında böyük bir limonad küpü ilə gələrdi. Bir limonad seli olub axardı. Məktəblərin qapısında gözləyər, uşaqlara limonad paylayardı. Tənəffüs zəngi çalınanda uşaqların hücumuna uğrayardı. Əlindəki uzun çömçəsiylə stəkanları doldurub uşaqlara verərdi. Şagirdlər onun ətrafına yığışar, hərəsi bir tərəfindən çəkər, üst-başını dartışıdırar, qollarından, çiyinlərindən asılardılar.

- Hacı Baba, mənə də!

- Hacı Baba, mən içmədim!

O, çömçəsini küpdən doldurub stəkanlara boşaldarkən qışqırardı:

- Özü dolur! Özü dolur!

Təmir etdiyi əşya radio olsa, “özü danışır!", qaz sobası olsa, "özü yanır!" deyə qışqıra-qışqıra satardı. Təmir etdiyi əşyaları bazarda yerə düzər, öz səsini bir kasetə yazar, maqnitofonun düyməsini basar, oradan uzaqlaşardı. Təmir edilən maqnitofon, həm öz reklamını, həm də digər əşyalarını reklam edərdi. Maqnitofon ətrafına toplaşan maraqlı alıcılara uzun-uzadı izah edərdi:

"Mən danışıram. Danışmağı bacarıram. Türkü də söylərəm, dini mahnı da. Hətta azan verirəm. Baxın, bu qaz sobası da özü yanır. Bu saat vaxtı özü söyləyir. Bu radio beş dil bilir…"

Reklam hissəsi bitəndə Hacı Babanın səsiylə bir dini mahnı başlardı.

Mən gedərəm yana-yana,
Eşq boyadı məni qana.
Nə aqiləm, nə divanə,
Gəl gör məni eşq neylədi.

Maqnitofon ətrafdakılara səslənərdi:

- Qarşımı kəsməyin, çəkilin, dağılın baxım!

Bəzən gözdən itirdi Bəyaz Bulud. Arxasınca "yenə ucdu bizim dəli", -deyirdilər. Həccdən dönənlər and-amanla Kəbədə gördüklərini Hacı Babaya söyləyərdilər. Dəli idimi? Vəli idimi? Kimsə bilməzdi, amma o, "ağlın sirdaşı dəlilikdir, ey insanlar"- deyərdi həmişə.

Həcc mövsümündə "ucdum getdim, ucdum gəldim, özüm getdim, özüm gəldim" - deyib keçərdi məhəllədən. Uşaqların üstünə şirniyyat yerinə xurma yağdırardı.

Yanvar ayı idi. Qar üç gün dayanmadan yağmışdı. Qocalar o günə qədər elə bir qış görmədiklərini söyləyirdi. Külək heç kəsmir, gecələr yağan qarı sovururdu. Evlərin şimal tərəflərini qar elə örtmüşdü ki, damlar belə görünmürdü. Bütün qəsəbə ağ bir örtüyə təslim olmuşdu. Günorta azanından əvvəl bir ölü azanı yüksəldi minarələrdən.

Bəyaz bulud göyə çəkilmişdi, uçmuşdu bu dünyadan, “özü uçmuşdu”.

Bəmbəyaz gələrdi məhəlləyə. İri, bəyaz bir quş kimi uçardı küçələrdə. O, bir şirniyyat yağmuruydu. Günortaya yaxın ilıq bir küləklə və bəyaz bir səslə gələrdi. Bəmbəyaz bir gündə, bir fırtınayla uçub getdi və bir daha heç gəlmədi “özü gedən”. Nə o səs keçdi məhəllədən, nə də “şəkər bürcü”nə girdi günəş…

O gündən sonra oyunlarını heç təxirə salmadı uşaqlar…

Türkcədən çevirən: SƏHƏR

Qarabağ qaçqınları

Budaqları dar bir küçəyə əyilmiş salxım söyüdün altında dayandım. “Müəllimlər Evi”nin zalından hələ də tar səsi gəlirdi. Bu səs başqa səslərə hökm edib, hamsını bir-bir silmişdi küçədən. Bir az da uzaqlaşsam, bulvara çıxsam, sanki çox qədimlərdən, əsrlərin arxasından gələn bu təranə uğultular içində itəcək, bir-birinə söykənmiş yöndəmsiz binalara, əyri-üyrü yollara, döngələrə dəyib parçalanacaqdı.

Kim bilir, hansı aşiq ürəyinin yanıq nəğmələrini tökmüşdü bu tara, hansı ürək alovlandırmışdı bu melodiyaları!?. Bir ürək yanğısıydı bu səs, minlərlə fəryaddı... Elə yanıq, elə içdən, ölgün, elə bezgin, dərdli ki… Dinlədikcə məni özünə çəkir, nəhəng bir dalğa kimi udur və kimsəsiz bir sahilə sürükləyirdi. O sahildə yalnız bir səs, bir melodiya vardı - bu tarın səsi.

Geri qayıtdım. Ruhumu oxşayan o sehrli səs ilıq bir meh kimi məni apardıqca güney küləyi dəymiş qartək əriyirdim.

Pillələri iki-iki çıxıb, pilləkənin başında dayandım. Şah pərdədə titrəyən, çırpınan bir mizrab, hər məqamda ayrı bir kədərə batır; şur, segah, mugam… Salonun qapısına söykəndim, içəri girməyə çəkinirdim.

Kiminsə məlahətli səsi tellərin yanğısını, tellərdə böyüyüb çoxalan hüznü sözə tökməyə başladı: "Dost baaağııııındaaa açılıııbdı güüüül, Güləəə sarııılıbdı bülbül…" Tar o sözlərin hər bir hecasına uyğun səslənirdi.

Tar susdu. Salondan ucalan yüksək ritmli bir nağara səsi qarmonun incə, cəld səsinə qarışdı. O hüznlü səs isə coşğun bir sevgi nəğməsi oldu, bir çağırışa çevrildi: "Mehribanım, Mehribaaaan, gəl oynaaa, gül oynaaa. Gözəəəl oğlan, göözəl qııız, çal-oyna…"

Sonra bütün səslər susdu. Bir anlığa sükut bürüdü salonu. Və giley dolu bir səs parçalayıb dağıtdı o sükutu:

"Olmur, e! Olmur! Olmuuuur!" Ay Özgə! Sən neynirsən? Roluna hardan başlayırsan?.. Tamer, həmişə demirəm, niyə qızın qabağına çatanda qollarını aşağı salırsan? Budur, bax, belə etməlisən.”

Qapını yavaşca açıb, ayaqlarımın ucunda içəri girdim. Salondakı gənclər bütün diqqətiylə şıkayətlənən o adamı dinləyirdilər. Bəstəboy bir kişiydi… Səsi elə amiranə idi ki, birdən "sən nə gəzirsən burada, çıx çölə!" - desə, heç etiraz etmədən sivişib aradan çıxacaqdım. Salondakı o hüzn, o yanğı, coşğu, dəvət… sehrli bir pərdənin arxasında qalmışdı. Salondakıların hamısı, özünü didib-parçalayan o adamı dinləyirdi. Başıpapaqlı, beli xəncərli, dəri çəkmələri diz qapaqlarına qədər çıxan cavanlar, rəngarəng ipək şallar içində gözləri sürməli, ceyran kimi gənc qızlar… hamısı bu adamı dövrəyə almışdı.

Çalğıçılar da qulaq kəsilmişdi. Qarmonçu ayaq üstə, qarmonu da boynundan asılı idi. Nağaracı nağarasını qucağında tutub gözləyirdi. Tar onların yanındakı kürsünün üstündə idi. Gövdəsi sədəf işləməli bu tar bir az əvvəlki səslərin sahibiydi. Qəribə, məlul, qəmli-qəmli yatırdı kürsünün üstündə, bir uzaq diyarda, qürbətdə idi sanki.

Deməli, bu balacaboy adam çalırdı bu tarı. İndi isə gah qızlara səslənib min bir işvəylə nazlanır, gah da kişilərə sarı sərt və cəld hərəkətlərlə alıcı quşlar kimi fırlanır, qanadlanır, süzürdü. Bu yaşda adam işini elə şövqlə görürdü ki…

Əynindəki uzun, az qala palto kimi görünən pencəyinin qollarını biləklərindən geriyə doğru qatlasa da, pencəyin qolları yenə də uzun idi. Qollarını aşağı endirəndə birdən əlləri itir, bu uzun pencək onun kiçik qollarını udurdu. Sağ yanağında dərin yara izləri vardı. Bəlkə buna görə azacıq uzanmış ağ saqqallını kəsməmişdi. Sağ gözü digər gözündən çox iri görünürdü, sanki bir az çölə doğru çıxmış kimiydi. Ağ saçları geriyə daranmışdı və tez-tez qolunu çirməyib bir əlini alnına aparır, saçlarını arxaya doğru tumarlayırdı. Ucadan danışanda ağızının sol yanında qızıl bir diş parlayırdı. Bu qızıl diş az qala qaralmış, seyrək, toxunsan düşəcəkmiş kimi dayanan digər dişlərin arasında çox qəribə görünürdü. Üzündəki dərin qırışlar bu adamın dünyanı neçə ildir addımladığından xəbər verirdi.

Tarzən hər kəsi xəbərdar edib neyləmək lazım olduğunu bir-bir izah etdi:

- Oldu? Bir daha başdan, - dedi yüksək səslə.

Oturuşumu dəyişdirdim, özümü yığışdırdım. Sanki mənə də nəsə tapşırmışdı bu adam. Sanki mən də nəsə edəcəkdim…

Gənc qızları, cavanları yenidən səhnəyə düzdü. Sürətlə gəlib tarı əlinə aldı və oturdu. Sağa-sola bir daha baxdı, birdən gözlərini mənə dikdi, baxışlarını üstümdə gəzdirdi bir müddət. Yuvasından atılmış iri gözündə naməlum bir fəlakətin izləri vardı. İçim titrədi. Çölə doğru atılacaqmış kimi dayanan gözü boş və mənasız baxırdı, o gözünün görmədiyini hiss etdim. Yaxından baxanda üzündəki yara izlərinin çox dərin olduğunu anladım.

Tarzən dönüb nağaraçıya başıyla işarə etdi və tarı sinəsinə basdı. Tara elə sarılmışdı ki… bu adamla bu tar arasında sanki sirli bir doğmalıq, ilahi bir eşq, bir bağlılıq vardı.

Hər kəs hazır idi, hətta mən də… nağara "düm tək, düm tək"- deyə bir səs çıxardı, adamın kiçik əlləri tarın tellərində gəzməyə başladı. Qarmonun səsi çox dərindən gəlirdi. Yenə o ağır, hüznlü parçanı ifa etməyə başladılar.

İpək geyimli qızlar səhnənin ortasında bir başqa qızı dövrəyə almışdılar. Kişilər də onların ətrafında idi. Musiqi başlayan kimi qızlar duru bir suda, qamışların arasında nazlanan sonalar kimi sanki sürüşərək kənara çəkildilər. Ortada incə, zərif, boylu-buxunlu bir qız qaldı. Birdən cəld hərəkətlərlə səhnəyə çıxan cavan oğlan o qızın ətrafında fırlanmağa başladı. Yalvarırmış kimi hərəkətlər edən cavan bir şahin kimi qollarını iki yana salıb qızın ətrafında pərəstişkarlıq edirdi. Elə bil qız mavi ipəklər içində bir göy qumru, bir göyərçin idi. Qız elə nazlanırdı ki, kişi rəqqas ətrafına baxıb əllərini iki yana açır, bir çarə axtarır, hərdənbir əllərini yuxarı qaldırıb tanrıya yalvarırdı. Qız başından sallanan tülün bir kənarı ilə ağızını bağladı, əliylə oğlana "get" işarəsi etdi. Oğlan qızdan uzaqlaşdı, xəyali bir güzgüyə baxıb “bəzəndi”, “saçını-başını düzəltdi” və çevik hərəkətlərlə yenidən qızın ətrafında fırlanmağa başladı. Qız duvağını açdı, güldü. O an tarın hüznlü səsi itdi, nağaranın ritmi sürətləndi, qarmon coşdu. O kiçik adamın səsi də, ifası kimi cazibədardı: "Mehribanım, Mehribaaaan, gəl oynaaaa, çal oyna. Gözəəəl oğlan, göözəl qııız, çal oyna…"

Səhnədə bir toy başladı. Oğlan nazlanan qızın əlindən tutdu, digər rəqqasələrin alqışları arasında səhnənin dörd bir tərəfini dolandılar. Sanki birlikdə toya gələnləri salamlayırdılar. Gənc qızlar, oğlanlar, səhnənin dörd yanından rəngarəng bir sel olub axdılar, axdılar, axdılar…

Tarı buraxdı bəstəboy adam. Səhnəyə gəldi.

- Bəsdi, yaxşıdı,- dedi,- yaxşıdı, bax belə ey!

Gənclər çölə çıxarkən uzun boylu, qəşəng geyinmiş bir nəfər girdi içəri. Cibindən üç dənə “onluq” çıxardı, çalğıçılara payladı. Tarzən boynunu büküb:

- Uşaq xəstədi,- dedi, dərman alıb aparacağam, iki lirə də ver. Gələn həftə əskik verərsən.

- Mənə deyilən budu, - dedi, adam. - Başqa pul vermədi…

***

Səhəri gun tezdən qapımızın zəngi çalındı. Xanım mətbəxdən qışqırdı:

- Qapıya baaax!

Qalxdım, tələsik qapını açdım. Yaşlı bir qadın idi, yanında da on yaşlarında bir qız uşağı… Qız anasıydımı, nənəsiydimi, - qadının ətəyindən möhkəmcə yapışmışdı. Mən qapını açanda üzünü qadının ətəyində gizlətdi. Uzun bir hörüyü var idi, hörüyünün ucunda da solğun, rəngi bilinməyən bir lent… Qadın nəmli gözlərini qaçırdı məndən. Gözlərində anlaşılmaz bir narahatlıq vardı. Yelpiyinin ucunu əliylə gözlərinə apardı. İncə, əsmər, zəif əlini uzatdı, boğuq bir səslə:

- Oğul, - dedi, - oğul, Qarabağ qaçqınıyıq, yəqin “o oğul bir kömək edərsənmi” deyəcəkdi... Dedimi, mən eşitmədim, yoxsa deyə bilmədimi?..

Bu sözlər - dediyi də, demədiyi də, bir bıçaq kimi batdı ürəyimə. Qanım içimə axdı…

- İçəri gəlsəydin, xala, - dedim, - gəl, soyuqdu, uşaq da qızınar bir az...

- Yox, balam, - dedi, - çox sağ ol, gedək...

İncə, zəif, əsmər əlini yumub, binanın yarıqaranlığında bir kölgə kimi geriyə döndü qadın. Qız da ətəyə bağlıymış kimi, qadının sovrulan balağıyla birlikdə dönüb getdi. Qızın üzünü görə

bilmədim. Bir bəhanəylə gözlərini görmək istədim, qapıdan sallanıb, arxasınca ümidsizcəsinə çağırdım.

- Kiçik qız, adın nədi sənin?

Qız çevrilib baxmadı, qadının ətəyinə bir az da qısıldı. Qadın bir neçə pillə aşağıdan səsləndi, səsi mənə qədər güclə çatdı və soyuq divarlara çırpılıb çilikləndi:

- Pünhanə, balam, Pünhanə…

Günlər, gecələr boyu o qızı düşündüm, uzun gecələri danışdım o qızla:

"Pünhanə! Gözlərin nə rəngdi sənin? Bəs əllərin, əllərin?… O kiçik ayaqlarınlamı qaçdın güllələrin, bombaların qarşısından? O kiçik addımlarınlamı aşdın dağları? Üşümədinmi, Pünhanə? Üşümədinmi? Üzün niyə uşaq üzü deyil, nə üçün bu qədər yanıb, Pünhanə? Bombaların, güllələrin səsini eşitdimi qulaqların? Bəs gözlərin, gözlərin nə rəng idi, Pünhanə? Axan qanı gördümü o gözlərin? Qanlar sıçradımı evinizin divarlarına? Divarların dibində ağlayıb qaldınmı heç? Bir ceyran kimi qorxudan böyümüş gözlərinlə qan içən kaftarlara baxdınmı? Onda neçə yaşında idin, Pünhanə? Məktəbə gedirdinmi? Bəs qələmin, dəftərin, boyaların? Oyun oynayarkənmi, tək ayağının üstündə səkərkənmi düşdü bombalar? Yoldaşların, yoldaşların öldümü, Pünhanə? Qanamı batdı oyuncaqların? “

Heç bir gecə, heç bir suala cavab vermədi o qız, heç baxmadı üzümə, heç görmədim gözlərini…

Gecə sulu bir qar səpələyirdi. Pəncərədən çölə baxırdım. Göy guruldayır, şimşəklər çaxırdı dalbadal. Bəlkə şimşək deyildi, bəlkə yenə uzaq şəhərlərə, kəndlərə bombalar yağırdı. Ətraf gah işıqlanır, gah zülmət bir qaranlığa qərq olurdu. O bir anlıq işıqda, işıqlarla birlikdə bir qız uşağı gəlib dayandı qarşımda. Uzun bir hörüyü vardı bu qızın, hörüyünün ucunda da solğun, rəngi bilinməyən bir lent. Şüşəyə yaxınlaşdıqca itirdi üzü. O uzaq şəhərlərdən qaçmışdı yəqin ki. İslanmışdı, pərişan, yorğun, qorxaq və ürkəkdi… Elə bil əlimi uzatsam, qızın əllərini tutacaqdım. Lakin əllərimi uzadanda, əllərim boşluqdan asılı qalırdı. Əlimi tutmurdu, əlləri yox idi bu qızın. Qaşları, gözləri, ağzı, burnu, yanaqları yox idi… Bir hörük və bir lentdən ibarət idi bu qız. Lent qana batmışdı, qıpqırmızı idi. Qızın üzündə bir işıq parlayırdı, ağ bir işıq. Və o hörük də, o lent də əriyir, itirdi bu işığın içində.

Sonra əsmər, zəif bir əl uzandı şüşəyə. O əl uzandı, uzandı, şüşəni deşib gözlərimin önünə qədər gəldi. Həmin qadının əli idi və bu əsmər, zəif əllərdən qan axmağa başladı. Sonra bu əlin arxasında bir qadın siluleti meydana çıxdı… Qaranlığın içində qara bir kölgə kimi dayanan qadının da üzü yox idi, amma səsini eşidirdim. Səsi bir fəryad idi:

"Oğul", - dedi, - oğul, Qarabağ qaçqınıyıq...”Oğul, bir kömək et deməliydi, yəqin, demədi!"

***

Gecəni yata bilmədim, səhər erkəndən qalxdım. İşə gedəndə binanın ağsaqqalı Kəlbayı kəsdi yolumu.

- Müəllim, binanın qapıçısı çıxıb gedib, daha gəlməyəcək, cavan bir xidmətçi tapmışam, indi gəlməlidi. Sən danış onunla, binanın idarəçisi sənsən də, müəllim, xəbərin yoxdu? Dünən mən yandırmışam qazanı…"

- Yaxşı, gəlsin, Kəlbayı,- dedim - gəlsin, baxarıq…

Binanı guya Kəlbayı ilə mən idarə edirdik. Mən hesab işlərinə baxardım, o da odun, kömür, təmir işlərinə… Hər ay bir hay-həşir qopurdu bizim binada. Gah lift işləmir, su kəsilir, elektrik xətləri yanır, gah da yanacaq donur, kanalizasiya tutulur, qapıçı pulu ödənmirdi…

- Təməli xarabdı bu binanın, - dedi Kəlbayı, - bu saqqalımdan utanıram, yoxsa bunların hamısını verəsən qılıncın qabağına…

- Az qaldı, bu qışı da ötürək, ilk işim başqa bir yerə köçmək olacaq.

Biz Kəlbayı ilə danışanda incə, çəlimsiz bir gənc yaxınlaşdı.

- Sabahınız xeyir.

- Xidmətçi gəldi, müəllim, budu xidmətçi, - dedi Kəlbayı.

Gələn on beş-on altı yaşlarında bir cavan idi. Səhər tezdən gəlib dirənmişdi qapıya. Tez-tez əsnəyir, gözlərindən yuxu tökülürdü. Mən çaşqın-çaşqın uşağı süzürdüm və elə bil ağır kömür torbalarını öz kürəyimdə hiss edirdim. Böyük vedrələrlə qazanxanadan kül çıxarırmış kimi diz-

lərim bükülürdü. Yıxılıb qalırdım zirzəminin qaranlıq pillələrində. Qazanı yandırarkən boğulurdum tüstüdən, danlayırdılar məni, hirslənirdilər, söyürdülər…

Dünyanın hər üzünü görmüş qoca Salman dayı dözə bilməmişdi bu binanın əziyyətinə, çıxıb getmişdi… Üstəlik hər iş gəlirdi Salman dayının əlindən. Elektriki, suyu, qazanı özü təmir edərdi… Bu çəlimsiz uşaq, hələ yeniyetmə bir cavan nə edəcəkdi? Hələ ana uşağıydı axı?.. Soyuq səhərləri necə oyanacaqdı erkəndən, necə qalayacaqdı qazanı, o ağır vedrələri necə qaldıracaqdı? Necə?..

Əlacsız qalıb soruşdum:

- Sən… sən, öhdəsindən gələ bilərsənmi, çətindir axı…

Uşaqdan əvvəl Kəlbayı cavab verdi:

- Hə, cavan xidmətçidi də, müəllim, niyə bacarmasın? Mən bunun yaşında olsam, daşı əzib un eləyərəm.

- Hələ çox gəncdi, Kəlbayı, hələ uş…

- Bacararam, abi, bundan qabaq başqa binalarda da işləmişəm.

"Olmaz"- deyə, geri qaytara bilmədim uşağı. Zirzəmiyə endik. Hər tərəf his, rütubət, kömür qoxusu, nəm qoxusu… Küncdə qapıçıların qaldığı uçuq-sökük bir daxma… Çürümüş, su sızdıran borular, bir-birinə calanmış, hardan gəlib hara getdiyi bilinməyən elektrik kabelləri, bir küncə yığılmış böyük kömür torbaları, iri odun kötükləri…

Kəlbayının "daşı əzsə un edən cavan xidmətçi" dediyi oğlandan soruşdum:

- Adın nədi?

- Seyfəddin.

- Seyfəddin, səhər saat altıda qazanı yandırmalısan, odun və kömür burdadı.

- Oldu.

- Saat yeddidə isti suyu verməlisən, su vannaları odur ordadı.

- Oldu, abi.

- Aman, diqqətli ol, bacarmadığın bir iş olsa, əlini vurma.

İşlərini başa saldım, yüzlərlə əmr sıraladım Seyfəddinə.

"Edəcəksən, edəcəksən, gedəcəksən, gələcəksən, tutacaqsan, atacaqsan, yatacaqsan, qalxacaqsan… oldumu?

- Oldu, abi, oldu abi.

Seyfəddin qalacağı daxmaya baxdı. Salman dayıdan qalma köhnə bir yorğan, taxta bir stul, kiçik bir balon, kirli bir stəkan, hisli bir tava, bir küncdə əl fənəri, vintaçan, yanmış elektrik sığortaları, kəlbətin, çəkic…

Seyfəddin qalacağı yeri qaydaya salmalı idi. Mən insanı boğan, əzən, acı qoxuyan zirzəmidən yuxarı çıxdım, dərin bir nəfəs aldım, Kəlbayıya "xudahafiz, uşağa kömək elə",- deyib iş yerinə üz tutdum.

***

Axşamüstü evdən axtardılar.

- Çox soyuqdu, qızdırıcılar yanmır, elektriklər də kəsilib, hardasan?

Hava qaralırdı, qızdırıcılar çoxdan yanmalıydı. Görəsən, Seyfəddin elə ilk gündən çıxıb getmişdimi? Görəsən Seyfəddin? …Bu fikirlərlə avtomobilə mindim, evə nə vaxt çatdığımı bilmədim. Binanın girişində Hacı Sevəm nənə qarşıladı məni, şikayətlərini sıraladı:

-Ay oğul, donmuşuq axı. Niyə yanmır bu qızdırıcı?

- Baxarıq, Sevəm nənə, yandırarıq indi, yeni qapıçı çox cavandı, bəlkə yandıra bilməyib, düşüm bir baxım.

Zirzəmiyə doğru bir neçə pillə endim, qatı bir kif qoxusu vurdu üzümə. Qapını itələdim, cırıldayaraq açıldı. İçəri zülmət qaranlıq idi. Bir-iki pillə də enib çağırdım:

- Seyfəddin! Seyfəddin!

Cavab gəlmədi. İçəridə heç nə işləmirdi. Nə qızdırıcının səsi, nə suyun... "Yəqin çıxıb gedib, haqlıdı uşaq"- dedim içimdə, "burada kim qalar ki?.."

Evə qayıdıb əl fənərini götürdüm, təkrar endim aşağı.

- Seyfəddin! Seyfəddin!

Qızdırıcı qazanına doğru bir neçə addım atdım. Qazan yanmırdı. Qazanın önünə odun və kömür yığılmışdı. "Yandıracaqmış, sonra fikrindən daşınaraq çıxıb gedib," dedim öz-özümə. Daxmaya üz tutdum, fənərin işığını daxmanın içinə saldım. Heç kim yox idi. Fənəri sağa - sola çevirib ətrafıma baxarkən birdən yan tərəfimdən can hayında inləyən, yalvaran boğuq bir səs gəldi. Ürpərdim, geriyə çəkildim.

- Abiii!

İşığı səsin gəldiyi tərəfə tutdum. Qaranlıqda parlayan iki göz gördüm. Tir-tap yerə sərilmişdi Seyfəddin. Sol əlini irəli uzatmışdı, kömək istəyirdi. Çətinliklə "abi"- dedi yenidən. Sürünərək qapıya doğru gəlmək istəmiş, taqəti tükənib eləcə də qalmışdı. Bir az əvvəl ordan keçəndə necə fərq etməmişdim?

Seyfəddindən bir az qabaqda ilan kimi qıvrılmış bir elektrik kabeli vardı. Beynimdən vurulmuşa döndüm. Seyfəddini qucaqladım, sağa sola çırpa-çırpa özümü çölə atdım. Yazıq uşağın cılız bədəni yarıcanlı, ikiqat çiynimdə yellənirdi. Əli, üzü, üst-başı kömür tozuna bulanmışdı. Kürəyimdən düşməsin deyə iki əlindən möhkəmcə tutmuşdum. Sağ əlində qəribə bir soyuqluq vardı, üzünün sağ tərəfi büzüşmüşdü. Nəsə demək istəyir, amma danışa bilmir, inildəyirdi:

- Abiii…

Sevəm nənə dizlərinə vura-vura gəldi:

-Ay quzum, buna nə olub?

Avtomobilin qapısını açıb içəri qoydum uşağı. Bir çuval kimi yıxıldı avtomobilə, başını tuta bilmirdi, kresloya aşdı Seyfəddin.

Sevəm nənə:

- Cavan uşaqdı, ay Allah, sənə tapşırıram, - deyə dualar tökdü arxamızca. Sevəm nənənin çığırtısına toplaşan qonşuların arasından sürətlə sürdüm avtomobili.

Haralıyıdı bu uşaq? Onu hansı çovğun gətirmişdi buralara? Hardan gəlib hara gedirdi? Kimin kimsəsiydi o?.. Anası-atası kim idi..? Səhər sapsağ olan oğlanın indi yarıcanlı bədəni və bir də adı vardı: Seyfəddin! Aman Allah, avtomobilin arxasında can verən bu yeniyetmə yaşayacaqmı? Tez-tez dönüb arxaya baxırdım. İki kilometrlik yol uzandıqca uzanırdı. Səhvmi gedirdim? Xəstəxana hansı tərəfdə idi? Bu şəhər niyə bu qədər dəyişmişdi?...

Xəstəxanaya nə vaxt çatdım? Seyfəddini necə qucaqlayıb xərəyə atdım? Sistemi kim taxdı? Xəstəxana niyə qaranlıq idi, yoxsa hələ zirzəmidə idimmi? Bilmirəm…

Nəfəsi tıncıxırdı, bir az sonra tənəffüs cihazına bağladılar. Gözlərini açdı bir ara, fikrə getdi, sonra sakitcə yumdu gözlərini. Yatmışdımı?

Ayaqqabılarının biri qara, biri qəhvəyi idi, xəstəxanada fərq etdim. Boynunda qara iplə bağlanmış bir dua vardı. Əllərli, üzü, üst-başı kömür qarasıydı. Üzü… Allahım, yanağı nə üçün belə kiçilmişdi!? Elə bil sağ yanağı zəifləmiş, qurumuşdu.

Həkim: "pencəyini çıxarın", - dedi. Tibb bacıları pencəyini çıxaranda iç cibindən nimdaş bir pulqabı, pulqabının içindən də bir neçə kağız parçası və bir fotoşəkil düşdü. Seyfəddinə bənzəyən bir gəncin yüngülcə gülümsəyən ağ-qara fotoşəkli idi. Uzaqlara baxırdı fotoşəkildəki gənc. Uzaqlara, çox uzaqlara... Pulqabısını, rəsmi və üstündə ünvanlar, nömrələr yazılmış kağızları yığdım yerdən…

- Sağ tərəfi iflic olub, - dedi həkim, - şokdadı, özünə gələ bilər, amma çətin ki…

Nədənsə birdən tərpəndi, gözlərini açdı Seyfəddin. Sağ əlinə, sağ ayağına baxdı, gözləri yaşardı, səssizcə ağladı. Sağ yanı işləmirdi, hiss etmişdi bunu.

- Düzələcək, həkim belə söylədi, - dedim, - qorxma.

- Abi, - dedi, - atam… atama xəbər ver.

- Burdadımı atan, harda qalır? Eviniz hardadı?

- Valilik yolunda, məktəbin qabağında, yaşıl bina… zirzəmidə…

- Seyfəddin, Seyfəddin...

Eşitmədi. Ancaq bunları deyə bildi, nəfəsi kəsildi, gözləri yumuldu yenə. Otaqdan çıxdım. Söylədiyi ünvanı düşünürdüm. Dediyi yerdə bir dənə məktəb vardı zatən, o böyük bina olmalı idi. Avtomobilə doğru getdim. Arxamdan bir səs:

- Bəyəfəndi, bəs bunun xərcləri?.. Yazmağımız lazımdı axı, adı-soyadı nədi bunun?

Yalnız adı vardı bu uşağın, adından başqa heç bir şeyi yoxdu. Öz adımı söylədim. Tibb bacısına kimliyimi uzatdım, "sən qeyd elə, mən gəlirəm", - dedim.

Kürəyimdə qara xəbərin tonlarla ağır yüküylə Seyfəddinin dediyi yerə gəldim. Qarşıma çıxan adama nə deyəcəkdim? "Seyfəddini elektrik vurdu, iflic oldu… Çətin!..” Necə deyəcəkdim? Mən nəyi idim bu insanların? Az sonra qapısını döyəcəyim insanlar kim idi?..

Binaya girdim, işığı yandırdım, zirzəmiyə enən pillələrlə yavaş-yavaş aşağı endim. Üstdən sızan sular divarlarda kirəcləmiş, beton divarlar bəzi yerlərdə ağarmışdı. Aşağıda köhnə-külüş əşyalar, karton qutular, qırıq kreslolar, kürsülər... İşıq söndü, ayaqlarım nəyəsə ilişdi, əlimi divara sürtə-sürtə irəlilədim. Bir az kənarda taxta qapının aralığından zəif bir işıq süzülürdü. Kandarda dayandım. Qapını döyməyə qorxurdum, bir neçə dəfə əlimi uzadıb geri çəkdim. Görəsən gerimi dönüm? Bəs uşaq oyanmasa!? Sonra bütün cəsarətimi toplayıb qapını döydüm.

İçəridən ayaq səsləri gəldi, qapı açıldı. Kiçik bir qız açdı qapını. Qarşıdakı otağın qapısı da açıq idi və otağın qarşı divarı görünürdü. Qız çaşqın-çaşqın gözlərimə baxdı. Birdən itdi qızın gözləri. Əli, ayağı, üzü, bütün bədəni itdi qızın. Qapıda əriyib itən qızın hörüyü və lenti qaldı gözlərimin qarşısında. O anda bir qadın çıxıb gəldi otaqdan. Əsmər, zəif bir qadın. Əlləri tanış idi qadının, əlləri yorğun, əlləri möhtac... Mənə baxdı və əsmər, zəif əlləri iki yanına düşdü. Kiçik qız geriyə dönüb üzünü qorxuyla gizlətdi bu qadının ətəyində. İki günahkar kimiydik. Qadın da danışa bilmirdi, mən də. Otağın qarşı divarına sataşdı gözüm. Divarda, gövdəsi sədəf işləməli bir tar asılmışdı. Tarın yanında, ortasında ay-ulduz olan mavi, yaşıl, qırmızı rəngli bir bayraq və ağ-qara bir fotoşəkil… Seyfəddinin pulqabısındakı fotoşəkil! Qarşı otaqdan kişi səsi gəldi və az sonra üzünün bir tərəfi yaralı, bir gözü kor həmin tarzən göründü . O otaqdan çıxanda kiçik bir uşaq ağladı arxasınca.

Söyləyəcəklərim boğazımda düyünləndi. Kəkələdim, udqundum, danışa bilmədim.

- Seyfəddin, - dedim, - Seyfəddin yıxılıb… Yaralanıb… Qorxmayın, xəstəxanadadı...

Üzümdəki narahatlıqdan bir fəlakət sezdi qadın, iki əlini havaya açıb yalvardı:

- Seyfəddin! Seyfəddin! Düz deginən, ay oğul! Nə olub?

Kişi söylədiklərimə inanmaq istəyirmiş kimi, qadına tərəf döndü:

- Deyir heç nə yoxdu, qorxma, xəstəxanadadı. Tez elə, qıza xəbər ver, gəlsin uşaqların yanında dursun.

Qadın:

- Birini Qarabağda basdırdım, ay Allah! Bunu məhruma bağışla! - deyib, sinəsinə döyə-döyə çıxdı.

İçəri girdik. İçəridəki uşaq dayanmadan ağlayırdı. Deməli, bu uşağa dərman alacaqdı tarzən. Lentli qız kiçik qardaşını ovutmağa çalışırdı. Bir alov qarsmışdı qızın sifətini, yanmışdı üzü, üzü yox idi. Ata çarəsiz var-gəl edirdi otaqda…

- Uzaqdımı, - dedim, kaş ki avtomobillə aparaydım xalanı.

- Yaxındı, qızımı burada ərə vermişəm, indi gələrlər.

O soyuq, o pərişan otağın divarları üstümə gəlirdi. Otaq sanki çökür, divarlar başıma uçurdu. Divardan asılmış fotoşəkildəki gənc uzaqlara dikmişdi gözlərini. O gənc birdən o şəkil çərçivəsindən əllərini çıxardıb yanında asılmış tarı götürdü, tar acı-acı inləməyə başladı. Tarın səsi, ağlayan uşağın səsi, yıxılan divarların səsi… Divardakı bayrağın rəngləri əridi, saraldı, soldu... O bayraq sanki qandallanmış bir məhbus idi, tərpənə bilmirdi, sanki bir külək gözləyirdi. Tar havasında çox uzaqlardan gələn bir Qarabağ şikəstəsi vardı, eşidirdim…

Kişi heç nə soruşmur, mən heç nə deyə bilmirdim. Zaman dayanmışdı, saatlar donmuşdu, hər dəqiqə bir ilə dönmüşdü…

Dəhlizdən tələşlı səslər gəlməyə başladı, qapı açıldı. Otağa əvvəl qadın, arxasınca iri gözləri olan dünyalar gözəli gənc bir qız girdi, yanında da zırpı, qırx-qırx beş yaşlarında bir adam... Bu yekəpər kişi bu qızın əri idi yəqin.

Bir-birinin arxasınca baş verən hadisələr məni sarsıtsa da, beynim dumanlansa da, çox iti düşünürdüm. Anlayırdım ki, bu gənc qız bir meşədə kaftarların qovduğu bir ceyran imiş, qayalardan, sıldırımlardan səkərək canını götürüb hey qaçmış, xilas olmuşdu kaftarların əlindən. Ad-

dım atmağa taqəti qalmayanda bir qurd peyda olmuşdu başının üstündə və o gözəl ceyran bu zırpı qurda təslim omuşdu… çarəsiz.

Mən indi bu qızın incə ruhunun bu yekəpər canavarın caynaqları arasında necə inlədiyini hiss edirdim. Bu onun gözəl gözlərinə yazılmışdı.

Gənc qız ağlayan uşağı bağrına basdı, digər qız bacısının (bacısıydımı- bibisiydimi, bilmirdim) ətəyinə sarıldı. Divarlar hələ cırıldayır, tar hələ çalınırdı. Bayraq hələ də bir meh gözləyirdi.

Otaqdan çıxdıq.

Avtomobildə qadın ağlayır, kişi isə susurdu. Mən o gənc qızı, o gözəl gözlərin sahibini düşünürdüm. Kim bilr, bəlkə də Qarabağda söz verdiyi bir gənc vardı, bəlkə də o gənc də bir xain gülləyə qurban getmiş, bu qızın ümidləri, əhd-peymanı da qana bulanmışdı… Kim bilir, o ceyran gözlərini uzaqlara zilləyib, nə qədər yol gözləmişdi. Kim bilir, bəlkə onun da ruhu indi bir əsirdi, qandallanmış bir məhbusdu…

Xəstəxanaya çatdıq. Seyfəddin hələ gözlərini açmamışdı. Tənəffüs cihazını da çıxarmışdılar. Mən gedəndə heç olmasa danışırdı, aradabir gözlərini açırdı, indi nəfəs də almırdı Seyfəddin.

Tibb bacısı bir kağız uzatdı mənə, heç bir şey olmamış kimi adi bir tonla:

- Öldü, - dedi, - imzalayın.

Kişi də, qadın da eyni anda o cılız bədənin üstünə sərildi. Və xəstəxananın dərman qoxulu dəhlizlərində ürpədici bir səs əks-səda verdi:

- Seyfəddiin! Seyfəddiin!

O səs, böyüdü, dəyişdi, daşdı xəstəxanadan, əvvəl şəhərə dağıldı, şəhərin bütün şüşələrinə çırpıldı, sonra düppədüz üfüqləri tutdu bu səs və bütün dünyaya yayıldı:

"…Qarabağ…!!!"

Türkcədən çevirən: SƏHƏR

Şah qartal

Qaçaq idim, canı şəhərlərə sığmayan qaçaq. İnsan yeyən şəhərlərdən qaçardım.

Bir çiçəyi toxum tökərkən tapdım, bir gülü ucqarda açarkən yaxaladım. Mən bir payız qaçağı idim, o da bir bahar qaçağı...

Neçə dəfə tırtıllar qanadlandı, quş olub uçdu önümdən, bir daşın ayaqlanıb dovşan olduğunu gördüm dəfələrlə. Bığları buz tutmuş bir ovçuydum, qar qaçağıydım. Qayaların əks-sədasını, su sonasını, tumarlı qızlarquşunu, çəmən bülbülünü... izləyərkən özümdən də qaçmışdım.

Dağlara qaçardım. Yar sinəsi kimi rahatlıq gətirən dağlara. Bəzən təkbaşına, bəzən də dəlisov yoldaşlarla. Alaca şəfəqlərdə bir yaylaq yeli dolardı içimə. İçim vulkan kimi qaynar olardı, amma, di gəl, titrətmə (malyariya) xəstəliyinə tutulmuş kimi titrərdim.

Səhər obaşdan üsulca, səssizcə qaçardım. Dik yamaclı, sərt qayalı vadilərdə axardım. Şəhər bir qulyabanu olub kəsərdi yolumu… Dəlicəsinə özümü şəhərə çırpardım. Sularım qabarar, daşardım və tərsinə axardım. Coşğun bir sel kimi dağlara, dağlara doğru çağlayardım…

Məni udan, məni yox edən şəhəri tərk etmək, qatı bir sis təbəqəsindən, uğultulardan, dar küçələrdən, nəhəng binalardan qurtulmaq istəyirdim. Bir dağa dırmaşıb şəhərə yüksəkdən baxmaq, şəhəri ayaqlarım altına almaq istəyi böyüyürdü içimdə.

Dan yeri ağarmadan düşdüm yollara. Maşının gedə biləcəyi yerə qədər getdim. Axşamdan yağan qar bütün izləri silmişdi. Önümdə hamar, ağappaq bir yaylaq dururdu. Qarşımda bütün zəhmiylə dayanan dağ bu yaylağın sahibi kimiydi. Dağa tərəf baxanda arxadan güclü bir külək əsdi. Yarışa hazırlaşan köhlən kimi inadlaşdım, səbirsizləndim.

Çəkmələrimi geyinib, əlcəklərimi taxdım. Papağımı başıma keçirib, tüfəngimi çiynimə asdım. Ov gödəkcəmi yoxladım; çörəyim, suyum, bıçağım, fişənglərim, çaxmağım, siqaretim – hamısı qaydasındaydı.

Arxamca ahəngdar qar səsləri və iri izlər buraxaraq dağa doğru yeriməyə başladım. Qıvrıla-qıvrıla dağın yüksək yamaclarına qədər uzanan dərin bir vadiyə girdim. Mən dırmandıqca səslər də dəyişirdi. Təbiət öz diliylə danışmağa başlayırdı. Külək səsi, quş səsi, qar səsi!.. Mən susub dinləyirdim, bəlkə də təbiətin dilindən nəğmələr eşitmək istəyirdim…

Yeridikcə kürəyimdə ağırlaşan tüfəngi daha çox hiss etməyə başlamışdım. Bir yandan gedir, bir yandan ovçuluğu, tüfəngi və özümü mühakimə edirdim. Öyrənmə mərhələsini çoxdan keçmişdim. Sərhədləri adlamış, hədləri aşmışdım neçə ildir. Qənimət ovçuluğu mənə görə deyildi. Gənc ovçulara təcrübələri, metodları, bütün bunları öyrətmək istəmirdim. Ov ilə ovçu arasındakı tarazlığın ağlın təhrikedici gücüylə ovun əleyhinə pozulması məni bezdirirdi. Təbiətdəki hər canlıya məhəbbətlə baxırdım.

Bəs niyə bəzən onların arxasından bir gözümü qapayıb böyük bir gurultu çıxarırdım? – Düşündükcə addımlarım yavaşıdı. Bir ağırlıq çökdü üstümə. Sanki qayalar mənim üzərimdə yeriyirdi. Tüfəngi çıxarıb bir qayaya dayadım. Böyük bir qayanın daldasında üzü güneyə oturdum. Ayaqlarım altında qalan əngin düzənliyə baxdım. Sonra dərin bir düşüncəyə daldım. Rənglər, səslər dəyişdi birdən. Köhnə zamanlara getdim.

Ağappaq qarın üstünə qanını səpələyərək can hayında qaçan bir dovşan keçdi önümdən. Dovşanın qanlı izinə düşdü bir ovçu. Dovşan yorğunluqdan və aldığı yaranın təsiriylə halsız düşdü az sonra. Ovçu heyvanın yalvaran, imdad diləyən baxışlarını görmədi belə. Onun qulaqlarından yapışıb yerə yatırdı, parlayan bıçağını dayadı boğazına. Qar içində çırpınan başsız bir gövdə qaldı geridə. Bir də hələ gözləri qapanmamış, qulaqları titrəyən bir kəllə…

Yanımdakı qayaya dayadığım, lüləsini qürurla göyə dikən silaha ikrahla baxdım. İçim sızladı birdən. Boğazıma dayanmış bir bıçaq deşdi qırtlağımı, nəfəs almağa çətinlik çəkdim, boğuldum sanki…

Bir xınalı kəklik sürüsü qalxdı sonra gözlərimin önündən, bir gurultu qopdu. Havaya barıt qoxusu yayıldı. Kəkliklərdən ikisi heç qanad açmadan bir daş kimi yerə düşdü. Tüfəngin lüləsin-

dən, vıjıltıyla çıxan qırmalara tuş gəldi xınalı sinələri. Küləyi yaran qanadları bir daha açılmadı. Cansız qaldılar qar içində. İkisinin də ağzından qan gəlirdi. Ağappaq qar onların qanları ilə xınalanmışdı. Dəstənin qalanları çox uça bilmədilər. Qar təzəydi. Qanadları islanmış, tüklərinin uclarını buz tutmuşdu kəkliklərin. Qanadları ağırlaşan bədənlərinə tab gətirmirdi artıq. Ovcu isə qara batıb çıxaraq qaçmağa çalışan xınalı kəklikləri toplayırdı… Ürəyim ağzıma gəlirdi, qarın içində batıb qalmışdım…

Bir yaşılbaş ördək endi göllərə, qızıl kimi tükləriylə bir anqut uçdu. Bir sona nazlandı qamışlığın arxasından. Gözlərində qırmızı sürməsi, köksündə gümüş lələləri olan bir telli durna qondu ürəyimin üstünə. Bir quş yağışı başladı sonra. Göy qumrular, qaya göyərcinləri, bildirçin bələdçilər, çalı quşları, təqlidçi quşlar, ardıç quşları… və sərt, ani uçuşlarıyla qaraquş… Üzümə qar sovruldu. Sovrulan qar deyildi, bəlkə də əbabil quşları daş-qalaq edirdi məni.. Qorxdum.

Tüfəngimi aldım və boşaltdım içindəkiləri. Yan tərəfimdəki yüksək qayalığa doğru dırmaşmağa başladım. Qayalığa çıxıb şəhərə doğru yenidən baxdım. Qatı bir sis örtmüşdü şəhəri. Duman içində yox olmuşdu şəhər. Ayaqlarımı yerə möhkəm basdım. Öz aləmimdə əzdim şəhəri. Ona təpədən baxdım. Fəth etdim şəhəri.

İrəlidəki təpəyə doğru getdim. Məndən öncə bir kəklik sürüsünün getdiyini hiss etdim. İzlər bir az öncə oradan keçdiklərini söyləyirdi. Burada, yaxında olmalıydılar. Hətta sürünün gözətçisi məni görmüş olmalıydı. Dərhal ətrafımdaki yüksək nöqtələrə baxdım. Bəli, qayanın başındaydı gözətçi kəklik. Göz–gözə gələndə sürətlə qayadan endi. Qanad səsləri gəlmədi. Yəqin, qanadları islaq və yorğun idilər. İzləri ilə getməyə başladım.

Ara-sıra dayanıb onları görməyə çalışırdım. Bir neçəsini sezmişdim. Qayaların diblərinə sinə-sinə irəliləyirdilər. Ürəklərinin döyüntüsünü eşidirdim. Qorxaq və ürkək idilər, məni sezmışdilər, amma heç biri tüfəngimin boş olduğunu bilmirdi. Bir səs gözləyirdilər, "gummm"-deyə bir səs. O səsi eşidincə qanadlarına son dəfə güc verib özlərini bir az ilərıyə atacaqdılar. Onlara yaxınlaşsam da, hələ uçmurdular. Onları uçurub son dəfə arxalarınca baxmaq istəyirdim.

"Qaruuuvq, qaruuvq"- deyə bir səs eşıtdim birdən. Kəkliklərin qanadlarının nədən tutulduğunu söyləyirdi bu səs. Başqa bir ovçunun sahəsinə girmiş və onu narahat etmişdim. Bu səslər də bir xəbərdrlıqdı. Təpədə bu yerlərin sahibi olan bir qartal dayanmışdı. Qartalların ən güclüsü - şah qartal! Göz-gözə gəldik. Heç qorxmur, özündən razı halda gözləyidi. Gicgahı tünd qəhvəyi rəngdə idi. Kürəyi və qanadları zolaq-zolaq qara və qəhvəyi tüklərlə örtülüydü. Qəhvəyi köksü qaraya çalırdı, iri, qüvvətli biləkləri tüklüydü. Pəncələrini qayalara saplamış, sərbəst, qorxusuz, heybətlə dayanmışdı. Dimdiyi köksünə doğru bir yay şəklində əyilmişdi. Düşməncəsinə baxan gözlərindən atəş yayılırdı sanki.

Gedirdim. Qartal mənə xəbərdarlıq etməyə davam edirdi. Kəkliklər iki ovçunun ortasında qalmışdı. Qartal olan qayalığa yaxlnlaşdım. Birdən önümdəki qayalıqlardan kiçik daşlar da qanadlandı.

"Pırrr! Pırrrr! Pırrrrr! "

Qayalıq qanad səsiylə doldu. Kəkliklər yerdən üç-beş metr uzaqlaşmamış Şah Qartal düşməncəsinə sürüyə cumdu. Kəkliklər xəfif bir mehdən dalğalanan parça kimi süzüb üstlərinə şığıyan qartalın qorxusundan halsız-halsız yerə endilər. Hamısı qayanın dibinə girib hərəkətsiz gözləməyə başladı. Bir qayanın daldanacağında gizləndim. Kəkliklərin çoxunu görürdüm. Artıq məndən deyil, başları üzərində fırlanan nəhəng quşdan qorxurdular.

İlk həmləsi boşa çıxan qartal qayalığın üzərində qara bulud kimi fırlanırdı. Mənim gizləndiyim yeri də bilirdi. Odur ki, kəkliklərin yanına enə bilmirdi. Kəkliklərin qoruyucusuydum məgər.

Qartal səs tonunu qalınlaşdırdı. İndi daha sərt bağırırdı. Mənim getməyimi istəyirdi. Bura aid olmadığımı söyləyirdi durmadan… Qayaların şahı olan bu heybətli quş haqlıydı, əslində…

Yenidən şəhərə tərəf baxdım və "yaxşı, yaxşı, gedirəm" - dedim şah qartala. Geriyə dönüb cəld uzaqlaşmağa başladım. Qartal bağırdıqca mən də sürətimi artırırdım, hətta qaçırdım. Yenə qaçaqdım. Bu dəfə bir suçlu kimi qaçırdım. Arada bir dönüb arxama baxırdım.

Şah qartal sanki bir ayində idi. Özünü unutmuşdu. Qayalıqların üzərində qanadlarını iki yana sallamış, özünü küləyin ixtiyarına vermişdi. Heç qanad çalmadan fırlanır, süzürdü…

Kəkliklərin ürək döyüntüsü hələ də qulağımdaydı... Kim bilir, şah qartalın iri caynaqları onların hansının qanına batacaq, hansının köksünü parçalayacaqdı…

Mən ovçu deyildim artıq, ovçu deyildim. Bir ov kimi girdim şəhərə…

Türkcədən çevirən: Səhər

İçindəkilər

1. Möhtərəm – 1 səh. (Eyvaz Zeynalov)

2. Həmdi kirvə - 6 səh. (Eyvaz Zeynalov)

3. Soyuq yuxu – 12 səh. (Eyvaz Zeynalov)

4. Anamın saatları – 21 səh. (Eyvaz Zeynalov)

5. Ürəyində söyən uşaq – 28 səh. (Eyvaz Zeynalov)

6. Allah görər – 32 səh. (Eyvaz Zeynalov)

7. Evin yıxılsın, Hacı – 35 səh. (Aslan Quliyev)

8. Türbənin dəlisi – 41 səh. (Aslan Quliyev)

9. Hökumətin imzası – 45 səh. (Aslan Quliyev)

10. Kərəm – 51 səh. (Aslan Quliyev)

11. Bəhri usta – 56 səh. (Aslan Quliyev)

12. Abdal kişisi – 60 səh. (Aslan Quliyev)

13. Bizim evin qibləsi – 63 səh. (Aslan Quliyev)

14. Tövbəçilər – 66 səh. (Aslan Quliyev)

15. Şeyxin çavuşu – 73 səh. (Aslan Quliyev)

16. Molla əmi – 75 səh. (Aslan Quliyev)

17. Ağac atlar – 78 səh. (Zakir Sadatlı)

18. Ağ bulud – 82 səh. (Səhər)

19. Qarabağ qaçqınları – 83 səh. (Səhər)

20. Şah qartal – 89 səh. (Səhər)